"AZƏRİTTİFAQ"
AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ

İSSN 2218-91-49

KOOPERASİYA

elmi-praktiki jurnal

№ 1 (40)-2016

"Kooperasiya" elmi-praktiki jurnal

Научно-практический журнал "Кооперация"

Scientific-practical journal "Cooperation"

Jurnal 2005-ci ilin yanvar ayından çıxır.
№ 1 (40)-2016

Təsisçi: Azərbaycan Kooperasiya Universiteti

Redaksiya heyəti:

i.e.d., prof. Eldar QULİYEV **(baş redaktor)**
i.e.d., prof. Bəyalı ATAŞOV **(baş redaktorun müavini)**
akademik Ziyad SƏMƏDZADƏ
i.e.d., prof. AMEA-nın müxbir üzvü Əli NURİYEV
i.e.d., prof. Eldar İBRAHİMOV
i.e.d., prof. İsa ALIYEV
f.r.e.d., prof. Abdulla İSAYEV
i.e.d., prof. Gəncəli GƏNCİYEV
r.e.d., prof. Əminağa SADIQOV
i.e.d., prof. Amil MƏHƏRRƏMOV
c.e.d., prof. Zahid MƏMMƏDOV
i.e.d., prof. Rəsul BALAYEV
i.e.d., prof. Namiq TAĞIYEV
i.e.n., dos. Tahir ŞÜKÜROV
i.e.n., dos. Elsevər KƏRİMOV
(məsul redaktor)

Jurnal Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 15 mart 2005-ci il tarixdə №1250 ilə qeydə alınmış, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 6 iyul 2012-ci il tarixli (protokol №10-R) qərarı ilə İqtisadiyyat elmləri üzrə "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən elmi nəşrlərin siyahısı"na daxil edilmişdir.

Redaksiyanın ünvanı:
AZ1106, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93
tel: 562-25-43, 562-74-24, faks: (+99412) 5614134
e.mail: mail@aku.edu.az
web:www.aku.edu.az

Materiallarımızdan istifadə olunarkən jurnala istinad etmək vacibdir.
Tirajı 300 ədəd

Texniki redaktor: Əhməd ZİYƏDDİNOĞLU
Kompüter və dizayn: Hacı İSMAYILOV

İSSN kodu 2218-91-49

MÜNDƏRİCAT

I BÖLMƏ
İDARƏETMƏ: İNNOVASİYA, İNVESTİSİYA MƏSƏLƏLƏRİN VƏ MÜƏSSİSƏLƏRİN İNKİŞAFI PROBLEMLƏRİ

Nazim İsaxan oğlu CƏFƏROV
Müştərək müəssisəsində istehsal məsrəflərinin iqtisadi səmərəliliyinin təhlili.....5

Vüqar Bəhram oğlu KƏRİMLİ
Strateji menecmentin modernləşdirmə yollarının öyrənilməsi və tətbiqi.....13

Səxavət Tofiq qızı Məmmədova
İnnovasiya iqtisadiyyatında insan kapitalının reallaşdırılması.....23

Çinarə Akif qızı ALIŞOVA
İnsan kapitalının ölçülməsi metodları.....30

İmran Balamirzə oğlu ƏMİROV
Azərbaycanda metallurgiyanın innovasiya yönümlü inkişaf məsələləri.....37

Nəsib Sarı oğlu SARİYEV
İnvestisiya proqramlarının idarə edilməsinin səmərəliliyinin qiymətləndirilməsi.....44

Айхан Валех оглы ХУБАНОВ
Мнения по поводу “Модели инклюзивного экономического роста”.....49

Dilarə Əmiraslan qızı ƏMİRASLANOVA
“Etilen-polietilen”zavodunda işçi qüvvəsindən istifadənin bəzi məsələləri….....55

Теймур Таджеддинович МЕХТИЕВ
Современное состояние организации и развития информационного общества в Азербайджанском Республике.....60

II BÖLMƏ
AQRAR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

İbadət Əhli oğlu HÜSEYNOV
Aqrar sahədə kooperasiya əlaqələrinə yeni praqmatik baxış.....67

Həsən Saleh oğlu ABBASOV
Naxçıvan Muxtar Respublikasında aqrar infrastrukturun tənzimlənməsi üsulları və onların quruluşunun optimallığı.....73

Cəvahir Cavanşir qızı ALLAHVERDİYEVA
Aqrar sahədə üzümçülüyün iqtisadi əhəmiyyəti.....82

Emil Vidadi oğlu ORUCOV
Aqrar-ərzaq bölməsinin inkişafının modelləşdirilməsinin metodiki və informasiya təminatı məsələləri.....86

III BÖLMƏ
BAZAR: SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ RƏQABƏT

İlham Əli oğlu VƏLİYEV
Sahibkarlıq fəaliyyəti və onun seçim amilləri.....92

Емин Адил оглы ГАРИБЛИ, Мадина Теймур кызы БАКИРЗАДА
Теория и практика повышения конкурентоспособности бывших социалистических стран.....98

İradə Vaqif qızı ABDULLAYEVA
Mənzil bazarında tələb və təklifin formalaşmasının elmi-nəzəri əsasları.....108

Samirə Rasim qızı RÜSTƏMOVA
Turizm xidmətləri bazarının fəaliyyət mexanizminin elmi-nəzəri əsasları.....119

Хадиджа Физули кызы МАМЕДОВА
Система целей и условий развития конкурентоспособности на предприятиях легкой промышленности.....127

IV BÖLMƏ
MALİYYƏ, BANK, VERGİ VƏ AUDİT

Zahid Fərrux oğlu MƏMMƏDOV, Emin Adil oğlu QƏRİBLİ
Bank sisteminin dayanıqlığının tənzimlənməsinin metodları və monitorinqi üsulları.....132

Təhminə ƏLİYEVA, Humay MÜRSƏLOVA
Azərbaycan Respublikasında bank-maliyyə statistikasının təhlili və transmilli qiymətləndirmə.....138

Tural Mahir oğlu MUSTAFAZADƏ
Bank xidmətlərinin inkişaf meyillərinin təhlili.....146

Fail Mail oğlu KAZIMOV
Milli iqtisadi təhlükəsizliyin təmin edilməsində vergi siyasətinin rolu və onun əsas göstəriciləri.....152

Cəlal Ağamehdi oğlu MƏCİDOV
Müasir şəraitdə maliyyə menecmenti sisteminin maliyyə strukturunun və metodlarının inkişafı yolları.....160

Firiş Balış oğlu ŞƏKƏRƏLİYEV
Ölkədə müasir daxili audit institutunun formalaşması və inkişaf xüsusiyyətləri.....166

V BÖLMƏ
QLOBALLAŞMA: XARİCİ İQTİSADİ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ TƏCRÜBƏ

Xəyalə Oruc qızı KƏRİMOVA
Qloballaşma dövründə Azərbaycan.....172

Zamir Elşad oğlu TAĞIYEV
BMT-nin maliyyə-kredit institutları və onların inkişaf meyilləri.....177

Cəmilə Əli qızı Cəlilova
Beynəlxalq enerji daşıyıcıları bazarı və Azərbaycan.....184

Rəşad Rafiq oğlu ƏBLƏSƏNOV
Əmlak idarə edilməsi və qiymətləndirilməsində Finlandiyanın təcrübəsi.....189

Севда Керим гызы МАМЕДОВА
Пищевая безопасность - как составляющая экономической стабильности в условях глобализации.....195

I BÖLMƏ
İDARƏETMƏ: İNNOVASİYA, İNVESTİSİYA MƏSƏLƏLƏRİN VƏ MÜƏSSİSƏLƏRİN İNKİŞAFI PROBLEMLƏRİ

UOT 336.717.6

Nazim İsaxan oğlu CƏFƏROV
i.e.n., ADİU-nun baş müəllimi

MÜŞTƏRƏK MÜƏSSİSƏSİNDƏ İSTEHSAL MƏSRƏFLƏRİNİN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN TƏHLİLİ

Xülasə

Bildiyimiz kimi, canlı əmək sərfinin iqtisadi səmərəliliyi əmək verimi (və ya əmək tutumu), əsas fondların sərfi fond verimi (və ya fond tutumu), əmək cisimlərinin sərfinin iqtisadi səmərəliliyi isə material verimi (və ya material tutumu) göstəriciləri ilə müəyyənləşir. Bazar iqtisadiyyatı şəraitində istehsalın nəticəsini təhlil etmək üçün əmtəəlik məhsul və onun istehsalına məsrəflərin iqtisadi ünsürlər üzrə quruluşunun təhlilini etmək daha məqsədəuyğundur.

İstehsalın rentabellik səviyyəsinin dinamikasının təhlili göstərir ki, istehsala məsrəflərin artım tempi istehsalat nəticələrinin (əmtəəlik məhsul)artım tempini qabaqlayır. Lakin bunun səbəbləri məlum deyil. Başqa sözlə desək, istehsal faktorlarının sərfinin artımına təsir göstərən amilləri və onların ədədi qiymətlərini təhlil və müəyyən etmək çox vacibdir.

Açar sözlər: əmək vasitələri, əmək resursları, fond tutumu, istehsal, natural, rüsum.

Giriş

İstehsala məsrəflərin uçotu və təhlili iqtisadi ədəbiyyatlarda ən geniş işıqlandırılan və öyrənilən problemlərdəndir. Bu da təbiidir, çünki istehsal xərcləri və maya dəyəri məhsula (iş xidməti)qiymətlərin qoyulmasında, maliyyə nəticələrinin müəyyən edilməsində çox böyük rol oynayır. Maya dəyəri elə bir sintetik göstəricidir ki, onda ayrı-ayrı fiziki və hüquqi şəxslərin, dövlətin maraqları cəmləşir. Təsadüfi deyildir ki, maya dəyərinə daxil edilən xərclərin tərkibini hökumət müəyyənləşdirilmiş qaydada müəyyən edir. Həm də qeyd etmək lazımdır ki, dövlətin yeritdiyi iqtisadi siyasət maya dəyərinin hüdudlarını da dəyişdirir, onu daha dinamik edir. Bu əslində o deməkdir ki, istehsal xərclərinin uçotu və təhlili sistemində də dəyişikliklər baş verir. Bunların öyrənilməsi isə həmişə alimlərin, iqtisadçıların və mühasibat işçilərinin diqqət mərkəzində olmuşdur. Bazar iqtisadiyyatına keçid birgə müəssisələrin yaradılması, istehsal xərclərinin uçotu və təhlili sahəsində tədqiqatları daha da genişləndirmişdir. Son dövrlərdə bu sahədə görülən işlərə baxmayaraq istehsal məsrəflərinin uçotu maya dəyərinin kalkulyasiyası və təhlili metodologiyası və metodikasında əsaslı və ciddi bir dəyişiklik yoxdur. Mövcud qaydalar real bazar iqtisadiyyatının tələblərinə tam cavab vermir və beynəlxalq standartlara tam uyğun gəlmir.Odur ki, bu sahədə müvafiq elmi-tədqiqat işlərinin aparılması vacib və zəruridir.

Mövzunun aktuallığı. Məlumdur ki, istehsalat prosesinin baş verməsi üçün üç əsas element olmalıdır: əmək vasitələri, əmək cisimləri və işçi qüvvəsi. Bunların hər birinin istehsal prosesində sərfi, müxtəlif formada və müxtəlif ölçü vahidlərində ifadə edilir. Məhz istehsala məsrəflər müxtəlif formalarda olduğundan onların iqtisadi səmərəliliyini müəyyən etmək üçün göstəricilər sistemindən istifadə etmək zərurəti meydana çıxır. Bununla yanaşı, hər üç element istehsal prosesində birgə fəaliyyət göstərdiyindən və istehsal faktorları kimi çıxış etdiyindən onların

birgə səmərəliliyini əks etdirən inteqral göstəriciyə də zərurət yaranır. Buna görə də məsrəflərin iqtisadi səmərəliliyinə iki aspektdən yanaşmaq lazım gəlir:

1. Cari məsrəflərin (əsas fondların amortizasiyası, sərf edilmiş canlı əməyin və əmək cisimlərinin dəyəri) iqtisadi səmərəliliyi;
2. İstehsal resurslarından (əmək vasitələri, əmək cisimləri, əmək resursları) istifadənin səmərəliliyi.

Bildiyimiz kimi, canlı əmək sərfinin iqtisadi səmərəliliyi əmək verimi (və ya əmək tutumu), əsas fondların sərfi fond verimi (və ya fond tutumu), əmək cisimlərinin sərfinin iqtisadi səmərəliliyi isə material verimi (və ya material tutumu) göstəriciləri ilə müəyyən edilir.

Göründüyü kimi, hər bir iqtisadi səmərəlilik göstəricisi müxtəlif iqtisadi məzmuna malikdir. Odur ki, onların mütləq ədədi qiymətlərini cəmləmək mümkün deyil. Buna görə də, bu göstəricilərin dinamikasının təhlili zamanı nisbi göstəricidən-onların artımından (və ya artım tempindən) istifadə edilir.

Bazar iqtisadiyyatı şəraitində istehsalın nəticəsini təhlil etmək üçün əmtəəlik məhsul və onun istehsalına məsrəflərin iqtisadi ünsürlər üzrə quruluşunu təhlil etmək daha məqsədəuyğundur. Belə ki, bu zaman istehsala məsrəflərlə, istehsalın nəticələrinin bilavasitə müqayisəsi əsasında təhlil etmək və idarəetmə üzrə müvafiq qərarlar qəbul etmək üçün lazımi informasiya əldə edilir.

Mövzunun öyrənilmə vəziyyəti. Digər mühüm cəhət ondan ibarətdir ki, rəqabət şəraitində istehsala məsrəflərin əsas elementlərinin qiyməti daim dəyişir. Təbii ki, istehsal prosesində sərf edilən resursların fiziki həcmi sabit qaldıqda belə, dəyər ifadəsində məsrəflərin həcmi adətən artır. Müştərək müəssisəsində tədqiq etdiyimiz dövrdə natural ifadədə istehsalın həcminin azalmasına baxmayaraq, onun istehsalına məsrəflər artmışdır. İqtisadi elementlər üzrə məsrəflərin dinamikası cədvəl 3.1-də verilmişdir.

Cədvəl 3.1.

Müştərək müəssisəsində iqtisadi elementlər üzrə istehsal məsrəflərinin tərkibi və quruluşunun dinamikası

№	İqtisadi elementlər	İ L L Ə R								1995-ci ilə nisbətən 2000-ci ildə artım tempi, %
		1993		1995		1997		2000		
		Min man	%	Min man	%	Min man	%	Min man	%	
1	Material məsrəfləri	1040332	59,52	1244636,84	55,99	1822970	37,43	1524608	32,59	122,52
2	Əmək haqqı	426378	24,40	406377,9	18,29	512948,2	10,53	611232,8	13,07	150,41
3	Sosial ehtiyaclara ayırmalar	138120	7,90	135682	6,11	183542	3,77	226640	4,84	167,04
4	Əsas fondların amortizasiyası	77992	4,46	272880	12,28	2141011	43,96	2071280	44,28	759,04
5	Sair məsrəflər	64936	3,72	163004,26	7,33	209638,8	4,31	244371	5,22	149,92
Cəmi istehsala məsrəflər:		1747758	1000	2222308	1000	4870110	100	4678131,8	100	210,51

Cədvəldən göründüyü kimi, 1995-ci ilə nisbətən 2000-ci ildə istehsala məsrəflər 110,51% (o cümlədən material məsrəfləri 22,52%, əmək haqqı -50,41%, amortizasiya xərcləri-659,04%) artmışdır. İstehsala məsrəflərin sturukturunda materialların xüsusi çəkisi həmin dövrdə 23,4%

azalmış, əsas fondların amortizasiyası isə 32% artmışdır. 1996-cı ildə əsas fondların yenidən qiymətləndirilməsi nəticəsində amortizasiya ayırmalarının 7,8 dəfədən çox artması, əmək haqqının ümumi məsrəflərdə xüsusi çəkisinin 5,22% aşağı düşməsi (həmin dövrdə əmək haqqı xərcləri 1,5 dəfə artmışdır) ilə nəticələnmişdir.

Məlumdur ki, istehsala ümumi məsrəflər istehsalın həcmindən, əmtəəlik məhsulun quruluşundan, istehsal prosesində istifadə edilən xammal, material, yanacaq, enerji, komplektləşdirici məmulatlar və s. qiymətindən asılı olaraq dəyişir. Əmtəəlik məhsul istehsalının artması (1995-ci ilə nisbətən 2000-ci ildə əmtəəlik məhsulun artım tempi əmsalı Kə=1.197) nəticəsində istehsala ümumi məsrəflər 437794,68 min manat artmışdır. Əmtəəlik məhsulun strukturunun dəyişməsi, qiymətlərin artması və s. səbəblərdən isə istehsala ümumi məsrəflər 2.018029,12 min manat artmışdır ki, bu da təqribən 2000-ci ildə amortizasiya ayırmaları qədərdir. Məsrəflərin artım tempi (Km=2,105) istehsalın artım tempini 1,76 dəfə qabaqlamışdır. Bu göstərici istehsal resurslarından ekstensiv istifadə edildiyini və müəssisədə səmərəsiz məsrəflərə yer verildiyini göstərir. Buna görə də, istehsal resurslarından istifadəetmə göstəricilərinin və məsrəflərin qeyri-səmərəliliyinə təsir göstərən amillərin təhlili obyektiv zərurətə çevrilir. İstchsal resurslarının, istehsala məsrəflərin və onların səmərəlilik göstəricilərinin dinamikası cədvəl 3.2-də hesablanmışdır. İstehsal resursları və istehsala məsrəflərin xüsusi və inteqral səmərəlilik göstəriciləri A.D.Şeremetin təklif etdiyi metodika [145, s.151-158] əsasında təhlil (cədvəl 3.3) edilmiş və bu zaman aşağıdakı hesablamalar aparılmışdır:

Cədvəl 3.2

İstehsal resursları və istehsal məsrəflərinin səmərəlilik göstəricilərinin dinamikası

№	Göstəricilərin adı	Göstəricilərin şərti işarəsi	İ L L Ə R			1995-ci ilə nisbətən 2000-ci ildə	
			1995	1997	2000	Mütləq kənarlaşma	Artım tempi,%
A	B	V	1	2	3	4	5
1	Əmtəəlik məhsul, mln. man	ƏM	1854,5	2533,6	2223	+368,5	119,87
2	Sənaye-istehsal heyətinin orta siyahı sayı, nəfər	OSS	392	239	129	-200	48,98
3	Əlavələrlə birlikdə əməyin ödənilməsi, mln. man	ƏÖ	392,69	497,28	599,88	+237,9	165,40
4	Əsas istehsal fondlarının orta illik dəyəri, mln. man	F	1933,1	15339,5	36975	+35041,9	191 2,78
5	Material məsrəfləri, mln. man	MM	1244,4	1822,97	152461	280,21	122,52
6	Dövriyyə vəsaitləri, mln. man	DV	705,8	2683,6	4636,8	+3931	656,93
7	İstehsal məsrəfləri, mln. man	SN	1879,97	4461,25	4195,77	+2315,8	223,18
8	Əmək məhsuldarlığı, mln. man	ƏM/OSS	4,73	10,6	11,58	6,85	247,74
9	Əmək verimi, mln. man	ƏM/ƏÖ	5,113	5,095	3,705	-1,408	72,46
10	Əmək tutumu, mln. man	ƏHT=ƏÖ/ƏM	0,1955	0,1963	0,2699	+0,0744	138,06
11	Fondverimi, mln. man	FV=ƏM/F	0,959	0,165	0,0601	-0,8989	6,27
12	Fondtutumu, mln. man	FT=1/FV	1,043	6,053	16,393	+ 15,35	1571,72
13	Material verimi, mln. man	MV=ƏM/MM	1,4903	1,9898	1,4581	-0,0322	97,83
14	Material tutumu, mln. man	MT=1/MV	0,67	0,72	0,69	+0,02	102,98
15	Dövriyyə vəsaitlərinin dövriyyə sürəti, dövrlərin sayı	DV=MSH/DV	2,71	6,908	0,526	-2,184	19,41
16	1 manatlıq əmtəəlik məhsula məsrəflər, mln. man	OMM=SM/ƏM	1,014	1,7608	1,8882	+0,8742	186,21
17	İstehsalın rentabellik səviyyəsi, %	RM	-0,92	-11,29	-5,10	-4,18	544,55

Cədvəl 3.3.

İstehsal resurslarının və istehsal məsrəflərinin xüsusi və inteqral səmərəlilik göstəricilərinin təhlili

№	Göstəricilər	Resurslardan istifadənin xüsusi səmərəlilik göstəricilərinin dinamikası əmsalı	Məhsulun 1% artımın resursların və məsrəflərin artımı, %	Məhsul istehsalının artımında xüsusi çəkisi, %		Resurslara və məsrəflərə nisbi qənaət (-), artıq məsrəf (+)
				Resursların və məsrəflərin artımı	Xüsusi səmərəlilik göstəricilərinin	
A	B	1	2	3	4	5
1	Sənaye istehsal heyəti	2,4474	-2,5677	-256,77	+356,77	-868576,8
2	Əməyin ödənilməsi	0,7246	3,2914	329,14	-229,14	+ 165121,9
3	Əsas istehsal fondları	0,0627	41,2320	9123,20	-9023,20	+32724821
4	Amortizasiya	0,1579	33,1676	3316,76	-3216,76	+ 1744178,7
5	Material məsrəfləri	0,9783	1,1334	113,34	-13,34	+32989
6	Dövriyyə vəsaitləri	0,1941	28,0287	2802,87	-2072,87	+3790763
7	Müəssisənin iqtisadi potensialının inteqral səmərəlilik göstəricisi	0,1164	46,8078	4680,78	-4580,78	3567999,2

1. İstehsal resurslarından istifadənin xüsusi səmərəlilik göstəricilərinin dinamikası. 1995-ci ilə nisbətən 2000-ci ildə sənaye-istehsal heyətinin əmək məhsuldarlığı-244,74%, əmək verimi-72,46%, fond verimi-6,27%, material verimi-97,83%, dövriyyə vəsaitlərinin dövriyyə sürəti-19,41% təşkil etmişdir. Bu göstəricilər əmsalla cədvəl 3.3-də (qrafa 1) öz əksini tapmışdır. Göründüyü kimi, əmək məhsuldarlığından başqa, resurslardan istifadənin səmərəlilik göstəricilərinin dinamikası azalmışdır.

2. Resursların artımının (faizlə) əmtəəlik məhsulun artımına nisbəti (qrafa 2). Əmtəəlik məhsul istehsalının həcminin 1% artımı əsas istehsal fondları - 91,23%, material resursları-1,13% və əmək haqqının - 3,29% artımı hesabına əldə edilmişdir. Yalnız sənaye-istehsal heyətinin sayı 2,57% azalmışdır.

3. Əmtəəlik məhsul istehsalının artımında resursların (məsrəflərin) və xüsusi səmərəlilik göstəricilərinin təsirinin xüsusi çəkisi.

Tədqiqatın məqsəd və vəzifəsi. Bu göstəricilərin hesablanması metodikasını material məsrəfləri üzrə göstərək. Müqayisə edilən dövrdə əmtəəlik məhsul istehsalı 368,5 milyon manat və ya 19,87%, material məsrəfləri 22,52% artmış, material verimi isə 2,17% [97, 83-100] azalmışdır. Material məsrəflərinin artımı hesabına əmtəəlik məhsul istehsalı 113,34% və ya 417,66 milyon manat artmalı idi.Material veriminin azalması nəticəsində əmtəəlik məhsul istehsalı 13,34% və ya 49,16 milyon manat azalmışdır. Deməli, əmtəəlik məhsulun artımında material məsrəflərinin xüsusi çəkisi 113,34%, material veriminin (xüsusi səmərəlilik göstəricisi) xüsusi çəkisi isə13,34% təşkil edir.

4. Resurslara nisbi qənaət və artıq məsrəflər (qrafa 5) sənaye istehsal heyətinin sayına nisbi qənaət: 192-392x1,987=192-470=-278 nəfər.

Sənaye-istehsal heyətinin sayının 278 nəfər azalması nəticəsində, əməyin ödənilməsi üzrə qənaətin həcmi 868576,8 min manat (599880,4:192x278) təşkil edir.

Əlavələrlə birlikdə əməyin ödənilməsi üzrə 165121,9 min manat (599880,4-362691,7 x 1,1987) artıq məsrəflər edilmişdir.

Müəssisə üzrə istehsal amillərinin və istehsal məsrəflərinin xüsusi səmərəlilik göstəricilərinin dinamikasının azalması, digər inteqral səmərəlilik göstəricilərinin dinamikasına da mənfi təsir göstərmişdir. Bazar iqtisadiyyatı şəraitində digər inteqral səmərəlilik göstəricisi kimi rentabellik səviyyəsi və bir manatlıq əmtəəlik məhsula məsrəflərdən daha geniş istifadə edilir.

Rentabellik nisbi göstəricidir, istehsalın mənfəətlilik səviyyəsini əks etdirməklə yanaşı, marketinq, təchizat, maliyyə strategiyalarının düzgün seçilmədiyini göstərir. Rentabellik səviyyəsi habelə, istehsalın təhlili zamanı investisiya siyasəti və qiymət əmələ gətirən bir alət kimi də istifadə edilir. Təhlilin metodologiyasında rentabellik səviyyəsinin müxtəlif göstəricilərindən istifadə edilir. Biz, qarşıda qoyduğumuz məqsədə müvafiq olaraq, rentabellik səviyyəsinin iki göstəricisi üzərində dayanacağıq:

Tədqiqat obyekti. Bakı müştərək müəssisəsinin iqtisadi potensialı və istehsal məsrəflərini üzvi surətdə özündə əks etdirən istehsalın rentabellik səviyyəsi.

Ayrı-ayrı məhsul növlərinin rentabellik səviyyəsi.

İstehsalın rentabellik səviyyəsinə istehsal resursları və məsrəflərin xüsusi səmərəlilik göstəricilərinin təsirini müəyyən etmək üçün, bu göstəricinin faktorial modelindən istifadə etmək daha məqsədəuyğundur.

Əgər əmtəəlik məhsulun qiymətini vahid qəbul etsək və əmtəəlik məhsul vahidinin istehsal maya dəyərini S ilə işarə etsək, onda 1 manatlıq əmtəəlik məhsul istehsalından əldə edilən mənfəət (M) M=1-S-olar.

Bir manatlıq əmtəəlik məhsula istehsal məsrəfləri:

$$S=\frac{ЭQ}{ЭМ}+\frac{A}{ЭМ}+\frac{MM}{ЭМ}=ЭhT+AT+MT$$

$$M=1-S=1-(ЭHT+AT+MT)$$

İstehsalın rentabellik səviyyəsi (Rİ):

$$S=\frac{ЭHT+AY+MT}{ФT+ДВT}\ x\ 100\%$$

Hesablamaların nəticələri cədvəl 3.2-də verilmişdir.

Ayrı – ayrı amillərin rentabellik səviyyəsinə təsirini müəyyən etmək üçün zəncirvari metoddan istifadə edirik:

1) 1 manatlıq əmtəəlik məhsul istehsalına məsrəflərin dəyişməsinin istehsalın rentabellik səviyyəsinə təsiri (1995-ci ilə nisbətən 2000-ci ildə):

$$RU^{S}=\frac{1-1,8882}{1,524}x100\%=\frac{-88,82}{1,524}=-58,28\%$$

$$\Delta RU^{S}=RN^{S}-RN^{б}=-58,28\%-(-0,92)=-57,36\%$$

2) 1 manatlıq əmtəəlik məhsul istehsalının fond tutumunun artmasının təsiri:

$$RИ^{ФT}=\frac{1-1,8882}{16,393+0,481}\ x\ 100\%=\frac{-88,82}{16,874}=-5,26\%$$

$$\Delta RИ^{ФT}=RN^{ФT}-RN^{S}=-5,26-(-57,36)=52,1\%$$

3) 1 manatlıq əmtəəlik məhsul istehsalının material dövriyyə vəsaitləri üzrə fond tutumunun artmasının rentabellik səviyyəsinə təsiri:

$$RИ^{ДВT}=\frac{1-1,8882}{16,393+1,012}x100\%=\frac{-88,82}{17,405}=-5,1\%$$

$$\Delta RИ^{ДВT}=RN^{ДВT}-RN^{ФT}=-5,1-(-5,26)=0,16\%$$

Hər üç amilin birgə təsiri nəticəsində rentabellik səviyyəsi ($\Delta РИ^{у}$)2000-ci ildə - 0,92%-dən - 5,1%-ə qədər və ya 4,18% azalmışdır:

$$\Delta RИ^{у}=RИ^{S}+\Delta RИ^{ФT}+RИ^{ДВT}=-57,36+52,1+0,16=-5,1$$

İstehsalın rentabellik səviyyəsinə 1 manatlıq əmtəəlik məhsula məsrəflər daha çox təsir göstərmişdir. Əmək haqqı tutumunun artması nəticəsində rentabellik səviyyəsi 4,78%, amortizasiya tutumunun artması nəticəsində 51,38%, material tutumu hesabına isə 1,2% azalmışdır.

Ayrı-ayrı məhsul növlərinin rentabellik səviyyəsi əsas satış kanalları üzrə hesablanılır və təhlil edilir. Nəticədə həm məhsul strategiyası və həm də satış bazarlarının (daimi alıcılar) səmərəliliyi müəyyən edilir.

Müştərək müəssisəsinin əsas məhsulları həm daxili və həm də xarici bazarlarda (İtaliya, Rusiya, Türkiyə, İran və s.) satılır.

Müştərək müəssisəsində ayrı-ayrı məhsul növlərinin rentabellik səviyyəsi

Məhsulun adı	Orta satış qiyməti		Maya dəyəri, man.		Rentabellik, %	
	1994	2000	1994	2000	1994	2000
A	1	2	3	4	5	6
1. Mikser	420,0	4902,23	408,65		2,86	17,56
2. Ət maşını	880,31	9584,56	647,65	8312,50	35,92	80,55
3. Qəhvə üyüdən	500,0	3458,69	385,20	1869,98	29,80	84,96
4. El.mühər.-8025	169,13	3119,4	132,97	1755,41	27,19	77,69
1. “___” -8040	206,4	2354,21	170,14	1341,50	21,14	75,49
6. “___” -8035	688,21	593,03	265,85	585,91	1,92	-156,47
7. “___” -6035	199,87	1246,60	147,18	1943,14	-15,84	-71,65

Əvvəlcə daxili bazarda satılan məhsulların rentabellik səviyyəsini və ayrı-ayrı amillərin ona təsirini müəyyən edək. Bunun üçün, məhsul növlərinin rentabellik səviyyəsinin faktorial modelindən istifadə edilir.

Tədqiqatın metodologiyası və metodunun təhlili.

$$R_i = \frac{Mi}{Si} = \frac{Гi - Si}{Si}$$

Ri-I növ məhsulun rentabellik səviyyəsi, %

Гi-I növ məhsul vahidinin orta satış qiyməti, man.

Si-I növ məhsul vahidinin orta maya dəyəri, man.

Mi-I növ məhsul vahidinin satışından əldə edilən mənfəət, man.

Təhlil üçün ilkin informasiya 3.4 saylı cədvəldə verilmişdir və aşağıdakı ardıcıllıqda hesablamalar aparılmışdır:

1. Bazis ilində məhsulun (məsələn, ət maşını)rentabellik səviyyəsi (R_2^b, %):

$$R_2^б = \frac{Г_2^h - S_2^б}{S_i^б} = \frac{880{,}31 - 647{,}65}{647{,}65} \cdot 100\% = 35{,}92\%$$

2. Bazis ilinə nisbətən hesabat ilində ət maşınının qiymətinin dəyişməsinin rentabellik səviyyəsinə təsiri (şərti):

$$R_2^h = \frac{Г_2^h - S_2^h}{S_2^б} = \frac{9584{,}56 - 647{,}65}{647{,}65} \cdot 100\% = 1379{,}9\%$$

3. Hesabat ilində ət maşınının rentabellik səviyyəsi:

$$R_2^h = \frac{Г_2^h - S_2^h}{S_i^h} = \frac{9584{,}56 - 5308{,}61}{5308{,}61} \cdot 100\% = 80{,}55\%$$

4. Bazis ilinə nisbətən hesabat ilində ət maşınının rentabellik səviyyəsinin artımı ΔR:

$$\Delta R_2 = R_2^h - R_2^б = 80{,}55 - 35{,}92 = 44{,}63\%$$

5. Bazis ilinə nisbətən hesabat ilində ət maşınının qiymətinin dəyişməsinin rentabellik səviyyəsinin (ΔR^q) dəyişməsinə təsiri:

$$\Delta R_2^г = R_2^{Ш} - R_2^б = 1379{,}9 - 35{,}92 = +1343{,}98\%$$

6. Maya dəyərinin rentabellik səviyyəsinə (R^S) təsiri:

$$\Delta R_2^s = R_2^h - R_2^ш = 80{,}55 - 1379{,}9 = -1299{,}35\%$$

Cədvəlin məlumatlarına əsasən ət maşını, qəhvəüyüdən, “8025” və “8040” tipli elektrik mühərrikləri istehsalı daha səmərəlidir. Axın xəttindən istifadə etmək nöqteyi-nəzərindən (hər bir mətbəx ayrı-ayrı xətlərdə yığılır və manevr etmə imkanı yoxdur) mikserin rentabellik səviyyəsini yüksəltmək üçün xüsusi tədbirlər tələb olunur.

Cədvəldən göründüyü kimi, məhsulların rentabellik səviyyəsi məhsulların satış qiyməti və maya dəyərinə təsir göstərir. Hər iki amilin ədədi qiymətinin dəyişməsinə məhsulun keyfiyyəti, məhsulların satış kanalları və inflyasiya təsir edir.

İstehsalın rentabellik səviyyəsinin dinamikasının təhlili göstərdi ki, istehsala məsrəflərin artım tempi istehsal nəticələrinin (əmtəəlik məhsul) artım tempini qabaqlayır. Lakin bunun səbəbləri məlum deyil. Başqa sözlə desək, istehsal faktorlarının sərfinin artımına təsir göstərən amilləri və onların ədədi qiymətlərini təhlil və müəyyən etmək çox vacibdir.

Nəticə

İstehsal xərclərinin uçotu və təhlili sahəsində aparılmış tədqiqat işi aşağıdakı nəticələrə gəlməyə və təklifləri irəli sürməyə imkan vermişdir.

1. Məhsulun maya dəyəri müəssisənin istehsal təsərrüfat və maliyyə, habelə digər fəaliyyətini xarakterizə edən sintetik göstəricidir. Maya dəyəri obyektiv iqtisadi bir kateqoriya olsa da, onun hədləri hökumət tərəfindən müəyyən edilir və tənzimlənir.

2. Xərclərin uçotu müştərək müəssisələrdə elmi cəhətdən əsaslandırılmış təsnifatdır. Araşdırmalar göstərir ki, MDB ölkələrində, o cümlədən də Azərbaycanda istehsal xərclərinin təsnifatı, demək olar ki, eyni əlamətlər üzrə aparılır. Bu da onu göstərir ki, keçmiş Sovet məkanında xərclərin vahid uçot sistemi olmuş və onların təsnifatı da eyni cür aparılır. Qərb uçot sistemində isə istehsal xərclərinin vahid təsnifatı aparılmalıdır. Burada hər bir firma, müəssisə istehsal xərclərinin idarə edilməsi üçün özünün işləyib hazırladığı təsnifatdan, yaxud xərc nomenklaturasından istifadə edir.

3. Araşdırmalar göstərir ki, müştərək müəssisələrdə istehsala məsrəflərin uçotu, məhsulun maya dəyərinin tərkibi və maya dəyərinin kalkulyasiyası mövcud normativ sənədlər və təlimatlar çərçivəsində aparılır. Zənnimcə, bu daha düzgündür. Çünki, bəzi iqtisadçıların təklif etdikləri kimi respublikada fəaliyyət göstərən müştərək müəssisələrdə uçot və hesabın Qərb ölkələrində mövcud olan standartlar əsasında aparılması ölkəmizdə vergiqoymanın maliyyə və audit nəzarətinin vahid qaydalarının tətbiqinə imkan verməz. Ən başlıcası isə odur ki, xərclərin uçotunun müxtəlif metodologiya və metod əsasında aparılması maliyyə nəticələrinin də müxtəlif qaydada müəyyən olunmasına səbəb olardı, bu da bir sıra çətinliklər yaratmış olardı. Odur ki, müştərək müəssisələrdə xərclərin uçotunun beynəlxalq standartlara uyğun qurulması tədricən həyata keçirilməlidir.

ƏDƏBİYYAT

1. Шенков С.А. Бухгалтерский учет в промышленности. М., Финансы.1969.
2. Шишкин А.К., Микрюков В.А., Дишканит Н.Д. Учет, анализ, аудит. М., Аудит. 1996.
3. Шермет А.Д., Сейфулин П.С. Методика финансового анализа. М., Инфра. 1995, 172с.
4. Финансовой анализ деятельности фирмы М., Учет-сервис, 1994, 240 с.
5. Seyfullayev S.M., Abbasov Y.M. Bazar münasibətlərində iqtisadi təhlil. Bakı-Ergün, 1990, 176 s.
6. Монден Р. "Тоета" - методы эффективного управления. М., 1989.
7. Qəzənfər Əli oğlu Abbasov . İdarəetmə uçotunun təşkilinin prinsipləri. Bakı, 2006, "Elm".
8. "Maliyyə və uçot" jurnalı, 2004-cü il.

Назим Исахан оглы Джафаров
к.э.н. , ст.преподаватель., АГЭУ

Анализ экономической эффективности производственных затрат в совместных предприятий

Резюме

Как известно, экономическая эффективность затрат живого труда определяется показателями труда отдачи (или трудооемкости), основных фондов - фондоотдачи (или фондоемкости), а экономическая эффективность использования орудий труда - материалоотдачей (или материалоемкостью).

Для анализа результатов производства, в условиях рыночной экономики, более целесообразно анализировать структуру затрат по экономическим составляющим на товарную продукцию и ее производство.

Анализ динамики уровня рентабельности производства показывает, что темпы роста производственных затрат опережает темпы роста результатов производства (товарной продукции). Но причины этого не известны. Другими словами, очень важно анализировать и определять факторы, влияющие на прирост затрат производственных факторов и их на единицу продикции цены.

Ключевые слова: средства производства, трудовые ресурсы, фондоемкость, производство, натуральный, пошлина.

Nazim İsakhan Jafarov
c.e.s., head lecturer, ASEU

Cost-effectivness analysis of production costs in joint ventures

Summary

As known, the economic efficiency of labor is determined by the cost of living indices of labor capacity (or the labor content) of fixed assets - asset capacity (or capital intensity), and the economic efficiency of the instruments of labor - material capacity (or material consumption).

To analyze the results of production, in a market economy, it is more appropriate to analyze the cost structure of the economic component in the commercial product and its production.

An analysis of the dynamics of the level of profitability of production shows that the growth of production costs is outpacing the growth of production results (salable products). However, the reasons for this are not known. In other words, it is important to analyze and determine the factors influencing the growth of the cost of production factors and piece rates.

Key words: the means of production, labor resources, capital intensity, manufacturing, natural, duties.

UOT 005-027.21

Vüqar Bəhram oğlu KƏRİMLİ
AMEA-nın İqtisadiyyat İnstitutunun elmi işçisi,
Azərbaycan Kooperasiya Universitetinin dissertantı

STRATEJİ MENECMENTİN MODERNLƏŞDİRMƏ YOLLARININ ÖYRƏNİLMƏSİ VƏ TƏTBİQİ

Xülasə

Məqalədə müasir dövrdə Azərbaycan Respublikasında strateji menecmentin modernləşdirmə yolları araşdırılıb və aqrar sektorun dövrün tələblərinə uyğun inkişaf etməsi üçün yeni idarəetmə prinsiplərinin tətbiqi araşdırılır. Eyni zamanda, strateji menecmentin öyrənilməsi üzrə məqalədə əsas istiqamətlər müəyyən edilir və ölkənin aqrar sahəsi üçün tətbiqi nəzərdən keçirilir. Xüsusən vurğulanır ki, strateji menecmentin modernləşdirilməsi müəyyən üsullara əsaslandırılmalı və reallaşdırılmalıdır.

Açar sözlər: aqrar sahə, menecment, strategiya, strateji menecment, üsullar, modernləşdirmə.

Giriş

İqtisadiyyatın bütün sahələrinin inkişaf etdirilməsi Azərbaycan Respublikası Prezidenti cənab İ.H.Əliyev tərəfindən bir inkişaf, perspektivlik qarşıya qoyulması üzrə bu gün iqtisadiyyatın bütün sahələrində, o cümlədən kənd təsərrüfatı sahələrində və aqrar-sənaye komplekslərində, hər bir kooperativdə, iri fermer təsərrüfatlarında və aqrar məhsulların emalı müəssisələrində idarəedici rəhbərlik və əsasən sahibkarlar tərəfindən strateji menecmentin bu günün tələblərinə uyğun təşkilini və xüsusi ilə də strategiyanın işlənilməsini tələb edir.

Bu günün tələblərinə uyğun strategiyanın işlənməsi müəssisə və təşkilatların vəziyyətini və onun inkişaf perspektivini nəzərə almaq, əsas idarəetmə maneələrini istifadə dövrü çərçivəsində aradan qaldırmaqla sahibkarların və rəhbərliyin əsas diqqətlərini iqtisadiyyat sahələrinin rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə istiqamətləndirir. Bu yönəmin reallaşması nəticəsində ölkə bazarlarında əmtəə satışı seqmentlərinin genişlənməsinə və xarici bazarlara aqrar məhsulları çıxarmasına və beləliklə də ölkənin xarici valyuta ehtiyatlarının artırılmasına səbəb olacaq.

Ayrı-ayrı aqrar sahələrdə aparılan araşdırmalardan aydın olur ki, idarəetmə strategiyasının hərəkət mücəssəməsi olmaqla buna müəssisə və təşkilat rəhbərləri strateji və maliyyə məqsədlərinə nail olunması üçün riayət etməlidir.

Strategiyanın işlənməsində əsas vəzifələr

Strategiyanın işlənməsi vəzifəsinin həlli tədqiq edilən aqrar kooperativin və ya hər hansı iri fermer təsərrüfatının daxili və xarici əlaqələri vəziyyətinin dəqiq müayinə edilməsi ilə başlamalıdır. Yalnız bundan sonra strategiyası işlənəcək müəssisələrin arasında ümumi vəziyyətlərinin təhlili barədə tam məlumat əldə etdikdən sonra rəhbərlər əsaslandırılmış strategiyanın, maliyyə və strateji nəticələrə nail olma üzrə strategiyanın işlənilməsinə hazır olmalıdırlar. Niyə bu ardıcıllıq təmin edilməli, çünki, əks halda düzgün olmayan diaqnoz və ya onun heç diqqətə çatdırılmaması düşünülməmiş strateji hərəkətlərə qarşı hansı tədbirlər qəbul ediləcəkdir riskini əhəmiyyətli dərəcədə yüksəldəcəkdir. Tədqiq edilən aqrar müəssisə və təşkilatların işləniləcək strategiyası əsasən özündə: 1) düşünülmüş və məqsədə yönəlmiş hərəkətlərin və 2) zəruriyyət nəticəsi olaraq qəbul edilən hadisələrin gözlənilməyən inkişaf gedişində və yeni rəqib təzyiqləri törəndikdə qəbul ediləcək hərəkətlərin birləşdirilməsini əks etdirir.

İşlənilən strategiyanın həyata keçirilərkən ayrı-ayrı müəssisə və təşkilatlarını menecerlər yəqin etməlidirlər ki, bu gedişat müddətində tərtibedici işçilərin hissiyyatlarına əsasən işə cəlb edilməsi təşkilat üçün fövqəladə dərəcədə qiymətlidir. İşləniləcək yeni strategiyanın reallaşdı-

rılmasında icraçı işçilərə təsir göstərmək üçün strateji menecmentin ideyalar konsepsiyasının işlənilməsi və tətbiqi arasındakı zəruri vaxt müddətinin ixtisarı problemləri ilə qarşılaşma mümkünlüyü də nəzərə alınmalıdır. Təyinat üzrə fəaliyyət göstərən menecer idarəetmədə gələcək zaman kontekstində iştirakı səviyyəsini reallaşdıraraq inkişaf etdirmək üçün fəaliyyətdə olan müəssisə və təşkilatın bütün işçilərini strategiyanın işlənilməsinə cəlb etməlidir. Bu istiqamət olduqca böyük problemlər törədə bilər, ancaq strategiyanın işlənilməsinə yönəldilmiş baş menecer, əgər o, dogrudan da yüksək proqnozlar təşkil edən və onların həyata keçirilməsini arzulayandırsa və qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün fəaliyyətində və əhatədə olan insanların hisslərini həmin nöqtəyə yönəldə bilirsə, deməli o, qarşısına qoyulan bu vəzifənin öhdəsindən gələ bilər.

Aydındır ki, rəhbərlər gələcəyə aid tətbiq edilə biləcək işlənən strategiyada irəli sürülmüş tətbiq edilə biləcək xarici və daxili şəraiti nə qədər əvvəlcədən, nə qədər yaxşı görə bilsələr, onların işlənilmiş strategiyanın əsasında tərtib edilməli planların işlənilməsi şansları bir o qədər yüksək olacaqdır.

Strateji idarəetmə strategiyası işləndikdən sonra da tez-tez yeni vəziyyətlər törənir ki, onlardan misal olaraq: iri texnoloji nailiyyətləri, rəqiblərin bazara yeni məhsullar gətirmələrini, yeni qanunların meydana çıxmasını və ya hökumətin siyasətinin dəyişilməsini, məhsulların başqa xüsusiyyətlərinə istehlakçıların maraqlarının gücləndirilməsini və b. aid edə bilərik. Gələcək perspektivə həmişə əhəmiyyətli dərəcədə qeyri-müəyyənlik məxsusiyyəti olur ki, rəhbərlik əvvəlcədən mümkün ola biləcək strateji hərəkətləri irəlicədən planlaşdırmaq və nəzərdə tutulan strategiyadan hər hansı dəyişikliklər etmədə istifadə etmək iqtidarında olmur. Beləliklə, istənilən aqrar sahədə hər hansı kooperativin strategiyasının təşkili dedikdə planlaşdırılan hərəkətlərin (gözlənilən strategiya) və gözlənilən şəraitə məcazi reaksiyalar birliyinin təşkil edilib işlənilməsi anlaşılmalıdır. Buradan belə nəticə çıxara bilərik ki, strategiyanın təşkilinə ən yaxşısı müəssisənin və kooperativ rəhbərlərinin plan tərtibli və cavab hərəkətlərinin birləşdirilməsi kimi baxmaq lazımdır ki, bu isə əslində sahələrdəki və rəqabət hallarındakı dəyişikliklərin ifadəsini özündə əks etdirir. Strategiyanın formalaşmasının başlıca vəzifəsi öz tərkibinə planın işlənilməsini və ya gözlənilən strategiyanı, bunun ardınca isə real deyilməkdə olan hadisələrə uyğunlaşması kimi yanaşılır. [2, 315]

Strategiyanın təşkili

Həqiqətdə kooperativin və ya kompaniyanın strategiyasının təşkili əslində qarşıya qoyur ki, rəhbərlik kooperativin və kompaniyanın daxili və xaricində baş verən hadisə və münasibətdə həmin strategiyanın işlənilməsini həyata keçirsin.

Tədqiqatlara əsasən belə fikrə gələ bilərik ki, yeni XXI əsrin strateji menecmenti baxımından texnologiyaların və texnikanın inkişafı ilə əlaqədar baş verən dəyişikliklərlə qarşılaşaraq yaranan ümumi təsəvvürləri dərk etməliyik. Əslində onlar əql süzgəcimizdən təbəddülata və əməliyyatlara uğrayaraq keçirlər. Bu halda belə bir fikri yürütmək olar ki, həqiqətdə bir çox aqrar sahə kooperativlərində və kompaniyalarında daxili mübarizə yeni minillikdə, inkişaf tempinin saxlanması və texnoloji yeniliklər hesabına deyil, yalnız əqli xəzinənin özündə baş verən mütərəqqi dəyişikliklər heasbına həll edilməlidir. Yeni XXI əsrdə işlənmiş strategiyanın icrasında daha çox məharət, menecerlərin və onun işçilərinin qabiliyyəti tələb olunur.

Böyük Britaniyanın filosofu və menecment nəzəriyyəçisi olan Çarlz Handinin qeyd etdiyi kimi, bilikləri və non-houları əldə etmək və istifadə etmək sərvətin yeni mənbəyi olacaqdır. Onun fikrincə insanların gələcək təhlükəsizliyi geniş mənada hökumət və ya onların ev divarları tərəfindən deyil, onların öz beyinləri gücünə təmin ediləcəkdir.

Ç.Handi və A.Harvard, Evans R. və b. tədqiqatçıların tədqiqatları əsasında müəyyən edilmişdir ki, yeni əsrin Avropasının 75%-ində əsasən fiziki bacarıqlara deyil, əqli qabiliyyətlilərə ehtiyac yaranacaqdır.

Müasir iqtisadi idarəetmədə texnologiyanın əhəmiyyətinə ancaq iş əməliyyatlarının səmərəliliyinin yüksəldilməsitək yanaşılmalıdır. Gələcək perspektivdə də idarəetmə prosesində həyata keçirilməli texnoloji yeniliklər strategiyanın təşkil edilməsi işlənilərkən menecerlərə tətbiqləri üçün təzyiqləri diqqətə çatdıracaq və aqrar sahələrdə istehsalın və biznesin təşkilində sahibkarların öz strategiyalarını yenidən təşkil etməyə vadar edəcəkdir.

Sahibkar strategiyasının təşkili əslən konkret sahibkarın qarşıya qoyduğu tapşırıq olub və strateji düşüncə tərzinin nəzərə çatdırılmasıdır. Aqrar sahələrdə fəaliyyət göstərən kooperativlər rəhbərlərinin əsas vəzifəsi ondan ibarət olmalıdır ki, onların işlədikləri strategiyalarda qarşıya qoyulanlar; onların fəaliyyətində olduqları xarici amillərdən; istehlakçıların onların məhsullarına üstünlük verməsinin dəyişilməsinə, rəqiblərinin son hərəkətlərinə, bazarın imkanları və təhlükələrinə, habelə yenidən meydana çıxarılmış sahibkarlıq şərtlərinə dəqiqliklə uyğun gəlməlidir. Modern tələblərə uyğun kooperativlər və iri fermer təsərrüfatları tərəfindən strategiya işlənməsinin təşkilində əhatədə olan işgüzar dairələrdə baş verən və baş verə biləcək dəyişikliklərə əvvəlcədən duyma qabiliyyəti olmalıdır. Tədqiq edilən kooperativlərin və başqa aqrar sənaye müəssisələrinin rəhbərləri bazar təmayüllərini əvvəlcədən öyrənərkən qəbuledicilik nümayiş etdirərlərsə və istehlakşılarını diqqətlə eşidib nəticəyə gəlmişlərsə həmin kooperativ və iri fermer təsərrüfatlarının müasir modernləşmə səviyyəsinin tələblərinə uyğun rəqabətqabiliyyətlilikləri yüksələcək və onlar təşkil edilmiş strateji fəaliyyətlərini öz vaxtında dəyişəcəklər.

Buna görə də düzgün strategiya işlənməsinin işgüzar sahibkarlıq fəaliyyətindən ayrılmaz olduğu rəhbər tutulmalıdır.

Müasir inkişaf mərhələsində müxtəlif kooperativ və şirkətlərdə tərtib edilmiş strateji menecmentə əsasən belə bir fikrə gəlmək olar ki, idarəetmə təfəkkürü modernləşərək burada əks etdirilən əsas anlayışlar, kateqoriyalar, idarəetmə nəzəriyyəsi daha yeni, modernləşmiş, daha keyfiyyətli və düşünülmüş səviyyədə qəbul edilir. Burada düşüncə tərzi hər şeydən əvvəl idarəetmədə müasir sistemli və vəziyyətdən asılı yanaşmada bəhs edilərək idarəetmə elminin nailiyyətlərindən nəzəri və təcrübi cəhətdən istifadə məfkurə dairəsini genişləndirir.

Aqrar sahədə istənilən təsərrüfat sahəsi üzrə təşkilatlar özündə mürəkkəb bir sistemi əks etdirir ki, burada bütün mövcud qarşılıqlı əlaqələrin məcmusu bölünə bilməz və vahid yazılışda (və ya modeldə) əhatə edilməsi mümkün deyildir; ona görə də, yarımsistemlərə; elmi-texniki, iqtisad-istehsal, sosial xətlər üzrə bölünməsi zərurəti törənir.

Sistemli yanaşma nöqteyi-nəzərindən aqrar təsərrüfatlar və fermer təsərrüfatı kooperativləri özlərini bütöv bir təşkilati formalaşma kimi ifadə edərək, onların müəssisələr və uyğun təşkilatlar məcmusundan ibarət olduğu bu gün nəzərə çatdırılmaqdadır. Bu tərkibdə adı çəkilənlər müəyyən əlaqədə və vəhdətdədirlər. Təşkil edilmiş və təşkil edilməkdə olan kooperativlərin idarəetmə obyekti kimi xüsusiyyəti başqa müəssisələrin bütövlüyünün olmaması, onun tərkibindəki fermer təsərrüfatlarının başqa təsərrüfatlar və sosial qurumlarla əlaqələri, dinamikliyi, idarəetmənin təşkilati istehsal strukturunun keçiriciliyinin olmasıdır. [4]

Strateji işləmənin vəziyyəti

Tədqiqatlara əsasən aydın olur olur ki, XXI əsrdə təşkilati idaretmə strategiyasının təşkilində XXI əsrdə təşkilati idarəetmədə strateji işləmənin vəziyyətinə onun menecerlərinin yeni baxışları təklif olunacaq, bu səbəbdən də tədqiq edilən subyektlərin imkanları xüsusi ilə də, ixtisas peşə xüsusiyyətlərini əks etdirən menecer toplusu ciddi yoxlamalardan keçiriləcəkdir. Aqrar sahələrdə ixtisaslaşma və fəaliyyətlər üzrə biliklər fövqəladə xüsusiyyət olaraq qalmada davam edəcəkdir. Belə bir şəraitdə işçilər əgər kəskin rəqabət şəraitində daimi dəyişən mühitdə uğur əldə etmək istəsələr daha geniş iş vərdişləri spektrinə yiyələnməli olacaqlar. Məsələn, Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi öz tərkibinə daxil olan birlik, kooperativ və başqa təşkilatlarına "lazımi" adamların strateji işləmələrinin həyata keçirilməsi üçün onların nazirlik, birlik, kooperativlər və sosial qurumlarda toplanmasına daim diqqət edir.

Yeni XXI əsrdə strateji idarəetmə strategiyasının işlənməsi artıq modernləşdirmə tələbatına cavab verməlidir. Modernləşdirmə tələblərinə uyğun olaraq öz gücünü, məharətini və qüvvəsini yeni məsələlərin həllinə sensual liderliklə məşğul olmaq zəruriyyəti qarşısında durmuşdur. Strateji idarəetmə strategiyanın işlənməsində özünə sensual lidertək ifadə qazanmış menecerlərin təsir etmək istədikləri adamların diqqətini özünə çəkmək üçün düşünüldüyü unudulmamalıdır. Digər tərəfdən, sensual sözünün mənasının əslində liderlik olduğu da yaddan çıxarılmamalıdır. Qədəm basdığımız XXI əsrdə sensual liderlik təsəvvürlər hesabına inkişaf etməkdə olmaqla onların bugünkü cəmiyyətdə meydana çıxarılması strateji menecment strategiyasının bilavasitə işlənməsinin təşkili ilə əlaqələnir.

Menecmentin təşkilində idaretmə prinsipləri bazar və qeyri-bazar şəraitində mövcud olan iqtisadi qanunların elmi dərk edilməsinin sintezi və təsərrüfat təcrübəsinin ümumiləşdirilməsi əsasında istehsalın sosial iqtisadi şərtlərini əks etdirir.

İstehsalın idarə edilməsi prinsipləri bütövlükdə iqtisadi komplekslərin idarə edilməsinə elmi yanaşmanı təmin edir, həm də iqtisadi qanunların dərk edilməsi və istehsalın inkişafı ilə tam uyğun münasibətlərdə olur.

İstehsalın inkişafının təmin edilməsində istehsalın idarə edilməsi prinsipləri istehsalın məqsədlərinə nail olunması üçün təşkilati məsələlərin həlli zamanı idarəetmə orqanlarının əldə rəhbər tutduğu əsas qaydalar sisteminin məcmusudur.

Aqrar sahədə kooperativin (fermer təsərrüfatı birliyinin) idarə edilməsi prinsipləri çox sayda amillərdən asılıdır. Bu amillərə istehsalın miqyası, təmayülü, istehsal texnologiyası, buraxılacaq və buraxılan məhsulların çeşidləri və xüsusiyyəti, strateji işləmələrdə müasir texnikadan və elektron variantından istifadə, istehsal texnologiyasının yeniləşdirilməsi, idarəetmə strategiyasının işlənilməsində modern üsul və vasitələrdən istifadə, xarici iqtisadi əlaqələrin səviyyəsi və b. daxildir.

Kooperativ üzrə idarəetməni işlərkən menecmentin prinsipləri, yəni idarəetmənin ümumi təcrübi məsələlərinin qoyuluşu zamanı idarəetmə sisteminin müxtəlif prinsipləri arasındakı əlaqələrin reallaşmasının qanunauyğunluqlarının təyin edilməsinə xüsusi diqqət ayrılmalıdır.

Strateji menecmentin təşkilində idarəetmə strategiyasını işləmiş, ilk dəfə olaraq klassik idarəetmə məktəbinin təməlini qoyan Fredrik U.Teylor nəzəriyyəsində mühəndislik elmləri ideyaları əsaslarının daha aşağı səviyyəli idarəetmə təşkilinə keçirilərək istifadə edilməsini təklif edirdi. Bugünkü modernizasiya səviyyəsi tələblərinə cavab verən bu idarəetmə nəzəriyyəsində F.Teylor göstərir ki, əl əməyi ilə icra edilən bir çox əməliyyatların, müşahidələrin, ölçmələrin, təhlilin nəticələrini istifadə edərək təkmilləşdirmək gərəklidir, başqa sözlə o, artıq hərəkətlərin aradan qaldırılmasını tövsiyə edirdi. F.Teylorun bu idarəetmə nəzəriyyəsi əsasən işin rasionallaşdırılmasını bir inkişaf amilitək irəli sürür.

Məşhur amerikan mütəxəssisi Harrinqton Emerson istehsal prosesinin maksimum səmərəliliyinə nail olunması üçün idarəetmə prinsiplərini işləmişdir. (bax şəkil 1.)



Şəkil 1. İstehsal sexlərinin idarəetmə aparatının və müxtəlif tərəf tapşırıqlarının idarə edilməsi prinsipləri sistemi (Q.Emersonun tərtibatı).

Qeyd etməliyik ki, Q.Emerson dünyada ilk dəfə olaraq idarəetmə üzrə stratej bir təşkilatçı mütəxəssis olaraq geniş miqyasda istehsalın səmərəliliyinin mahiyyətini aydınlaşdırdı. Tədqiqatlarından anlaşılır ki, məhsuldarlıq və səmərəlilik anlamı idarəetmə elminə Emersonun gətirdiyi təfəkkür məhsuldur.

Böyük amerikan alimi Emerson qeyd edilənlərlə yanaşı istehsalın idarə edilməsinin təşkilində çoxtərəfli, mürəkkəb praktiki tapşırıqların həllinə sistemli, kompleksli yanaşmanın məqsədəuyğunluğunu və zəruriliyi problemini formalaşdırmış və əsaslandırmışdır. O, ilk dəfə olaraq bütün idaəetmə sistemində idarəetmə formaları, üsulları və təşkili məsələlərinə fərq qoymadan bütün idarəetmə sistemi arsenalından yalnız idarəetmə prinsiplərini ayıraraq onların mahiyyətini əyani surətdə ifadə etmişdir.

Aparılmış araşdırmalardan aydın olur ki, U.Teylorun və Q.Emersonun idarəetmə ideyaları Anru Fayol tərəfindən inkişaf etdirilmişdir. Öz tədqiqatlarında o, idarəetmənin əsas funksiyası kimi müdiriyyətçilik zərurətinin fəallığını xüsusi ilə nəzərə çarpdırır. Bundan başqa A.Fayol idarəetmə strukturu üzrə tədqiqatlar aparmağa da cəhdlər etmiş və onun tərəfindən istehsalın idarəedilməsi prinsipləri işlənmişdir. (şəkil 2.)



Şəkil 2. İdaəetmənin prinsipləri sistemi (A.Fayolun tərtibatı üzrə).

Bugünkü Azərbaycanda alimlərimiz tərəfindən strateji idarəetmə üzrə aparılmış tədqiqatların təhlili əsasında menecmentin və əsasən də strateji menecment üzrə idaəetmə konsepsiyasını işlərkən xüsusi ilə aşağıdakı tədqiqat prinsiplərinin işlənməsinə xüsusi diqqət ayrılmalıdır:

1. Mərkəzləşdirilmə və qeyri-mərkəzləşdirilmə arasında optimal münasibətlərin yaradılması.
2. Kollegiallıq prinsipi.
3. Maddi və mənəvi həvəsləndirmə prinsipi.
4. Hüquq və səlahiyyətlərin vəhdəti prinsipi.
5. Məqsədli uyğunlaşma və cəmləşdirmə prinsipi.
6. Fasiləsizlik və etibarsızlıq prinsipi.
7. Planauyğunluq və dinamizm prinsipi.
8. İdarəetmə funksiyaları bölgüsünün demokratiklik prinsipi.
9. İdarəetmə üsullarının elmi və əsaslılıq prinsipi.
10. Elmilik prinsipi.
11. İdarəetmənin səmərəliliyi prinsipi.
12. İdarəetmədə şəxsi, kollektiv və dövlət maraqlarının uyğunlaşdırılması prinsipi.

Strategiyanın təşkilində tədqiqat prinsipləri əsasında strateji idarəetmənin modernləşdirilməsi vəzifəsinin qarşıda durduğunu nəzərə alaraq işlənilmiş strategiya tərtibatının necə fəaliyyətə başlanması və planlaşdırılan illər ərzində zəruri nəticələr alınması məqsədi menecerlərin diqqətindən yayınmamalıdır. Tədqiqatlarımız əsasında belə nəticəyə gəlmək olar ki, işlənilmiş idarəetmə strategiyasının bilavasitə Azərbaycan Respublikasının kənd ərazilərində modernləşmiş aqrar sahələrin tələblərinə uyğun tətbiqi qarşıya qoyulan vəzifəyə daxil olan aşağıdakı aspektlərdən ibarət yuxarı təşkilatın inzibati tapşırığına yaxındır:

- Strategiyadan uğurla istifadə edilə biləcək aqrar sahə üzrə kooperativin (fermer təzərrüfatları birliyinin) yaradılması;
- Aqrar sahədə strateji uğurlara nail olunması üçün mühüm olan resursların onlara ötürülməsi üçün maliyyə planının işlənməsi;
- Həmin idarəetmə strategiyasını dəstəkləyən siyasətin həyata keçirilməsi;
- Qarşıya qoyulan məqsədlərə nail olunması üçün işləyən insanların maraqlandırılmasını motivləşdirmənin təşkili, onların vəzifələrinin və istehsalda davranışlarının dəyişilməsi zərurəti, ona görə ki, onlar bundan sonra strategiyanın uğurla reallaşması tələblərinə uyğun gəlsinlər;
- Mükafatlandırma sisteminin qarşıya qoyulan məqsədlərə nail olunma nəticələri ilə əlaqələndirilməsi.
- Aqrar sahə kooperativində elə bir mədəni şərait və işgüzar vəziyyət yaradılmalıdır ki, strategiyanın uğurla reallaşmasına uyğun gəlsin;
- Elə bir daxili dəstək sistemi yaratmaq lazımdır ki, bu aqrar sahə kooperativinə imkan versin ki, hər gün strateji rolunu səmərəli icra edə bilsin;
- Daima təkmilləşən praktika və proqramın istifadəyə verilməsi;
- İrəliyə hərəkət strategiyasının idarə olunması və onun daima reallaşdırılması üçün irəliyə strategiyasının idarə edilməsi məqsədi ilə zəruri olan daxili liderliyin həyata keçirilməsi.

Rəhbərliyin və müdiriyyətin vəzifəsi görülən işlər arasında uyğunluq yaratmaqdan ibarət olmalı və strategiyanın təşkilinin reallaşmasının səmərəli icra edilməsi üçün strategiyada nəzərdə tutulanların nəzərdə tutulduğuna uyğun icrası üçün zəruri məqsəd olmalıdır. Tədqiqatı həyata keçirərkən nəzərə alınmalıdır ki, bu günün modern tələblərinə uyğun işlənilmiş strategiya və strateji menecmentin müasir idarəetmə sisteminin təşkil imkanları arasında, işlənilmiş strategiya və menecer və işçilərin mükafatlandırılma sistemi arasında, qüvvədə olan strategiya ilə daxili dəstəkləmə sistemi arasında, habelə təşkili reallaşdırılan strategiya və həmin təşkilatın orada çalışanlara və əlaqəli fəaliyyət göstərənlərə yanaşma tərzi arasında yüksələn inkişaf xəttini həyata keçirən dövlət rəhbərliyi siyasətində modern tələblərə uyğun və əsas əlaqələr təşkilinə riayət edilməsi əsas götürülməlidir. Tədqiq etdiyimiz aqrar sahə müəssisələri və kooperativlərinin bu stillə iş fəaliyyətinə uyğun gəlməsi işlənilmiş icrası tələb olunan idarəetmə strategiyasının səmərəli həyata keçirilməsi üçün zəruri olmaqla, aqrar sahələrin əlaqəli təşkilatlarının qarşıya qoyulan məqsədlərə nail olunması üçün birləşmələrinə kömək edəcəkdir. [2, s.250]

Strateji idarəetmənin aqrar sahədə geniş tətbiqində modernləşdirmə

Ölkəmizdə bu gün strateji menecmentin və strateji idaəetmənin aqrar sahədə geniş tətbiqində modernləşdirmə paradiqmasının tarixi inkişaf prosesində müəyyən dəyişikliklərə uğraması diqqət mərkəzindən yayınmamalıdır. Belə ki, məşhur tədqiqatçı alim S.N.Eisensadinin “Modernizatcon. Protestand Change. Prentice Hall” adlı əsərində modernləşdirmə post industrial cəmiyyətə keçid kimi qiymətləndirilirdisə hazırda modernləşdirmə iqtisadi biliklərə yiyələnməyi sürətləndirən bir paradiqma kimi qəbul edilir.

Modernləşdirmə üzrə tədqiqata əsasən onun iki növü bir-birindən fərqləndirilir ki, onlar üzvi və ya qeyri-üzvi modernləşdirmədən ibarətdir. Tələb olunan strateji idarəetmə yeniliklərini özləri açıb göstərdilər və tətbiq etdilər. Bunun nəticəsi olaraq həmin ölkələr mədəniyyət, memarlıq, dünyagörüşləri və yerli yaşayış məskənlərinin idarə edilməsi sahəsində irəliləyişlərə nail oldular. Beləliklə, modernləşmənin bu növünün tətbiq edildiyi ölkələrdə modernləşdirmə nəticəsində idarəetmə təkmilləşdirilərək o, mərkəzləşdirilmiş dövlət, siyasi, büdcə münasibətləri, sənayeləşmə, demokratik, xarici beynəlxalq əlaqələrin möhkəmlənməsində zaminə çevrildi.

Bəhs edilən qeyri-üzvi modernləşdirmə ilə idarəetmədə əhatənin ayrı-ayrı çağırışlarına cavab kimi özünü əks etdirdi və qeyri-üzvi növ o ölkə və cəmiyyətlərdə baş verdi ki, onlar başqalarının yaratdıqları texniki tərəqqi nəticələrini tətbiq etməyə bir inkişaf xətti kimi qərar verdilər. Yuxarıda adını qeyd etdiyimiz idarəetmə üzrə mütəxəssis S.N.Eisensadi bu tipli modernləşdir-

mə tətbiqini uğuru adlandırmışdır. Bu növün tətbiq edildiyi ölkələrdə modernləşdirmənin uğuru cəmiyyətdə baş verə biləcək keyfiyyət dəyişiklikləri ilə birbaşa bağlıdır.

Strateji menecmentin idarəetmə strategiyasının hər hansı müəssisə və təşkilat üçün, aqrar sahədə kooperativlər üçün işlənməsi qarşıya qoyularkən ölkəmizin həmin sahə üçün modernləşmə vəziyyəti diqqətlə öyrənilməlidir. Məşhur ingilis alimi Rostou ölkədə iqtisadi inkişafı təmin etmək məqsədilə ayrı-ayrı şirkət və kompaniyalarda rəhbərlik tərəfindən strateji idarəetmə strategiyası işlənirkən baş verəcək dəyişiklikləri irəlicədən hiss edərək modernləşdirmə nəzəriyyəsini beş mərhələyə ayırır. O, hər bir mərhələdə hər bir yenilik və dəyişməni elmi və praktiki cəhətdən əsaslandıraraq öyrənməyi və strateji menecmentin işlənilməsində tətbiq etməyi təklif edir.

Rostou modernləşdirmə nəzəriyyəsini mərhələlərə ayıraraq "Birinci mərhələni - traditional society" (ənənəvi cəmiyyət) adlandıraraq, bu mərhələdə istehsal məhsullarının tamamilə istehlak olunduğunu meydana çıxararaq, ticarətin barter üsulu ilə aparılmalı olduğunu qeyd edərək, bu şəraitdə texnologiyanın dəyişilməsi və inkişaf etdirilməsi məhdudluğunu açaraq nəzərə çarpdırır.

Rostounun işləmiş olduğu modernləşdirmə nəzəriyyəsinin ikinci mərhələsində (precocnodition for takcoti - qalxınma üçün təminat) göstərilir ki, əməliyyatların ixtisaslaşmış işçi qüvvəsi tərəfindən icrası ticarətin davam etdirilməsi və genişləndirilməsi üçün geniş imkanlar açır və izafi məhsul istehsalına və bu səbəbdən də strateji menecment strateji idarəetmə planları tərtib edilərkən modernləşdirmənin ikinci mərhələsi xüsusi ilə nəzərdə tutulmalıdır. Rostounun fikrincə, modernləşdirmənin bu mərhələsində ölkənin mərkəzi idarəetmə sistemləri və mərkəzi hakimiyyəti özəl sektora dəstəyini artırmalıdır. Bizim fikrimizcə, bu mərhələyə əsaslanaraq strateji idarənin təşkilində aqrar sahə kooperativləri və iri fermer təsərrüfatlarının öz istehsal məhsullarını təşkil etdikləri emal sexlərində emalını və yaxud aqrar sənaye komplekslərinə daxil olaraq həmin məhsulların emalını həyata keçirmələri ölkənin iqtisadi inkişafına böyük təkan olardı. Tədqiq edilən modernləşdirmə nəzəriyyəsinin üçüncü mərhələsində (takcoti - qalxınma) sənayeləşmə nəticəsində aqrar sahədə tətbiq edilən əməyin bir hissəsi sənaye emalında istifadə edilməyə başlayır və nəticədə həmin müəssisə və kooperativlərin fəaliyyət göstərdikləri regionlarda istifadə edilməyən əmək ehtiyatlarının bir hissəsi istehsal sahələrinə cəlb olunur.

Həmin alimin işlədiyi modernləşdirmənin dördüncü mərhələsində (driveto maturity - kamilliyə doğru) tədqiq edilən sahədə iqtisadiyyat şaxələnir. Modernizasiya nəzəriyyəsinin beşinci mərhələsində (High mass consumpition – yüksək kütləvi istehlak) isə məcmu istehsalda (kütləvi istehsalda) məcmu istehlak genişlənir, əhalinin və alıcıların və həm də, sahibkar və işçi qüvvəsinin aktivliyi artır, servis bölməsi əsas rol oynamağa başlayır və həmin əhatədə ölkədə müəyyən kəmiyyətdə sosial rifah yaxşılaşır.

Yeni XXI əsrin Azərbaycanında strateji idarəetmənin işlənilməsinin təşkilində menecerlərin əsas vəzifəsi işə qəbul etmədə, ayrı-ayrı işçilərin qiymətləndirilməsində, modern dönəmi rəhbər tutaraq onlar qarşısında "necə etməyi bilirəm" deyil, "necə etməyi öyrənəcəyəm" tələbi strategiya işlənməsində diqqətə çatdırılmalıdır. Bu məqsədə nail olmaq üçün menecerlər, fikrimizcə, öz duyumlarının və özünüaparma sistemlərinin gedişini, habelə işçilərin gündəlik davranışlarına necə təsir etmələrini anlamalıdırlar.

Qədəm qoyduğumuz yeni minillikdə işlənmiş strategiyanın təşkilinə əsaslanaraq daxil olan informasiyaların çoxluğunu dərk edərək ayrı-ayrı idarəetmə müddətlərinin uzadılması təhlükəsi ilə üz-üzə gəlməkdən çəkinirlər.

Hər hansı kooperativ kompaniya və ya iri fermer təsərrüfatı strategiyasının işlənməsində menecer informasiya mənbələrindən fayda götürmək üçün intellektual bacarıqlarını inkişaf etdirməli, hadisələri hiss etmək və bilavasitə görmək mümkünlüyünü genişləndirərək, kombinə edib strategiyanın həyata keçirilməsinin təşkilində əhəmiyyətli problemlərin həllinə yönəltməlidirlər. Artıq bir həqiqətdir ki, modernləşdirmə tələblərinə uyğun olaraq idarəetmədə hər bir rəh-

bərin və menecerin görünüş dairəsi və diqqətinin mərkəzləşdirilməsi, bir-birinə əks qütblü xüsusiyyətlər olması bu günün idarəetmə mütəxəssislərini cəlb edir. Araşdırmalarımızda sənayecə inkişaf etmiş ölkədə idarəetmə strategiyasının təşkili təcrübəsinə arxalanaraq onların bir-biri ilə birləşməsini ölkəmizdə idarəetmə strategiyasının işlənməsinin ayrı-ayrı tədqiqat obyektlərində reallaşdırılmasını təklif edirik.

Strateji menecmentin təşkilində müəyyən edilmiş müddətdə strateji idarəetmənin müəyyən edilməsi mahiyyəti əsasən keçmişdə toplanmış təcrübədən bugünkü modernləşmə texnikası və texnologiyasının elmi-nəzəri biliklərə yönəlmə səviyyəsini nəzərə almaqla istifadə edilməsi, habelə gələcək perspektivdə (5-10 il üçün) müəyyən ediləcək strateji hesablamaların mümkün təşkili düşünülməlidir. Əgər strateji menecmentin idarəetmə strategiyası keyfiyyətli işlənməklə yanaşı keyfiyyətli icra edilərsə nəticəsi modern gələcəyin əsl bənzəyişi və təsvirinin anlamı olacaq. Bu nəticədən gündəlik idarəetmənin planlaşdırılmasında elmi-strateji əsaslı özül kimi istifadə etmə strateji menecmentin təşkili səviyyəsini təsdiq edilən kooperativ, kompaniya və şirkətdə menecer fəaliyyətinin dəyərini artıracaqdır.

Yevlax rayonunda fermer təsərrüfatları birlikləri və kooperativlər yaradılması haqqında Azərbaycan Respublikası Prezidenti tövsiyələrini nəzərə almaqla tərəfimizdən işlənmiş strateji menecmentin idarəetmə strategiyasının təşkili gedişini aşağıdakı strateji idarəetmənin təşkili nümunəsində nəzərdən keçirək. [3,312]

Kooperativlər yaradılması məqsədi ilə Goranboy rayonunun müəyyən fermer təsərrüfatlarında strateji menecmentin strategiyasının təşkilinə dair

Kooperativlərin təşkili məqsədi ilə idarəetmə strategiyasının təşkilində iş əməliyyatlarının həyata keçirilməsi və planlaşdırılması yalnız o halda faydalı ola bilər ki, idarəetmənin strateji təşkili komponentləri diqqətlə düşünülsün, strategiyanın işlənilməsinin təşkilindəki məhdudiyyətlər isə aydınlaşdırılaraq adlandırılsın.

Strateji işləmə qərarının reallaşması üçün bir neçə metodoloji üsuldan istifadə edilməlidir: tədqiqatçı kimi müəyyən edin ki, bu adı çəkilən strategiyanın işlənməsi nə üçün lazımdır, hansı strateji idarəetmə qərarları onlara əsaslanır. Qeyd edilənlərə əsasən strategiyanın təşkilinin tələb olunan dəqiqliyi müəyyən edilir. Bu prosesdə menecer tək tədqiqatçının tərəfindən bir sıra qərarların qəbul edilməsi, hətta ola biləcək buraxıla bilən səhvlər 10%-dən az olsa belə, təhlükəli hesab edilməlidir. Strategiyanın işlənməsində menecerin başqa bir qərarı isə təkrar-təkrar daha çox buraxıla bilən səhvlər ola bildikdə belə heç bir təhlükə hiss etmədən qəbul edilə bilər. Strategiyadan xaric baş verə biləcək dəyişiklikləri təyin edirik ki, işlənən strategiyanın təşkili sınanmış və etibarlı olsun. Sonradan idarəetmə strategiyasına uyğun hadisələrin baş verməsi strateji təşkilin düzgün qiymətləndirilməsini istifadə edir. İşlənən strategiyanın təşkilində komponentləri təyin edib verilənlərin mənbələrini düşünürük. Strateji işləmənin tərkibində keçmiş modernləşdirilmiş təcrübənin necə qiymətləndirildiyini müəyyən edirik. Nəticə çıxararaq göstəririk ki, dəyişiklik hansl qiyməti almışdır ki, modern təcrübəyə əsaslanmış strateji idarəetmənin işlənməsinin bəzi gələcəyə münasibəti amilləri faydasız hesab edilə bilər. Strategiyada uyğun məhsullar istehsalının inkişaf variantı üzrə verilənlər işlədiyimiz strateji inkişaf variantının gələcəyi üçün strateji proqnoz tərkibinə əsas vermir. Keçmişin bu gün modernləşdirilmiş təcrübəsi haqqında etibarlı informasiyanın alınması nə qədər sadə və ucuzdur?

Strateji idarəetmənin nə qədər etibarlılığını müəyyənləşdirin. Satışın işlənmiş strategiyada miqdarının müəyyənləşdirilməsində bazarın ayrı- ayrı hissələrinin ayrıca tədqiq edilməsini həyata keçirmək məqsədəuyğun olardı. İnkişaf edən istehlakçılar, sabit istehlakçılar, iri və xırda istehlakçılar,yeni istehlakçıların meydana çıxması ehtimalını və başqalarını müəyyən edin.

Nəticə

Tədqiqatlara əsasən deyə bilərik ki, Azərbaycanda modernləşdirmənin əsas prioritetlərindən kiçik və orta sahibkarlığın inkişafında rəqabətqabiliyyətliliyin güclü olduğu sahələrdə elmi yeniliklərin dəstəklənərək tətbiqi innovativ inkişaf, o cümlədən ölkənin iqtisadi rayonlarında yeni sənaye müəssisələrinin tikilməsi və onların ən yeni texnika və texnologiya ilə təmin edilməsi, əmək ehtiyatlarından daha səmərəli istifadə etmək üçün fermer təsərrüfatları ilə emal müəssisələrinin təşkili strategiyasının işlənilməsi çox zəruri gerçəkliyə çevrilir. Ölkənin kənd ərazilərində fermer təsərrüfatlarının inkişaf strategiyasını işlərkən aqrar-sənaye komplekslərinin təşkili və onların inkişaf etmiş sənaye ölkələrində uyğun oxşar emal kombinatlarının modern iş rejimlərinə tətbiqi xüsusiyyətlərini mənimsəyərək daha yüksək nailiyyətlər əldə edilməlidir. Belə bir modernləşdirmədən istifadə strategiyasının işlənməsi yerli sahibkarların, fermer təsərrüfatlarının və elmi-tədqiqat mütəxəssislərinin ümdə vəzifələrindəndir.

Ölkə iqtisadiyyatının modernləşdirilməsində iri təsərrüfat sahibkarlarının dəstəklənməsi də əsas tələblərdəndir. Bu məqsədlə də iri sahibkarlar müəssisə, şirkət və kompaniyalarının fəaliyyətində riskli yönəmlərdən kənarlaşmalı və bu gedişlərə uyğun idarəetmə strategiyası işlənməlidir. Bu baxımdan iri müəssisələrin aktivlərindən kredit resurslarının cəlb edilməsi üçün təminat kimi istifadə edilə bilər. Hər hansı iri sahibkar strateji strategiyanın işlənməsində maliyyə menecmentinə də geniş diqqət ayırmalı, bu məqsədlə bu istiqamətdə məşğul olan menecerlərə iri biznes fəaliyyətinin həyata keçirilməsi məqsədilə strateji idarəetmədə uyğun variantlar işlənilməlidir.

Ölkəmizdə də iri sahibkarlar beynəlxalq kommersiya əlaqələri fəaliyyətlərində dövlət dəstəyinə arxalanaraq öz biznes fəaliyyətini modern tələbata uyğun qurmalı və idxal-ixrac əməliyyatları aparılmasının reallığını təmin etmək məqsədi ilə səmərəli fəaliyyətə dəstək verə biləcək və ölkənin valyuta ehtiyatlarının artırılmasına yönəlmiş strategiya işləyərək onu elmi əsaslandırmalıdırlar.

Azərbaycanda iqtisadiyyat sahələrində fəaliyyət göstərən sahibkarlara dövlət dəstəyinin nəticəsidir ki, sonuncu qlobal iqtisadi böhranın təsirləri və uğursuzluqları ölkəmizdən uzaqlaşdırıldı.

Müasir iqtisadiyyatımızda Azərbaycan respublikası regionlarının 2004-2008-ci illərdə və 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının nəticəsidir ki, ölkəmizdə dünyadakı modern inkişaf dönəminə uyğun olaraq strateji idarəetmənin sensual liderlik səlahiyyətlərinin genişləndirilməsi metodologiyası üzərində qurulması gələcək inkişafı istiqamətləndirir. Elmi əsaslandırılmış metodologiyaların işlənməsi və tətbiqi strateji idarəetmədə özünəməxsus rol oynamaqla bugünkü menecerlərin fəaliyyətinin əsasını təşkil etməlidir.

Bugünkü modernləşmə dönəmində menecerlərin strategiyasının işlənməsində yaradıcılıq atmosferi və təxəyyülləri hər hansı bir menecerin bu günü və modern gələcək görmələrini yüksək rəhbərliyin arzu və məqsədinin təsvirini verən ideal görüntülərlə əvəz edir. [1, s.136]

ƏDƏBİYYAT

1. Atakişiyev M.C. İnnovasiya menecmenti. Bakı, 2004, 136 s.
2. Alıyev İ.H. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləşdirilməsi. Bakı, 2003, 315 s.
3. Qasımlı V.Ə. İqtisadi modernizasiya. Bakı, 2014, 312 s.
4. 3http://agrolizing.gov.az./

Вугар Бахрам оглы Керимли
научного сотрудник ИЭ НАНА,
диссертант АУК

Стратегическое управление и модернизация приложений изучения путей менеджмента

Резюме

В статье исследованы пути модернизации стратегического менеджмента и применения новых принципов управления для обеспечения соответстющего уровня развития аграрного сектора на современном этапе. В то же время определены основные методы по исследованию стратегического менеджмента и рассмотрена возможность применения их в аграрном сектор республики. Особенно отмечено что модернизация стратегического менеджмента должна быть обоснованно и реализованно определениями методами.

Ключевые слова: управление, стратегия, стратегический менеджмент, методы и модернизация.

Vugar Bakhram Kerimli
Scientist of EU ANSA,
candidate for a degree of ACU

Strategic management and application modernization study ways

Summary

In the article the way of modernization of strategic management and implementation of new management principles to ensure sootvetstyuschego level of development of the agricultural sector at the present stage. At the same time the basic techniques for the study of strategic management and considered the possibility of their application in the agricultural sector of the republic. Particularly noted that the modernization of strategic management must be reasonable and implement certain methods.

Key words: management, strategy, strategic management, methods and modernization.

UOT 005.94

Səxavət Tofiq qızı MƏMMƏDOVA
Sumqayıt Dövlət Universiteti

İNNOVASİYA İQTİSADİYYATINDA İNSAN KAPİTALININ REALLAŞDIRILMASI

Xülasə

İnnovasiya iqtisadiyyatı bütün növ innovasiyaları həyata keçirməyə qadirdir. İnnovasiya iqtisadiyyatı bir sıra əlamətlərlə səciyyələnir ki, ondan da ən əsası insan kapitalıdır. Bunun üçün də insan fəallığının yüksəldilməsi innovasiya iqtisadiyyatının inkişafında əsas amillərdən biridir.

Açar sözlər: insan kapitalı, innovasiya iqtisadiyyatı, kadr potensialı, təhsil sistemi, innovasiya sistemləri.

Giriş

İnsan kapitalının inkişafını gələcək iqtisadi strategiyanın əsas hədəflərindən biri kimi müəyyən edən Azərbaycan dövləti "qara qızılı" məhz bu istiqamətə yönəldərək gələcək milli inkişafa əsaslı zəmin yaradır. Bu prioritetlər gələcəyin, yeniliyin hədəflərini təşkil edir. 2020-ci iləDək dövrü əhatə edən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanmasına 2011-ci ilin noyabrında prezidentin müvafiq sərəncamından sonra başlanmışdır. [1]

İnnovativ iqtisadiyyatda güclü maliyyələşdirməyə imkan verən iqtisadi resursların olması ilə bərabər, bu sistemi idarə edən intellektual və texnoloji potensiala da böyük ehtiyac var. İnnovasiya şəbəkəsinin iştirakçılarının sayının daim artması, bura yeni sosial qrupların cəlb edilməsi, innovasiya inkişafına istiqamətlənən institusional sistemin yaradılması bu sahədə əsas amillərdəndir. Azərbaycanda insan kapitalının zəngin elmi bazaya söykəndiyini nəzərə alsaq, elmi innovasiyalar sahəsinə yatırılan kapitalın böyük əhəmiyyət daşıdığını yəqin etmək olar.

Bu gün dünyada keyfiyyətli insan kapitalı uğrunda rəqabət dərin xarakter almışdır və insan ən zəngin kapital kimi dünya innovasiya inkişafının əsas fundamentini təşkil edir. Yüksək ixtisaslı işçi heyətinin çevikliyinin artması, biliyin paylaşılması prosesi hazırda genişmiqyaslı bir dünya planı kimi sürətli vüsət almışdır. Qloballaşma şirkətləri daha yüksək səviyyəli texnologiya uğrunda rəqabət aparmağa, innovasiyaların ixtisaslaşdırılması və lokallaşdırılması prosesini stimullaşdırmağa məcbur edir.

İnsan kapitalı və iqtisadi inkişaf

İnsan kapitalı-şəxsin gələcəkdə peşə fəaliyyəti zamanı gəlir gətirə biləcək istedad və qabiliyyətlərinə hazırda qoyulan sərmayələrin cəmidir.

İnsan kapitalı-insanın və onun təmsil olunduğu cəmiyyətin müxtəlif ehtiyaclarının ödənilməsinə yönəlmiş bilik, bacarıq və vərdişlərin cəminə deyilir. İlk dəfə "insan kapitalı" termini amerikan iqtisadçısı Teodor Şuls tərəfindən işlənmişdir, sonradan onun davamçısı *Geri Bekker* isə bu ideyanı daha da inkişaf etdirmişdir. O, insan kapitalına yatırımların effektivliyini ön plana çəkərək insan davranışlarına iqtisadi yanaşmanın formulunu işləyib hazırlamışdır. Əvvəllər insan kapitalı deyəndə ağlımıza insanın əmək təcrübəsinin artırılması üçün lazım olan təhsil və peşəkar biliklər toplusu gəlirdisə, sonralar insan kapitalı termini daha da genişlənməyə başladı. *Dünya Bankının* ekspertlərinin son hesabatlarında insan kapitalına bir çox elementlər-ailələrin qida, geyim, mənzil, təhsil, səhiyyə və mədəniyyət üçün ayırdığı xərclər də əlavə edilmişdir. Şübhəsiz ki, dövlətin də bu sahədəki vəsaitləri yuxarıda qeyd edilən elementlərə daxildir. İnsan kapitalı geniş anlamda iqtisadi inkişaf faktorunun, cəmiyyət və ailənin inkişafının intensiv məhsuldarlığı deməkdir. Bura əmək resurslarının təhsil komponenti, biliklər, intellektual və idarəetmə bacarığı və digər faktorlar daxildir ki, bütün bunlar da inkişafın əsas şərti olan insan kapitalının effektiv və səmərəli tətbiqinə şərait yaradır. Qısaca desək, insan kapitalı-intellekt, sağlamlıq, biliklər, keyfiyyətli və məhsuldar əmək, o cümlədən həyat səviyyəsi deməkdir.

Möhkəm elmi bazaya əsaslanan sosial-iqtisadi nailiyyətlər hər bir ölkənin davamlı inkişafını təmin edən əsas amillərdən biridir. Təsadüfi deyil ki, Azərbaycan hökumətinin böyük diqqət ayırdığı sahələrdən biri də elmdir. Respublikamız savadlı kadrlar, texnologiya, uzun illərin təcrübəsi və digər amillər sayəsində geniş elmi potensiala sahibdir. Məhz bu potensialın üzə çıxarılması, keçmiş təcrübənin yeni nəslə ötürülməsi, qabaqcıl texnoloji, tibbi və digər nailiyyətlərin elmi əsaslarının ölkəmizdə tətbiqi və bu kimi başqa tədbirlər elmin inkişaf tempinin artmasına müsbət təsir göstərir.

Azərbaycan milli məhsulda elm və təhsilin çəkisinin artırılması və kapital resurslarının zəngin elmi bazaya, kadr potensialına yönləndirilməsi kimi mühüm addımlar atmaqdadır. Kadr potensialının müasir dövrə uyğun qurulması, demokratik idarəetmədə elektron hökumətin qurulması və funksional idarəetmənin gəncləşməsi yeni siyasi reformalarda mühüm üstünlüyə malikdir.

Azərbaycanda yaxın illər üçün güclü kadr bazasının formalaşdırılması əsas prioritetlərdəndir və bununla bağlı hərtərəfli zəmin yaradılıb. «Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı»nın müəyyənləşdirdiyi prinsiplər, eləcə də Prezident yanında Elmin İnkişafı Fondunun başlıca tezisləri birbaşa yeni tərəqqi erasının kadr bazasının hazırlanmasına hesablanmışdır. Bu strategiyanın ali məqsədi elmi araşdırmaların stimullaşdırılması, ölkənin təbii sərvətlərinin, mədəni və tarixi irsinin öyrənilməsi işlərinin intensivləşdirilməsi, elmin müxtəlif sahələri üzrə tədqiqatların səmərəliliyinin artırılması və Azərbaycan elminin dünya səviyyəsində layiqincə təmsil olunmasına dövlət dəstəyinin təmin edilməsidir.

Dünyada iqtisadi artımın 16%-i fiziki kapital, 20%-i təbii ehtiyatlar, 64%-i isə insan kapitalı hesabına əldə olunmuşdur. İnsan kapitalına yönələn xərclərin artması nəticədə həmin ölkənin gələcəkdə daha da inkişaf etməsinə səbəb olur. *Dünya Bankının* apardığı araşdırmalara görə ABŞ-ın milli sərvətinin 76 %-ini insan kapitalı, 19%-ini istehsal, 5%-ini isə təbii resurslar təşkil edir. Avropada isə milli sərvətin 74%-i insan kapitalının, 24%-i istehsalın, 2%-i təbii sərvətlərin payına düşür. Rusiyada bu göstəricilər: insan kapitalı 50%, istehsal 10%, təbii sərvətlər isə 40%-dir.

İnnovasiya iqtisadiyyatında insan kapitalı

Bazar iqtisadiyyatı münasibətləri olmadan innovasiya iqtisadiyyatını, öz-özünü təmin edən innovasiyaları və innovasiya əmtəələrini yaratmaq praktiki olaraq mümkün deyildir. Bütövlükdə innovasiya iqtisadiyyatı cəmiyyət üçün faydalı olan hər cür innovasiyaları (patentlər, lisenziyalar, nou-xau, başqalarından götürülmüş və özünün yeni texnologiyaları və s.) səmərəli istifadə etməyə qadir iqtisadiyyatdır. İnnovasiya iqtisadiyyatı dövlət daxilində alimlərin ideyalarının təcrübi tətbiqinə və onların innovasiya məhsullarında maddiləşməsinə yardımçı olan ümumi infrastrukturdur, müsbət, yaradıcı insan kapitalını yığmağa və artırmağa qadir iqtisadiyyatdır. İnnovasiya iqtisadiyyatı insan kapitalının dəyəri və keyfiyyətinin artması ilə yanaşı yaranaraq inkişaf edir və insan kapitalı onun inkişafının başlıca amili hesab olunur. Yığılmış keyfiyyətli insan kapitalı bilik iqtisadiyyatının bünövrəsinin əsas hissəsini, onun cari səviyyəsini və inkişafının ən yüksək səviyyəsini təşkil edir.

Azərbaycanın iqtisadi strategiyasında insan kapitalının formalaşdırılması prioritet məqsəd kimi, müasir bilik və nanotexnologiyalar isə innovasiyanın inkişaf vasitələri kimi müəyyən edilmiş, strategiyanın elmi cəhətdən təhlili və əsaslandırılması mövcud uğurların davamlılığının və effektivliyinin təminatı kimi qiymətləndirilir. Ölkənin hər hansı bir fəaliyyət sahəsində innovasiyanı tətbiq etməzdən əvvəl bu sahənin innovasiya potensialını müəyyən edirlər. İnnovasiya potensialı innovasiya fəaliyyətinin həyata keçirilməsi üçün zəruri olan maddi, maliyyə, intellektual, elmi-texniki və digər resursların məcmusudur. [2, s. 26]

İnnovasiya iqtisadiyyatının lokomotivi, innovasiyaların ideyalardan hazır əmtəələrə və alıcılara doğru hərəkətinin generator fəaliyyətinin bütün növlərində rəqabət hesab olunur. Rəqabət,

sahibkarları və menecerləri bazarda öz paylarını artırmaq, mənfəəti çoxaltmaq üçün yeni məhsul, innovasiya məhsulu yaratmağa stimullaşdırır. Azad rəqabət yeni biliklərin, innovasiyaların, səmərəli innovasiya məhsullarının əsas stimullaşdırıcısı hesab olunur. İnnovasiya sistemi,vençur biznesi (inkişaf etmiş ölkələrdəki) Azərbaycanın da daxil olduğu inkişaf etməkdə olan ölkələr üçün model hesab olunur.İnkişaf etmiş ölkələrin innovasiya iqtisadiyyatı aşağıdakı əlamətlərlə səciyyələnir:

- insan kapitalının yüksək səviyyəsi və yüksək keyfiyyəti ilə;
- onun inkişafına qoyulan yüksək investisiyalarla;
- qanunun aliliyi ilə;
- vətəndaşların və biznesin şəxsi təhlükəsizliyinin yüksək səviyyəsi ilə;
- keyfiyyətli yaşayış səviyyəsi ilə;
- fundamental elmlərin yüksək inkişaf səviyyəsi ilə;
- tətbiqi elmlərin yüksək inkişaf səviyyəsi ilə;
- ölkədə güclü texnoloji inkişafın intellektual mərkəzlərinin-texnoparkların mövcudluğu ilə;
- yeni iqtisadiyyat sektorunun əhəmiyyətli payı ilə;
- insanın bütün intellektual fəaliyyət sferalarında yüksək səmərəliliyinin mövcudluğu ilə;
- dövlət tərəfindən dəstəklənən inkişaf etmiş və səmərəli innovasiya sistemlərinin mövcudluğu ilə;
- dövlət tərəfindən dəstəklənən inkişaf etmiş və səmərəli vençur sistemlərinin mövcudluğu ilə;
- cəzbedici investisiya mühitinin və yüksək investisiya reytinqinin mövcudluğu ilə;
- əlverişli sahibkarlıq mühiti ilə;
- diversifikasiyalaşdırılmış iqtisadiyyat və sənaye ilə;
- dünyanın texnoloji bazarlarında rəqabət qabiliyyətli məhsulu ilə;
- texnopolislərin, innovasiya mərkəzlərinin, bir sözlə, innovasiya qurumlarının mövcudluğu ilə;
- iqtisadiyyatın və ölkənin inkişafının səmərəli dövlət tənzimləməsi ilə;
- ölkənin rəqabətqabiliyyətli texnoloji və elmi inkişafını təmin edən transmilli korporasiyaların mövcudluğu ilə;
- ekologiyanın sağlamlaşdırılması və ölkə resurslarından istifadə zamanı gələcək nəslin maraqlarının qorunması ilə;
- aşağı səviyyəli (bir qayda olaraq 3%-dən aşağı) inflyasiya ilə.

Qeyd olunan amillərin və şərtlərin mövcudluğu innovasiyaların tezliklə rəqabətqabiliyyətli məhsullara çevrilməsini təmin edir.İnnovasiya iqtisadiyyatı dünya meyarlarına görə rəqabət qabiliyyətli məhsulların yaradılması və iqtisadi inkişaf üçün lazım olan 6 əsas tərkib ünsürünü özündə birləşdirir:

1) Təhsil.
2) Elm.
3) Yüksək keyfiyyətli həyat səviyyəsi və yüksək ixtisaslı mütəxəssislər də daxil olmaqla bütövlükdə insan kapitalı.
4) Qanunvericilik bazasını, texnoparkları, innovasiya mərkəzlərini və sairəni özündə birləşdirən innovasiya sistemləri.
5) Yenilikləri həyata keçirən innovasiya sənayesi.
6) İnsan kapitalının fəaliyyət göstərməsi üçün əlverişli şərait.

Fikrimizcə, səmərəli innovasiya iqtisadiyyatının tərkib ünsürlərini dördə qədər azaltmaq daha məqsədəuyğundur:

1. Geniş mənada yüksək keyfiyyətli insan kapitalı.
2. Səmərəli innovasiya sistemi.
3. İnnovasiya məhsulunu istehsal etməyə qadir səmərəli sənaye.

4. İnsan kapitalı üçün əlverişli şərait.

İnsan inkişafı konsepsiyası XX əsrin son onilliyində meydana gəlmiş insan inkişafına doğru istiqamətlənmiş ən müasir inkişaf modellərindən biridir. Bu konsepsiya inkişafın bütün aspektlərini-iqtisadi artım, investisiya, texnologiyalar, infrastruktur, beynəlxalq ticarət, sosial müdafiə, məşğulluq və insan inkişafi ilə bağlı digər sahələri özündə cəmləşdirir. *Davamlı İnsan İnkişafı Konsepsiyasının* əsas məqsədi insanlara mövcud olduqları insan kapitalının imkanlarının tam şəkildə həyata keçirilməsi, cəmiyyətdə sərbəst seçim prosesləri üçün bərabər şəraitin yaradılmasının təmin edilməsindən ibarətdir. Davamlı İnsan İnkişafı Strategiyasında elə bir inkişaf prosesi nəzərdə tutulur ki, bu bir tərəfdən müvafiq sosial iqtisadi siyasətlə tənzimlənməli, digər tərəfdən isə gələcək nəslin inkişafı üçün zəmin yaratmalıdır. Davamlı İnsan İnkişafı Konsepsiyası öz qarşısına insan inkişafını əsas məqsəd kimi qoymaqla ona nail olmaq yollarını araşdırır. Son dövrlərdə dünya iqtisadiyyatında baş verən qloballaşma prosesləri, ölkələr arasında inteqrasiya meyillərinin güclənməsi, iqtisadi inkişafda sosial faktorların rolunun artması davamlı insan inkişafı konsepsiyasının hər bir ölkənin regional və milli xüsusiyyətləri nəzərə alınmaqla yaradılması zərurətini meydana çıxartmışdır. Artıq iqtisadi inkişaf yalnız adambaşına düşən ÜDM-in miqdarı ilə deyil, kəmiyyət xarakteristikaları dəqiq təyin edilə bilməyən sosial faktorlarla da müəyyənləşdirilir. Dünya iqtisadiyyatında baş verən sosial-iqtisadi inkişaf proseslərinin analizi sübut edir ki, heç də həmişə ölkədə baş verən iqtisadi yüksəliş insan inkişafina adekvat təsir göstərmir.

Məhz zamanın tələb etdiyi sürətli inkişaf tempinə uyğun islahatlar aparmaq yeni dövrün əsas çağırışlarıdır. Respublikamızın son illərdə böyük iqtisadi yüksəlişə nail olduğunu nəzərə alsaq, o zaman elm sahələrinin inkişafının da iqtisadi təkamül səviyyəsinə uyğunlaşdırılması zərurəti danılmazdır. Məlumdur ki, respublikamızın iqtisadi gəlirlərinin əsasını neft-qaz ixracından əldə olunan gəlirlər təşkil edir. Hazırda qarşıda duran əsas məqsədlərdən biri neft kapitalını insan kapitalına çevirməkdir. Bu isə başlıca olaraq, ölkədə yüksək ixtisaslı elmi və peşəkar kadrların hazırlanması ilə mümkündür.

İnsan kapitalının formalaşmasında təhsilin rolu

Hazırda Azərbaycanda və bütün dünyada müasir, innovasiya iqtisadiyyatının ən mühüm sosial-mədəni amilinə çevrilən insan kapitalının formalaşmasına, möhkəmlənməsinə və inkişafına xüsusi diqqət göstərilir. Bu mənada, ölkəmizdə həyata keçirilən sosial-iqtisadi islahatlar hər bir Azərbaycan vətəndaşının rifahının yüksəldilməsinə yönəlib. Prezident İlham Əliyevin vurğuladığı kimi, insan amili, ölkə vətəndaşlarının sosial-iqtisadi rifahının yaxşılaşdırılması, ölkəmizin yüksək inkişaf etmiş ölkələr sırasına daxil olması həyata keçirilən çoxşaxəli islahatların başlıca hədəfidir.

Hal-hazırda dünyada aşağıdakı inkişaf meyilləri müşahidə olunmaqdadır:

- cəmiyyətin inkişaf tempinin sürətlənməsi, siyasi və sosial seçim imkanlarının genişlənməsi;
- informasiya cəmiyyətinə keçid, ünsiyyət və dözümlülük amillərinin vacib əhəmiyyət kəsb etməsi, mədəniyyətlərarası əlaqələrin miqyasının genişlənməsi;
- yeni nəsildə müasir təfəkkürün formalaşmasını tələb edən və yalnız beynəlxalq əməkdaşlıq çərçivəsində həll edilə bilən qlobal problemlərin sayının artması;
- iqtisadiyyatın dinamik inkişafı, rəqabətin güclənməsi, sadə əmək sferasının məhdudlaşması, mütəmadi olaraq peşə ixtisasının artırılmasını və yenidən hazırlanmasını tələb edən ciddi struktur dəyişikliyi;
- gənclərin və yaşlı nəslin təhsilinin artırılması nəticəsində formalaşan insan kapitalının rolunun yüksəlməsi;
- təhsilin ölkənin aparıcı dövlətlər sırasına daxil olmasını təmin edən əsas faktor olması;
- vətəndaşların xaricdə təhsil almasının dəstəklənməsi.

Deməli, bir ölkənin inkişafına təsir göstərən ən başlıca amil təhsildir. Təhsilsiz insan kapitalından danışmaq mümkün deyil. Azərbaycan hökuməti də bu sahəni prioritet elan edib. Amma

real vəziyyət necədir? *BMT*-nin İnsan İnkişafı İndeksinə dair açıqladığı son hesabatda Azərbaycan 82-ci yerdə qərarlaşmışdı. Ümumdünya İqtisadi Forumunun İnsan Kapitalı İndeksi üzrə 2013-cü ilə dair reytinqində isə Azərbaycan 122 ölkə arasında 64-cü yerdə qərarlaşıb. Azərbaycan bu reytinqdə təhsil səviyyəsinə görə 71-ci, sağlamlıq səviyyəsinə görə 94-cü, işçi qüvvəsi və məşğulluğa və əlverişli mühitin mövcudluğuna görə 55-ci yerdə olub.

Bütün bu amillər respublikada ali təhsil sahəsində islahatların istiqamətlərinin, milli maraqları əks etdirməklə, qeyd olunan tendensiyalara uyğun müəyyənləşdirilməsi zərurətini yaradır. Bu baxımdan innovativ təhsilə daha çox yer ayrılmalıdır.

Uzun illərin təcrübəsi göstərir ki, elm və təhsil hər bir dövlətin davamlı sosial-iqtisadi və mədəni yüksəlişində mühüm rol oynayır. Təsadüfi deyildir ki, yeni dövrün tələblərinə cavab verən fəal maarifçilik kursunun həyata keçirilməsi, mütərəqqi yeniliklərin tətbiq olunması yolu ilə milli təhsil sisteminin müasirləşdirilməsi, bir ictimai-iqtisadi formasiyadan digərinə keçid mərhələsində bu sahədə özünü göstərən obyektiv problemlərin aradan qaldırılması son 16 ildə Azərbaycanda reallaşdırılan dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Danılmaz faktdır ki, elm və təhsil, yüksək ixtisaslı kadr potensialı hər bir dövlətin davamlı sosial-iqtisadi, mədəni-intellektual yüksəlişinin əsas təminatı qismində çıxış edir. İntellektual potensial əhəmiyyətinə və gətirdiyi dividentlərə görə bu gün hətta zəngin təbii sərvətləri belə üstələyir. Müasir dünyada rəqabətə tab gətirmək üçün, ilk növbədə, təhsilə, zəngin biliklərə, informasiya texnologiyalarına arxalanmaq lazımdır. Tarixi təcrübə göstərir ki, təbii sərvətlərin zənginliyi bəzi hallarda xalqlara və dövlətlərə davamlı inkişaf deyil, çoxsaylı arzuolunmaz problemlər bəxş edir. İndinin özündə də neftlə zəngin bəzi ölkələrin gərginlik və qeyri-stabillik mühitində yaşaması, təbii sərvətləri üzərində sahiblik hüququnun itirilməsi ilə bağlı çoxsaylı misallar gətirmək mümkündür.

İnnovasiya təhsilinin məqsədləri gündəlik həyat fəaliyyəti məsələlərində və eləcə də ekstremal, böhran situasiyalarında innovasiyaların generasiya edilməsi qabiliyyəti olan, yüksək mənəviyyatlı, əxlaqlı, peşəkar şəxsin hazırlanmasındadır. O, şüurlu vətəndaş mövqeyinə malik, vətənpərvər, mədəni, ensiklopedik savadı olan, ziyalı, sağlam həyat tərzi olan, fiziki mükəmməlliyi üzərində çalışan şəxs olmalıdır. Məsələ onda deyil ki, məzun bu peşəkarlıq fəaliyyətdə "sağ qalsın", o bu işin fəal yaradıcısı və qurucusu olmalıdır. Məzunun liderlik keyfiyyətlərinin olması vacibdir. O, fasiləsiz professional təhsilə motivləşən fəal, sərbəst idrak mövqeyinə malik olmalıdır. Məzun hərtərəfli mükəmməl olmalıdır və lazımi kommunikasiyanı yaratmağı, öz mövqeyini savadlı izah edib, onu müdafiə etməyi, yeni məsələlərin həlli üçün yeni isbatlar axtarmağı, müxtəlif planlı informasiya üzərində özünün bilik sistemini qura bilib, yeni biliklər generasiya etməyi bacarmalıdır. İnnovasiya təhsili bir struktur kimi innovasiya təfəkkürünün formalaşdırılmasına yönəldilən təlim və tərbiyədən asılıdır. Onun cəmiyyətdə fəaliyyət funksiyaları mexanizmləri:

1. Təhsil sferasında innovasiya prosesinin, pedoqoji innovasiyaların generasiyası və tətbiq edilməsi məqsədilə əlverişli yaradıcılıq şəraitlərinin yaradılması.

2. Təhsildə iqtisadi siyasətə, təhsilin mənəvi, əxlaqi, professional təşkil edənlərinə uyğun olaraq pedaqoji innovasiyaların generasiyasının maddi imkanlarla təmin edilməsi.

3. İctimai və siyasi inkişafda, quruluşda, cəmiyyətin iqtisadi vəziyyətində olan ziddiyyətlərin novatorluq yolu ilə həll edilməsinə istiqamətlənmə. [3, s.57]

İnsan kapitalının inkişafını gələcək iqtisadi strategiyanın əsas hədəflərindən biri kimi müəyyən edən Azərbaycan hökuməti neft gəlirlərini bu istiqamətdə yönəltdiklərini bəyan edir. Hətta bununla bağlı «2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı» qəbul edilmiş, Prezident yanında *Elmin İnkişafı Fondu* yaradılmışdı. Dövlət Neft Fondunun maliyyəsi ilə hər il yüzlərlə tələbə xaricdə təhsil almağa göndərilir.

Amma bu istiqamətdə görülməli işlər hələ çoxdur. İlk öncə ölkənin təhsil səviyyəsinin artırılması, elmi-tədqiqat işlərinə diqqət yetirilməlidir. İndiyədək Elmin İnkişafı Fondunun maliyyələşdirdiyi layihələr hər hansı bir nailiyyətin əldə olunmasında rol oynaya bilmədi. Analitiklərin fikrincə, ölkəmiz dünyanın neft və idman mərkəzindən tədricən elm və təhsil mərkəzinə çevrilməlidir. İdmanda uğur qazanan gənclərə göstərilən dövlət qayğısı bərabər şəkildə təhsil və elmdə də hiss olunmalıdır. Azərbaycanlı gənclərin tez-tez beynəlxalq elmi konfranslarda və olimpiadalarda iştirak edə bilmələri üçün ciddi maliyyə ayrılmalı, Azərbaycan təhsilinin səviyyəsi universitetlərdə qoyulan şərti qiymətlərlə deyil, məhz bu cür nüfuzlu konfrans və yarışlarda əldə olunan nəticələrlə ölçülməlidir.Bu gün Azərbaycanda güclü fiziklərə, kimyaçılara, nüvə sahəsində çalışacaq alimlərə, turizm mütəxəssislərinə, İKT üzrə peşəkarlara, kosmos üzrə mütəxəssislərə ehtiyac yaranıb. Təəssüf ki, hazırda peşəkar kadr ehtiyaclarımızı xaricdən cəlb edilən mütəxəssislərlə ödəyirik və onlara böyük vəsaitdə pullar xərcləyirik. Əgər neft gəlirləri artdığı bir vaxtda Azərbaycan insan kapitalına planlı şəkildə yatırım qoysaydı, bu gün əcnəbi kadrları yerli mütəxəssislərlə əvəzləyə bilərdi. Hazırkı vəziyyətdə Azərbaycan universitetlərinin hazırladığı mütəxəssislərin əksəriyyəti diplomlu işsizlər ordusunun sıralarına qoşulmazdı.

Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, indiki mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox təhsil sisteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə etmişlər. Bu ölkələrdə inkişafa təsir göstərən amillər içərisində təhsilin çəkisi əhəmiyyətli dərəcədə yüksək olmaqla təxminən 70 % təşkil edir.

Nəticə

İnnovasiya iqtisadiyyatında mühüm sosial-iqtisadi, mənəvi və hətta siyasi əhəmiyyəti olan insan kapitalının normal olaraq reallaşdırılması və gerçəkləşməsi aşağıdakı istiqamətlər vasitəsilə təmin olunur:

-təhsilə kapital qoyuluşu vasitəsilə;

-ixtisaslı hazırlığa kapital qoyuluşu vasitəsilə;

-nəhayət, elmə kapital qoyuluşu vasitəsilə.

Fikrimizcə, innovasiya iqtisadiyyatı insan kapitalının yüksək səviyyəsi və yüksək keyfiyyəti ilə, onun inkişafına qoyulan yüksək investisiyalarla, keyfiyyətli yaşayış səviyyəsi ilə, fundamental, tətbiqi elmlərin yüksək inkişaf səviyyəsi ilə xarakterizə olunur. Deməli, insan kapitalı innovasiya iqtisadiyyatının aparıcı amili hesab edilə bilər.

Məqalənin elmi yeniliyi: innovasiya iqtisadiyyatının inkişafında insan kapitalı ən dəyərli və tükənməz kapital kimi qiymətləndirilmişdir.

Tətbiqi əhəmiyyəti: innovasiya fəaliyyətinin hüquqi bazasının yaradılması, ölkədə vahid innovasiya siyasətinin yürüdülməsi, innovasiya qurumlarının yaradılması, ölkədə yüksək texnologiyaların mənimsənilməsi insan kapitalının inkişafı nəticəsində mümkündür.

ƏDƏBİYYAT

1.www.president.az/files/future_az.pdf <http://www.president.az/files/future_az.pdf>

2. Musayev A. İnnovasiya iqtisadiyyatı və vergi stimullaşdırılması. Bakı, 2014.

3. Tağıyev A.H. İnnovasiya iqtisadiyyatına giriş. Bakı, "Təknur"-2015.

4."İqtisadiyyat" qəzeti 10-16 aprel 2015-ci il.

Сахават Тофик гызы Мамедова
СГУ

Применение человеческого капитала в инновационной экономике

Резюме

Инновационная экономика способно осуществить любые виды инновации. Инновационная экономика характеризуется с некоторыми показателями и одной из самом важных которых является человеческий капитал. И поэтому повышение активности человека считается одним из факторов в развитии инновационной экономике.

Ключевые слова: человеческий капитал, инновационная экономика, кадровый потенциал, система образования, инновационные системы.

Sakhavat Tofig Mammadova
SSU

Realize in the innovation economy of the human capital

Summary

İnnovation economy able to implement all kind of innovations. An innovative economy is characterized by a number of qualities, the most important of which is human capital. Increasing human activity is an important indicator of development of innovation economy.

Key words: human kapital, innovative economy, human matrix, education system, innovatives istems.

UOT 005.94

Çinarə Akif qızı ALIŞOVA
AMEA-nın İqtisadiyyat İnstitutunun dissertantı

İNSAN KAPİTALININ ÖLÇÜLMƏSİ METODLARI

Xülasə

Məqalədə insan kapitalı və ona təsir edən amillərdən biri-səhiyyə amili, həmçinin insan kapitalı indeksinin ölçülməsi metodları tədqiq edilir. Müəllif belə nəticəyə gəlir ki, insan kapitalının ölçülməsi ilə bağlı təklif edilən metodların bir hissəsi **xərclərə**, digərləri isə **gəlirlərə** əsaslanır. İnsan kapitalının ölçülməsinin xərclərə əsaslanan metodlarında fərdlərin təhsilinə, bilik və bacarığının artırılmasına, həmçinin sağlamlığına və sair sahələrə çəkilən ümumi xərclər nəzərə alınır. İnsan kapitalının ölçülməsində gəlirlərə əsaslanan metodlar isə müəyyən təhsilə, bilik və bacarığa malik olan fərdin bu bacarıqlardan istifadə edərək əldə edə biləcəyi gəlirləri nəzərdə tutur.

Açar sözlər: insan kapitalı, insan inkişafı indeksi, insan potensialı, ÜDM, insan kapitalının səhiyyə amili.

Giriş

Totalitar idarəetmə və planlı sovet iqtisadi sistemi cəmiyyətdə özünəməxsus təfəkkür tərzi formalaşdırıb. Əksər hallarda işçilərin yaşı, sağlamlığı, bilik və bacarıqlarının səviyyəsi, təhsil səviyyəsi onların əmək haqlarında öz əksini tapmırdı. Hətta çox hallarda ixtisası olmayan fəhlənin əmək haqqı yüksək ixtisaslı kadrların əmək haqlarını xeyli üstələyirdi. Elə bunun nəticəsi idi ki, sovet iqtisadiyyatında "insan kapitalı" anlayışına diqqət ayrılmırdı.

Bazar iqtisadiyyatı cəmiyyətə yeni iqtisadi təfəkkür tərzi və yeni davranış gətirdi. Artıq iş elanlarında tələb olunan işçinin təhsili ilə yanaşı onun yaşı, sağlamlığı ilə bağlı qeydləri tez-tez görmək olur. Sahibkar işə qəbul zamanı elə işçiyə üstünlük verir ki, o, daha yüksək ixtisaslı və təcrübəli olsun. İşçi cavan və sağlam olmalıdır ki, daha uzun müddət çalışmaq qabiliyyətində olsun və tez-tez xəstələnərək işdən yayınmasın və əlavə ödənişlərə ehtiyac yaranmasın.

İnsan kapitalının səhiyyə amili

Ayrı-ayrı sahibkarların üstünlük verdiyi yanaşma müəyyən mənada dövlətin yanaşmasında da özünü göstərir. Bəzi dövlətlər iqtisadi inkişafı təmin etmək üçün təhsilə və səhiyyəyə ayrılan büdcə vəsaitlərinin həcmini artırmağa cəhd edir. Bəzi dövlətlər isə yüksək ixtisaslı kadrların hazırlanması üçün xaricdə təhsilə xüsusi diqqət yetirir.Məqsəd isə eynidir. Bütün imkanlardan istifadə edərək yüksək ixtisaslı, fiziki və mənəvi cəhətdən sağlam insanların yetişdirilməsinə nail olmaq. Bu insanlar siyasi cəhətdən "vətəndaş", iqtisadi cəhətdən isə "işçi qüvvəsidir". Belə işçi qüvvəsi digərlərinə nisbətən daha çox əlavə dəyər yaratmağa və ümumi halda ölkəyə, xüsusi halda isə sahibkarlara daha çox gəlir verməyə qadirdirlər. Sağlam və ixtisaslı işçinin yerinə yetirdiyi işə görə ona ödənilən əmək haqqı adi işçinin əmək haqqında çox olacaq. Ona görə ki, onun yaratdığı dəyərin miqdarı onun təhsili üçün çəkilən xərcləri ödəməklə yanaşı əlavə gəlir də gətirmək gücündədir. Belə ixtisaslı kadrların verdiyi gəlirin miqdarı ən azı onların yetişdirilməsi üçün çəkilən xərclərin və onlara verilən əmək haqqının cəminə bərabər olan maliyyə kapitalının gətirə biləcəyi gəlir qədər olur. Lakin sahibkar adətən belə ixtisaslı kadrlara əmək haqqı müəyyən edəndə bir qədər ehtiyatlı olur. Çünki o dərk edir ki, sağlam insan ömrünün uzunluğu qeyri-müəyyəndir. Elə bu fakt sağlam ixtisaslı kadrla adi işçinin əmək haqları arasındakı fərqləri yaradan əsas prinsip olur. Əlbəttə, eyni fəaliyyəti yerinə yetirən işçilər arasında əmək haqqı fərqlərini yaradan digər səbəblər də var. İnsan kapitalının təkcə onun daşıyıcısı olan fərdin fiziki imkanlarından deyil, həm də onun bilik və bacarıqlarından, təcrübəsindən, sağlamlığından, sağlam həyat tərzindən və sair asılı olması "insan kapitalını" "fiziki kapitaldan" ciddi

surətdə fərqləndirir. İnsan kapitalı ayrıca götürülən fərdin bilik və bacarığı ilə bağlı olaraq onun daxili transformasiyası vasitəsilə yaradılır.

İnsan kapitalının inkişaf amillərinə, o cümlədən səhiyyə xərclərinə yönəldilən investisiya əsasən dövlətin nəzarətində olur və dövlət büdcəsi xərclərinə daxil edilir. Dövlətin bu sahələrə müdaxiləsi müxtəlif arqumentlərlə, məsələn, iqtisadi və milli təhlükəsizlik baxımından əsaslandırılır. Dövlət siyasəti o prinsipə əsaslanır ki, insan kapitalına yönələn investisiya bütünlükdə cəmiyyət üçün gəlir gətirəcək. Artıq heç kəsə sirr deyil ki, cəmiyyətdə nə qədər sağlam və yüksək ixtisaslı işçilər olarsa, cəmiyyət bir o qədər yüksək həyat səviyyəsinə nail ola bilər. Cəmiyyətdə insanların sağlamlığı isə səhiyyə sisteminin təşkilindən və maliyyələşməsindən asılıdır. Rus tədqiqatçısı S.A.Deyatlovun verdiyi tərifə əsasən insan kapitalı investisiya nəticəsində formalaşaraq ictimai təkrar istehsal prosesində istifadə edilə bilən və insanın həyatı boyu qazandığı sağlamlıqdan, bilik və bacarıqdan, həmçinin vərdişlərdən ibarətdir. Bu kapital əmək məhsuldarlığının artmasına və işçinin gəlirlərinin çoxalmasına dəstək verir.

İnsan kapitalının formalaşmasında sağlamlığın və sağlam həyat tərzinin nəzərə alınması vacibdir. Həyatının müəyyən yaş dövründə yüksək ixtisaslı kadr kimi yetişən və cəmiyyətə iqtisadi mənfəət verə bilən istənilən işçi həyatının bütün dövrlərində sağlamlıq problemləri ilə üzüzə dayanır. Ana bətnində olan körpənin sağlam doğulması, körpə vaxtlarından normal qidalanma, hər bir dövrdə infeksion və müxtəlif xəstəliklərdən profilaktik qorunma gələcəkdə normal fiziki və intellektual inkişaf üçün zəruridir. Normal təhsilə nail olmaq və ya hər hansı peşəyə yiyələnmək fiziki və bioloji sağlamlığın təmin edilməsinə əsaslanır. Odur ki, insan kapitalının təkrar istehsalı təhsillə, yeni bilik və bacarıqların əldə edilməsi ilə, sağlamlığın qorunması ilə və zəif əmək məhsuldarlığı olan regionlardan yüksək əmək məhsuldarlığı olan regionlara əmək miqrasiyaları ilə əlaqədə olur.

Bəzən insan kapitalını sağlamlıqla, təhsillə və mədəniyyətlə bağlı üç alt kapitala ayırırlar. Sağlamlıqla bağlı kapital insanın sağlamlığının bərpası və saxlanılması üçün istifadə edilən investisiyaların miqdarıdır. V.İ. İlinski sağlamlıq kapitalını insan kapitalının bazası hesab edir. O, hətta sağlamlıq kapitalını da iki hissəyə ayırır: anadangəlmə kapital və sonradan qazanılan kapital. Anadangəlmə sağlamlıq kapitalı insana genetik ötürülən fizioloji xüsusiyyətlərlə və fiziki imkanlarla bağlıdır. Heç şübhəsiz ki, ciddi fiziki qüsurla doğulan uşağın fiziki imkanları ilə sağlam doğulan uşaqların imkanları ilə eyni olmur. Digər tərəfdən, çox hallarda genetik ötürülən xüsusiyyətlər hər hansı sahədə bilik və bacarıqların daha tez və ya nisbətən gec mənimsənilməsinə səbəb olur. Məsələn, genetik musiqi qabiliyyəti olanlar musiqi sənətini daha tez, belə qabiliyyəti olmayanlar isə gec mənimsəyir.

Sağlamlıq kapitalı təkcə bilik və bacarıqların tez və yüksək keyfiyyətlə mənimsənilməsində deyil, həm də əldə edilən bacarıqların daha uzun müddət istifadə edilməsində, beləliklə, daha çox dəyər yaratmaq imkanında özünü büruzə verir. Müəyyən dövrdə daha çox sərf edilən sağlamlıq kapitalı daha uzun müddətə iş qabiliyyətinin saxlanması deməkdir. Beləliklə, sağlamlıq kapitalı insan kapitalının tərkib hissəsi kimi bir neçə fərqli xüsusiyyətlərə malikdir. Birincisi, sağlamlığı təhsil almaq imkanından fərqli olaraq qısa müddətdə bərpa etmək mümkün deyil. Digər tərəfdən, sağlamlıq kapitalı təhsil kapitalından fərqli olaraq, çox dayanıqsız və xarici təsirlərə həssasdır. Alınmış təhsil kapitalı sağlam insanda uzun müddət "yaşaya bildiyi" halda sağlamlıq kapitalı insan sağlamlığına təsir edən hər hansı bir hadisə nəticəsində yox ola və ya ciddi zədələnə bilər. Üçüncüsü, Sağlamlıq kapitalını hər hansı bir fərdin genetik vəziyyətinə görə müəyyən səviyyədən çox yüksəltmək mümkün deyil. Təhsil kapitalını isə sonsuz olaraq artırmaq olar.

Artıq elmə məlumdur ki, insan sağlamlığı yalnız 8-10% səhiyyə sistemindən, 20% ekoloji vəziyyətdən, 20% genetik amillərdən, qalan 50% isə insanın həyat tərzindən asılıdır. Lakin həm ekoloji vəziyyətin yaxşılaşdırılması zərurəti, həm genetik çatışmazlıqların vaxtında müəyyən edilərək nəzarətdə saxlanması, həm də sağlam həyat tərzi ilə balı tədbirlər dolayısı ilə səhiyyə

sistemi ilə bağlıdır. Odur ki, cəmiyyətin sağlamlıq səviyyəsi, eləcə də insan kapitalı birbaşa və ya dolayısı ilə səhiyyə sisteminin təşkilindən, keyfiyyətindən və maliyyələşməsindən asılıdır. Ölkə iqtisadiyyatına nə qədər çətin olsa belə səhiyyənin maliyyələşməsi diqqətdən kənarda qalmamalıdır. Çünki bu gün səhiyyəyə qənaət olunan və iqtisadiyyatın digər sahələrinə yönəldilən maliyyə gələcəkdə öz mənfi təsirini insan kapitalının çatışmazlığında büruzə verəcək. İnsan kapitalında belə çatışmazlıq isə iqtisadiyyatın bütün sektorlarında kadr çatışmazlığı yaradaraq daha ciddi fəsadlar törədə bilər. Dünya təcrübəsi göstərir ki, bu gün səhiyyə sistemindən kəsdiyi maliyyəni dövlət gələcəkdə əlilliklə, xəstəliklə, vaxtsız ölümlə bağlı bir neçə qatda ödəməli olur. Keyfiyyətli səhiyyə xidmətləri olmadığından işçi qüvvəsi iqtisadi fəaliyyətdən daha erkən uzaqlaşmalı olur. Bu isə ÜDM-in xeyli itirilməsi deməkdir.

Əhalinin sağlamlığını qorumaq dövlətin birbaşa vəzifəsi olmasa da sağlamlığa mənfi təsir göstərən amillərin nəzarətdə saxlanması və zəruri profilaktik tədbirlərin görülməsi dövlətin məsuliyyətindədir. Məsələn, Azərbaycan Konstitusiyasının 31-ci maddəsində qeyd edilir ki, hər kəsin təhlükəsiz yaşamaq hüququ vardır. Həmin maddənin II hissəsində deyilir ki, "qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, şəxsin həyatına, fiziki və mənəvi sağlamlığına, mülkiyyətinə, mənzilinə qəsd etmək, ona qarşı zor işlətmək qadağandır". Azərbaycan Respublikası Konstitusiyasının 39-cu və 41-ci maddələrində də vətəndaşların sağlamlığı ilə bağlı dövlətin əsas məsuliyyəti öz əksini tapıb. 41-ci maddədə qeyd edilir ki, hər kəsin sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. Dövlət müxtəlif mülkiyyət növləri əsasında fəaliyyət göstərən səhiyyənin bütün növlərinin inkişafı üçün zəruri tədbirlər görür, sanitariya-epidemiologiya salamatlığına təminat verir, tibbi sığortanın müxtəlif növləri üçün imkanlar yaradır. İnsanların həyatı və sağlamlığı üçün təhlükə törədən faktları və halları gizlədən vəzifəli şəxslər qanun əsasında məsuliyyətə cəlb edilirlər.

İnsan İnkişafı İndeksi

"İnsan inkişafı indeksi" (HDİ) 2013-cü ilə qədər "insan potensialı inkişafı" indeksi adlanırdı. Bu indeks 1) həyat səviyyəsinin; 2) əhalinin savadlılığının; 3) təhsilin; 4) ömür uzunluğunun ölçülməsi ilə ölkələrarası müqayisə əsasında hesablanan inteqral göstəricidir. Bu müxtəlif ölkələrdə və regionlarda həyat səviyyəsini müqayisə edən standart instrumentdir. Bu indeks BMT-nın insan inkişafı ilə bağlı hesabatlarına daxil edilərək dərc edilir. Bu indeks Pakistanlı alim Məhbub-Ul-Haqın rəhbərliyi ilə bir qrup iqtisadçı tərəfindən işlənib. Lakin onun konseptual strukturu Amartin Sena tərəfindən hazırlanıb. İndeks hər il BMT-nin insan potensialının inkişafı haqqında hesabatda dərc edilir.

İnsan İnkişafı İndeksi 3 göstəricini əhatə edir:

1. Göslənilən ömür uzunluğu;
2. Ölkə əhalisinin savadlılıq səviyyəsi. Bura təhsilə sərf edilən orta müddət və gözlənilən təhsil müddəti daxildir;
3. Alıcılıq qabiliyyəti pariteti əsasında adambaşına ÜMG (ümummilli gəlirin) ümumi həcmi ilə müəyyən edilən həyat səviyyəsi.

Ölkələrin sosial-iqtisadi vəziyyətini kəmiyyətcə və keyfiyyətcə xarakterizə edən göstəricilər sisteminə daxildir:

- *İnsan potensialının inkişafı indeksinin diferensiyalaşma əmsalı*. Bu əmsal hər hansı bir ölkənin, regionun, sosial qrupun inkişaf dərəcəsini xarakterizə edir;
- *Sağlamlıq (uzunömürlülük) indeksinin diferensiyalaşma əmsalı*. Bu əmsal hər hansı ölkədə sağlamlığın səviyyəsinin digər ölkələrdən nə dərəcədə yaxşı və ya pis olmasını göstərir;
- *Təhsil indeksinin diferensiyalaşma əmsalı*. Bu əmsal hər hansı bir ölkənin təhsil səviyyəsinin digər ölkələrdən nə dərəcədə fərqlənməsini göstərir;
- *Gəlir indeksinin diferensiyalaşma əmsalı*. Bu əmsal iqtisadi cəhətdən hər hansı bir ölkənin digərinə nisbətən nə dərəcədə fərqləndiyini göstərir;

- *Ölüm indeksinin diferensiyalaşma əmsalı*. Bu əmsal hər hansı ölkədə sağlamlıq səviyyəsinin digər ölkələrdən fərqini xarakterizə edir;
- *Texniki peşə təhsili səviyyəsinin diferensiyalaşma əmsalı*. Bu əmsal hər hansı ölkədə texniki peşə təhsili səviyyəsinin digər ölkələrdən fərqini xarakterizə edir.

Hazırda İİİ-ni müəyyən edən indikatorlar sırasına sosial-iqtisadi qeyri-bərabərliyi, gender qeyri-bərabərliyini, yoxsulluğu xarakterizə edən indikatorlar da daxil edilib. İİİ-nin qiymətindən asılı olaraq dünya ölkələri "*çox yüksək səviyyə*", *"yüksək səviyyə*", "*orta səviyyə*", "*aşağı səviyyə*" kimi bölüşür.

İnsan potensialının inkişafı indeksinin hesablanması metodologiyası

İstənilən göstəricinin indeksə çevrilməsi üçün aşağıdakı düsturdan istifadə edilir:

$$x_{index} = \frac{x - \min(x)}{\max(x) - \min(x)}$$

Burada x_{index}- hər hansı göstəricinin indeksi, min(x)-öyrənilən ölkələr arasında həmin göstəricinin minimum qiyməti, max(x)-həmin göstəricinin maksimum qiymətidir. X isə hər hansı ölkəyə aid olan göstəricidir.

Yuxarıda qeyd etdiyimiz kimi, hər hansı ölkəyə aid HDİ üç göstərici əsasında hesablanır.

1. Gözlənilən ömür uzunluğu (LEİ). Bu indeks üçün x(min) = 20, x(max) = 85 qəbul edilir. Beləliklə,

$$\text{LEİ} = \frac{LE - 20}{85 - 20}$$

2. Təhsil İndeksi (Eİ). Bu indeks belə hesablanır:

$$\text{Eİ} = \frac{MYS\text{İ} + EYS\text{İ}}{2}$$

Burada (MYSİ) - təhsilin orta davametmə indeksi, (EYSİ)-təhsilin gözlənilən müddəti indeksidir. MYSİ-nin hesablanması aşağıdakı düsturla aparılır:

$$\text{MYSİ} = \frac{MYS}{15}$$

EYSİ isə

$$\text{EYS} = \frac{EYS}{18}$$

düsturu ilə hesablanır.

3. Gəlir indeksi aşağıdakı düsturla hesablanır:

$$\text{İİ} = \frac{Ln(GN\text{İ}\ pc) - Ln(100)}{Ln(75000) - Ln(100)}$$

Burada (GNİ pc)-Alıcılıq qabiliyyəti pariteti üzrə adambaşına ümummilli gəlirdir. Alıcılıq qabiliyyəti pariteti üzrə adambaşına ümummilli gəlirin minimum həcmi 100 dollar, maksimum həcmi isə 75000 dollar kimi qəbul edilib.

İnsan İnkişafı indeksi bu üç əsas indeksin həndəsə ortasıdır:

$$HD\text{İ} = \sqrt[3]{LE\text{İ} * E\text{İ} * \text{İİ}}$$

İnsan potensialı inkişafı indeksinin müqayisəsi bir daha sübut edir ki, iqtisadi inkişaf göstəriciləri ilə insan potensialı inkişafı göstəriciləri arasında asılılıq olsa da bu bir qiymətli asılılıq deyil. Yəni iqtisadi inkişafı ən yüksək olan ölkə üçün insan inkişafı indeksi ən yüksək olmaya da bilər. Yaxud adambaşına eyni gəlirləri olan ölkələr arasında insan potensialı inkişafı indeksi fərqli ola bilər. Eyni ilə də elə hallar da ola bilər ki, eyni insan potensialı inkişafı indeksinə malik olan ölkələrin iqtisadi inkişafı kəskin fərqlənə bilər.

Əgər hər hansı ölkənin insan potensialı inkişafı indeksi yüksəkdirsə, lakin iqtisadi göstəriciləri aşağıdırsa, bu o deməkdir ki, ölkə özünün insan potensialından lazımi səviyyədə istifadə edə bilmir. Əksinə, İnsan potensialı inkişafı digər ölkələrlə müqayisədə aşağı olan, lakin iqtisadi göstəriciləri yüksək olan ölkədə insan potensialının inkişafı üçün lazım olan şərait yaradılmayıb.

İnsan kapitalı indeksi

"İnsan kapitalı" anlayışı "insan potensialı" anlayışından fərqlidir. Belə ki, insan kapitalı deyəndə bir neçə fərqləndirici xüsusiyyəti nəzərə almaq lazımdır. Birincisi, insan kapitalı öz-özünə deyil, investisiyalar nəticəsində formalaşır. Hər hansı bir fərqin müəyyən sahədə bilik və bacarıq əldə etməsi üçün müəyyən miqdarda investisiya qoymaq lazım gəlir. İkincisi, insan kapitalı onun daşıyıcısı olan insanda bilik və bacarıq, həmçinin sağlamlıq kimi akkumulyasiya olunur. Yəni sərf edilən investisiyaların əvəzində fərd müəyyən bilik və bacarıq əldə edir. Həmçinin onun sağlamlığı qorunur, yaxud bərpa edilir. Üçüncüsü, akkumulyasiya olunan bilik və bacarıq fərdin əmək məhsuldarlığını və gəlirlərini artırmaq gücündə olmalıdır. Əgər onun qazandığı bilik və bacarıq əmək məhsuldarlığını artırmırsa, yaxud fərdə hər hansı gəlir gətirmirsə, onda akkumulyasiya olunan bilik və bacarığın heç bir əhəmiyyəti yoxdur.

Beləliklə, insan kapitalına belə bir tərif vermək olar ki, "insan kapitalı investisiyalar vasitəsilə formalaşan və fərdin əmək məhsuldarlığını artıraraq ona əlavə gəlir gətirə bilən bilik və bacarıqların, motivasiyaların, sağlamlığın kəmiyyətcə ifadəsidir". İnsan kapitalına belə yanaşmaya əsasən demək olar ki, insan kapitalı daha çox ayrıca götürülən fərdin bilik və bacarığı ilə bağlı olduğundan ölkədə insan kapitalının ümumi həcmi də ayrı-ayrı fərdlərə aid edilən insan kapitalının cəmi kimi başa düşülməlidir. Ayrıca götürülən fərdin bilik və bacarığı isə fiziki kapital kimi müəyyən xərclərin sayəsində yaranır. Digər tərəfdən, müəyyən səviyyədə bilik və bacarığa malik olan fərd belə səviyyədə bilik və bacarığa malik olmayan digər fərdlərə nisbətən daha çox istehsal etmək qabiliyyətinə malik olur. Bu mənada insan kapitalı mürəkkəb iqtisadi kateqoriya kimi kəmiyyət və keyfiyyət göstəricilərinə malik olur. Beləliklə, "insan kapitalına qoyulan xərclərin həcmi" və ayrıca "götürülən fərdin topladığı insan kapitalı" anlayışlarını ölçmək lazım gəlir. Bu mənada hər iki anlayışları həm fərd, həm də bütövlükdə ölkə üçün hesablamaq zəruridir.

İnsan kapitalının ölçülməsi üçün iqtisadi ədəbiyyatlarda müxtəlif metodlar təklif edilir. Hələ XVII əsrdə ingilis siyasi iqtisad banisi Uilyam Petti insanın istehsal etmək qabiliyyətini pulla ölçməyə cəhd etmişdi. O belə hesab edirdi ki, "torpaq kimi əksər insanın da dəyəri onların qazandığı illik gəlirdən 20 dəfə çoxdur". O İngiltərənin bütün əhalisinin dəyərini 520 milyon pount, ayrıca götürülən fərdin dəyərini isə orta hesabla 80 pount qədər dəyərləndirirdi. Onun hesablanması bu məntiqə əsaslanırdı ki, hər bir fərdin əmək haqqı bazar faizi ilə müəyyən edilən rentaya malikdir.

Uilyam Farr Petti bu metodunu bir qədər təkmilləşdirərək, insan kapitalını hesablamaq üçün "gələcəkdə qazanıla biləcək təmiz əmək haqqının bugünkü dəyərinə əsaslanırdı". Təmiz əmək haqqı deyəndə gələcəkdə qazanılacaq əmək haqqından fərdin yaşayışı üçün zəruri olan məbləğ çıxılırdı. O hətta bir qədər irəli gedərək mümkün ölüm hallarını da "ölüm əmsalı" ilə nəzərə alırdı.

K. Marksın iqtisadi tədqiqatlarında "insan kapitalı" anlayışı "işçi qüvvəsi" anlayışı ilə eyniləşdirilir. O, qeyd edir ki, "işçi qüvvəsinin" dəyəri işçi qüvvəsinin təkrar istehsalına yönələn xərclərə yaxındır. "İşçi qüvvəsinin" bütün ömrü boyu cəmi dəyərinin hesablanması isə insanın həyatı üçün ömrü boyu xərclənən vəsaitlərin cəmi kimi qəbul edilir.

İnsan kapitalının hesablanmasına Bekker də xüsusi diqqət ayırıb. O, təhsili olan fərdin ömrü boyu aldığı əmək haqqı cəmindən təhsili olmayan işçinin cəmi əmək haqqını çıxaraq təhsilin verə biləcəyi əlavə gəliri hesablayıb. Buna, təhsilin təqribi iqtisadi səmərəsi kimi yanaşmaq olar. Bekkerin hesablamalarında xüsusi diqqət ona yönəlir ki, işçinin ömrü boyu aldığı əmək

haqqının əsas hissəsi insan kapitalı ilə bağlıdır. Bekkerə görə, işçinin insan kapitalı ilə bağlı olan gəlirini aşağıdakı kimi təsvir etmək olar:

$$y_i = (W{:}P_i)(1+R)T_i+X_i+E_i$$

Burada y_i - fərdin gəliri; (W: P_i) -işçinin sadə əməyinin qiyməti ("sadə" işçiyə qoyulan investisiyaların "sadə" işçilərin sayına nisbəti; R-insan kapitalına qoyulan investisiyaların gəliri (faizi); T_i işçiyə qoyulan kapitalın zaman dövrü; X_i - İşçinin gəliri; E_i- I işçisinə aid olan səhvlər və xətaların əmsalı.

İnsan kapitalının hesablanması üçün İ.Fişer başqa bir metod-diskontlama metodunu təklif edir.

$$V_a = \sum_{i=a}^{n}(B - C)(1 + i)^t$$

Burada V_a- a yaşında olan işçinin insan kapitalının qiyməti; B- işçinin gəliri; C- sadə əməyə görə əmək haqqı və investisiyanın həcmi; i- insan kapitalının gəlir normasıdır.

Nəticə

İnsan kapitalının ölçülməsi ilə bağlı təklif edilən metodları bir-birindən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, onların bir hissəsi ***xərclərə***, digərləri isə ***gəlirlərə*** əsaslanır. İnsan kapitalının ölçülməsinin xərclərə əsaslanan metodlarında fərdlərin təhsilinə, bilik və bacarığının artırılmasına, həmçinin sağlamlığına və sair sahələrə çəkilən ümumi xərclər nəzərə alınır. İnsan kapitalının ölçülməsində gəlirlərə əsaslanan metodlar isə müəyyən təhsilə, bilik və bacarığa malik olan fərdin bu bacarıqlardan istifadə edərək əldə edə biləcəyi gəlirləri nəzərdə tutur. Qeyd edək ki, insan kapitalının hesablanması üçün istifadə edilən hər iki metod müəyyən çatışmazlığa malikdir. Onların hər ikisi insan kapitalının keyfiyyətini nəzərə almır. Lakin insan kapitalının ölçülməsi ilə bağlı əsas çətinlik ondan ibarətdir ki, 1) belə metodlar müxtəlif prinsiplərə əsaslanır; 2) bu metodların tətbiqi bir-birindən tamamilə fərqli nəticələrə gətirir.

ƏDƏBİYYAT

1. Social Security and Public Health: Annual Report of the Public Health Society. New York, 2004, p. 126-127.
2. Коулман Дж. Капитал социальный и человеческий // Общественные науки и современность. - М., 2001, № 3, с. 126.
3. Дятлов, С. А. Теория человеческого капитала : учебное пособие / С.А.Дятлов. СПб.: Изд-во СПбУЭФ, 1996.
4. Ильинский И. В. Инвестиции в будущее: образование в инвестиционном воспроизводстве / Ильинский И.В. - СПб., 1996, с. 28.
5. Лаптев А. П. Здоровье - фундамент деловых успехов / Лаптев А.П. // Управление персоналом. 1997, № 10, с. 88 – 90.
6. Azərbaycan Respublikasının Konstitusiyası. "Qanun" nəşriyyatı - 2009. s.12.
7. Корицкий А.В. Введение в теорию человеческого капитала. Учебное пособие. Новосибирск: СибУПК, 2000, с. 85.
8. Романтеев П.В. Аналитический обзорметодик оценки человеческого капитала. Экономика, предпринимательство и право. 2011, 02, с. 25-37, с. 28.
9. Корчагин Ю.А. Российский человеческий капитал: фактор развития или деградации?: монография. Воронеж: ЦИРЭ, 2005, с.8-9
10. Yenə orada. s 9.

Чинара Алышова
диссертант Института Экономики НАНА

Методы измерения человеческого капитала

Резюме

В статье анализируются различные методы для вычисления человеческого капитала, также один из его факторов-фактор здравоохранения. Автор приходит к такому заключению, что методы вычисления человеческого капитала в основном отличаются принципами вычисления. Так некоторые методы вычисления основываются на принципе расходов, а некоторые-доходов. Принцип расходов учитывает суммы расходов для образования и здравоохранения. А принцип доходов основывается суммы ожидаемых доходов работника, который имеет определенный уровень образования и состояние здоровья.

Ключевые слова: человеческий капитал, человеческий потенциал, ВВП, фактор здравоохранения, индекс человеческого капитала.

Chinara Alishova
candidate for degree of the
Institute of Economics of ANAS

The methods to measure of human capital

Summary

The article investigates some methods to measure human capital, as well as its health factors as one of essential factors. Theauthorconcludedthat the measurement methods of human capital distinguished by measurement principles. So there are to measurement principles for this one of them is expenses principle, other is revenues principles. First of them takes into account all expenses for education and health system. Second of them takes into account expected revenues after having some education level and health quality.

Key words: human capital, human potential, education, health system, GDP, human capital index, human development index.

UOT 658.5

İmran Balamirzə oğlu ƏMİROV
Sumqayıt Dövlət Universiteti

AZƏRBAYCANDA METALLURGİYANIN İNNOVASİYA YÖNÜMLÜ İNKİŞAF MƏSƏLƏLƏRİ

Xülasə

Hazırlanan məqalədə əsas məqsəd metallurgiya sənayesində innovasiyaların həyata keçirilməsi məsələləri tədqiq edilmişdir. Burada qeyri-neft sektorunun əsas sahələrindən biri hesab edilən metallurgiyada innovasiyaların ləngiməsinin əsas amilləri şərh edilmişdir.

Aparılan araşdırmalar nəticəsində elmi-texniki tərəqqinin nailiyyətlərindən istifadə etməklə ölkədə innovasiya iqtisadiyyatının inkişafında metallurgiya sənayesinin inkişaf etdirilməsinin zəruriliyi əsaslandırılmışdır.

Açar sözlər: rəqabət, innovasiya iqtisadiyyatı, metallurgiya, texnologiya, texnika, strategiya, istehsal, istehlak.

Giriş

Müstəqillik əldə etdikdən sonra iqtisadi islahatların və dövlət proqramlarının həyata keçirilməsi nəticəsində ölkəmizdə davamlı iqtisadi inkişafa nail olunmuşdur. Əlverişli investisiya mühitinin yaradılması Azərbaycanda azad sahibkarlığın inkişafına səbəb olmaqla yanaşı iqtisadiyyatın bütün sferalarında sağlam rəqabət mühitini formalaşdırdı və iqtisadi təhlükəsizliyimizin daha da gücləndirilməsinə təminat verdi. Ölkəmiz aparılan iqtisadi siyasətin məntiqi nəticəsi olaraq təsərrüfatçılığın bütün sahələrində uğur əldə etmiş və ümumi daxili məhsulun (ÜDM-in) artımı üzrə dünyada qabaqcıl mövqelərdən birini tuta bilmişdir.

Azərbaycan Respublikası (AR) ötən ildə ÜDM-in həcmini 3,7% artıraraq 73,6 mlrd.$ çatdırmaqla Ukraynadan sonra dünya ölkələri arasında 67-ci sırada yer alır. Sosial-iqtisadi proqnozlara istinad edərək söyləmək olar ki, dövlətimiz 2020-ci ilə qədər bu göstəricinin 100 mlrd.$-a catdırılmasını hədəfləyir. Adambaşına düşən ÜDM-in həcminə görə ölkəmiz "orta gəlirli ölkələr" qrupunun ən yüksək şkalasına qalxa bilmişdir. Bu qrupa daxil olan ölkələrdə hər nəfərə düşən ÜDM-in həcmi 6-7 min $ olmalıdır və Azərbaycanda bu rəqəm 7,1 min $ təşkil edir. Növbəti illərdə (2017-2018-ci illərdə) ÜDM-in hər nəfərə düşən həcmi 10 min $-dan az olmayacaqdır. Proqnozlara əsasən, 2020-ci ildə adambaşına düşən milli məhsulun 12 min $ təşkil etməsi nəticəsində AR dünyanın ən ilk 50 ölkəsi sırasında yer alacaqdır. [1]

Azərbaycanın müasir iqtisadi mənzərəsini müəyyənləşdirən ölkəyə yatırılan investisiyalar olmuşdur. 2003-2014-cü illərdə Azərbaycan Respublikasına 180 mlrd. $ investisiya yatırılmışdır. [2, s. 312] İqtisadi potensialı güclü olan hər bir dövlətin yeritdiyi siyasətin əsasında bütün fəaliyyət sferalarına yönəldilən investisiya qoyuluşları və təsərrüfatçılıqda tətbiq edilən innovasiyalar durur. Buna görə də indiki gündə qabaqcıl ölkələr, xüsusilə Qərb dövlətləri yeni texnika və texnologiyaların yaradılmasına, onların tətbiq edilməsinə önəm verməklə öz inkişaflarını innovasiyaların davamlı olaraq həyata keçirilməsi üzərində qururlar. Bu səbəbdən də yeni texnika və texnologiyalar bazarında ABŞ-nın, Yaponiyanın və Almaniyanın payı yüksək qalmaqda davam edir.

Azərbaycan Respublikasında adı çəkilən ölkələrin sırasına çıxmaq, beynəlxalq rəqabət qabiliyyətini təmin etmək üçün innovasiya yönümlü inkişaf yoluna qədəm qoymuşdur. İnnovasiya iqtisadiyyatının inkişafını təmin etmək üçün hazırda ölkəmizdə müvafiq qanunvericilik bazası yaradılmış və bunun əsasında innovasiya siyasəti hazırlanmışdır. Bu siyasətin həyata keçirilməsi nəticəsində nail olunacaq yüksəlişlər ölkə iqtisadiyyatının rəqabət qabiliyyətindən və qlobal iqtisadiyyatda tutduğu yerindən asılı olacaqdır.

İnnovasiya iqtisadiyyatı

Beləliklə, dinamik inkişaf edən dünyada iqtisadiyyatın rəqabət qabiliyyəti və sosial-iqtisadi inkişaf tempi bilavasitə innovasiyaların tətbiqindən, elmin və biliyin daha da inkişaf etməsindən, onun əqli kapitala çevrilməsindən asılıdır. Dünya Bankının tədqiqatlarının nəticələrinə görə: "...cəmiyyətin biliyi yaratmaq, seçmək, uyğunlaşdırmaq, gəlir mənbəyinə cevirmək qabiliyyəti sabit iqtisadi inkişaf və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün həlledici əhəmiyyətə malikdir". Həmin bankın mütəxəssislərinin fikrinə görə, bilik iqtisadiyyatı-öz şəxsi inkişafını sürətləndirən və rəqabət qabiliyyətini artırmaq üçün biliyi yaradan, yayan və istifadə edən iqtisadiyyatdır. Ona görə də innovasiya iqtisadiyyatının daha da inkişaf etdirilməsinin nüvəsində fundamental bilik və ya informasiya cəmiyyətinin yaradılması dayanır. Belə iqtisadiyyatın inkişaf prosesi insan kapitalının, keyfiyyətinin, həyat səviyyəsinin artırılması, yüksək texnologiyaların bilik, innovasiya və xidmətlərin istehsalındadır. Bu gün inkişaf etmiş dövlətlərin iqtisadiyyatının inkişaf mənbəyi elmin və biliyin əsasında yüksək texnologiyaların ölkədə mənimsənilməsi və yayılmasındadır.

Dünyada baş verən böhran proseslərinə baxmayaraq AR-da makroiqtisadi sabitlik qorunaraq iqtisadiyyatın rəqabət qabiliyyəti getdikcə artır və nəzərdə tutulmuş bütün sosial proqramlar uğurla yerinə yetirilir. Ölkəmizin davamlı inkişafının təmin olunmasında həyata keçirilən siyasətin prioritet istiqamətlərindən olan iqtisadiyyatın şaxələndirilməsi həlledici rol oynayır. Məhz bunun nəticəsidir ki, son 5 ildə iqtisadiyyatın artımı, əsasən, qeyri-neft sektorunun inkişafı hesabına təmin olunmuş, ÜDM-də bu sektorun xüsusi çəkisi 47 %-dən 59 %-ə çatmışdır. Rəsmi statistika və makroiqtisadi göstəricilərə əsasən isə son 11 ildə ölkədə qeyri-neft sektorunda 2,5 dəfədən çox artım qeydə alınmışdır. Heç şübhəsiz, qeyri-neft sektorunun inkişafında neft gəlirləri hesabına iqtisadiyyatın şaxələndirilməsi istiqamətində reallaşdırılan tədbirlərin mühüm rolu olmuşdur.

İqtisadiyyatın şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafına zəmin yaratmaq üçün kiçik və orta sahibkarlığın dəstəklənməsinə, bu fəaliyyətlə məşğul olanlara güzəştli kreditlərin ayrılmasına, kənd təsərrüfatına (k/t-na) subsidiyaların yönəldilməsinə, ölkə ərazisində nəqliyyat-kommunikasiya infrastrukturunun yenidən qurulmasına milyardlarla $ həcmində vəsait xərclənmişdir. Bütün bunlar iqtisadiyyatın qeyri-neft sektorunda böyük canlanmaya səbəb olmuşdur. Hazırda AR-da istehsal edilən qeyri-neft məhsulları, o cümlədən elektrik maşınları və avadanlıqları, onların hissələri, kimya sənayesi məhsulları, tikinti materialları, hazır toxuculuq məmulatları və s. müxtəlif bölgələrə ixrac edilir.

Keçid iqtisadiyyatını müvəffəqiyyətlə başa çatdıran Azərbaycan öz təbii resurslarından məqsədli şəkildə istifadə edərək iqtisadiyyatını uğurla şaxələndirə və onun neftdən asılılığını minimuma endirə bilmişdir. Bu strategiya nəticəsində ölkədə tikinti, turizm, k/t, nəqliyyat, informasiya və kommunikasiya texnologiyaları sektorlarında davamlı artım meyilləri güclənir. Məhz bu meyillərin nəticəsidir ki, son 10-11 ildə ölkəmizdə 1 mln. 360 min iş yeri yaradılmışdır ki, bunun da böyük hissəsi qeyri-neft sektorunun payına düşür.

Dövlət Statistika Komitəsinin (DSK-nın) məlumatına görə, aparılan şaxələndirmə siyasətinin nəticəsidir ki, 2014-cü ildə iqtisadiyyatın qeyri-neft sektorunun real artımı 6,4% olmuşdur. Ümumilikdə, qeyri-neft sektorunda yaradılan əlavə dəyər 2003-cü illə müqayisədə 8 dəfədən çox artmış, bu sektorun ÜDM-də payı 68,8%-ə çatmışdır. Sənaye 2,1%, o cümlədən qeyri-neft sənayesi 10,2%, k/t 6,7%, informasiya və rabitə xidmətləri 8,8 %, pərakəndə ticarət 11,4%, əhaliyə göstərilən pullu xidmətlər 6,2% artmış, inflyasiya 3,7% təşkil etmişdir. [3, s.7]

Ərzaq təhlükəsizliyinə təminat verən və qeyri-neft sektorunun mühüm sahələrindən sayılan qida məhsulları ötən il 1,4%, içki istehsalı isə 8,1% artmışdır. Qida məhsulları və içki istehsalı ilə məşğul olan müəssisələr tərəfindən il ərzində 2,7 mlrd. manatlıq məhsul istehsal edilmişdir. Bununla yanaşı, qeyri-neft sektorunun digər mühüm sahələrindən sayılan toxuculuq, geyim, dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı ilə məşğul olan müəssisələr tərəfindən hesabat ilin-

də 97,5, kimya sənayesi üzrə 325,2, tikinti materialları üzrə 458,3, metallurgiya sənayesi üzrə 413,1, maşın və avadanlıqların istehsalı sahələrində isə 401,7 mln. manatlıq məhsul istehsal olunmuşdur.

Cədvəl 1.

Azərbaycan Respublikasında metallurgiya sənayesində əsas kapitala yönəldilən investisiyalar (mln.man.)

№	Göstəricilərin adları	2010	2011	2012	2013	2014
1	Metal filizlərin hasilatı	-	-	-	-	0,2
	O cümlədən: xarici investisiyalar	-	-	-	-	-
	daxili investisiyalar	-	-	-	-	0,2
2	Metallurgiya sənayesi	21,5	100	54,4	51	2,3
	O cümlədən: xarici investisiyalar	-	-	-	-	-
	daxili investisiyalar	21,5	100	54,4	51	2,3
3	Hazır metal məmulatlarının istehsalı (maşın və avadanlıqlardan başqa)	149	294,3	259,1	366,2	170,8
	O cümlədən: xarici investisiyalar	149	294,3	259,1	366,2	170,8
	daxili investisiyalar	-	-	-	-	-

Cədvəl DSK-nın məlumatları əsasında tərtib edilmişdir.

Ötən il qeyri-neft sənayesinin digər mühüm sahəsi olan elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin müəssisələri tərəfindən 1,8 mlrd. man. dəyərində məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir ki, bu da əvvəlki illə müqayisədə 6 %-lik artım deməkdir. Qeyri-neft sənayesinin su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində isə məhsul istehsalı və xidmətlərin səviyyəsi əvvəlki ilə nisbətən 7% artaraq 231,8 mln. man. təşkil etmişdir.

Metallurgiya sənayesində innovasiyalar

Qeyd etmək lazımdır ki, qeyri-neft sektorunda xüsusi əhəmiyyət kəsb edən sahələrdən biri ***metallurgiya sənayesidir***. Ənənəvi sayılan bu sənaye sahəsinin inkişafı maşınqayırma, kimya, tikinti, gəmiqayırma və digər sahələrin sürətli inkişafını təmin edə bilən strateji əhəmiyyətli sahədir. Metallurgiya sənayesini inkişaf etdirmədən milli iqtisadiyyatımızda digər sahələrin inkişafına nail olmaq, demək olar ki, mümkün deyildir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, hasilat sahələrinin payının artması adətən başqa səbəblər üzündən – maşınqayırmanın payının artmasından irəli gəlir və struktur dəyişikliklərin əksəriyyəti əsasən 2 tip – metallurgiya-maşınqayırma və metallurgiya - tikinti materialları istehsalı – tikinti əlaqələri ilə müəyyən olunur.

İstehsal vasitələrinə əmək predmetləri də daxil olduğundan (ilk növbədə metal) tikinti, maşınqayırma və metallurgiya sahələrinin yaratdığı birbaşa və dolayı tələb inkişaf etmiş ölkələrdə investisiya axınlarının 40%-ni təşkil edir. Bu baxımdan ölkəmizdə də metallurgiyaya yönəldilən investisiyalar digər sahələrin inkişafına təminat verə bilər. Öz növbəsində tikinti və maşınqayırma kimi mühüm sahələrin inkişaf etdirilməsi metallurgiya üçün artan tələbatı formalaşdırmalıdır.

Azərbaycan Respublikasında metallurgiya sənayesinin inkişaf etdirilməsi dünya təcrübəsinin öyrənilməsini daha da zəruri etmişdir. Bu sahədə xüsusilə 2-ci cahan müharibəsindən sonra güclü dağıntılara məruz qalmış Almaniya, Yaponiya və Koreyanın əldə etdiyi nailiyyətlər önəmli sayıla bilər. Mineral ehtiyatları olmayan və metallurgiya xammalını bütövlükdə idxal etməyə məcbur olan Yaponiya təcrübəsi xüsusilə əhəmiyyətlidir. Göstərilən ölkələrdə olduğu kimi Azərbaycan Respublikasında metallurgiya sənayesinin inkişaf etdirilməsi üzrə həyata keçirilən tədbirlər ölkənin metallurgiya kompaniyaları, xarici ticarət və sənaye nazirliklərinin birgə proqramları əsasında həyata keçirilməlidir.

Cədvəl 2.

Yenilik səviyyəsinə və iqtisadi fəaliyyətə görə metallurgiyada innovasiya məhsulunun həcmi (min man.)

№	Göstəricinin adı	2010	2011	2012	2013	2014
1	Maşın və avadanlıqlardan başqa hazır metal məmulatı istehsalı	1788	-	-	1159	-

Cədvəl DSK-nın məlumatları əsasında tərtib edilmişdir.

Milli iqtisadiyyatımızın əsasını təşkil edən sahələrdən biri olan metallurgiya sənayesinin inkişafı birbaşa olaraq həmin sahəyə qoyulan investisiya qoyuluşu ilə əlaqədardır. Bu sahənin inkişafına yönəldilən investisiyalara nəzər salsaq vəziyyətin qənaətbəxş olduğunu söyləmək çox çətindir. (cədvəl 1) [4]

Yuxarıdakı cədvəl göstəricilərinin müqayisəsi bir daha onu göstərir ki, əsas kapitala istiqamətləndirilən investisiyalar heç də metallurgiya sənayesinin inkişafını təmin edəcək qədər deyildir. Ona görə də adı çəkilən sahəyə böyük sərmayə qoyuluşuna ehtiyacın olduğu təkzibedilməzdir.

Metallurgiya sənaye sahəsində realizə edilən innovasiyalara gəldikdə isə onların günün tələblərinə uyğun səviyyədə olduğunu görmək mümkün deyildir. Belə ki, Sumqayıt Sənaye Parkında fəaliyyət göstərən mexaniki məhsullar zavodunda polad armaturlu borular, metal hasar və plastik birləşdirici hissələr istehsal olunur. Parkın ilk sərmayəçisi olan "Azertexnolayn" MMC-nin 2015-ci ilin oktyabrın 25-dən texniki avadanlıq zavodu işə salınmışdır. Bu zavodda metaltökmə sahəsində ən müasir standartlar səviyyəsində qurulan və saatda 10 t. metaltökmə gücünə malik olan 2 soba, saatda 50 qəlib hazırlama gücünə malik avtomatik qəlibləmə sistemi və qum hazırlama xətti var. Zavodda ildə 6500 t. müxtəlif diametrli və yüksək təzyiqə davamlı hidrotexniki avadanlıq istehsal olunacaq. Burada istehsal olunacaq məhsullar əsasən daxili bazarda olan tələbata yönəldiləcək. Zavodun məhsulları həmçinin xaricə, o cümlədən Türkiyəyə, MDB dövlətlərinə və digər ölkələrə ixrac olunacaq. [5, s.1]

Cədvəl 3.

İnnovasiya tiplərinə görə metallurgiya sənayesində texnoloji innovasiyaya çəkilən xərclər (min man.)

№	Göstəricinin adı	2010	2011	2012	2013	2014
1	Maşın və avadanlıqlardan başqa hazır metal məmulatı istehsalı	947,5	-	-	-	-
	Məhsul innovasiyaları	947,5	-	-	-	-
	Müəssisənin öz vəsaiti hesabına	497,5	-	-	-	-
	Sair	450,0	-	-	-	-
2	Maşın və avadanlıq istehsalı	0,7	196,8	130	113,5	12667
	Məhsul innovasiyaları			81,5	77	8210
	Proses innovasiyaları	0,7	196,8	18,5	30,5	4457

Cədvəl DSK-nın məlumatları əsasında tərtib edilmişdir.

Metallurgiya sənayesində digər bir innovasiya istismar edilən yayma dəzgahlarının valları üçün yeni polad markası müəyyən edən tədqiqatlar nəticələr vermişdir. Belə valların mövcud materialı çuqundur. Lakin aparılmış tədqiqatlar nəticəsində U18CXHM markalı evtektoidəqədərki poladın yeyilməyə daha davamlı və istiyə dözümlü olması müəyyən olunmuşdur. Bu poladdan hazırlanmış valların dözümlülüyü 30% çuqun vallardan yüksəkdir. [6, s. 62, 66] Metallurgiya sənayesində həyata keçirilən innovasiyaların isə hazır metal məmulatı istehsalı üzrə 2013-cü ildə innovasiya məhsulunun həcminin 1159 min man. təşkil etdiyini 2 saylı cədvəldən görmək olur.

Qeyd etmək lazımdır ki, fəaliyyət növləri və tətbiq istiqamətləri üzrə metallurgiya sənayesində texnoloji innovasiyalara çəkilmiş xərclər də son dövrlərdə qaneedici həcmdə olmamışdır. Maşın və avadanlıq üzrə ötən ildə metallurgiya sənayesində texnoloji innovasiyalara çəkilən xərclər 12,667 mln. man. təşkil etmişdir ki, bunun da 8,21 mln. man.-ı məhsul innovasiyaları istiqamətində olmuşdur (cədvəl 3).

Cədvəl 4.

Metallurgiya müəssisələrində innovasiyalara mane olan əsas amillər (müəssisələr)

№	Amillərin adları	2010	2011	2012	2013	2014
1	***İqtisadi amillər***					
	Öz pul vəsaitinin çatmaması	27	30	22	25	35
	Dövlət tərəfindən maliyyə yardımının kifayət etməməsi	18	17	9	13	12
	Yeni məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olması	5	3	3	4	4
	Yeniliklərin dəyərinin yüksək olması	9	13	13	7	8
	Yüksək iqtisadi risk	7	5	9	7	8
	Təzə məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətinin uzun olması	3	9	7	5	4
2	***İstehsal amilləri***					
	Müəssisənin innovasiya potensialının aşağı olması	19	7	5	8	15
	Yeni texnologiyalar haqqında informasiyanın çatışmaması	2	4	3	5	10
	İxtisaslı işçilərin çatışmaması	2	7	2	3	2
	Müəssisələr tərəfindən yeniliklərin qəbul edilməməsi	10	5	5	3	3
	Satış bazarları haqqında informasiyanın çatışmaması	3	4	3	2	4
	Digər təşkilatlarla kooperasiya üçün imkanların olmaması	1	2	3	-	-

Cədvəl DSK-nın məlumatları əsasında tərtib edilmişdir.

Beləliklə, yuxarıdakı göstəricilərin araşdırılması nəticəsində qeyri-neft sektorunun mühüm sahələrindən biri sayılan metallurgiya sənayesində innovasiyaların ləng həyata keçirildiyini təyin etmək olur. Buna isə bir sıra amillər təsir göstərir. Qeyd edək ki, respublikamızın digər sənaye müəssisələrində olduğu kimi metallurgiya sənayesində də həyata keçirilən innovasiyalara eyni tip amillər təsir edir. Onları əsasən 3 amil üzrə qruplaşdırmaq mümkündür: iqtisadi, istehsal və digər amillər. İnnovasiyaya mane olan iqtisadi amillərin sırasına aşağıdakılar daxildir:

- Müəssisələrin öz pul vəsaitlərinin kifayət etməməsi.
- Dövlət tərəfindən maliyyə yardımının kifayət etməməsi.
- Yeni məhsullara ödəniş qabiliyyətli tələbatın aşağı olması.
- İnnovasiyaların dəyərinin yüksək olması.
- İnnovasiyaların həyata keçirilməsində yüksək iqtisadi risk.
- Yeni məhsullara çəkilən xərclərin əvəzinin ödənilməsi müddətinin uzun olması və s.

Sənaye müəssisələrində innovasiyaların həyata keçirilməsinə mane olan istehsal amilləri də çox müxtəlifdir. Bunlar əsasən müəssisələrin innovasiya potensialının aşağı olması, yeni texno-

logiyalar haqqında informasiyanın çatışmaması, ixtisaslı işçilərin az olması, müəssisələr tərəfində yeniliklərin qəbul edilməməsi və digər amillərlə əlaqədardır (cədvəl 4).

Qeyd edək ki, 4 saylı cədvəldə metallurgiya sənayesinin inkişafında həyata keçirilən innovasiyalara mane olan digər səbəblər əks etdirilməmişdir. Ölkə iqtisadiyyatında, eləcə də metallurgiya sənayesində innovasiyalara maneçilik törədən digər amillərin sırasına bunlar aiddir:

- ✓ daha əlverişli innovasiyalar nəticəsində yeni məhsullara ehtiyacın olmaması;
- ✓ innovasiya fəaliyyətini tənzimləyən və həvəsləndirən qanunvericilik və normativ-hüquqi sənədlərin az olması;
- ✓ innovasiya prosesi müddətinin qeyri-müəyyən olması;
- ✓ innovasiya infrastrukturunun (vasitəçilik, informasiya, hüquq, bank və xidmətlərin) inkişaf etməməsi;
- ✓ texnologiyalar bazarının inkişaf etməməsi və s.

Nəticə

Milli iqtisadiyyatın digər sahələri kimi metallurgiya sənayesinin də gələcək uğurlu inkişafı birbaşa olaraq innovasiya iqtisadiyyatının formalaşdırılması və inkişaf etdirilməsindən asılıdır. Bunun üçün ilk növbədə innovasiya iqtisadiyyatının inkişafına əlverişli şərait yaradan və ona hərtərəfli dəstək ola biləcək infrastruktur yaradılmalıdır. İnnovasiya infrastrukturunun yaradılması zamanı innovasiya-texnoloji mərkəzlərə, innovasiyalara gətirib çıxardan texnologiya transferi mərkəzlərinə, elmi-texniki informasiya və innovasiya-analitik təşkilatlarına, innovasiya konsaltinqi ilə məşğul olan təşkilatlara, bank strukturlarına və s. xidmətlərə önəm verilməlidir. Bundan başqa, biznes inkubatorlarının və texnoparkların yaradılması, onların müvəffəqiyyətlə fəaliyyət göstərməsinin təmin edilməsi məsələləri xüsusi əhəmiyyət kəsb etməlidir. İnnovasiya infrastrukturunun yaradılmasında əsas məqsəd iqtisadiyyatın innovasiya istiqamətində inkişafının təmin edilməsi və artan tələbatın ödənilməsi üçün beynəlxalq standartların tələblərinə cavab verən rəqabət qabiliyyətli, mütərəqqi məhsulların istehsalına nail olmaqdan ibarətdir.

Qonşu dövlətlərdən Rusiya Federasiyasında (RF-da) adı çəkilən innovasiya infrastrukturunun yaradılması yaranan şəraitin nəzərə alınmaması səbəbindən uğurlu nəticələrə gətirib çıxarmamışdır. RF-da yaradılmış innovasiya-texnoloji mərkəzlər, texnoparklar, xüsusi iqtisadi zonalar, vençur fondları yetərli fayda verməmişdir.

Belə bir vəziyyət eyni ilə AR-da müşahidə edilmişdir. Belə ki, ölkəmizdə yaradılan innovasiya strukturlarının fəaliyyəti hələlik lazımi səviyyədə özünü doğrulda bilməmişdir [7, s.5].

Hazırda ölkəmizdə iqtisadi inkişafın qeyri-neft sektoru üzrə aparılmasına üstünlük verilir ki, bunun da yaxın gələcəkdə real artımlarının şahidi olacağıq. AR-da iqtisadiyyatın 2020-ci ilədək həcmini 2 dəfə artırmaq və inkişaf səviyyəsinə görə dünyanın ilk 50 ölkəsi qrupuna daxil olmaq ölkəmizin əsas strateji hədəflərindəndir. İqtisadi-sosial inkişaf proqnozlarının nikbin olması deməyə əsas verir ki, qarşıdakı dövrdə ÜDM-in illik 5-6%-lik artımına nail olmaq mümkündür. Azərbaycan inkişaf etmiş 50 ölkə qrupuna daxil olmaq niyyətindədir. Şübhəsiz ki, qarşıdakı dövrlərdə uğurların əldə edilməsinə qeyri-neft sektorunun başqa sahələri kimi bilavasitə metallurgiya sənayesinin inkişafı nəticəsində nail oluna bilər.

Məqalənin elmi yeniliyi: innovasiya iqtisadiyyatının inkişaf etdirilməsi üzrə metallurgiya sənayesində innovasiyaların həyata keçirilməsi məsələləri tədqiq edilmişdir. Məqalədə həmçinin qeyri-neft sektorunun əsas sahələrindən biri kimi metallurgiya sənayesində innovasiyaların həyata keçirilməsini birbaşa ləngidən amillərə baxılmışdır.

Tətbiqi əhəmiyyəti: metallurgiya sənayesində müasir istehsalın (xidmətin) inkişaf etdirilməsinə, rəqabət mübarizəsində müəssisələrimizin uğurlu fəaliyyətinə və iqtisadi səmərəliliyinin yüksəldilməsinə təminat verə bilər.

ƏDƏBİYYAT

1. http://vergiler.az
2. Qasımlı V.Ə. İqtisadi modernizasiya. Bakı 2014.: Strateji Araşdırmalar Mərkəzi, 312 s.
3. İqtisadiyyat №41(885) 22.10.15. 12 s.
4. www.stat.gov.az <http://www.stat.gov.az>
5. İqtisadiyyat №43 (887) 5.11.15. 12 s.
6. Həmidov F.C., Məmmədov A.T. 2012, AMEA Xəbərləri. Elm və İnnovasiya seriyası. № 4 (12).
7. Tağıyev A.H. İqtisadiyyat. №41, 16-22.10.15 12 s.

Имран Баламирза оглы Амиров
СГУ

Вопросы инновационного развития металлургии в Азербайджане

Резюме

Основная цель подготовленной статьи состоит в том что, здесь исследованы вопросы внедрения инноваций в металлургической промышленности. В статье раскрывается факторы замедляющие инновации в металлургии как один из основных отраслей ненефтяного сектора.

В результате исследований обоснована необходимость развития металлургической промышленности в деле развития инновационной экономики страны с использованием достижений научно-технического прогресса.

Ключевые слова: конкуренция, инновационная экономика, металлургия, технология, техника, стратегия, производство, потребление.

İmran Balamirza Amirov
SSU

İnnovation of the metallurgy problems of aspect development in Azerbaijan

Summary

Ultimate goal problems of carrying out in the metallurgy industry of the innovations have been investigated in the preparing article. One main branches of non-oil sector have been commented basic factors of the being late of the innovations.

Necessity of developing development in the country of the innovation economy with use from achievements of the scientific and technical progress is in the result of carrying out investigations of the metallurgy industry well-grounded.

Key words: competition, innovation economy, metallurgy, technology, technique, strategy, production, consumption.

UOT 338.45:69

Nəsib Sarı oğlu SARİYEV
Azərbaycan Memarlıq və İnşaat
Universitetinin doktorantı

İNVESTİSİYA PROQRAMLARININ İDARƏ EDİLMƏSİNİN SƏMƏRƏLİLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

Xülasə

Məqalədə investisiya proqramlarının idarə edilməsinin mahiyyəti və xüsusiyyətləri verilir. İnvestisiya proqramına daxil olan layihələrin idarə edilməsi texnologiyası şərh edilir. İnvestisiya proqramlarının iqtisadi səmərəliliyinin qiymətləndirilməsində istifadə edilən göstəricilər və onların hesablanması əsaslandırılır. Həmçinin, investisiya proqramlarının iqtisadi səmərəliliyinin qiymətləndirilməsinin müasir metodikası təklif edilir.

Açar sözlər: investisiya, proqram, tikinti, səmərəlilik, layihə, qiymətləndirmə, idarəetmə, maliyyələşdirmə, metodika.

Giriş

Ölkə və dünya təcrübəsi göstərir ki, tikintinin səmərəliliyinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə nail olmaq üçün xaricdə geniş yayılan investisiya proqramlarının təcrübəsindən istifadə etmək lazımdır. İnvestisiya proqramlarının əhəmiyyəti iqtisadiyyatın struktur yenidənqurulması dövründə, büdcə və büdcədənkənar investisiyaların çatışmazlığı şəraitində xüsusi ilə artır.

İnvestisiya proqramının idarə edilməsi – idarəetmə texnologiyasının və müasir metodlar sisteminin tətbiqi ilə proqramın və layihənin həyat tsikli ərzində nəzarət və motivasiya, koordinasiya, təşkilati, planlaşdırma fəaliyyətidir. O, investisiya proqramının iştirakçılarını, işlərin həcminin keyfiyyətini, dəyərini və tərkibini bir sistemdə birləşdirir və bununla, investisiya proqramında müəyyən edilmiş məsələlərin və proseslərin ən səmərəli reallaşdırılmasının təmin edilməsi məqsədinə nail olunur. [1, s.117]

Nəzəri

İnvestisiya proqramına daxil olan layihələrin idarə edilməsi texnologiyası çox mürəkkəb proses olduğundan, bu layihələrin reallaşdırılmasında Azərbaycan menecerləri müəyyən çətinliklərlə qarşılaşırlar və onlar layihələrin idarə edilməsi metodologiyasından zəif istifadə edirlər. Əgər ən mürəkkəb proseslər alqoritmləşdirilərsə (bizim halda – layihənin reallaşdırılması layihəsi hazırlanırsa), belə halda layihələrin idarə edilməsi texnologiyası az təcrübəli menecerə də mürəkkəb görünməyəcək, reallaşdırmanın özü isə nisbətən sadə qaydaya salınmış proses olacaqdır.

Hər hansı investisiya layihələrinin və proqramlarının idarə edilməsinə müəyyən səmərənin alınması üçün kapitalın cəlb edilməsi və istifadəsinin məqsədyönlü fəaliyyətinin toplusu kimi baxmaq olar.

Səmərəliliyin iqtisadi və ya digər növlərinin (sosial, ekoloji və s.) layihələri fərqlənirlər.

İqtisadi səmərəlilik əldə etmək məqsədi ilə yaradılan investisiya layihələri məhsulun reallaşdırılmasından alınan mənfəətə və qoyulan kapitalın müəyyən həcmindən asılı olaraq rentabelliyin maksimum alınmasına yönəldilməlidir (kommersiya layihələri). İqtisadi səmərəliliyin alınması ilə əlaqədar olmayan investisiya layihələri sosial sferada ətraf mühitin mühafizəsində, ölkənin təhlükəsizliyinin təminində və s. dövlət məsələlərini həll etmək üçün maksimum istehlak dəyərinə və onun maksimum faydalılığına yönəldilməlidir. Üçüncü qrup investisiya layihələri özündə birinci iki qrupun məqsədlərini birləşdirməlidir.

İnvestisiya proqramları tam tərkibdə özünə əsas fondların yaradılması prosesini, onların istismarını, məhsulun buraxılışını (xidmətlərin göstərilməsini) və onun reallaşdırılmasını, habelə proqramın və layihənin ləğvini daxil edir. Proqramlar göstərilən proseslərin ancaq bəzilərini əhatə edə bilərlər. Həmin proseslər ardıcıllıqla yerinə yetirilir və ya vaxta görə uyğunlaşdırılır. Hər bir prosesin xüsusi məqsədi vardır və bütövlükdə proqramın və layihənin maksimum səmərəliliyinə yönəldilməlidir.

İnvestisiya proqramlarının idarə edilməsi tam investisiya tsikli (həyat tsikli) dövrünü, onun mərhələlərini əhatə edir və öz tərkibinə görə müxtəlif əhəmiyyətli proqramlar və layihələr üçün eynidir. Belə ki, investisiya layihələrinin idarə edilməsinə aşağıdakı mərhələlər daxildir: başlanğıc (investisiyaqabagı və ya layihəqabağı); layihənin hazırlanması, layihənin reallaşdırılması; son (işlərin tamamlanması). Başlanğıc mərhələsində layihənin ideyası işlənilir, layihənin bütün elementləri vaxta görə əlaqələndirilir və əvvəlcədən onların dəyəri və səmərəliliyi müəyyən edilir. Həmin mərhələnin əsas məqsədi ilkin kapitalın əsaslandırılması, layihənin səmərəliliyinin müəyyən edilməsidir. Layihənin işlənməsi mərhələsində onun reallaşdırılması yolları əsaslandırılır və elementləri ətraflı işlənilir. Həmin mərhələdə qəbul edilən qərarlar, layihənin reallaşdırılması mərhələsində əsas fondların yaradılmasının operativ idarə edilməsi (tikintinin idarə edilməsi), məhsulun alınması həyata keçirilir. Son mərhələdə layihənin inkişafı imkanı və ya onun ləğvi haqqında qərar qəbul edilir. Göstərilən mərhələlərin hər biri daxili mərhələdə bölünürlər, başlanğıc və son müddətlər işlərin qarşılıqlı əlaqəsini, vaxta görə onların uygunlaşdırılmasını (birləşməsini) müəyyən edir.

Başlanğıc mərhələdə investisiya (kommersiya) təklifi, sonra isə layihənin biznes-planı işlənilir. Burada onun bütün elementlərinin tərkibi və məzmunu əsaslandırılır, səmərəliliyin qiymətləndirilməsi verilir. İnvestisiya təklifi mümkün investorların axtarışı məqsədilə işlədilir. Biznes-plan layihənin maliyyələşdirilməsinin açılması üçün əsasdır. Maliyyələşdirmə üçün layihənin seçilməsi, adətən müsabiqəyə əsasən həyata keçirilməlidir. Bu məqsədə uyğun layihələrin qiymətləndirilməsi üçün müəssisənin,-şirkətin-layihənin təşəbbüskarlarını və reallaşdırma nəticəsində yaradılan məhsulun layihəsini xarakterizə edən texniki-iqtisadi göstəricilər sistemi işlənilməlidir. O cümlədən aşağıda göstərilənlər müəyyən edilməlidir:

- marketinq tədqiqatının aparılmasına əsasən bazarda məhsula olan tələb;
- vaxta görə məhsulun istehsalı həcmi;
- əsas fondların tərkibi, strukturu və gücü;
- layihə hədlərinin texnoloji səviyyəsi;
- maddi-texniki resursların təmin edilməsi;
- avadanlıqların tərkibi, gücləri və digər xarakteristikaları;
- layihənin səmərəliliyi və maliyyə imkanlarının həyata keçirilməsi;
- layihənin reallaşdırılması riski və onun ləğvi və s.

Planın ən mühüm bölmələrindən biri proqramın və layihənin səmərəliliyinin qiymətləndirilməsidir. Bu, sənayenin inkişafı üzrə Birləşmiş Millətlər Təşkilatının sənaye tədqiqatının Beynəlxalq Mərkəzinin (YUNİDO) [2] hazırladığı beynəlxalq standartların tələblərini və Azərbaycan iqtisadiyyatının spesifikasını nəzərə almaqla həyata keçirilməlidir. Layihənin səmərəliliyi layihənin həyat tsikli ərzində və onun reallaşdırılması xərclərinin səmərəliliyinin cəminin nisbətinə əsasən müəyyən edilir.

Layihənin reallaşdırılması üzrə ən səmərəli qərar ilkin kapitalın (birdəfəlik xərclər), istismar xərclərinin (cari xərclərin), səmərə və vaxt amilinin nəzərə alınmasının müxtəlif hesablama göstəriciləri variantlarının seçilməsi yolu ilə müəyyən edilir. Səmərəlilik göstəriciləri layihənin tipindən asılı müəyyən edilir. İqtisadi səmərəliliyin alınması nəzərdə tutulan layihələr üzrə səmərə mənfəət, gəlir və rentabellik göstəriciləri ilə müəyyən edilir. Vaxt amili kapital qoyuluşunun ödənilməsi dövrü və layihənin həyat tsikli müddəti ilə xarakterizə edilir. Müxtəlif vaxtlı xərclərin uçotu və layihənin nəticəsi diskontlaşdırma əmsalının köməkliyi ilə həyata keçirilir.

Layihənin rentabelliyi mənfəətin və kapitalın nisbəti ilə müəyyən edilir. Layihənin reallaşdırılmasında alınan mənfəətin miqdarı gəlirliliyin müəyyən edilmiş normasından asılı olaraq dəyişilir. Gəlirlilik norması ilkin kapitalın cəlb edilməsi mənbələrindən asılı olaraq müəyyən edilir. Borc kapitalı üçün o, kredit verənlərlə və investorlarla razılaşdırılır. Layihənin sifarişçisinin xüsusi kapitalı üçün gəlirlik norması müəssisənin (şirkətin) imkanlarına, səhmlərin dəyərinin dəyişilməsi meyillərinə və digər qiymətli kağızlara (müəssisənin səhm və digər kapitalına) və s. əsasən qəbul edilir.

Təhlil

İnvestisiya layihəsinin iqtisadi səmərəliliyinin qiymətləndirilməsi aşağıdaki əsas inteqral göstəricilərinin xalis diskontlaşdırılmış gəlir, gəlirlik indeksi, gəlirliyin daxili norması, ödəmə müddətinin istifadə edilməsinə əsasən həyata keçirilir. İnteqral göstəriciləri müəyyən etmək üçün pul vəsaitləri axını, habelə məhsulun reallaşdırılmasından alınan gəlir (kapital qoyuluşu), cari xərclər (istismar xərcləri), dövriyyə vəsaitləri, əsas fondların köhnəlməsi və amortizasiya ayırmaları, vergilər və ödənişlər hesablanılır. İnteqral göstəricilərinin çoxvariantlı təhlili onun maliyyəsinin həyata keçirilməsi şəraitində səmərəli qərarın müəyyən edilməsinə imkan verir. [3, s. 67]

İnvestisiya proqramlarının idarə edilməsində səmərəlilik problemi ən mühümdür. O, kapital qoyuluşunun əsaslandırılması prosesində və seçilməsində mərkəzi yer tutur.

Müasir iqtisadi ədəbiyyatda səmərəlilik sistemin (idarəetmə, investisiya fəaliyyəti və s.) fəaliyyətinin nəticələrinin müvafiq xərclərə nisbəti kimi başa düşülür.

İqtisadi ədəbiyyatda səmərəlilik problemi üzrə nəşrlərin ən çoxu kapital qoyuluşunun səmərəliliyinin hesablanması nəzəriyyəsi və metodları ilə bağlıdır.

Kapital qoyuluşunun (investisiyaların) səmərəliliyi, qoyuluşların və investisiya xərclərinin nəticəsinin nisbəti kimi müəyyən edilir. Bazar iqtisadiyyatı şəraitində hər hansı bir obyektin və ya müəssisənin və ya şəhərin tikinti layihəsinin, rayonun, məhəllənin investisiyalarının iqtisadi səmərəliliyi üçün investisiya proqramı (layihəsi) hazırlanır, hansı ki, iqtisadi məqsədyönlülüyün əsaslandırılması, kapital qoyuluşunun həyata keçirilməsinin həcmi və müddəti, o cümlədən tikinti obyektinin layihəsinin və investisiyaların (biznes-planın) həyata keçirilməsi üzrə praktiki fəaliyyət verilir.

Müxtəlif investisiya proqramlarının reallaşdırılmasında alınan gəlir və ya digər qazanclar elmi ədəbiyyatda investisiyaların istifadəsindən alınan səmərə kimi baxılır.

Aydındır ki, səmərə mütləq kəmiyyətdir, səmərəlilik isə nisbidir. Ən ümumi halda səmərə və səmərəlilik göstəriciləri aşağıdakı kimi müəyyən edilə bilər:

$$S_1 = N - X,$$

$$S = \frac{S_1}{X} = \frac{N - X}{X}$$

Burada S_1-proqramın (layihənin) reallaşdırılmasında alınan səmərə, man;

N- proqramın (layihənin) reallaşdırılmasından alınan nəticə, man;

X- proqramın (layihənin) reallaşdırılması xərcləri, man;

S- proqramın (layihənin) səmərəliliyi.

Nəticə altında burada istehsal olunan əmtəələrin, yerinə yetirilən işlərin, göstərilən xidmətlərin dəyəri başa düşülür, xərclər isə - proqramın (layihənin) həyata keçirilməsi ilə bağlı müəssisənin xərcləri və istifadə olunan resursların dəyərinin əks edilməsidir. Beləliklə, səmərə xərclərə nisbətən nəticənin yüksəlməsi ilə müəyyən edilir, səmərəlilik isə səmərənin xərclərə nisbəti ilə müəyyən edilir.

Ona görə də xərclərə investisiya proqramının (layihənin) həyata keçirilməsi xərcləri, yəni investisiyalar (onları biz ilk xərclər adlandırırıq), həm də istehsal (əməliyyat) fəaliyyətinin həyata keçirilməsi ilə bağlı xərclər, yəni cari xərclər aiddir.

$$X = İ + X_c,$$

Burada İ – investisiya proqramının (layihəsinin) həyata keçirilməsi ilə bağlı investisiya xərcləri – tikinti, yenidənqurma, əsas fondların əldə edilməsi, dövriyyə kapitalının formalaşdırılması və qeyri-material aktivləri, man.

X_c – investisiya proqramının (layihəsinin) həyata keçirilməsi ilə bağlı cari xərclər - məhsulun istehsalı, işlərin yerinə yetirilməsi və ya proqramın (layihənin) bütün dövrü ərzində investisiya proqramının həyata keçirilməsi nəticəsində yaradılan və müəssisəyə göstərilən xidmətlərin istehsal xərcləri.

Həyata keçirilən xərclərin vahidinə nə qədər çox səmərə alınarsa, investisiyanın səmərəliliyi də o qədər yüksək olacaq. İnvestisiyanın səmərəliliyinin qiymətləndirilməsində alınan səmərə proqram (layihə) üzrə xərclərin bütün məbləğinə yox, ancaq investisiya xərclərinə ölçülə bilər:

$$S = S_1 / İ$$

Metodiki tövsiyələrə müvafiq [4, s.65] səmərəliliyin aşağıdakı növlərini qiymətləndirmək tövsiyə olunur: bütünlükdə layihənin səmərəliliyi və layihədə iştirakın səmərəliliyi. Layihənin səmərəliliyi bütünlükdə mümkün iştirakçıların və maliyyələşdirmə mənbələrinin axtarışları üçün potensial əlverişli layihənin müəyyən edilməsi məqsədi ilə qiymətləndirilir. Bütünlükdə layihənin səmərəlilik göstəriciləri iqtisadi nöqteyi-nəzərdən tikinti istehsalı obyektinin layihə həllini xarakterizə edir.

Proqramda iştirakın səmərəliliyi onda iştirak edənlərin hamısının maraqları və reallaşdırmanın yoxlanması məqsədilə müəyyən edilir və özünə aşağıdakı səmərəliliyi daxil edir:

- proqramda müəssisələrin və şirkətlərin iştirakı;
- səhmlərin investisiyalaşdırılması – səhmdarlar, səhmdar cəmiyyətləri üçün – investisiya proqramının iştirakçıları;
- müəssisəyə nisbət üzrə ən yuksək səviyyədə proqramda iştirak edənlər və proqramda dövlətin iştirakının büdcə səmərəliliyi.

Nəticə

İnvestisiya proqramlarının səmərəliliyinin qiymətləndirilməsinin əsasında aşağıdakı prinsiplər qoyulub (onların texniki və texnoloji həllərindən, maliyyədən, sahələrdən və regional xüsusiyyətlərindən asılı olmayaraq) proqramların hər bir tipinə tətbiq edilə bilər:

- investisiyaqabağı tədqiqatın aparılmasından onun fəaliyyətinin dayandırılmasına qədər layihənin bütün həyat tsikli ərzində baxılması;
- layihənin həyata keçirilməsində pul daxilolmaları və xərcləri ilə bağlı pul axınlarının modelləşdirilməsi;
- layihənin həyata keçirilməsi şərtlərinin müqayisəsi;
- müsbət prinsiplər və maksimum səmərə, alternativ variantların müqayisəsində üstünlük ən çox əhəmiyyətli səmərəsi olan layihəyə verilməlidir;
- faktor amili, o cümlədən tikintinin başlanması və istismara verilməsi arasındakı vaxtın pozulması;
- ancaq gələcək xərclərin və daxilolmaların uçotu;
- layihədə istifadə olunan əvvəlcədən yaradılan resurslar onların yaradılması xərcləri ilə yox, buraxılan qazancların maksimum əhəmiyyətini əks etdirən alternativ dəyərlə qiymətləndirilir;
- layihənin ən mövcud nəticələrinin uçotu, layihənin müxtəlif iştirakşılarının mövcudluğu, dövriyyə kapitalının təsiri, inflyasiya, xarici və daxili mühitin və risklərin qeyri-müəyyənliyi.

ƏDƏBİYYAT

1. Смирнов А.Л. Организация финансирования инвестиционных проектов. М: Консалтбанкир, 1993, 163 с.
2. Руководство по подготовке промышленных технико-экономических исследований. Организация промышленного развития Объединенных Наций (Юнидо), 1978, 94 с.

3. Методические рекомендации по оценке эффективности инвестиционных проектов. Официальное издание. - М.: Экономика, 2000, 78 с.
4. Методические рекомендации по оценке эффективности инвестиционных проектов (вторая редакция) – М: Экономика, 2002, 412 с.

Насиб Сары оглы Сарыев
докторант Азербайджанского Архитектурно - Строительного Университета

Оценка эффективности управления инвестиционных программ

Резюме

В статье раскрываются особенности и значение управления инвестиционных программ. Описываются технологии управления проектами, входящими в инвестиционную программу. Обосновываются показатели, применяемые при оценке экономической эффективности инвестиционных программ и их расчёты. Также предлагается современная методика оценки экономической эффективности инвестиционных программ.

Ключевые слова: инвестиции, программа, строительство, эффективность, проект, оценка, управление, финансирование, методика.

Nasib Sarı Sariyev
doktoral student of Azerbaijan Architectural and Construction University

Evaluation of effectiveness of the management of investment programs

Summary

The article deals with the nature and characteristics of the management of investment programs. Management technology of projects included in the investment program is explained. The indicators which are used to measure the economic effectiveness of investment programs and indicators calculation are justified. Modern methods of evaluating the effectiveness of investment programs are also suggested.

Key words: investment, program, construction, effectiveness, project, evaluation, management, funding, methods.

УОТ 338.24.01

Айхан Валех оглы ХУБАНОВ
преподаватель Азербайджанского Технического Университета

МНЕНИЕ ПО ПОВОДУ “МОДЕЛИ ИНКЛЮЗИВНОГО ЭКОНОМИЧЕСКОГО РОСТА”

Резюме

В статье дается понятие инклюзивного экономического роста в интерпретации ряда глобальных международных организаций и авторов. Отмечается актуальность и важность данного типа роста для устойчивого развития стран. Приводится взаимосвязь инклюзивного роста, человеческого развития и увеличения благосостояния. Отмечается, что социальная защита также является важной частью политики, имеющей отношение к инклюзивному росту. Подчеркивается важная черта инклюзивного роста - рост ВВП приводит к участию в экономике всех социальных групп, уменьшает бедность и неравенство.

Ключевые слова: инклюзивный рост, социальное неравенство, бедность, безработица, устойчивое развитие.

Введение

Достаточно значимой в ходе развития информационного общества в республике является проблема, связанная с организационно-правовым обеспечением процесса формирования и функционирования отделенных сегментов информационного пространства и, прежде всего, интернета. Современные технологии предоставляют людям различные услуги в режиме “онлайн”, такие как поиск информации, электронная торговля, дистанционное образование, взаимодействие с государственными структурами и т.д. Однако при этом неизбежно возникают вопросы правового характера, связанные с регулированием или его отсутствием, в части, например, авторских прав, несанкционированного доступа к конфиденциальной информации и т.п. В этом случае требуется с одной стороны государственное вмешательство в виде принятия соответствующих законов, координирующих связанную с ним деятельность, с другой - принятие мер, не подрывающих основы информационного общества, его свобод.

Учитывая глобальный характер интернета, справиться с этой проблемой возможно лишь в рамках международного сотрудничества. Следующий вопрос - недостаточное финансирование отдельных сегментов информационного общества. Прежде всего речь идет о таких составляющих как: инфраструктура ИКТ и целевые программы и проекты, направленные на его развитие. Неадекватность объема финансирования развития ИКТ задачам построения информационного общества как в республике, так в регионе и отсутствие ясных механизмов финансирования совместных проектов по развитию ИКТ ограничивают перспективы экономического развития экономики.

Проблема адекватного финансирования развития информационного общества является чрезвычайно сложной, включающей в себя аспекты ценообразования, конкуренции, развития рыночной и отраслевой структуры. Безусловно, актуальной в современных условиях для государств также является проблема обеспечения информационной защищенности государства, в том числе в контексте выстраивания межгосударственных отношений в этой области.

Следует отметить, что сама по себе идея информационного противоборства существовала всегда. Информация использовалась как оружие в войнах и инструмент политической борьбы (сбор секретных сведений, агитация, дезинформация, пропаганда т.д.). Однако в конце XX века в условиях формирования глобального информационного пространства идея информационного противоборства выходит на новый уровень. Информационное оружие может быть направлено не только на разрушение государственной инфраструктуры и экономики. Оно может быть направлено непосредственно на людей. Посредством различных рекламных акций, пропаганды, дезинформации и т.п. формируется общественное мнение, меняются ценностные ориентиры. Воздействие различной информации через телевидение, интернет и другие средства на подсознание может быть столько велико, что его можно сравнить с “зомбированием” людей. В этой связи представляется необходимым учитывать в национальных программах развития информационного общества меры по обеспечению информационной защищенности государства и общества, а также координи-

ровать дальнейшее развитие сферы информационной безопасности на межгосударственном уровне с использованием интеграционного потенциала СНГ. [3]

Заключение

Серьезный импульс развитию ИКТ и других этих процессов в Азербайджане придало проведение в концептальных основ и документов в области информатизации. Стремительное развитие ИКТ - базового сегмента информационного общества, в значительной мере способствует трансформации сложившей в прошлом модели глобальной экономики, переосмыслению роли информации в промышленном производстве, её значимости в критических для полноценного развития государства, сферах торговли, образования, здравоохранения и безопасности. В целом в республике повысилась доступность ИКТ, достигнуты определенные успехи в компьютеризации населения и доступности интернета. Повышается уровень компьютерной грамотности, развиваются электронные формы ведения бизнеса и электронная коммерция, создается инфраструктура предоставления государственных электронных услуг. Хоть и крайне медленно, но сокращается «цифровой разрыв».

Одной из ключевых проблем развития информационного общества в республике продолжает оставаться то, что технические и экономические аспекты информатизации выходят на первый план, в то время как институциональные проблемы решаются медленнее. Реализация “Национальной стратегии по информационным и коммуникационным технологиям во имя развития Азербайджанской Республики (2003-2012 годы)” обеспечило доступ населения Азербайджана к образованию, профессиональной подготовке и обучению в любом возрасте и позволила сформировать хороший фундамент для дальнейшего развития систем обучения на распределенной мультимедийной основе, главным образом, благодаря реформе государственной образовательной политики.

Вместе с тем, необходимо отметить, что задача по построению в Азербайджане информационного общества, отраженная в государственной Концепции Развития “Азербайджан-2020: взгляд на будущее” является лишь одной из 11 определенных государственных задач. Формирование информационного общества в будущем предполагается поддерживать в том объеме, в котором оно востребовано и необходимо для достижения планируемых показателей социально-экономического развития Азербайджана до 2020 года.

ЛИТЕРАТУРЫ

1. Концепции развития “Азербайджан-2020: взгляд в будущее”. Ваку, 2012.
2. Марк Фрел и Девид Диккенс. Предпринимательство и малые фирмы. Издательства, М., 2014, http://www.ozon.ru/context/.
3. Состояние, проблемы и перспективы развития информационного общества в СНГ. Москва, 2012.
4. Сущность категорий “информационное общество”, “информационная экономика” http://econ.vsu.ru/ downloads/pub/seconomic/4/pidoymo.pdf.
5. https://www.eos.ru/eos_delopr/eos_delopr_intesting/detail.php.ID=596 <https://www.eos.ru/ eos_delopr/ eos_delopr_intesting/detail.php.ID=596>.
6. https://ru.wikipedia.org/wiki/Glektronnoe_pravitelğstvo <https://ru.wikipedia.org/wiki/Glektronnoe_pravitelğstvo>.
7. http://www.infousa.ru/ society/economy/ch4.htm.
8. https://ru.wikipedia.org/wiki/ Glektronnaə_kommerüiə.
9. www.e-taxes.gov.az <http://www.e-taxes.gov.az>
10. http://www.mincom.gov.az page-411/page-448/page-451/.

Teymur Tacəddinoviç Mehdiyev
AMEA-nın İqtisadiyyat İnstitutunun doktorantı

Azərbaycan Respublikasında informasiyalı cəmiyyətin təşkilinin müasir səviyysəi və inkişafı

Xülasə

Müasir cəmiyyətdə informasiya cəmiyyətinin təşkilinə və inkişafına olan diqqət daim artmaqdadır. Bu baxımdan məqalədə informasiya cəmiyyətinin təşkili zərurəti əsaslandırılaraq onun ölkədə təşkili və inkişaf səviyyəsi qiymətləndirilir. Müvafiq sahədə mövcud olan problemlər müəyyən olunaraq, onların aradan qaldırılma istiqamətləri qeyd olunur.

Açar sözlər: informasiya cəmiyyəti, informasiya - kommunikasiya texnologiyaları, iqtisadi inkişaf.

Teymur Tajaddinovich Mehdiyev
PhD of ANSA of Eİ

Modern information society and the development level in the Republic of Azerbaijan

Summary

Constantly increasing attention to the development and organizing of the information society in modern society. From this point of view the organization of the information society in the country and justify the need of organization and the level has estimated his article. Set the direction of elimination of the existing problems in the field it.

Key words: information society, information and communication technology, economic development.

II BÖLMƏ
AQRAR PROBLEMLƏR VƏ ONLARIN HƏLLİ İSTİQAMƏTLƏRİ

UOT 338.43

İbadət Əhli oğlu HÜSEYNOV
AMEA-nın İqtisadiyyat İnstitutunun dissertantı

AQRAR SAHƏDƏ KOOPERASİYA ƏLAQƏLƏRİNƏ YENİ PRAQMATİK BAXIŞ

Xülasə

Məqalədə, bazar münasibətləri şəraitində aqrar sahədə kooperasiya əlaqələrinin təşəkkülü, mövcud vəziyyəti və inkişafı praqmatik baxımdan təhlil olunmuş, onun dayanıqlığının təmin olunması məsələləri araşdırılmışdır. Qeyd edilmişdir ki, müasir dövrün tələblərinə uyğun olaraq, aqrar sahənin yenidən qurulmasını və modernləşməsini səmərəli kooperasiya əlaqələri olmadan təsəvvür etmək mümkün deyildir. Bu isə, qloballaşma və urbanizasiya proseslərinin genişləndiyi bir dövrdə, qeyri - neft sektorunda həmin sahənin xüsusi çəkisinin artmasına səbəb ola bilər.

Açar sözlər: bazar münasibətləri, aqrar sahə, kooperasiya əlaqələri, dayanıqlılıq, modernləşdirmə, qloballaşma, urbanizasiya, qeyri-neft sektoru.

Giriş

Müasir şəraitdə aqrar sahənin yeni dövrün tələbləri səviyyəsində qurulması və inkişafı böyük əhəmiyyət kəsb edir. Bu prosesdə isə kooperasiya əlaqələri mühüm rol oynayır. Ümumiyyətlə, aqrar sahədə kooperasiya fəaliyyəti - müxtəlif mülkiyyət formalı təsərrüfat subyektləri arasındakı səmərəli və qarşılıqlı münasibətlərin ən bariz nümunəsi kimi qiymətləndirilə bilər. Çünki, bu əlaqələr yeni iqtisadi proseslərdə baş verən dəyişikliklərə praqmatik və məqsədyönlü şəkildə uyğunlaşaraq, baş verən innovativ yeniliklərin aqrar sahəyə səmərəli tətbiqinə hərtərəfli imkan yaradır. Lakin qeyd olunan proseslərin lazımi səviyyədə və ardıcıl şəkildə həyata keçirilməsi isə bilavasitə dövlətin böyük diqqət və qayğısı ilə əlaqədardır.

Aparılan təhlillər göstərir ki, bu gün iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin kənd təsərrüfatında məhz yüksək səviyyəli aqrar kooperasiya əlaqələrinin formalaşması nəticəsində uğurlu nəticələr əldə olunmuş, səmərəli təsərrüfatçılıq formaları qurulmuş və onlar məhsuldar inkişaf edə bilmişlər. Beynəlxalq təcrübədən göründüyü kimi, kənd təsərrüfatının dayanıqlı inkişafı kooperasiya fəaliyyətinin çoxsaylı üstünlüklərindən istifadə olunmaqla təmin edilmiş, yüksək rəqabətqabiliyyətli məhsulların nəinki istehsalı, həmçinin onların tədarükü, emalı, marketinq - satış prosesləri, maddi - texniki və maliyyə - kredit vəsaitləri ilə təminatı, digər zəruri infrastruktur tədbirlərinin həyata keçirilməsi də bu yolla baş vermişdir.

Yuxarıda göstərilənlər ölkəmiz üçün də xüsusi aktuallıq kəsb edən məsələlərdəndir. Çünki, aqrar sahənin modern bazar münasibətlərinə uyğun şəkildə yenidən qurulması, o cümlədən ekoloji təmiz və keyfiyyətli məhsulların qarşıya qoyulan tələblər səviyyəsində istehsalı, emalı və onların istehlakçılara çatdırılması ilə bağlı olan digər proseslərin həyata keçirilməsi - düzgün kooperasiya əlaqələri olmadan mümkün deyildir. Qeyd etmək lazımdır ki, mövcud bazarda baş verən lokal inhisarçılıq və sağlam olmayan rəqabət meyilləri, eyni zamanda digər anoloji hallar isə - pərakəndə və dağınıq şəkildə fəaliyyət göstərən xırda istehsalçıların həyata keçirdikləri fəaliyyətin konsolidasiyasını və onların sağlam kooperasiyaya əsaslanan qarşılıqlı şəkildə əlaqələndirilməsini tələb edir.

Kooperasiya fəaliyyətinin məzmunu və əsas tərkib elementləri

Böyük potensiala və zəngin tarixi təcrübəyə malik olan kooperasiya - qarşıya qoyulmuş birgə məqsədləri həyata keçirmək üçün iştirakçıların könüllü birləşməsi kimi qəbul edilir. Bu baxımdan, "kooperasiya fəaliyyəti - mövcud mənafelərin səmərəli şəkildə əlaqələndirilməsi, inkişafı təmin edən yardımın həyata keçirilməsi və qarşılıqlı iqtisadi faydalılığın təmin olunmasına əsaslanan,son nəticədə isə əldə edilmiş gəlir və zərərin mövcud fəaliyyətdə iştirakına və ya şəxsi əmək iştirakına görə pay haqqı nəzərə alınmaqla bölüşdürülməsi fəaliyyətidir. Göründüyü kimi, "kooperasiya" termini əməkdaşlıq termininin sinonimi kimi çıxış edərək, qarşılıqlı münasibətlərə əsaslanan iqtisadi subyektlərin gəlir və mənfəətlərinin yüksəlməsinə əlverişli şərait yaradır.

Kooperasiya haqqındakı daha dolğun gerçəkliklər belədir ki, o insanı istehsal, xidmət, ticarət və digər bu kimi sahələrin sahibkarı etməklə, onun yaradıcılıq imkanlarını aşkara çıxarır. Təsadüfi deyildir ki, məhz kooperasiya ölkələrdə əsaslı dərəcədə sosial-iqtisadi inkişafa təkan verərək, bir sıra neqativ halların qarşısını almağa şərait yaradır, əhalinin ərzağa, xalq istehlakımallarına, müxtəlif xidmətlərə olan tələbatının ödənilməsinin ən vacib amilinə çevrilir. Kooperasiya özünün fəaliyyət mexanizmi olan kooperativ hərəkatı vasitəsi ilə ölkənin iqtisadiyyatının müxtəlif sferalarını əlaqələndirir, təsərrüfatçılığın mühüm sahələrindən biri kimi, bazar iqtisadiyyatına uyğun gələn yeni iqtisadi təfəkkürün formalaşmasına zəmin olur. Müasir dövrdə genişlənən qloballaşma və dərinləşən liberal iqtisadi proseslər kooperasiyanın sadə istehsal və xidmət sektorundakı fəaliyyətini gücləndirməklə yanaşı, onun elm,təhsil, mədəniyyət, informasiya vasitələri və hətta üstün texnologiyalar istehsalı sferalarına çıxışını təmin etmişdir. Artıq bir sıra inkişaf etmiş ölkələrdə kooperasiya məhsulunun ÜDM-də xüsusi çəkisi rəqabətqabiliyyətli güc nümayiş etdirməkdədir". [1, s. 8]

Böyük İqtisadi Ensiklopediyada isə bununla bağlı qeyd edildiyi kimi, "kooperasiya (latınca cooperatio - əməkdaşlıq) - birgə məqsədləri həyata keçirmək üçün, iştirakçıların səy və resurslarının könüllü birləşməsidir. O, ictimai təsərrüfat formalarından biri kimi, müxtəlif şərtlərlə, məsələn öz aralarında razılaşdırılmış və sıx əlaqədə olan bir və ya bir neçə əmək prosesində birgə iştirak edən müxtəlif sayda insanların əməkdaşlığı kimi təşkil olunur. İqtisadiyyatda bu proses əmək kooperasiyası adlanır. Kooperasiyanın aşağıdakı növləri fərqləndirilir:

a) yekcins işi (məsələn, balığın tutulması, torpağın becərilməsi, tikinti, ticarət, məhsul yığımı) tələb edən sadə kooperasiya;

b) əmək bölgüsünə, keyfiyyətinə və mürəkkəbliyinə görə müxtəlif əməliyyatların həyata keçirilməsinə əsaslanan mürəkkəb kooperasiya.

Mürəkkəb kooperasiya zamanı istehsal vasitələri, iş vaxtı və iştirakçıların ixtisas imkanlarından səmərəli istifadə olunur ki, bu da orta əmək məhsuldarlığının artımına gətirib çıxarır. Kooperasiya, bir qayda olaraq, pay iştirakına əsaslanır, lakin digər variantlar da ola bilər. Sənaye və kənd təsərrüfatı kooperativləri, istehlak və kredit yoldaşlıqları, mənzil, tikinti kooperativləri və sair mövcuddur ki, bunu da aşağıdakı cədvəldən müşahidə etmək mümkündür . [2, s. 237-239]

Kooperasiyanın məqsədləri - xırda və orta təsərrüfat sahələrində yeni texnologiyaların tətbiq edilmə şəraitini təmin etmək, aqrar - sənaye kompleksində modern sənaye texnologiyalarının səmərəli tətbiq olunmasına şərait yaratmaq, hansı ki, əhalinin tələbat məhsullarının istehsalına və onun həcminin artırılmasına, həmçinin kooperatorların gəlirlərinin yüksəldilməsinə istiqamətlənərək, onun həyat səviyyəsinin yüksəldilməsinə təminat verir". [3, s. 282]

Kooperasiya fəaliyyətinin nəzəri-metodoloji problemlərinin araşdırılması həm yerli, həm də xarici ölkə alimlərinin çoxsaylı əsərlərində öz əksini tapmışdır. Məsələn, iqtisad elmləri doktoru, professor Eldar Quliyevin fikrincə, "...iqtisadi tarixdə mühüm yer tutan kooperasiya hərəkatı - insan fəaliyyətinin bütün sahələrini əhatə edir. Kooperasiya münasibətlərini araşdıran tədqiqatçılar kooperativləri, əsasən aşağıdakı kimi qruplaşdırırlar: istehlak, kənd təsərrüfatı, kredit, istehsal, mənzil və innovasiya kooperativləri. Fəaliyyət sahəsindən asılı olmayaraq, kooperasiya əməyin motivasiyasına, gəlirlərin ədalətli bölgüsünə, resurslardan səmərəli istifadəyə, bazar tə-

ləblərinə daha çevik uyğunlaşmağa yönəlmiş əməkdaşlıqdır. İstehsal, istehlak, innovativ fəaliyyət və bu kimi digər istiqamətlərdə iqtisadi və sosial funksiyaların reallaşdırılmasının mühüm amili kimi kooperasiyanın inkişafı məsələləri xüsusi aktuallığı ilə seçilmişdir.

İqtisadi agentlərin könüllü əməkdaşlığına əsaslanan kooperasiya birgə fəaliyyətin imkanlarını genişləndirməklə, onların rəqabət qabiliyyətinin yüksəlməsinə xidmət edir. Nəticə etibarı ilə, haqqında danışılan imkanlar - məşğulluq problemlərinin həllinə, intellektual potensialın reallaşdırılmasına rəvac verir. Digər tərəfdən, kooperasiya tarazlı regional inkişafa, həyata keçirilən islahatların sürətləndirilməsinə və işgüzar fəallığın yüksəldilməsinə şərait yaradır". [4, s.94- 95]

Göründüyü kimi, kooperasiya fəaliyyəti - özündə iştirakçıların maraq və məqsədli prinsiplərini əks etdirən təsərrüfatçılıq üsulu, təşkilati formadır. Bu zaman baş verən kooperasiya əlaqələri isə istehsal - iqtisadi fəaliyyət ilə məşğul olan fiziki və hüquqi şəxslərin mövcud imkan və resurslarının düzgün istifadəsinə, həmçinin potensialdan səmərəli şəkildə istifadə edərək, müxtəlif maraqların eyni mövqedən iştirakını təmin edir. Bu əlaqələr bazar iqtisadi münasibətlər sisteminə uyğun həyata keçirilən dəyişikliklərə səmərəli və məqsədyönlü şəkildə uyğunlaşaraq, mövcud sahələrdə baş verən innovasiya yönümlü dəyişikliklərin səmərəli tətbiqinə geniş imkanlar yaradır.

Aqrar sahədə kooperasiya əlaqələrinin təşəkkülü və inkişafı xüsusiyyətləri

Müşahidələr göstərir ki,aqrar sahə iqtisadiyyatın digər sahələrindən fərqli olaraq, bir sıra özünəməxsus təbii, texnoloji və sosial-iqtisadi cəhətləri ilə fərqlənir. Lakin onu qeyd etmək yerinə düşər ki, bu sahədə əsas və başlıca istehsal vasitəsi torpaqdır. Aqrar sahədə istehsal prosesi çoxsaylı təbii amillərlə, xüsusən də torpaq-iqlim şəraiti ilə sıx bağlıdır. Torpağın ən mühüm xüsusiyyəti və başlıca əlaməti isə, onun əkinə yararlılıq və münbitlik göstəriciləridir. Məhsuldarlıq isə münbitliyin əsas göstəriciləri kimi çıxış edir. İqlimin müxtəlifliyi və rəngarəngliyi isə istehsal olunan kənd təsərrüfatı məhsullarının seçim şərtlərini və çeşidini genişləndirir.

Yuxarıda göstərilən cəhətləri nəzərə alaraq söyləyə bilərik ki, həmin xüsusiyyətləri nəzərə almadan,kənd təsərrüfatı sahələrini davamlı şəkildə inkişaf etdirmək, müxtəlif məhsulların həcminin artımını təmin edən səmərəli tədbirlər planı hazırlayaraq həyata keçirmək mümkün deyildir. Bir cəhəti də vurğulamaq yerinə düşər ki, göstərilən sahə bir çox funksiyaları yerinə yetirir.

Burada mühüm bir məqamı da vurğulamaq yerinə düşər. Bu, aqrar sahə və kənd təsərrüfatı terminlərinin bir-birinə uyğunluğu və əksər hallarda bir-birini əvəz etmələridir. Təhlillər göstərir ki, sinonim terminlər kimi işlənilən bu sözlər yaxın mənalı olmaqla, əslində bir-birini tamamlayırlar. Məsələn, aqrar sözü latın mənşəli olub, torpağa aid olan, onun üzərində mülkiyyət hüququ və torpaqdan istifadə edilməsi ilə bilavasitə bağlı münasibətləri əks etdirir. Kənd təsərrüfatı isə həm bitkiçilk, həm də heyvandarlıq məhsullarının istehsalı və onunla bağlı bütün prosesləri əhatə edir.

Əslində bu sahədə həyata keçirilən istehsal prosesinin təməlində yuxarıda göstərilən bölmələr durur. Ümumiyyətlə, kənd təsərrüfatının uğurlu fəaliyyət göstərməsi üçün onun özünəməxsus xüsusiyyətlərinin nəzərə alınması çox vacib və önəmlidir. Xüsusən də, istehsal prosesinin spesifik cəhətlərinin iqtisadi artım amilinin məqsədyönlü şəkildə təmin edilməsi və səmərəlilik göstəricilərinin yüksəldilməsinə təsirini nəzərə almaq da mühüm əhəmiyyət daşıyır.

Qeyd olunduğu kimi, aqrar sahədə istehsal prosesinin ixtisaslaşma formalarına uyğun səmərəli təşkil olunması və intensiv şəkildə inkişaf etdirilməsinin, o cümlədən əmək məhsuldarlığı göstəricisinin yüksəldilməsi və tələbatın ödənilməsi üçün istehsal olunan çoxsaylı məhsulların rəqabətqabiliyyətlilik səviyyəsinin yüksəldilməsinin əsas mexanizmini səmərəli kooperasiya əlaqələri təşkil edir. Bu əlaqələr bir sıra əlamətlər üzrə - məsələn, ərazi (regional), təşkilati və funksional əlamətlər nəzərə alınmaqla qruplaşdırılır. Sözsüz ki, bu əlamətlərin hər biri də müxtəlif istiqamətlərə bölünür. Məsələn, istehsal, tədarük, emal, satış, xidmət yönümlü əlaqələri bura aid edə bilərik.

Beləliklə, bu gün " kənd təsərrüfatında əmtəə istehsalçıları arasında kooperasiya əlaqələrinin genişləndirilməsi və inkişaf etdirilməsi uzunmüddətli proses olub, kompleks tədbirlərin həyata keçirilməsi ilə əlaqədardır. Bu zaman - birinci mərhələdə, kənd təsərrüfatında əmtəə istehsal-

çıları və kommersiya arasında əməkdaşlığın genişləndirilməsi ön plana çəkilməlidir. Növbəti mərhələdə isə sahə prinsipləri əsasında əməkdaşlığın genişləndirilməsi ön plana çəkilməlidir. Növbəti mərhələdə, sahə prinsipləri əsasında kooperativ təşkilatların fəaliyyət göstərməsi və onların işlərinin fərqləndirilməsi məsələləri mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, kənd təsərrüfatı kooperasiyası təsərrüfatlararası əlaqələndirmə proseslərinin ən mühüm və başlıca formalarından biri hesab olunur, bütövlükdə isə bazar mexanizminin ən mühüm əhəmiyyət daşıyan və keyfiyyət baxımından geniş əlaqələrə malik olan bir hissəsini təşkil edir.

Kənd təsərrüfatında əmtəə istehsalçıları arasında kooperasiya əlaqələrinin genişləndirilməsi - müasir şəraitdə regionlarda maliyyə siyasətinin həyata keçirilməsinin mühüm istiqamətlərindən birini təşkil edir. Qeyd etmək lazımdır ki, hazırda aqrar - ərzaq kompleksində fəaliyyət göstərən təsərrüfat subyektləri arasında kooperasiya əlaqələrinin inkişaf etdirilməsi, bütövlükdə istehsalın stimullaşdırılmasına istiqamətləndirilmiş tədbirlərin səmərəli şəkildə həyata keçirilməsinə və onun müsbət cəhətlərinin formalaşmasına gətirib çıxaran hallardan biri sayıla bilər. Bazarda məhsul istehsalçılarının arasında kooperativ əlaqələrin genişləndirilməsi isə, ilk növbədə şaquli, yəni sahə prinsipinə əsaslanmalıdır. Bu zaman ərazi prinsipləri əsasında kooperasiya ittifaqlarının təşkil edilməsi- aqrar-ərzaq kompleksinin davamlı inkişafının təmin olunmasının mühüm təşkilati atributu sayıla bilər". [5, s. 223-224]

Mütərəqqi xarici təcrübə göstərir ki, aqrar dahədə kooperasiya əlaqələrinin səmərəli təmin olunması istiqamətində əsas məsələlərdən biri - göstərilən sahədə effektiv dövlət tənzimlənməsi siyasətinin həyata kecirilməsidir. Yuxarıda göstərilənlər ölkəmiz üçün də xüsusi aktuallıq kəsb edən məsələlərdəndir. Çünki, aqrar sahənin modernləşdirilməsi və yüksək keyfiyyətli məhsulların istehsalı, həmçinin onların istehlakçılara çatdırılması ilə bağlı olan digər proseslərin həyata keçirilməsi - səmərəli kooperasiya əlaqələri olmadan mümkün deyildir. Mövcud bazarda baş verən rəqabət meyilləri, digər anoloji hallar isə, pərakəndə və dağınıq şəkildə fəaliyyət göstərən xırda istehsalçıların fəaliyyətinin konsolidasiyasını və onların sağlam kooperasiyaya əsaslanan birgə fəaliyyətini tələb edir.

Müşahidələrə görə, Azərbaycan hökuməti yaxın illərdə aqrar kooperasiya əlaqələrinin və bütövlükdə bu sahədə mövcud fəaliyyətin dovlət tərəfindən tənzimlənməsi ilə davamlı tədbirlərin həyata kecirilməsini nəzərdə tutur. Bununla yanaşı, aqrar kooperasiya əlaqələrinin davamlı şəkildə inkişafının prioritet istiqamətləri üzrə xüsusi dövlət proqramının qəbul edilməsi və bu yöndə zəruri işlərin həyata keçirilməsi mühümdür.

Azərbaycan Respublikası regionlarının sosial - iqtisadi inkişafı üzrə həyata keçirilən dövlət proqramlarında da aqrar sahənin davamlı inkişafı üzrə tədbirlərə xüsusi diqqət yetirilir. Bu isə, təsadüfi deyildir. Çünki, kənd təsərrüfatına yararlı torpaq sahələri, o cümlədən aktiv iş qüvvəsi məhz regionlarda yerləşir. Düzdür, keçən əsrin 90-cı illərinin ortalarında ölkədə həyata keçirilən torpaq islahatları nəticəsində, hər bir kəndli torpaq sahəsi ilə təmin edilərək, əsl mülkiyyətçi statusu əldə etdi. Lakin müəyyən obyektiv və xüsusən də subyektiv səbəblərə görə, əksər mülkiyyətçilər öz torpaqlarını becərməyərək, daha asan və çox qazanc məqsədilə şəhərlərə, ilk öncə də Bakıya üz tutdular...

Torpaq islahatından sonra aqrar sahədə keyfiyyət yönümlü dəyişikliklər həyata keçirilməyə başlandı. Çoxsaylı qanun və qaunverici sənədlər qəbul edildi, zəruri normativ - hüquqi baza formalaşdırıldı, onun davamlı inkişafına təkan verən əməli tədbirlər həyata keçirildi. Yuxarıda qeyd edildiyi kimi, bu prosesdə regionların inkişafına dair qəbul edilmiş hər üç Dövlət Proqramının böyük rolu danılmazdır. Xüsusən də, son dövrdə aqrar sahənin modernləşdirilməsi və keyfiyyət yönümlü tədbirlərin həyata keçirilməsinə daha çox diqqət yetirilir.

Bununla yanaşı, tədqiqat apardığımız sahədə müxtəlif problem və çətinliklər hələ də qalmaqdadır. Məsələn, əksər aqrar istehsalçılar təkbaşına öz torpaq sahəsini əkib yetişdirə bilmirlər. Bu isə, ilk növbədə aqrar kooperasiya və inteqrasiya əlaqələrinin düzgün şəkildə qurularaq, sürətləndirilməsini tələb edir. Qeyd edildiyi kimi, əslində aqrar kooperasiya - istehsalçıdan istehlakçıya

qədər olan bütöv bir prosesi əhatə edir. Regional inkişaf və kənd təsərrüfatının mövcud durumu kooperasiya əlaqələrinin daha ciddi və əsaslandırılmış şəkildə təşkilini zəruri edir. Lakin həmin prosesin tam və bütöv şəkildə həyata keçirilməsi üçün, ilk öncə zəruri qanunverici baza formalaşdırılmalı, kənd təsərrüfatı kooperasiyası haqqında ayrıca qanun qəbul edilməlidir.

Fikrimizcə, bu gün "aqrar sahədə kooperasiya əlaqələri təsərrüfatlararası koordinasiya və səmərəli əlaqələndirmə proseslərinin əsas forması kimi çıxış etdiyi üçün, onun daim təkmilləşdirilməsinə ehtiyac vardır. Belə ki, yuxarıda göstərilən münasibətlərin təkmilləşdirilməsi – mövcud bazar konyunkturasının şərtlərini nəzərə almaqla, böyük əksəriyyəti kiçik və orta ölçülü olan təsərrüfat subyektlərində yeni, müasir texnologiyaların səmərəli tətbiqinə əlverişli şəraitin yaradılmasını və mövcud məhsuldarlığın yüksəlməsinə şərait yaradır ki, bu da son nəticədə kooperasiya üzvlərinin gəlirlərinin artması və rifah səviyyəsinin yüksəlməsinə şərait yaradır.

Aqrar kooperasiya əlaqələrinin təkmilləşdirilməsi istiqamətləri həm də aşağıdakı obyektiv iqtisadi şərtlərlə bağlıdır. Belə ki, mövcud kooperativ müəssisələrinin əksəriyyətinin istehsal bazası - əsasən keçmişdə fəaliyyət göstərən dövlət və təsərrüfatlararası kənd təsərrüfatı məhsulları istehsalçılarının bazası əsasında formalaşmışdır. Hal-hazırda aqrar-sənaye kompleksində aşağıdakı kooperativ qurumların yaradılması müşahidə olunmaqdadır:

- kənd təsərrüfatı əmtəə istehsalçılarının emal sənayesi üzrə ittifaqları;
- yerli və xarici maliyyə, bank, sığorta, sənaye, digər təyinatlı şirkətlər və holdinqlər;
- topdansatış bazarı; istehlak kooperasiyası;
- kənd təsərrüfatı məhsullarının tədarük və emal sistemi;
- maddi-texniki təminat sistemi və s.

Bu kooperasiya birlikləri kənd təsərrüfatı məhsullarının istehsalı və uyğun xidmətlərin göstərilməsi üçün qiymət disparitetinin aradan qaldırılmasına kömək edəcək, aqrar-sənaye qurumlarının təşkilati-hüquqi strukturunu dəyişməyə, əmtəə istehsalçılarının və xidmət-infrastruktur sahələrinin mövcud olan maddi-texniki təchizatının yeniləşdirilməsi və onların iqtisadi hüquq bərabərliyinin təmin olunması məsələlərini həll etməyə, bununla yanaşı, mərkəzləşdirilmiş iqtisadi yardım fondları yaratmağa imkan verəcəkdir". [6, s.317]

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 16 aprel 2014-cü il tarixdə imzaladığı "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanında [7], kəndli fermer təsərrüfatlarının daha iri kənd təsərrüfatı müəssisələri formasında birləşmələrinin iqtisadi stimullaşdırılmasını nəzərdə tutan "Kənd təsərrüfatı kooperasiyası haqqında" qanun layihəsinin hazırlanması tapşırılmışdır. Hesab edirik ki, müxafiq qanunverici bazanın formalaşdırılması - aqrar sahədə kooperasiya əlaqələrinin daha sürətli inkişafına təkan verəcək və bu sahənin yeni şəraitə uyğun davamlı və modern inkişafını təmin edəcəkdir.

Nəticə

Yuxarıda göstərilənləri ümumiləşdirərək, bir sıra həlli vacib təklifləri irəli sürməyi məqsədəuyğun hesab edirik. Belə ki:

- aqrar sahədə səmərəli kooperasiya əlaqələrinin davamlı və intensiv inkişafı üçün həm müvafiq dövlət icra strukturlarının, həm də yerli idarəetmə (bələdiyyə) qurumlarının lazımi şəkildə qurulması və əlaqələndirilməsi;
- bu prosesdə dövlətin iqtisadi tənzimlənmə vasitələrinin reallaşması mexanizminə üstünlük verilməsi, sağlam rəqabət mühitinin formalaşdırılması və antiinhisar qanunvericiliyinə əməl olunması, aqrar kooperativlərə uzunmüddətli güzəştli şərtlərlə kreditlərin verilməsi, eyni zamanda onların istehsal etdikləri məhsulların tədarük olunması, sərfəli satın alınması, bu sahədə maliyyə və qiymət mexanizmlərinin daha da təkmilləşdirilməsi;
- aqrar sahədə kooperativ əlaqələrinin inkişafı istiqamətində nümunəvi baza modelinin işlənib hazırlanması, bu zaman müxtəlif regionlar üzrə təbii - coğrafi mühit, həm də təsərrüfatçılığın ixtisaslaşma səviyyəsinə üstünlük verilməsi;

- aqrar sahədə kooperasiya əlaqələrini genişləndirmək üçün, əmlakı və torpağı özəlləşdirilmiş payçı və əmək kollektivi üzvlərinin, həmçinin sistemdənkənar fiziki və hüquqi şəxslərin müqavilə əsasında, öz əmlakı ilə aqrar kooperasiyanın üzvlüyünə cəlb edilməsi istiqamətində stimullaşdırıcı tədbirlərin görülməsi və s.

ƏDƏBİYYAT

1. İsrafilov H.A. Qloballaşma şəraitində istehlak kooperasiyasının təkmilləşdirilməsi istiqamətləri (*monoqrafiya*). Bakı, “Elm”, 2009, 464 s.
2. Böyük İqtisadi Ensiklopediya, III cild, Bakı, “Şərq-Qərb”, 2012, 609 s.
3. Müəlliflər kollektivi. Aqrar sahənin dayanıqlı inkişaf problemləri. Bakı, 2012, 438 s.
4. Quliyev E.A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri. Bakı, “Elm”, 2013, 308 s.
5. Cavadov N. Ə. Aqrar sahədə struktur dəyişiklikləri. Bakı, “Elm”, 2009, 440 s.
6. Müəlliflər kollektivi. Aqrar sahə modernləşmə dönəmində: problemlər və onun həlli yolları. Bakı, 2009, 505 s.
7. “Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi və institusional islahatların sürətləndirilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı,16.04.2014.

Ибадет Ахли оглы Гусейнов
диссертант ИЭ НАНА

Новый прагматический взгляд на кооперативные отношения в аграрной отрасли

Резюме

В статье были рассмотрены вопросы формирования и развития кооперативных отношений в аграрной отрасли в условиях рыночной экономики, (с прагматической точки зрения) проанализировано современное состояние и были исследованы проблемы обеспечения его устойчивости. Было отмечено что, отвечая требованиям современного времени обновления и модернизация, аграрную отрасль в невозможно представить без эффективных кооперативных отношений. А это в свою очередь в условиях усиления процессов глобализации и урбанизации может привести к росту удельного веса этой отрасли в не нефтяном секторе.

Ключевые слова: рыночные отношения, аграрная отрасль, кооперативные отношения, устойчивость, модернизация, глобализация, урбанизация, не нефтяной сектор.

İbadet Ahli Hüseynov
Candidate for a degree of Eİ ANSA

New pragmatic view to cooperation relations in agrarian sector

Summary

In article forming of cooperation relations, modern condition and development of agrarian sector under the market relations condition are analysed, its problems of providing of stability are investigated by pragmatic. The article marked that don’t represent forming and modernization of agrarian field by effective cooperation relations. Therefore, are increasing share of agrarian branch in non-oil sector under the globalization and urbanization processes.

Key words: market relations, agrarian field, cooperation relations, stability, modernization, globalization, urbanization, non-oil sector.

UOT 332.122

Həsən Saleh oğlu ABBASOV
Naxçıvan Dövlət Universitetinin dissertantı

NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA AQRAR İNFRASTRUKTURUN TƏNZİMLƏNMƏSİ ÜSULLARI VƏ ONLARIN QURULUŞUNUN OPTİMALLIĞI

Xülasə

Məqalədə əsas diqqət aqrar infrastrukturun mahiyyətinin açıqlanmasına, onun quruluşunun müəyyən edilməsinə ayrılmışdır. Müəyyən edilən məzmun özündə iki xarakterik məcmunu qarşılıqlı əlaqəli şəkildə birləşdirmək niyyətindədir. Onlardan birincisi aqrar sahədə mövcud olan infrastruktur və onun qiymətləndirilməsi imkanlarına sistemli baxışın təmin olunmasıdır.

Lakin aqrar sahənin infrastrukturunun formalaşdırılması ilk növbədə bu sferanın istehsal və xidmət komponentlərinin mövcudluğunun dəqiq öyrənilməsi halında mümkündür. Bəhs olunan fikir ümumilikdə aqrar sahənin quruluşuna kompleks yanaşmanın zəruriliyini şərtləndirir.

Məqalədə nəzəri baxışların ifadə edilməsi ilə yanaşı hadisələrin təcrübi müstəvidə necə inkişaf etməsinə də xüsusi diqqət yetirilmişdir ki, bu da problemin öyrənilməsi üzrə aparılan araşdırmanın sistemliliyinə dəlalət edir.

Tədqiqatın qurulmasında Naxçıvan Muxtar Respublikasının aqrar sahəsi üzrə formalaşmış real şərait və imkanların öyrənilməsinə müraciət olunmuşdur.

Açar sözlər: aqrar sahə, aqrar infrastruktur, aqrar təsnifat, tənzimlənmə üsulları, quruluşun optimallığı.

Giriş

Ölkəmizin sosial-iqtisadi inkişafı və mədəni-məişət həyatı özünün çoxsaylı və kifayət qədər geniş mənşəli amillərinin təsiri ilə səciyyələnir. Yaranan vəziyyət respublika iqtisadiyyatının vahid sistem şəklində, təməllərin kompleks fəaliyyəti təmin edilməklə mövcudluğunu tələb edir.

Hər bir sahə və ya onun mühüm tərkib hissələri respublikanın gündəlik həyatına özünəməxsus töhfələri verməklə seçilir. Bu baxımdan aqrar sahə, həmçinin onun işinin təşkilində mühüm element kimi çıxış edən aqrar infrastruktur bir tərəfdən əhalinin ərzaq məhsulları ilə təmin edilməsində, digər tərəfdən emal sənayesinin xammala olan tələbatının ödənilməsində mühüm rol oynayır

İstənilən tədqiqat işində olduğu kimi, mövzunun sistemli araşdırılmasında diqqətin ilk öncə ölkənin ümumi iqtisadi inkişaf səviyyəsinə və onun sahəvi quruluşuna yönəldilməsi məqsədəuyğundur. Aqrar sahənin ümumi əmtəə bazarına təklif etdiyi əmtəə və xidmətlərin ümumi məhsulda xüsusi çəki ifadəsi 10%-i keçməsə də, onun hasil etdiyi məhsullar özünün istehlakçı kütləsinin kifayət qədər genişliyi və rəngarəngliyi ilə fərqlənir. [13]

Sadalanan məsələlər məqalədə işıqlandırmağa çalışdığımız məsələnin aktuallıq dərəcəsini aydınlaşdırmaq məqsədini güdür.

Məlumatlar və metodlar

Tədqiqatımız kənd təsərrüfatı sahəsinin kompleks şəkildə öyrənilməsinin zəruriliyini ön plana çəkir. Araşdırmanın ardıcıl və məqsədyönlü təşkili üçün ilk növbədə regional səviyyədə aqrar sferada istehsal potensialının vəziyyəti, hasilatın müxtəlif əlaqəli amillər əsasında ixtisaslaşdırılması kimi məsələlərə aydınlıq gətirilməlidir ki, onun əsasında da həmin regionda infrastrukturun hansı növünün təşkili və inkişafına zərurətin yaranması, ayrı-ayrı növlərin paylarının müəyyən edilməsi kimi məqamların mütəmadi qiymətləndirilməsinin aparılması mümkün olsun. Belə ki, sahənin hasilat imkanları ilə yanaşı, infrastrukturun vəziyyəti də əmtəənin mübadilə məkanlarına, həmçinin son istehlakçı ünvanlarına çatdırılmasında öz sözünü demiş olur.

Məsələnin aktuallığını aydınlaşdırmaq məqsədilə öncə aşağıdakı sxemi nəzərdən keçirək. (sxem 1).

Sxem 1.

Aqrar sahənin hasilat və xidmət komponentləri



Mənbə: sxem müəllif tərəfindən tərtib olunub.

Sxem 1-dən də göründüyü kimi, aqrar sahənin hasilat və komponentləri sırasında öncül yerdə sahə təyinatına istifadə olunan, özündə istehsal fəaliyyətinin təşəkkül tapmasına şərait yaradan torpaq fondudur. Bu fondun tərkibinə daxil olan torpaqlar özündə birbaşa əkinçilik və heyvandarlıq istiqaməti üzrə istifadəsi ilə seçilən sahələri birləşdirir. Onun məcmusunun daxilində aqrar sahənin istehsal təyinatlı ümumi torpaq həcmi ifadə olunmaqla yanaşı, həmçinin sahədaxili payların həcmləri və nisbətlərinə də diqqət yetirilməlidir. Məsələn, 2015-ci ildə Naxçıvan Muxtar Respublikasında birbaşa əkinçilik təyinatı üçün 61,4 min ha torpaq sahələri istifadə olunmuşdur ki, bu da keçən illə (60,8 min ha) müqayisədə 1,0% artım deməkdir. [12]

Təsnifatda heç də zəif olmayan əhəmiyyətlə seçilən istehsal təyinatlı digər əsas fondlar uyğun proseslərdə iştirakının spesifikliyi ilə fərqlənir. Məzmunca bu qruplar əsas fondlar məcmusunun aktiv və passiv hissələrini təşkil edir. Onlar həmçinin daşınar və daşınmaz qruplar üzrə də fərqləndirilir. Maddi-əşya tərkibi etibarı ilə əsas fondların tərkibində aqrosubyektlərə aid torpaq sahələri ilə yanaşı ötürücü qurğular, maşın və avadanlıqlar, nəqliyyat vasitələri, istehsal (və ümumi təsərrüfat) təyinatlı alət və ləvazimatlar, çoxillik əkmələr, məhsuldar mal-qara və iş heyvanları, yumşaq inventar və s. fərqləndirilməlidir.

Aqrar sahəni əhatə edən hasilat proseslərində mühüm komponentlərdən biri də insan resursları hesab olunur. Mahiyyət etiarı ilə bu resurslar müəyyən əmək, bilik və vərdişlərə malik işçi qüvvəsindən ibarətdir. Təkcə bir faktı nəzərdən qaçırmaq lazım deyil ki, ümumrespublika göstəricisindən fərqli olaraq Muxtar Respublikada yaşayan əhalinin 70%-dən çoxu kənd yerlərində məskunlaşıb. Digər tərəfdən, regionun cəmi əhalisinin tərkibində kənddə çalışanların sayı kənd əhalisinin ümumi sayının 40%-ə qədərini təşkil edir ki, bu da kifayət qədər böyük xüsusi çəki hesab olunur. [10, s.91]

Aqrar sahədə istifadə olunan dövriyyə istehsal fondları həmin sferada işlərin təşkili və həyata keçirilməsinin mühüm elementlərindən hesab olunur. Belə ki, əkinçilikdə - toxumun, meyvəçilikdə - tinglərin, heyvandarlıqda - yemin və dövriyyə fondlarının digər növlərinin olmaması

şəraitində aqrohasilat prosesinin baş verməsinin mümkün olmadığına dəlalət edir. Onlar bir tərəfdən hansısa istehsalın son məhsulunu ifadə etdiyi halda kənd təsərrüfatında dövriyyə fondlarının spesifik tərkibi haqda fikir yaradır.

Digər fəaliyyət sahələrində olduğu kimi, kənd təsərrüfatında da zəruri istehsal və xidmət proseslərinin həyata keçirilməsində maliyyə resurları ilə təmin olunmanın xüsusi əhəmiyyəti vardır. Qeyd etmək yerinə düşər ki, hasilat prosesinin hər üç fazası maliyyə (pul) ifadələri ilə müşayiət olunur. Alış qiymətlərindən istehsal (tam) maya dəyərinin formalaşmasınadək, satış prosesində mübadilənin baş verməsinədək olan ardıcıllıq maliyyə resurslarının vacibliyinə, onların mövcudluğunun zəruriliyinə dəlalət edir.

Aqrar fəaliyyətin sistemli təşkilində onun infrastrukturunun yaradılması, bu elementin sahə üzrə real şərait nəzərə alınmaqla formalaşdırılması zəruridir. Tədqiqatlar nəticəsində aydın olmuşdur ki, müvafiq sferanın tammənalı fəaliyyətinin təmin edilməsində infrastrukturun yaradılması mühüm əhəmiyyət kəsb edir. Təcrübədə infrastrukturun (o cümlədən, aqrar infrastrukturun) çoxsaylı tərkib hissələri fərqləndirilir ki, bunu məqalənin gedişatında kifayət qədər geniş nəzərdən keçirəcəyik.

Haqqında bəhs edilənlərlə yanaşı aqrar sahədə hasilat və xidmət fəaliyyətinin həyata keçirilməsi üzrə digər komponentlər də fərqləndirilir ki, onları da obyektiv və subyektiv ehtiyaclardan irəli gələn, insanların ehtiyaclarının birbaşa ödənilməsi obyekti kimi çıxış edən, çoxsaylı təbii və sonradan yaradılan amillərin təsiri nəticəsində formalaşan qruplara bölmək mümkündür. Bu komponentlər sırasında mühüm olanlardan biri zəruri hüquqi-normativ bazanın, onun icra mexanizmlərinin hazırlanması və istifadəyə verilməsidir.

Mövzunun araşdırılmasında mühüm məsələlərdən birini onun aparıldığı istiqamətdə (və ya istiqamətlərdə) istifadə olunan elmi metodlar təşkil edir. İstənilən tədqiqatın düzgün, dürüst, ümumiyyətlə, tələblərə uyğun şəkildə təşkil olunması ilk növbədə onun qarşısında qoyulan vəzifələrin müəyyən edilməsi və buna uyğun texnologiyanın seçilməsi ilə başlanır. Dəqiqləşdirilən məqsədlər və texnoloji tələblər öz növbəsində istifadə olunacaq metodlarla bağlı fikirləri dəqiq-ləşdirməyə imkan verir.

Konkret halda isə aqrar sahədə mövcud olan, onun inkişafı və yeniləşməsi məqsədlərinə xidmət edən infrastrukturun öyrənilməsindən bəhs olunur. Öyrənilən məsələ ilə bağlı, fikrimizcə, müşahidə, çoxamilli təhlil, qruplaşdırma, qarşılıqlı yerdəyişmə, mütləq və nisbi kəmiyyətlər kimi metodların köməyindən istifadə olunması məqsədəuyğundur.

Aqrar infrastrukturun mahiyyəti və təsnifləşdirilməsi

Yuxarıda qeyd edildiyi kimi, kənd təsərrüfatı fəaliyyətinin tammənalı həyata keçirilməsi üçün uyğun təyinatlı infrastrukturun müəyyən edilməsi, yaradılması və istifadəyə verilməsi mühüm əhəmiyyət kəsb edir. Onun tərkibi haqda fikir söyləməzdən əvvəl sxem 2-də ifadə olunan təsnifatı nəzərdən keçirmək məqsədəuyğun olardı.

Sxem 2-də verilmiş qruplaşdırmadan da aydın olduğu kimi, infrastruktur elementləri mümkün istehsalatların tələblərindən irəli gələrək yaradılır və onlara özünəməxsus xidmətlərin göstərilməsi üçün nəzərdə tutulur. Aqrar infrastrukturu ifadə edə biləcək nümunəvi tərkibi fərdi qaydada nəzərdən keçirək.

1. *Malların qorunması, saxlanılması infrastrukturu*. Bu bənd kənd təsərrüfatı məhsulları üzrə proseslərin bir neçə mərhələsində mümkün olur:

a) hasilatdan öncəki mərhələdə - zəruri xammal və materialların, gübrə və ehtiyat hissələrinin, yemlərin və s.-nin təsərrüfatlara gətirilməsi zamanı;

b) hasilat bitdikdən sonra - hazır məhsulun toplanaraq, ilkin və ya son emalı keçməklə, adətən istehlakçıya təklif məqsədilə məcmu halında saxlanması və qorunması zamanı;

c) təsərrüfat daxilində mərhələli istehsal təşkil edildiyi zaman - mərhələlər arasında və s.

Sxem 2.

Aqrar sahənin infrastruktur növləri və istiqamətləri



Mənbə: sxem müəllif tərəfindən tərtib olunub.

Müvafiq infrastruktur istiqamətinin tərkibində ümumi və xüsusi təyinatlı saxlama anbarları və onlarda fəaliyyəti təmin edəcək avadanlıqlar, anbardaxili yerdəyişməni və ya anbardan çıxışı mümkün edəcək avadanlıq və vasitələr, müxtəlif texniki qurğular (temperaturun dəyişməsini qeyd edən, müxtəlif qablaşdırmaları həyata keçirəcək və s.) öz əksini tapmaqdadır. Müəssisələrdə anbar təsərrüfatlarının formalaşdırılması ilk növbədə onlarda mühafizə olunacaq obyektlərin xarakter və xassələrindən, saxlanılma müddətindən və formasından, digər xüsusiyyətlərdən asılı həyata keçirilir. [7, s.44]

Xidməti istifadədə müasir dövrün nailiyyətlərindən asılı olaraq çoxsaylı hesablama vasitələrinin tətbiqi də istisna deyil. Buraya obyektin ilkin qeydiyyatını həyata keçirəcək laborator və çəki avadanlıqları, mədaxil və məxaric əməliyyatlarını aydın ifadə edəcək EHM-lər və onların proqram təminatı da daxildir.

2. Məhsulların nəqlolunması (daşınması) infrastrukturu. Müvafiq maddə istehsal olunmuş məhsulların istehlakçının “mövcud olduğu” məkana çatdırılmasını şərtləndirir. Belə ki, tələbi olmayan məhsulun hasil edilməsi son nəticədə təsərrüfat subyektinin müflisləşməsi ilə nəticələnəcəkdir. Bununla belə “istehsalçı - istehlakçı” qarşılıqlı əlaqalərində nəqlolunma (daşınma) sistemi “üfuqi” və “şaquli” araşdırmalara məruz qalmalıdır. “Üfuqi” tədqiqatların əsas istiqamətlərinə araşdırma obyekti hesab olunacaq daşımanın hansı üsulda aparılması (ümumi və xüsusi daşıma), nəqlolunma zamanı hansı vasitələrdən istifadə olunma (avtomobil, dəmiryolu və s. nəqliyyat növləri) öz əksini tapmalıdır.

Öz növbəsində “şaquli” formada aparılan tədqiqatlarda satışın aparılması qaydalarından asılı olaraq nəqlolunma formasının və məsafəsinin seçilməsi mühüm element kimi nəzərdən keçirilməlidir.

3. Aqrar sahə məhsullarının satış infrastrukturu. Bu maddə özündə reallaşdırma prosesi zama-nı yarana biləcək bir çox məsələlərə aydınlıq gətirə bilər. Aqrar sfera subyektləri tərəfindən satış əməliyyatlarının həyata keçirilməsi bir tərəfdən bu əməliyyatların aparılacağı məkanla, digər tərəfdən isə onların forması haqda fikirləri dəqiqləşdirməyə imkan verir. Haqqında bəhs olunan məsələ eyni zamanda yaradılacaq müvafiq istiqamətdəki infrastrukturun formalaşma

xüsusiyyətlərini şərtləndirəcəkdir. Satış infrastrukturu haqda daha müfəssəl fikir formalaşdırmaq üçün sxem 3-ə baxaq.

Sxem 3.

Aqrar sahədə satış infrastrukturunun təsnifləşdirilməsi



Mənbə: sxem müəllif tərəfindən tərtib olunub.

Sxemdə göstərilən əsas tərkib elementlər öz növbəsində daha kiçik tərkib qruplaşdırmasına məruz qala bilər. Belə ki, məsələn, "birbaşa istehsal üçün satış" maddəsində nəzərdə tutulan reallaşdırma özündə fermer mağazaları, yaşıl marketlər vasitəsilə və ya daha sadə yollar (bazarlar, yarmarkalar, satış-sərgilər və s.) vasitəsilə aqrar məhsulların satışını nəzərdə tutur. Yaxud, "vasitəçilərin iştirakı ilə satış" maddəsinin tərkibində sadə vasitəçiliklə yanaşı rəsmi nümayəndəlik, topdansatış "mərkəzlərinə" təhvil verilməsi vasitəsilə və digər analoji formalarda satışı nəzərdə tuta bilər.

4. Aqrar sahənin məlumatlandırma infrastrukturu. Müasir iqtisadi şərait iqtisadi sistemin tarazlı və düşünülmüş inkişafı ilə müşayiət olunmaqdadır. Digər tərəfdən, bəhs olunan aspektlər nəzərə alınmadan məqsədyönlü, uğur gətirəcək fəaliyyətin təmin olunması mümkün deyildir.

Məlumatlandırma sisteminin mövcudluğu və mütəmadi zənginləşdirilməsi ondan istifadənin zəruriliyini artırır. Müvafiq sistem istənilən sahədə olduğu kimi, aqrar sferada da hasilatöncəki və satışöncəki vəziyyətin reallıqlarına aydınlıq gətirməyə və perspektiv inkişafı təşkil etməyə və tənzimləməyə imkan verir.

Məlumatlandırma sisteminin tələblərə uyğun qaydada formalaşdırılması onun tərkibində xüsusi (mühüm) qrupların yaradılmasını şərtləndirir. Zəruri informasiya ümumi iqtisadi, maliyyə, maya dəyəri və digər istiqamətlərə aydınlıq gətirməli, onlardan düzgün istifadə aqrar təsərrüfat subyektinin irəliləməsinə şərait yaratmalıdır.

5. Köməkçi istehsal infrastrukturu. Xalq təsərrüfatının bütün sahələrində olduğu kimi, aqrar sahədə də istər əsas istehsalat, istərsə də infrastruktur təyinatlı köməkçi bölmələrin və istehsalatların mövcudluğu müsbət hal kimi qiymətləndirilməlidir. Təmir, alət, saxlama (mühafizə), elmi-araşdırma və s. təyinatlı və geniş profilə malik strukturların yaradılması və fəaliyyətinin təşkili aqrar subyektlərin işlərinin fasiləsiz, ardıcıl qaydada nizama salınmasına şərait yaradır.

6. Yol infrastrukturu. Aqrar sahənin infrastruktur kompleksinin tərkibində özünün mühümlüyü ilə fərqlənir. Yol infrastrukturunun mahiyyəti təsərrüfat subyektinin fəaliyyətinin asanlaşdırılması məqsədilə yaradılmış komponenti təcəssüm etdirir. Onun tərkibində aşağıdakı bəndləri fərqləndirmək lazımdır:

- subyektin də istifadə etdiyi ümumi təyinatlı yollar;
- ancaq təsərrüfat subyekti istiqamətində çəkilmiş yollar;
- subyektin ərazisinin tərkibində onun daxilindəki ayrı-ayrı bölmələri (sahələri) birləşdirən yollar və s.

7. Enerji təminatı infrastrukturu. Xalq təsərrüfatının digər sahələrində olduğu kimi, müasir aqrar sahədə enerji təminatı mühüm rol oynayır. Cari dövrdə elə bir istehsalat göstərmək mümkün deyil ki, orada elektrik enerjisindən istifadə edilməsin. Bəhs olunan istiqamətdə enerji təminatının infrastrukturunun yaradılması və ondan tammənalı istifadə mühüm əhəmiyyət kəsb edir.

Hal-hazırda enerjinin ən geniş istehlaka məruz qalan hissəsi - onun işıqlandırma məqsədilə istifadə olunmasıdır. Bununla belə aqrar istehsalların inkişafı və təkmilləşməsi hasilat prosesinə yeni texnologiyaların, avadanlıq və digər texniki vasitələrin tətbiqini zəruriləşdirir ki, bu zaman elektrik enerjisindən asılılıq məsələsi yaranır və mütəmadi olaraq artan templərlə dəyişir. Yaranan vəziyyət enerji istehlakının təhlükəsizliyinin təmin edilməsini diktə edir ki, bu da müvafiq infrastruktur elementləri olmadan mümkün deyildir.

8. Su təminatı infrastrukturu. Enerji təminatı infrastrukturu kimi, su təminatı infrastrukturu da aqrar sahənin istehsalı və sonrakı reallaşması mərhələlərinin baş verməsi üçün mühüm komponentlərdən hesab olunmalıdır. Su infrastrukturunun formalaşdırılması tətbiq olunan fəaliyyət istiqamətindən asılı olaraq fərqlənir. Bu kənarlaşma ilk növbədə təsərrüfat daxilində istifadə olunması zəruri bilinən su ehtiyatları üzrə müəyyən edilir. Təsnifləşdirmə zamanı nümunəvi şəkildə su infrastrukturunun aşağıdakı maddələri fərqləndirilə bilər:

a) təsərrüfatlara içməli və təsərrüfat suyunun çəkilməsi üçün istifadə olunan elementlər və onların vahid kompleksləşdirilməsi həyata keçirilərək infrastruktur şəklinə salınması;

b) əkinçilikdə suvarma texnikası şəklində mövcud olan tərkib hissə;

c) heyvandarlıqda iri və xırdabuynuzlu heyvanların, quşların və təsərrüfatlarda mövcud olan heyvanat aləminin digər nümunələrinin suya olan ehtiyacının ödənilməsində istifadə olunan müvafiq sistemlər;

ç) köməkçi bölmələrdə su vasitəsilə həyata keçirilən işlərin qurğuların məcmusu və s.

Su təminatı infrastrukturunun yaradılması və istismarı onun quraşdırılmasında istifadə olunan materialların xüsusiyyətlərindən, istifadə olunacaq su qurğuları və sistemlərinin təyinatından, onun yaradıldığı sahələrin ərazi quruluşu və digər məsələlərdən asılıdır.

9. Aqrar sahə fəaliyyətinə maliyyə dəstəyi infrastrukturu. Aqrar sahə maliyyə dəstəyi baxımından həmişə ehtiyac səviyyəsi yüksək olan sfera hesab olunur. Bu fakt ilk növbədə kənd təsərrüfatı məhsullarının sənaye və ya tikinti məhsulları ilə müqayisədə daha aşağı qiymətə reallaşması, aqrar dövriyyənin ümumi həcminin digər maddi istehsal sahələri ilə müqayisədə dəfələrlə az olması ilə əlaqədardır. Müasir mərhələdə maliyyə dəstəyinin infrastruktur şəklində mövcudluğu özünü həm birbaşa maliyyə (pul) resursları şəklində, həm də onun məhsul və ya xidməti ifadə edən maddiləşmiş formasında təcəssüm etdirir. Burada subyektin özündə formalaşan maliyyə resursları ilə yanaşı xüsusi çəki etibarı ilə avadanlıqların, mal-qaranın qiymətinin bir hissəsinin dövlət resursları hesabına ödənilməsi, əkilən bitkiçilik məhsulları üzrə hər hektar hesabı ilə ödənişlərin nəzərdə tutulması, imtiyazlı kreditlərin verilməsi və digər istiqamətlər mövcuddur və onların "aqrar sahibkar - dövlət", "aqrar sahibkar - istehlakçı", "aqrar sahubkar - maliyyə qurumu" və digər marşrutlar əsasında hərəkəti məhs maliyyə dəstəyi infrastrukturunun təzahürünün bariz nümunəsidir.

10. Aqrar sahə fondlarının təmir infrastrukturu. Müasir dövrdə aqrar sahədə fəaliyyətin ahəngdar təmin edilməsi ona aid subyektlərdə texniki-texnoloji təminat səviyyəsinin yüksəlməsi ilə müşayiət olunur. Belə şərait istismarda olan texniki vasitələrin sayının artması ilə, həmçinin onların dövri təmirlərə ehtiyaclarının artması ilə səciyyələnir. Bu istiqamətdə infrastruktu-

run yaradılması müəssisənin həcmindən, onun əmtəə hasilatı miqyasından və digər əlaqəli şərtlərdən asılı olaraq iki şəkildə təzahür edə bilər:

- təsərrüfatın özündə yaradılan təmir bölməsi;
- bəlli əraziləri əhatə edən ixtisaslaşdırılmış təmir subyektləri və s.

Təmir infrastrukturu görüləcək təmirin növündən, onun obyekt məcmusundan və digər şərtlər baxımından fərqləndirilir.

11. Aqrar sahə fəaliyyəti ilə əlaqəli digər infrastruktur növləri və istiqamətləri. Yuxarıda sadalanan maddələrlə yanaşı aqrar sahənin normal fəaliyyətinin təmin edilməsində bir çox digər infrastrukturlar da yaradıla bilər ki, onların tərkibində fitosanitar, qablaşdırma, təqdimetmə üsulu və digər əlaqəli istiqamətlər təmərküzləşə bilər.

Aqrar infrastrukturlarla bağlı tənzimləmə məsələləri

Mövzunun sistemli öyrənilməsində aqrar infrastrukturun mahiyyətinin açıqlanması ilə yanaşı onun tənzimlənməsi üsullarının öyrənilməsi, bu "məcmunun" optimal quruluşunun müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Tənzimləmə məsələlərinin öyrənilməsində aşağıdakı istiqamətlər fərqləndirilməlidir:

a) hüquqi - normativ tənzimləmə;
b) iqtisadi - təşkilati tənzimləmə;
c) texniki - texnoloji tənzimləmə;
ç) tənzimləmənin digər növləri.

Aqrar sahədə tənzimləmənin həyata keçirilməsində birinci dərəcəli qruplaşdırma onun ümumi təyinatlı və ya ixtisaslaşdırılmış (və ya konkret istiqamətə aid olan) olmasından irəli gəlir. Aparılan araşdırmalar göstərir ki, aqrar infrastrukturun kəmiyyət və keyfiyyət irəliləməsində konkret obyektləri özündə əks etdirən hüquqi-normativ aktların rolu böyükdür. Qanunvericilik normalarının mövcudluğu, onların mütəmadi təkmilləşdirilməsi və beynəlxalq təməllərlə əlaqələndirilən proseslərin transformasiyası müvafiq fəaliyyət sahəsinin məqsədyönlü inkişafına şərait yaradır [2, s.106].

Lakin təkcə qanunvericilik normalarının mövcudluğu infrastruktur fəaliyyətinin nizama salınması mənasını daşımır. Belə ki, o ancaq digər istiqamətlərlə vəhdət halında əsaslı nəticələrin əldə olunmasına şərait yaradacaqdır. Burada aqrar sahədə işlərin təşkili, müvafiq texnologiyalardan və texniki vasitələrdən istifadə, iqtisadi alət və mexanizmlərin imkanlarından yararlanma kimi addımların atılmasında nizama salınmanın rolu əvəzolunmazdır.

Həmçinin qeyd olunmalıdır ki, heç də bütün hallarda haqqında bəhs olunan alət və mexanizmlərin tənzimlənməsində bütün amillərin maksimal nəticələrinin əldə olunması arzuolunan nəticələrin əldə olunmasına gətirib çıxarmır. Bu istiqamətdə tənzimləmə istiqamətləri və səviyyələrinin qarşılıqlı əlaqələndirilmiş şəkildə nəzərdən keçirilməsi, yaranmış situasiyalar üzrə optimallıq ölçülərinin müəyyən edilməsi zəruridir.

Nəticə

Məqalədə Naxçıvan Muxtar Respublikasında aqrar infrastrukturun tənzimlənməsi üsulları və onların quruluşunun optimallığı məsələlərinə diqqət yetirilmişdir. Müvafiq istiqamətdə aparılan tədqiqat "aqrar sahə komponentləri - aqrar infrastruktur növləri - aqrar infrastrukturun tənzimlənməsi" ardıcıllığı üzrə həyata keçirilmişdir ki, bu da ilk növbədə araşdırma obyektinin mahiyyətini açıqlamış, sonra isə daxili tərkib və tənzimləmə forması əsasında qarşılıqlı əlaqələndirmədən bəhs olunmuşdur.

Hesab edirik ki, aqrar sahədə tənzimləmə mexanizmlərindən məqsədyönlü, optimal ölçülər nəzərə alınmaqla istifadə olunması sferada əldə olunacaq nəticələrin yüksəldilməsinə şərait yaradacaqdır.

ƏDƏBİYYAT

1. Abdullayev A.P. İqtisadiyyat və iqtisadi siyasət. Bakı, Asiya, 2003, 216 s.
2. Allahverdiyev H.B. Milli iqtisadiyyatın dövlət tənzimlənməsi, Bakı, ADİU-nun mətbəəsi, 2007, 792 s.
3. Allahverdiyev H.B. İqtisadiyyatın dövlət tənzimlənməsi. Bakı, “Nasir”, 2002, 448 s.
4. Nuriyev Ə.X. Regional idarəetmənin əsasları. Bakı, “Elm”, 2007, 428 s.
5. Alıyev İ.H., İbadov S.A. Azərbaycan iqtisadiyyatı. Bakı, “Ağrıdağ”, 1998, 395 s.
6. Bağırov M.S. Aqrar sahədə resurs potensialı, onun istehsal və satış sisteminin formalaşmasında rolu. Naxçıvan: “Qeyrət”, 2013, 130 s.
7. Bağırov M.S. Kənd təsərrüfatında istehsal və satış münasibətlərinin formalaşmasının müasir vəziyyəti və xüsusiyyətləri. Naxçıvan, “Qeyrət”, 2014, 107 s.
8. Bağırov M.S. Aqrar sahənin inkişafi və marketinq prinsiplərindən istifadə. Naxçıvan, “Qeyrət”, 2013, 102 s.
9. Əliyev A.Ə. Azərbaycanın iqtisadi siyasəti. Bakı, “Qanun”, 2003, 264 s.
10. Rüstəmov A.A., Qasımov D.Q. Aqrar sferanın iqtisadiyyatı və idarə edilməsi. Bakı, “Avrora”, 2013, 406s.
11. www.stat.gov.az
12. Rzayev İ. Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı, mövcud vəziyyət və gələcək perspektivlər. Bakı, “Elm”, 2010, 351 s.
13. www.statistika.nmr.az

Гасан Салех оглы Аббасов
диссертант Нахчыванский
Государственный Университет

Методы регулирования аграрной инфраструктуры в Нахчыванской Автономной Республике и оптимизация их структуры

Резюме

В статье основное внимание уделяется раскрытию сущности аграрной инфраструктуры и определению ее структуры. Определенное нами содержание предпологает обьедиение двух обшестий во взаимосвязи. Повествуется, что намерением выявленной сущности является воссоединение двух, состоящих во взаимных отношениях характеричных совокупностей. Одной из них является инфраструктура, сушествующая в аграрной отрасли, и обеспечение системного подхода на возможности их оценки.

Но формирование аграрной инфраструктуры в первую очередь возможно при четком изучении наличия в этой сфере компонентов производства и обслуживания. Данное суждения в общем обуславливает необходимость комплесного подхода к структуре аграрной отрасли.

В статье наряду с выражением теоретических взглядов особое внимание было уделено развитию процессов на практике что доказывает пространстве, чем обуславливается системность проведенного исследования по изучению данной проблемы.

При проведении исследования было обрашено внимание на изучение реальных условий и возможностей, сформировавшихся в аграрной сфере Нахчыванской Автономной Республики.

Ключевые слова: аграрная отрасль, аграрная инфраструктура, аграрная классификация, способы регулирования, оптимальность структуры.

Hasan Salekh Abbasov
candidate for a degree of the
Nakhchivan State University

Methods for controling agricultural infrastructure in the Nakhchivan Autonomus Republic and optimalization their structure

Summary

The article focuses on the disclosure essence agriculture infrastrukture, the definition of its strukture. Ratifying that the intention identified essence is composed of two reunited in mutual relations xaracteric sets. One of them is the infrastructure that exists in the agricultural sector? And to ensure a systematic approach to the evalution of its capabilities.

But the formation of agricultural infrastructure in the first place with a clear study of the possible existence of ruffs in the field of components production and service. Narrating thinking in general account necessitates full machining approach to the structure of the agricultural sector.

In the article along with the expression of theoretical views, special attention was paid to the development processes at a practical space than is coused by the systematic study of the problem under study.

The study drew attention to the study of the actual conditions and opportunities in the agricultural sector formed the Nakhchivan Autonomus Republic.

Key words agrarian sfere, agrarian infrastructure, agrarian classification, metods of controlling, the optimale structure.

UOT 634.8:541.54

Cəvahir Cavanşir qızı ALLAHVERDİYEVA
Azərbaycan Dövlət Aqrar Universiteti

AQRAR SAHƏDƏ ÜZÜMÇÜLÜYÜN İQTİSADİ ƏHƏMİYYƏTİ

Xülasə

Üzümçülük və şərabçılıq aqrar-sənaye sahələri arasında xüsusi yer tutmaqla, əlavə dəyər yaradılması və iqtisadi səmərəlilik baxımından ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir. Son vaxtlar regionlarımızda üzümçülüyün hiss olunan dərəcədə inkişafı, istehsalın artması diqqəti cəlb edir. Artıq bu sahənin inkişafı artım tempinə görə digər kənd təsərrüfatı sahələrini geri qoymaqdadır.

Qəbul olunmuş Dövlət Proqramının uğurlu icrası nəticəsində yeni üzümçülük təsərrüfatlarının və üzüm emalı müəssisələrinin yaradılması nəticəsində respublika əhalisinin, xüsusilə də kənd əhalisinin iqtisadi vəziyyəti daha da yaxşılaşacaqdır.

Açar sözlər: üzümçülük, istehsal, iqtisadi səmərəlilik, ümumi gəlir, maya dəyəri.

Giriş

Hazırda aqrar sektorun ayrı-ayrı sahələri arasında üzümçülük həmişə xüsusi əhəmiyyətə malikdir. Belə ki, üzümçülük ölkəmiz üçün ənənəvi sahə olmaqla bərabər eyni zamanda kənd təsərrüfatının sənaye əhəmiyyətli bölməsi kimi də inkişaf etmişdir. Bu inkişaf nəticəsində üzümçülük ölkəmizdə ən gəlirli sahələrdən birinə çevrilmişdir. Hətta 1984-1985-ci illərdə üzümçülükdən gələn gəlir büdcənin 40%-ni təşkil etmiş və bu, göstərici baxımından neft gəlirlərindən öndə dayanmışdır.

Azərbaycanda üzümçülüyün müasir vəziyyəti

Son vaxtlar regionlarımızda üzümçülüyün hiss olunan dərəcədə inkişafı, istehsalın artması diqqəti cəlb edir. Artıq bu sahənin inkişafı artım tempinə görə digər kənd təsərrüfatı sahələrini geri qoymuşdur. Təkcə son 2 il ərzində ölkənin müxtəlif rayonlarında yüz hektarlarla yeni üzüm bağları salınmışdır. [1]

Son illər üzümçülüklə bağlı qanun qəbul olunması, dövlətin apardığı siyasətin nəticəsində regionlarda geniş formada üzüm bağlarının salınmasına başlanmışdır. Bu da öz növbəsində həm də emal sənayesinin inkişafına təsir edir. Bir tərəfdən üzümçülüyün inkişafına səbəb olan dövlətin verdiyi qərarlardırsa, bir tərəfdən də həm Sahibkarlığa Kömək Fondunun şəxsi investisiyalarıdır və bundan da əlavə, üzümçülüyün inkişafı bazarın tələbidir. Çünki Azərbaycanda süfrə üzümü hələ də kifayət qədər bahadır. Emal müəssisələri kifayət qədər xammalla təmin olunmur. Bir tərəfdən də Azərbaycanın imkanları çoxdur, qonşuluğunda Rusiya boyda bir bazar var. Azərbaycan tarixən Rusiya bazarına kifayət qədər çox şərab, üzüm satıb. Bu ənənəni yenidən bərpa etmək üçün Azərbaycanın imkanları çoxdur. Bu istiqamətdə müəyyən işlər görülür. Hər şeydən əvvəl üzümçülüyün digər məhsullara nisbətən iqtisadi cəhətdən gəlirli olması da bu sektorun inkişafını şərtləndirir. Bu sektor iş adamlarına daha çox pul qazandırdığından gələcəkdə bu sahəyə müəyyən qədər investisiyalar yönələcək. Belə ki, üzümçülüyün inkişafı ilə bərabər digər məhsulların satışı azala bilər və buna qarşı tədbirlər görmək lazımdır. Bunu da diqqətdə saxlamaq lazımdır ki, xırda fermer təsərrüfatları bu zaman öz məhsullarını satmaqda müəyyən çətinlik çəkə bilərlər. Yaxşı olar ki, onlardan məhsulu tədarük edən xüsusi institutlar yaradılsın. Yaxud kiçik fermer təsərrüfatlarının məhsullarını birgə emal etməsi üçün onların ixtiyarına verilən kiçik emal müəssisələri formalaşdırılsın. Bu tədbirlər həyata keçirilərsə, Azərbaycanda üzümçülüyün çox geniş perspektivləri var və səmərəli şəkildə istifadə edilə bilər. Dövlətimizin başçısının 2011-ci il 15 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" ölkəmizdə qədim

və ənənəvi istehsal sahəsi olan üzümçülüyün əvvəlki şöhrətinin qaytarılmasında mühüm rol oynayacaqdır. Qeyd edək ki, üzüm digər kənd təsərrüfatı məhsulları arasında hər 100 hektar torpaq sahəsi üzrə yeni yaradılan iş yerlərinin sayına və ümumi məhsul istehsalına görə ən yüksək göstəriciyə malik olan texniki bitkilərdən biridir.

Respublika iqtisadiyyatında üzümçülüyün rolu

Üzümçülük kənd təsərrüfatı istehsalının ən çox kapital tələb edən sahəsidir. Keçən əsrin 90-cı illərinin ikinci yarısından etibarən Azərbaycanda üzümçülük və şərabçılığın inkişafı üçün əlverişli şərait yaradılaraq bu istiqamətdə müvafiq tədbirlər həyata keçirilir."2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı" isə bu sahədə sürətli inkişafın yaşanmasına rəvac vermişdir. Hesab olunur ki, üzümçülük və şərabçılıq aqrar-sənaye sahələri arasında xüsusi yer tutmaqla, əlavə dəyər yaradılması və iqtisadi səmərəlilik baxımından ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb edir."2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq, 2012-2020-ci illərdə 50 min hektar yeni üzüm sahəsi salınması nəzərdə tutulur. [1]

2020-ci ildən etibarən isə, ildə təxminən 455 min ton üzüm istehsal olunacaq. Aqrar sahənin qarşısında kənd təsərrüfatı məhsullarının artırılması ilə yanaşı, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi problemləri də durur. Bu isə kənd təsərrüfatında istehsal resurslarından, torpaqdan, maddi-texniki vəsaitlərdən daha səmərəli istifadə edilməsini, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalda tətbiq olunmasını, istehsal proseslərinin intensivləşdirilməsini və s. tələb edir. İqtisadi səmərəliliyin əsas göstəricilərindən biri əmək məhsuldarlığıdır. Əmək məhsuldarlığının yüksəldilməsi hesabına orta illik hər bir işçiyə məhsul istehsalı artır, məhsul vahidinə çəkilən istehsal xərcləri azalır və istehlak fonduna ayırmalar üzrə vəsaitin həcmi çoxalır. Kənd təsərrüfatında istehsal edilən məhsulun maya dəyəri də iqtisadi səmərəliliyi əks etdirən göstəricilərdəndir. Məhsul vahidinin maya dəyəri aşağı salındıqda təsərrüfatların xalis gəliri artır, istehsalın rentabellik səviyyəsi yüksəlir. Son illərdə kənd təsərrüfatı texnikasının və digər istehsal vəsaitləri qiymətinin artması, məhsuldarlığın aşağı düşməsi məhsul vahidinə görə çəkilən xərclərin məbləğinin çoxaldılmasına səbəb olmuşdur. [2, 3]

Bu gün dünyada baş verən qlobal proseslər hər bir ölkənin etibarlı ərzaq məhsulları ilə təminatını ön plana çəkir. Təsadüfi deyildir ki, 2015-ci il ölkəmizdə "Kənd təsərrüfatı ili" elan edilmişdir. Hazırda kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq üçün müxtəlif tədbirlər görülür.

Belə ki, son illər Azərbaycanda həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradılmışdır. Görülmüş tədbirlər nəticəsində aqrar sektorda müsbət dəyişikliklər baş vermiş, kənd təsərrüfatının inkişafına dövlət dəstəyi gücləndirilmişdir. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatı yaradılır. Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən etmişdir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla digər vergilərdən azad ediliblər.

Cari ilin aprelin 3-də Prezident İlham Əliyev 2015-ci ilin Azəbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi ilə "Tədbirlər planı"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Tədbirlər planında müasir metodlardan istifadə etməklə, sertifikatlı toxum və meyvə tingləri istehsalının artırılması, hər bir iqtisadi rayonun xüsusiyyəti; təbii və iqlim şəraiti nəzərə alınmaqla, kənd təsərrüfatı məhsullarının istehsalının ixtisaslaşdırılması üzrə təkliflərin hazırlanması və digər tədbirlərin görülməsi də yer almışdır. Mütəxəssislər hesab edir ki, üzümçülük və şərabçılığın daha səmərəli inkişafını təmin etmək üçün dövlət tərəfindən bir sıra tədbirlərin görülməsinə zərurət var. Hazır məhsulun dünya bazarına çıxarılması vacib şərtdir, bunun üçün lazımi şərait də var. Eyni zamanda, ixrac proseslərinin daha da sadələşdirilməsi və stimullaşdırılmasına ehtiyac duyulur. Azərbaycan şərabının və konyakının daxili və xarici bazarda öz yerini tutması üçün mütləq yüksək keyfiyyətə diqqət yetirilməlidir. Məhsulun keyfiyyətinə nəza-

rət etməli olan qurumlar bazara çıxarılan malların istehsalına xüsusi diqqət göstərməli və yalnız keyfiyyətli məhsula şərait yaradılmalıdır. Sirr deyil ki, keyfiyyətsiz məhsul ucuz başa gəlir və bazara da tez girir. Bəzən alıcılar da məhsulun ucuzluğuna aldanırlar. Ancaq artıq standartlar və tələbat dəyişir, dünya bazarı yüksək keyfiyyətli məhsul tələb edir. Azərbaycan şərabçıları da dünya standartlarına cavab verən məhsul təqdim etməlidirlər.

Mütəxəssislər eyni zamanda xaricdən ölkəmizə idxal edilən üzümün bazarlarda satışına nəzarəti vacib sayırlar. Bu fikirdə olan mütəxəssislər Azərbaycanda üzümçülüyün inkişafının yenidən aktuallıq kəsb etdiyinə rəğmən əkin materiallarının da ölkəyə kənardan gətirilməsini məqsədəuyğun saymırlar. Azərbaycan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun mütəxəssisləri kolleksiya bağında yerli üzüm sortlarından kifayət qədər ting yetişdirərək, Qərb bölgəsi, Cəlilabad və Şamaxı rayonlarının üzüm plantasiyalarını bərpa etmişdir. Bu isə həmçinin Azərbaycanda üzümçülüyün iqtisadi inkişaf tempini əhəmiyyətli səkildə sürətləndirir. [4,5]

Nəticə

Ümidvarıq ki, Dövlət Proqramı üzümçülük və şərabçılıq sahəsinin sürətli inkişafına təkan verəcək, üzümün genetik ehtiyatlarının qorunması, səmərəli istifadəsi və əsasən qiymətli yerli üzüm sortlarının əkin materialı istehsal edən tinglik təsərrüfatlarının yaradılması kimi təxirəsalınmaz tədbirləri də ön plana çəkəcəkdir. Bununla yanaşı Dövlət Proqramının uğurlu icrasının nəticəsində əhalinin təzə və quru üzümə, o cümlədən digər üzüm və şərabçılıq məhsullarına olan tələbatı yerli istehsal hesabına ödəniləcək, yeni üzümçülük təsərrüfatlarının, üzümün emalı, eləcə də, əsas və köməkçi materiallar istehsal edən müəssisələrin yaradılması nəticəsində yeni iş yerləri açılacaq, respublika əhalisinin, xüsusilə də kənd əhalisinin iqtisadi vəziyyəti daha da yaxşılaşacaqdır. Üzümçülüyün inkişafı sayəsində ildən-ilə bu sahədən gələn ümumi gəlir daha da artacaqdır.

ƏDƏBİYYAT

1. “2012-2020-ci illər Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”.
2. Şərifov F.H. Üzümçülük. Bakı, “Şərq-Qərb Nəşriyyat evi”, 2013, 584 s.
3. Alıyev İ.H. Milli iqtisadiyyat və aqrar sahənin inkişaf problemləri. Bakı, “Elm”, 2006, 380s.
4. wwwresplica-news az/index.
5. www mövqe. az.

Джавахир Джаваншир гызы Аллахвердиева
Азербайджанский Государственный
Аграрный Университет

Экономическое значение виноградарства в аграрном секторе

Резюме

Виноградарство и виноделие среди аграрно - промышленных отраслей имеет особое место. С точки зрения создание дополнительного дохода и экономической эффектности имеет важное значение. В последние время в темпы развитие виноградарства регионах и повышения производство привликает внимание. Развитие отрасли превосходит другие сельскохозяйственные отрасли.

Успешное выполнение принятой Государственной Программы по созданию виноградарческих хозяйств и предприятий по переработке способствует росту благосостаяния населения у населении Республики, особенно у сельской населенииэкономическое положения республики населения сельского-хозяственных регионов намного улучшится.

Ключевые слова: виноградарство, производство, экономическая эффектность, валового доход, себестоимость.

Javahir Javanshir Allahverdiyeva
Azerbaijan State Agrarian University

Economical importance of vine-growing in the agrarian area

Summary

Vine-growing and wine-making take special place between amongareas of agrarian industry, it assumes vital importance from point of view creation of addition cost and economical efficiency for country economy. Development in the degree being were felt in our regions lately, increase of the production involves for the attention. Put theareas of other agriculture already development of this area according to the growth tempo back.

Economic condition of the village population will more improves of the republic population especially in the result of creation in the result of lucky ful filment of the accepted State Program of the new vine-growing economy farms and establishments of grapes treatment.

Key words: Vine-growing, production, economical efficiency, it comes general, cost price.

UOT 338.43

Emil Vidadi oğlu ORUCOV
Azərbaycan Kənd Təsərrüfatı İqtisadiyyatı
ETİ-nin doktorantı

AQRAR-ƏRZAQ BÖLMƏSİNİN İNKİŞAFININ MODELLƏŞDİRİLMƏSİNİN METODİKİ VƏ İNFORMASİYA TƏMİNATI MƏSƏLƏLƏRİ

Xülasə

Məqalədə aqrar-ərzaq klasterinin inkişafının iqtisadi- riyazi modellər sisteminin aqrar-ərzaq bölməsinin idarə edilməsi üzrə qərarların qəbulu zamanı istifadəsi imkanları araşdırılmışdır. Metodiki və informasiya təminatı üzrə məsələlər tədqiq olunmuşdur. Aqrar-ərzaq bölməsinin inkişafı modellərinin tətbiq dairəsinin genişləndirilməsi imkanları aşkar edilmişdir.

Açar sözlər: modelləşdirmə, metodiki təminat, informasiya təminatı, iqtisadi-riyazi modellər sistemi,aqrar-ərzaq bölməsi, aqrar-ərzaq klasteri.

Giriş

Müasir modelləşdirmə təbiətin, cəmiyyətin və onların kəsişməsində meydana gələn iqtisadi münasibətlərin elmi dərk edilməsinin universal üsulu kimi aqrar sahədə və aqrar-ərzaq bölməsində geniş tətbiq imkanlarına malikdir. Lakin informasiya texnologiyalarının müasir səviyyəsində belə modelləşdirmənin imkanlarından kifayət qədər istifadə olunmur. Xüsusilə ərzaq təhlükəsizliyinin təminatı proseslərinin modelləşdirilməsi məsələlərinə az diqqət verilmişdir. Halbuki abstraksiya, analogiya, hipoteza və bu kimi digər anlayışlarla bilavasitə əlaqədar olan modelləşdirmənin aqrar-ərzaq bölməsinin inkişafının təhlili və proqnozlaşdırılmasında tətbiqi artıq uzun illərdir ki, qabaqcıl xarici təcrübədə özünü doğruldur. Başqa sözlə, aqrar-ərzaq bölməsinin və onun tərkib hissələrinin inkişafının, məhz abstraksiyanın qurulması, analogiyalar üzrə nəticələr əldə edilməsi və elmi hipotezlərin layihələndirilməsi hesabına modelləşdirilməsi imkanları diqqətdən kənarda qalmamalıdır.

Modelləşdirmə və sahənin reallıqları

Məlum olduğu kimi,iqtisadi sistemlərin riyazi modelləşdirilməsi qarşıya qoyulan vəzifələrin icrası zamanı ortaya çıxan məsələlərin həlli üçün əsaslandırılmış və səmərəli qərar qəbul edilməsi baxımından geniş imkanlar açır. Odur ki, mövcud metodiki təminatdan və sınanmış təcrübədən istifadə etməklə aqrar-ərzaq bölməsinin və onun müxtəlif səviyyəli komponentlərinin, o cümlədən aqrar-ərzaq klasterlərinin formalaşması və inkişafının modelləşdirilməsi məhsuldar yanaşmadır.Belə ki, müxtəlif səviyyəli iqtisadi obyektlərə, o cümlədən aqrar-ərzaq bölməsinə sistemli yanaşma üçün kifayət qədər əsas vardır. Digər mühüm səbəb aqrar-ərzaq bölməsinin məhz iqtisadi sistemlərə xas olan əsas xarakteristikalara malik olmasıdır. Başqa sözlə, aqrar-ərzaq bölməsi dinamik,ətraf mühitin təsirinə həssas, davranışında ziddiyyətli məqamlar olan mürəkkəb sistem kimi qiymətləndirilə bilər.Onu da qeyd edək ki,bilavasitə insanların mövcudluğunun bazis şərti olduğundan aqrar-ərzaq bölməsində birbaşa radikal xarakterli eksperimentlər aparmaq arzuolunan hal deyildir.

Dünya təsərrüfat sistemində müşahidə olunan ziddiyyətli qloballaşma meyilləri və beynəlxalq ərzaq bazarındakı gərginlik fonunda ərzaq təhlükəsizliyinin təminatı proseslərinin təhlili və proqnozlaşdırılmasının ənənəvi üsullarla həyata keçirilməsi reallığı adekvat şəkildə şərh etməyə imkan vermir. Odur ki, haqqında danışılan məsələlərin həllinin səmərəli aləti kimi iqtisadi-riyazi modellər yaradıcılıqla tətbiq edilməli, başqa sözlə, onlar riyazi analiz, ehtimal nəzəriyyəsi və riyazi statistika, əməliyyatların tədqiqi və bu kimi bir sıra digər elm sahələrinin nailiyyətlərinə əsaslanmaqla reallaşdırılmalıdır. Məlum olduğu kimi, bu məqsədlə ərzaq təhlükəsizliyinin təminatı proseslərinin mühüm xüsusiyyətləri məhdudiyyət şərtləri və məqsəd funk-

siyasının köməyi ilə ifadə olunur. Konkret halda, aqrar-ərzaq bölməsinin və aqrar bazarın reallıqlarından irəli gələn həmin məhdudiyyət şərtləri tənliklər sistemində öz əksini tapır.

İlkin yanaşmada, aqrar-ərzaq bölməsində baş verən proseslərin təhlili, proqnozlaşdırılması və idarə edilməsi üçün iqtisadi-riyazi modellərin ən geniş çeşidinin (balans, ekonometrik, şəbəkə, imitasiya, kütləvi xidmət sistemləri, optimallaşdırma) tətbiqi tövsiyə edilir. Belə ki, həmin bölmənin mürəkkəb və dinamik sistemlərə xas olan cəhətləri burada həm nəzəri-analitik, həm də tətbiqi iqtisadi-riyazi modellərin dinamik və statik variantda birgə istifadəsini mümkün edir. Araşdırmalar həmin modellərin qısa, orta və uzunmüddətli (5 ildən artıq) dövr üçün aqrar-ərzaq bölməsinin inkişafının proqnozlaşdırılması və planlaşdırılmasına imkan verdiyini söyləməyə kifayət qədər əsas verir.

Aqrar-ərzaq bölməsində modelləşdirmənin mərhələləri

Bu bölmədə baş verən proseslərin təhlili, proqnozlaşdırılması və idarə edilməsində iqtisadi-riyazi modelləşdirilməsi üçün görülən işlər aşağıdakı mərhələlərdə reallaşdırılmalıdır:

- iqtisadi problemin qoyuluşu və onun keyfiyyət təhlili. Ərzaq məhsullarının istehsalından onların son istehlakçıya qədər hərəkəti və istifadəsini əhatə edən proseslərin iqtisadi şərhi və həmin proseslərin hərtərəfli keyfiyyət xarakteristikası üçün evristik və emprik üsulların istifadəsi nəzərdə tutulur;
- riyazi modelin qurulması. Burada modelin əsasında duran konseptual struktur dəqiqləşdirilir. Riyazi modelin qurulmasının təhlil edilən proseslərin formallaşma səviyyəsindən asılılığı nəzərə alınır, daha sonra isə tənliklər, bərabərsizliklər, funksiyalar və s. müəyyənləşdirilir;
- ilkin informasiyanın hazırlanması. Aqrar-ərzaq təsərrüfatını hərtərəfli səciyyələndirmək üçün istifadə edilən göstəricilərin çoxsaylı və müxtəlif xarakterli olması, onların vaciblik dərəcəsinə görə sıralanmasını tələb etsə də, təcrübədə bunu həyata keçirmək olduqca çətindir. Ona görə də, ilkin informasiya massivlərinin hazırlanması zamanı təsərrüfatçılıq təcrübəsində daha çox istifadə edilən göstəricilərə üstünlük verilir. Əlbəttə, belə yanaşmanın reallığı obyektiv şəkildə səciyyələndirməyə neqativ təsir etməsi də diqqətdən kənarda qalmamalı, zəruri hallarda törəmə göstəricilər təhlilə cəlb edilməlidir;
- məsələnin kəmiyyətcə həlli. Aqrar-ərzaq bölməsinin inkişafı modellərinin rəqəm məlumatları əsasında reallaşdırılması kompüter texnikası və informasiya şəbəkələrinin imkanları hesabına təmin edilir;
- rəqəmlə ifadə olunan nəticələrin təhlili və həmin nəticələrin tətbiqi. İstifadəsi məqsədəuyğun hesab edilmiş modellərin rəqəm məlumatları əsasında reallaşdırılmasının nəticələrinin ənənəvi və digər üsullarla təkrar yoxlanmasına ehtiyac vardır. Haqqında danışılan ehtiyacın kəmiyyət xarakteristikaları modellərin reallaşdırılması nəticələrinin tətbiqi mərhələsində qarşıya çıxan problemlərin hərtərəfli araşdırılmasından sonra müəyyən olunur. Onu da qeyd edək ki, aqrar-ərzaq bölməsinin təhlili, proqnozlaşdırılması və idarə edilməsi təcrübəsində, yuxarıda göstərilən proseslər dəfələrlə təkrarlana bilər.

Aqrar-ərzaq bölməsinin inkişafının modelləşdirilməsində müxtəlif xarakterli üsul və modellərin birgə, daha doğrusu, qarşılıqlı əlaqəli və bir-birini qarşılıqlı tamamlamasını nəzərdə tutan tətbiqi imkanları geniş surətdə araşdırılmış və hazırda da araşdırılmaqdadır. Bu baxımdan optimallaşdırma və imitasiya modellərinin sistem əmələ gətirməsi variantları həm nəzəri, həm də təcrübi aspektdə geniş tədqiq olunmuşdur.

Əksər tədqiqatlarda aqrar-ərzaq bölməsində istehsal, bölgü və istehlak qaydalarının bir neçə variantını xarakterizə edən göstəriciləri hesablamağa və həmin variantların sırasından ən yaxşısının seçiminə imkan verən optimal modelin reallaşdırılmasının metodiki və informasiya çətinlikləri önə çəkilir. Eyni zamanda nəzərə alınır ki, imitasiya modeli məsələlərin kompüterdəki həlli komponenti ilə yanaşı qərarın bilavasitə ekspert (insan) tərəfindən qəbulunu həyata keçirən bloka malikdir. Bu zaman hazırda ekspert rolunda insanı kompüterdə yerləşən verilənlər və bilik bazaları, habelə ixtisaslaşdırılmış proqram təminatının əmələ gətirdiyi ekspert sistemi də

əvəz edə bilməsi və ekspert sisteminin konkret məsələlər qrupunun həllində insanın intellektual fəaliyyətini imitasiya etməsi imkanları da nəzərə alınır.

Modellər sisteminin tətbiqi imkanları

Son tədqiqatlarda aqrar-ərzaq bölməsinin fəaliyyəti və inkişafının təhlili, proqnozlaşdırılması və idarə edilməsində:

- aqrar-sənaye kompleksinin (ASK) makroiqtisadi modelinə əsaslanan yanaşmanın (bu halda aşağıdakı modellərin sistem əmələ gətirməsi nəzərdə tutulur: əhalinin ərzaq məhsullarına tələbi modeli, ASK- nın fəaliyyət bloku modelləri, xarici iqtisadi əlaqələr blokuna aid ərzaq məhsulları ixracı modeli, dövlət tənzimlənməsi bloku modelləri və aqrar bazarın ümumi tarazlığı modeli);
- imitasiya və optimallaşdırma modellərindən ibarət hibrid modelin tətbiqinin perspektivli olması barədə əsaslandırmalar, zənnimizcə, məqbul hesab edilməlidir (cədvəl 1).

Cədvəl 1

Aqrar-ərzaq bölməsinin təhlili, proqnozlaşdırılması və idarə edilməsi üçün tövsiyə edilən sistem əmələ gətirən modellər

Hibrid modellərinə əsaslanan sistem	ASK–nın makroiqtisadi modelinə əsaslanan sistem
imitasiya modelləri	əhalinin ərzaq məhsullarına tələbi modeli
	ASK- nın fəaliyyət bloku modelləri
optimallaşdırma modelləri	Xarici iqtisadi əlaqələr blokuna aid ərzaq məhsulları ixracı modeli
	Sahənin dövlət tənzimlənməsi bloku modelləri
	Aqrar bazarın ümumi tarazlığı modeli

Aqrar-sənaye kompleksinin makroiqtisadi modelinə əsaslanan yanaşma konsepsiyası, bəzi qeyd-şərtlərlə aqrar-ərzaq bölməsinin inkişafının modelləşdirilməsi üçün istifadə oluna bilər. Belə ki, aqrar-sənaye kompleksi və aqrar-ərzaq bölməsi inkişafı modellərinin əsas məhdudiyyət şərtləri və məqsəd funksiyasının əmsalları arasında ciddi analogiya müşahidə olunur. Bununla belə, formalaşmış aqrar-ərzaq bölməsinin aqrar-sənaye kompleksindəki yeri və rolu müqayisəli qiymətləndirilməli, fərqli və oxşar cəhətlər kompleks qiymətləndirilməlidir.

İndi isə aqrar-sənaye kompleksinin makroiqtisadi modelinə əsaslanan yanaşma üzrə sistem əmələ gətirən modellərin, məhz ərzaq təhlükəsizliyinin təminatı proseslərinin təhlili, proqnozlaşdırılması və idarə edilməsində yeri və rolunu qısa şərh edək. Əhalinin ərzaq məhsullarına tələbi modeli bazasında tarazlı bazar qiymətləri şəraitində əhalinin tibbi əsaslandırılmış normalar üzrə ərzaq məhsulları ilə təminatı üçün gəlirlərin və qiymətlərin səviyyə nisbətləri müəyyən edilir.

Aqrar-sənaye kompleksinin fəaliyyət bloku modelləri bazasında:

- əsas bitkiçilik və heyvandarlıq məhsullarına istehsal xərcləri və onların istehsal maya dəyəri;
- qeyd olunan aqrar istehsal sahələrinin emalı məhsullarının aqrar-sənaye kompleksinin rentabelli fəaliyyətini təmin edən minimum zəmanətli qiymətləri müəyyənləşdirilir.

Xarici iqtisadi əlaqələr blokuna aid ərzaq məhsulları ixracı modelinin rəqəm reallaşdırılması sayəsində bir tərəfdən səmərəli aqrar himayədarlığın, digər tərəfdən isə ixrac məhsulunun kafi rəqabətqabiliyyətliliyini təmin edən gömrük tarif və kvotaları sistemi müəyyən olunur.

Aqrar sahənin inkişafının dövlət tənzimlənməsi bloku modellərinin və aqrar bazarın ümumi tarazlığı modelinin aqrar-ərzaq bölməsinə dövlət dəstəyi strategiyasının işlənib hazırlanmasında istifadəsini, zənnimizcə, məqsədəuyğun hesab etmək olar.Belə ki, həmin modellərin qarşılıqlı əlaqəli tətbiqi sayəsində aqrar-ərzaq bölməsinə subsidiyalar, dotasiyalar və bu kimi digər yar-

dımlar sistemini nəzərdə tutan, minimal dövlət xərcləri şəraitində,tələb və təklifin tarazlığını, zəmanətli ərzaq təhlükəsizliyini təmin edən dövlət dəstəyi strategiyası əsaslandırılır.

Tövsiyə edilən model. İmitasiya və optimallaşdırma modellərindən ibarət hibrid modelin tətbiqi sahəsində aqrar-ərzaq klasterlərinin formalaşması və inkişafının modelləşdirilməsi baxımından aşağıdakı modelin tətbiqi imkanlarının araşdırılmasını perspektivli hesab edirik. [1, s.2203-2206]

Aşağıdakı şərti işarələri qəbul edək:

Y_k- k-növ kənd təsərrüfatı məhsulu üzrə istehsalın həcmi, min ton; m_k-k-növ kənd təsərrüfatı məhsulunun istehsalı üçün satın-alınan əsas istehsal fondlarının sayı, ədəd; q_k - k-növ kənd təsərrüfatı məhsuluna tələbin dəyər ifadəsində proqnozu, manat; V_k - əsas istehsal fondlarının k-növünün layihə məhsuldarlığı; T_k-əsas istehsal fondlarının k-növünün xidmət müddəti, il;

P_k-k-növ məhsul vahidinin dəyəri, manat; T - planlaşdırma dövrü, il; c_k - əsas istehsal fondlarının k-növünün orta illik dəyəri, manat; r-diskontlaşdırma faizi;

$x_k=c_k m_k$ (k = 1, ..., n) -əsas istehsal fondlarının k-növünün satın-alınmasına (işçi vəziyyətdə saxlanmasına) investisiyalar, manat;

$x_{n+k}= P_k m_k y_k$ (k = 1, ..., n) - k-növ məhsulun satışından əldə olunan pul vəsaiti, manat;

$y_k= x_{n+k}/ P_k m_k$-$c_k x_{n+k}/ P_k x_k$ (k = 1, ..., n) - k-növ məhsulun istehsalı, ton;

$R=\Sigma^n_{k=1} P_k m_k y_k$ - bütün məhsul növlərinin satışından əldə edilən pul vəsaitlərinin məcmusu; $F = \beta R$- əməyin ödənilməsi fondu. R-bütün məhsulun satışından əldə edilən pul vəsaiti, β əməyə görə ödənişin ekspert qaydasında müəyyən edilmiş faizi;

$X=\Sigma^n_{k=1} x_k$ - əsas istehsal fondlarının satın-alınmasına məcmu investisiyalar;

$A_m= T\Sigma^n_{k=1} c_k m_k/ T_k$ bütün plan dövrü (T) ərzində əsas fondların bütün növləri üzrə amortizasiya ayırmalarının məbləği, manat; z -aqrar-sənaye klasterinin fəaliyyətinə ümumi məsrəflərdən faiz kimi müəyyən edilən məcmu maddi məsrəflər, manat;

$\delta_k = P_k V_k /c_k$ - əsas istehsal fondlarının k - növü üzrə səmərəliliyin nisbi göstəricisi;

$\gamma_k= \alpha_3 (T/T_k) -1$;

$\delta_k = \alpha_3 (T/T_k)=\gamma_k+1$;

$\theta_k= T/Tk$;

$\gamma = (1 - \alpha 3)(1 - \beta)$ (k = 1, ..., n) .

Aqrar-ərzaq klasteri iştirakçılarının xalis mənfəəti (W) belə hesablana bilər:

$$W= (1- \alpha_3) (R-(A_m +F(1+ \alpha_4) +X+z)) \qquad (1)$$

Burada α_3- vahid kənd təsərrüfatı vergisinin faizi; $_4$ - əməyin ödənilməsi fondundan icbari sığortaya ayırma faizini ifadə edir.

$$W= (1- \alpha_3)[- \sum^n_{k=1}\theta_k x_k +(1- \beta)\sum^n_{k=1} x_{n+k}] \qquad (2)$$

Aqrar-ərzaq klasterinin xüsusi vəsaiti (Ds) belə hesablana bilər:

$$Ds = A_m+ W \text{ və ya } D_s= \sum^n_{k=1}\gamma_k x_k +\gamma\sum^n_{k=1} x_{n+k} \qquad (3)$$

Aqrar-ərzaq klasterinin öz fəaliyyəti dövründə ödəniş qabiliyyətli olduğunu fərz edək. Yəni $D_s \geq 0$.

1) $0 \leq P_k m_k y_k \leq q_k$- k-növ məhsulun satış həcmi (dəyər ifadəsində) ona olan tələbi üstələmir.

2) $0 \leq y_k(t) \leq q_k$,k-növ məhsulun istehsalı əsas istehsal fondlarının elmi-texniki tərəqqi səviyyəsi ilə müəyyən olunan məhsuldarlığını üstələmir.

Aqrar-ərzaq klasterinin gətirilmiş xalis gəliri (J) optimallaşdırma modelinin səmərəlilik meyarı kimi qəbul edilir. Qəbul edilmiş şərti işarələri nəzərə alaraq aqrar-sənaye klasterinin riyazi modelini aşağıdakı şəkildə formallaşdırmaq olar:

$$J= [\sum^n_{k=1}\delta_k x_k +\gamma\sum^n_{k=1} x_{n+k}]/ (1+r) \rightarrow \max;(5)$$

$$\sum^n_{k=1}\gamma_k x_k +\gamma\sum^n_{k=1} x_{n+k}+x_{2n+1}+x_{2n+2}\geq 0;$$

$$x_{n+k} \leq q_k;$$

$$x_{n+k} \leq \delta_k x_k \ (k = 1, ..., n);$$

$$x_k \geq 0(k = 1, ...,2n).$$

İnformasiya problemləri. Görmək çətin deyildir ki, təqdim edilən optimallaşdırma modelinin reallaşdırılması imkanları, həlledici dərəcədə ilkin informasiya bazasının vəziyyətindən, daha doğrusu, modelləşdirmə prosesində istifadə olunan göstəricilərin rəsmi statistikaya aidiyyəti dərəcəsindən asılıdır. Məsələ ondadır ki, modelləşdirmə prosesində istifadə olunan göstəricilərin rəsmi statistikaya aidiyyəti dərəcəsi artdıqca, aqrar-ərzaq bölməsinin fəaliyyətinin təhlili, proqnozlaşdırılması və idarə edilməsi prosesində müvafiq modellər sisteminin tətbiqi dairəsinin tədricən genişlənməsi müşahidə olunur.

Aqrar-ərzaq bölməsinin inkişafının iqtisadi-riyazi modelləşdirilməsinin metodiki və informasiya təminatı məsələlərinə vahid rakursdan baxış, modellər sisteminin tətbiqi üzrə mövcud imkanlara münasibət bildirməyə imkan verməlidir. Odur ki, modellər sisteminin qurulmasının əsas metodoloji prinsipləri diqqət mərkəzində olmalıdır."Modellər sisteminin qurulmasının əsas metodoloji prinsiplərinə aşağıdakıları aid etmək olar: iqtisadi riyazi modellər modelləşdirilən obyektin əsas səciyyəvi cəhətlərini və əlaqələrini əks etdirməlidirlər; sistemə daxil olan modellər məntiqi, informasiya və alqoritmik cəhətdən qarşılıqlı əlaqədə olmalı,onların reallaşması isə vahid məqsədə görə koordinasiya edilməlidir; modellər sistemi üzrə hesablamaların nəticələri modelləşdirilən obyektin inkişaf proqramını işləyib hazırlamaq üçün zəruri informasiyanı özündə əks etdirməlidir". [2, s.235]

Şərh olunanları xülasə edərək demək olar ki, kənd təsərrüfatı və ərzaq məhsulları bölməsinin inkişafının iqtisadi-riyazi modelləşdirilməsinin yuxarıda qeyd olunan metodiki problemləri :

- konseptual müddəalardakı birmənalı olmayan yanaşmaların tətbiqə tövsiyə edilməsi;
- adekvatlıq və formallaşma səviyyələri arasında sonuncunun tələblərinə üstünlük verilməsi;
- alqoritmik detallaşdırmalarda aqrobiznes tələblərinə kifayət qədər diqqət verilməməsi;
- informasiya təminatında kəmiyyətlərin ehtimallı xarakterinə etina edilməməsi ilə kifayət qədər sıx surətdə əlaqədardır.

Məsələ ondadır ki, aqrar-ərzaq bölməsinin inkişafının modelləşdirilməsi üzrə konseptual müddəalarda birmənalı olmayan yanaşmalar təcrübədə geniş istifadə olunursa, bu halda tətbiq olunan modellər sistemində ciddi uyğunsuzluqlar baş verə bilir. Modelləşdirmədə reallığa adekvatlıq və formallaşma arasında, əksər hallarda qaçılmaz olan kompromislərdə sonuncunun tələblərinə üstünlük verilməsi, iqtisadi-riyazi modellərin, sözün həqiqi mənasında öz funksiyalarını yerinə yetirməsinə əngəl törədir.

Aqrar-ərzaq bölməsinin modelləşdirilməsi prosesində zəruri hesab olunan alqoritmik detallaşdırmalarda kommersiya mühitinin xarakteristikası diqqətdən kənarda qaldıqda, təhlil, proqnoz və idarəetmə mexanizmi bazar tələblərinə cavab verməyə bilər.

Eyni zamanda, onu da qeyd edək ki:

- aqrar-ərzaq kompleksi, aqrar-ərzaq bölməsi və əsasən regional səviyyədə fəaliyyət göstərən aqrar-ərzaq klasterlərinin formalaşması və inkişafın modelləşdirilməsində modellər sisteminin tətbiqi perspektivli istiqamət hesab edilməli;
- haqqında danışılan modellər sistemində fəaliyyət istiqamətləri və səviyyələr üzrə qarşılıqlı əlaqələr isə təkcə məhdudiyyət şərtlərində deyil, habelə məqsəd funksiyaları və imitasiya ssenarilərinin prioritetləri arasında da təmin edilməlidir.

Nəticə

Nəzəri-metodoloji və təcrübi tədqiqatlar belə deməyə əsas verir ki, inkişaf ssenarilərinin imitasiyası üzrə kompüter eksperimentləri çoxsaylı olduğundan onların nəticələrinin optimallaşdırma modellərinin məqsəd funksiyalarının və məhdudiyyət şərtlərinin texniki-iqtisadi əmsallarında nəzərə alınmasında orta kəmiyyət yanaşması əsaslandırılmalıdır. Bu zaman üzrə kompüter imitasiyası eksperimentlərinin nəticələrinin qiymətləndirilməsində icmallaşdırılan nəticələrin özünəməxsus reprezentativliyi təmin edilməlidir. Əks halda modelləşdirmə sayəsində təhlilin nəticələrinin, proqnozlaşdırmanın etibarlılığının və idarəetmə qərarlarının yaxşılaşdırılması üzrə

addım-addım yaxşılaşdırma cəhdləri lazımi səmərə verməyə bilər. Odur ki, aqrar-ərzaq bölməsinin fəaliyyətinin təhlili, proqnozlaşdırılması və idarə edilməsində tətbiq olunan modellər sistemində fəaliyyət istiqamətləri və səviyyələr üzrə qarşılıqlı əlaqələrin təmin edilməsi məsələsi diqqət mərkəzində olmalıdır.

ƏDƏBİYYAT

1. Медведев А.В., Косинский П.Д., Бондарева Г.С. Экономико-математическое моделирование агропродовольственного кластера региона. Фундаментальные исследования. №10, Москва, 2013, с.2203-2206.
2. Balayev R.Ə.Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi. Bakı, "Elm", 2007, 295s.

Эмиль Видади оглы Оруджев
докторант Азербайджанского Научно-Исследовательского
Института Сельского Хозяйство Экономика и Организации

Вопросы методического и информационного обеспечения процесса моделирования развития агропромышленного сектора

Резюме

В статье проанализированы возможности использования системы экономико-математических моделей развития агропромышленного кластера при принятии решений по управлению агропромышленного сектора. Исследованы вопросы методического и информационного обеспечения. Выявлены возможности расширения области применения моделей развития агропромышленного сектора.

Ключевые слова: моделирование, методическое обеспечение, информационное обеспечение, система экономико-математических моделей, агропромышленный сектор, агропромышленный кластер.

Emil Vidadi Orujov
PhD of Azerbaijan Scientific-Research
Institute of Agricultural Economics and Organization

The questions of methodical and information maintenance in modeling development of agricultural sector

Summary

The article analyzes the possibilities of the use of economic and mathematical models for the development of agro-industrial cluster in the decision-making on management of agro-industrial sector.

The questions of methodical and information support was studied. The possibility of expanding the scope of the models for development of agriculture sector was revealed.

Key words: modeling, methodical maintenance, information maintenance, economical-mathematical modeling system, agro-industrial sector , agro-industrial cluster.

III BÖLMƏ
BAZAR: SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ RƏQABƏT

UOT 334.7

İlham Əli oğlu VƏLİYEV
Bakı Dövlət Sosial-İqtisad Kollecinin direktoru,
i.e.n., dosent

SAHİBKARLIQ FƏALİYYƏTİ VƏ ONUN SEÇİM AMİLLƏRİ

Xülasə

Məqalədə sahibkarlıq fəaliyyətinə yeni başlamaq istəyən və fəaliyyət göstərən subyektlərə öz ideyalarını həyata keçirmək, düzgün seçim etmək, sahibkarlıq fəaliyyətinə başlayan zaman qarşılaşa biləcəkləri çətinliklərlə bağlı maarifləndirmək və həmin çətinlikləri aradan qaldırmaq üçün təklif və tövsiyələr verilmişdir.

Açar sözlər: sahibkarlıq fikri, sahibkar, seçim, ideya, bazar, əmtəə, məhsul, istehsal, maliyyə, satış.

Giriş

Son dövrlərdə həyata keçirilən iqtisadi islahatlar nəticəsində çoxsaylı müxtəlif təşkilati-hüquqi formalı subyektlər yaranmış və inkişaf etməyə başlamışlar. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan həmin müəssisə və təsərrüfatlar özünün formalaşma dövrünü yaşayan sosial-iqtisadi sistemin əsasını, məhək daşını təşkil edir. Bu baxımdan ölkəmizin gələcək inkişafı da sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təsərrüfatların inkişafından asılıdır. Dünya təcrübəsi göstərir ki, məhz müxtəlif təsərrüfatçılıq tiplərinə,sahibkarlığın müxtəlif forma və növlərinin inkişafına əsaslanmaqla, sosial-iqtisadi sistemin dayanıqlığını və onun səmərəliliyini yüksəltmək, sənayenin xammalla,əhalinin isə ərzaq məhsullarına olan tələbatını daha dolğun ödəmək mümkündür.

2015-ci ilin sonuna olan statistik məlumata görə ölkəmizdə sahibkarlıq bölməsində hüquqi və fiziki şəxs statusunda fəaliyyət göstərən sahibkarların sayı əvvəlki illərlə müqayisədə dəfələrlə artmışdır. Hazırda sahibkarlıq fəaliyyəti göstərən müəssisə və təsərrüfatların inkişafını daha çox bazar qanunları müəyyənləşdirir və onların istehsal-təsərrüfat və satış fəaliyyətlərinə kənardan müdaxilələr demək olar ki, yoxdur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan müəssisə və təsərrüfatlar məhsulların istehsalına, qiymət qoyuluşuna, məhsulların satış kanallarının seçilməsinə, müəssisələrin öz aralarında inteqrasiya və kooperasiya əlaqələrinin formalaşdırılmasına dair qərarları sərbəst surətdə qəbul edirlər. Respublikanın iqtisadiyyatında sahibkarlıq azadlığının təmin olunması bu sferada özəl bölmənin sürətli inkişafına gətirib çıxarmış və hazırda istehsal olunan kənd təsərrüfatı məhsullarının böyük əksəriyyəti həmin bölmənin payına düşür.

Respublikamızda istehsal olunan məhsulların əksər hissəsinin özəl bölmənin hesabına olmasına baxmayaraq, bu bölmədə fəaliyyət göstərən məhsul istehsalçıları – sahibkarlar istehsal - satış fəaliyyətinin həyata keçirilməsi zamanı çoxsaylı çətinliklərlə qarşılaşırlar. Bazar mexanizminin təsiri altında formalaşan qiymətlərin səviyyəsi sahibkarları qane etmir, bu səbəbdən də onlar geniş təkrar istehsalın həyata keçirilməsinə imkan verə biləcək səviyyədə gəlir əldə edə bilmirlər, nəticədə firma və müəssisələrdə maliyyə resurslarının kəskin çatışmazlığı hiss olunur.

Son dövrlər ölkəmizdə sahibkarlıq fəaliyyəti ilə bağlı məsələlərə dair müxtəlif aspektdə ki-

tablar, tədqiqatlar,məqalələr yazılmasına baxmayaraq, sahibkarlıq fəaliyyətinin özəllikləri nəzərə alınmaqla bu bölmədə sahibkarlıq fəaliyyətinin inkişafı və onun tənzimlənməsinin kompleks iqtisadi məsələləri geniş təhlil edilməmişdir. Bütün bunlar sahibkarlıq fəaliyyətinin inkişaf meyillərini və iqtisadi tənzimlənməsi məsələlərini kompleks şəkildə öyrənməyi zəruri etmişdir. Məqalənin yazılmasında da əsas məqsəd sahibkarlıq fəaliyyətinə yeni başlayan, yaxud fəaliyyət göstərən sahibkarların qarşılaşdıqları problemlərin aradan qaldırılmasına yönəldilmiş elmi və təcrübi cəhətdən əsaslandırılmış nəticə və təkliflərin işlənib hazırlanmasından ibarət olmuşdur. Araşdırmanın nəticəsi kimi işlənib hazırlanmış təkliflər sahibkarların fəaliyyətinin tənzimlənməsi, idarə olunması, inkişafı və onun iqtisadi səmərəliliyinin yüksəldilməsinə imkan verə bilər.

Sahibkarlığın ümumi inkişafı bütün dünyada eyni olsa da hər bir ölkənin regionunun özünəməxsus inkişaf xüsusiyyəti var. Azərbaycan və onun regionları da digər ölkələrdən çoxlu sayda iqlim, tarixi, milli xüsusiyyətləri ilə seçilir. Keçid dövründən 25 il vaxt keçib, milyonlarla insanların həyat tərzi dəyişib, insanlar öz kapitalını, mülkiyyətini qoruyub saxlamağa, çoxaltmağa, yeni-yeni iş yerləri açmağa çalışır.

Bu gün ölkəmizin sosial-iqtisadi inkişafında sahibkarlıq fəaliyyətinin tutduğu yerin əhəmiyyəti nəzərə alınmaqla onun inkişafının tənzimlənməsi və idarə edilməsi ilə bağlı sahibkarlığın inkişafına yaradılan əlverişli mühitlə bağlı qəbul edilən 100-dən çox qanun, fərman, sərəncam, qərar və digər hüquqi aktlar sahibkarlığın inkişafına yönəlmişdir.

Xüsusilə 02 iyul 2013-cü il tarixli "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Qanun, yaxud 20.10.2015-ci il tarixli sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında qanunun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər haqqında fərmanı və s. misal göstərmək olar. [1] Prezident İlham Əliyev Nazirlər Kabinetinin üzvləri ilə keçirdiyi müşavirədə və ictimaiyyətlə görüşlərində heç kəsin toxunulmaz olmadığını, deyilənlərin sözdən ibarət olmadığını əyani nümayiş etdirdi.İş adamlarına müraciət edərək bildirdi: "Əgər onların işinə müdaxilələr varsa dərhal məlumat verin,səsinizi qaldırın". Prezidentin bu çağırışı, əlbəttə ki, cavabsız qalmayacaqdı və qalmır. Çox güman ki, iş adamları sahibkarlıqla bağlı verilən fərmanlardan ruhlanaraq Dövlət Proqramlarında nəzərdə tutulmuş tədbirlərin vaxtında icrası, Respublika əhalisinin ərzaq məhsulları ilə etibarlı təminatında həlledici rol oynayacaq dayanıqlı bazar subyektlərinə çevriləcəklər.

Əgər yaxşı məlumatlı vətəndaş, iş adamı, sahibkar olmaq istəyiriksə onda bizə iqtisadiyyatın əsasını bilmək lazımdır. Çünki bunsuz işsizlik,inflyasiya,büdcə kəsiri, vergi tutulması, səhmin kursu, sosial problemlərin həllinin faydalılığı, iqtisadi artım, tam məşğulluq, iqtisadi faydalılıq, sabit qiymət səviyyəsi, iqtisadi azadlıq, gəlirin ədalətli bölgüsü və digər problemlərin düzgün həllinin tapılması çətinləşir. İqtisadiyyat mühüm həyati elmdir, o, biznes üçün təcrübi əhəmiyyətə malikdir, iqtisadi sistemin düzgün dərk edilməsi müəssisə rəhbərinin öz təsərrüfat fəaliyyətini düzgün müəyyənləşdirməsinə kömək edir.

Hər bir insanın uşaqlıqdan, məktəb illərindən öz arzusu olur: kimisi təyyarəçi, kimisi həkim, kimisi mühəndis, müəllim, müdir, sürücü, biznesmen və s. olmaq istəyir. İnsanın ağlındakı fikirləri reallaşdırmaq, həyata keçirmək olduqca çətindir.Ancaq özünə inam, inadkarlıq, qarşıya qoyulmuş məqsəd addım-addım arzularımızın, ideyalarımızın gerçəkləşməsinə gətirir. Təəssüflər olsun ki, uğur, müvəffəqiyyət hər kəsin üzünə gülmür, həyatda hər kəsin şansı gətirmir. Bu yolda çoxlu qayalıqlar, risk, maneələr olur. Hər kəs bu məsələləri aradan qaldıra bilmir, cənab "Uğur" hamının üzünə gülmür, ancaq kim öz biznes planına əmindirsə, öz şəxsi biznesini yaratmaq istəyirsə, onun üçün bütün yollar açıqdır. Əlbəttə ki, kiçik bir mağaza və ya qəlyanaltı yeri açmaq daha rahatdır,nəinki müasir texnologiyalar və avadanlıqlar istehsal edən rəqabətə davamlı müəssisə yaratmaq.Bu uğurun yolunda bir çox baryerlər (maneələr) var – torpağın bahalığı, sənədlərin rəsmiləşdirilməsi üçün məmurların qəbulu, kommunikasiyaya (istilik sistemi, su, ka-

nalizasiya, elektrik enerjisi və s.) qoşulmaq üçün yüksək qiymətlər.Ən böyük baryer isə məmurların bürokratiyası və korrupsiyasıdır. Daha bir çətinlik ondadır ki, əgər rəqabətli bir məhsulu, yəni hər hansı xammalı istehsal etsək də, onu işlətmək asan deyil. Əlavə gəlirdən daha geniş və böyük təsərrüfat yaratmaq üçün istehsalın həcmi böyük olmayanda istehsalçı özü öz biznesini sərbəst şəkildə idarə edə bilir. Ancaq böyük həcmli gəlir olanda, o zaman müxtəlif vasitəçi xidmətlərindən istifadə etmək lazım gəlir və onlar istehsalçıya öz şərtlərini irəli sürür. Misal üçün, aqrar sektoru götürsək vasitəçi kənd təsərrüfatı mallarını ucuz qiymətlərlə alıb əhaliyə 2-3 dəfə baha qiymətə satır.

Müasir dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə əsasən qeyd etmək olar ki, bazar iqtisadiyyatının əsas elementi sahibkarlıq fəaliyyətidir.Sahibkarlığın inkişafının yüksək səviyyəsi bazar iqtisadiyyatının nümunəvi modelidir.Sahibkarlıq fəaliyyəti iqtisadiyyatda rəqabət qabiliyyətlilik münasibətini və iqtisadi inkişafa şərait yaradır.Müasir dövrdə sahibkarlıq cəmiyyətdə peşəkar fəaliyyətin vacib tərəfidir, işgüzar adamların gəlir gətirən şəxsi biznesini yaratması üçün sərbəst fəaliyyət növüdür.

Sahibkar – həkim, müəllim, vəkil, inşaatçı, mühəndis və s. peşələr kimi lazımlı peşədir. Uğurlu sahibkar istedadlı iqtisadiyyatçıdır. O iti baxışlı, dərrakəli, ağıllı, analiz etmək bacarığı olan və eyni zamanda parlaq bir şəxsiyyət olmalıdır. Görkəmli Amerika iqtisadiyyatçısı, Nobel mükafatı laureatı olan V.Leontyevin qeyd etdiyi kimi, istedadlı insanlara şərait yaradılmasa problemlər həll olunmaz. Biznesmenin uğur qazanması üçün eyni zamanda, o həm əla təşkilatçı, həm də strateji fikirləşən proqramçı, bacarıqlı rəhbər, həm də xeyirxah və qayğıkeş yoldaş olmalıdır. O, enerjili, təşəbbüslü, diqqətli, prinsipial, israrlı, öyrənməyə həvəsli, başa düşən, kompromislərə qadir, çevik, zəhmətsevər, riskli, psixoloji durumu möhkəm və ünsiyyətcil olmalıdır.

Bu gün sahibkarlıq fəaliyyəti ilə məşğul olan subyektlərin sayı artır. Sahibkarlıq fəaliyyətinə yeni başlayan subyektlər müxtəlif sahələrdə müxtəlif sahibkarlıq fəaliyyəti ilə məşğul olurlar. Cəmiyyətin demokratikləşdirilməsi sahibkarların müstəqil fəaliyyət göstərməsinə şərait yaratmışdır.

Məqalənin yazılmasında məqsəd sahibkarlıq fəaliyyətinə yeni başlayan subyektlərə ideyalarını həyata keçirmək, düzgün seçim etmək, sahibkarlığın quruluşu, idarə edilməsi, onu gözləyən çətinliklər haqqında məlumatlandırmaq və onları aradan qaldırmaq üçün təkliflər verməkdir.

Sahibkarın əsas məqsədi şəxsi biznesin idarə edilməsi, resursların rasional istifadə edilməsi və fəaliyyətinin sonunda alınan nəticənin məsuliyyətli olmasıdır. [2]

Sahibkarlıq mühitinin əsas şərtlərindən biri iqtisadi azadlıq və şəxsi maraqdır. İş adamı üçün iqtisadi azadlıq yalnız öz istədiyi və seçdiyi fəaliyyətlə məşğul olmaq imkanı deyil, həm də mənəvi və estetik fəaliyyətin göstəricisidir.

1. İstehlakçıların üstünlük verməsi və zövqləri. Daşınmaz əmlaka tələb dinamik anlayışdır. Mənzil bazarı inkişaf etdikcə istehlakçı davranışı standartlarında dəyişiklik baş verir. Belə ki, XX əsrin 90-ci illərinin əvvəllərində tikilmiş elit evləri bu gün çox da məşhur deyil, belə ki, onların çoxunda layihələndirmə və tikinti zamanı çoxlu səhvlər buraxılmışdı: tavanların aşağı hündürlüyü, görkəmsiz xarici görünüşü, bu gün üçün müəyyən tələb olunan elementlərin olması (yeraltı qaraj, müvafiq səviyyədə mühafizəsi və s.). Mərtəbə seçimi ilə əlaqədar əhalinin üstünlük verməsi də dəyişmişdir. Əgər 80-ci illərdə ikinci və orta mərtəbələrə ən yüksək tələb mövcud idisə, hazırda alıcılar daha yüksək mərtəbələrə üstünlük verirlər. Bu, bir neçə amillə izah oluna bilər. Alt mərtəbələrə ofis, mağaza və xidmət şirkətlərindən səs-küy, qoxu, onların ilk mərtəbələrində yerləşən reklam konstruksiyalarının işıq sayrışmaları paylanır. Adətən inzibati mərtəbə damında pəncərədən görünüş cəlbedici olmur, bu mənzillərin, əlavə müdafiə sistemlərinə, məsələn, pəncərə çəpərlərinə ehtiyacı var ki, bu da həmişə estetik görünmür və tez-tez narahatlıq hissi doğurur. Avtomatik nəzarət siqnalizasiyasının quraşdırılması belə yaşayış təyinatlı daşınmaz əmlak obyektinin saxlanma xərclərini artırır, lakin bu, otaqda olan şəxslərin təhlükəsizliyini həmişə təmin edə bilmir.

Böyük şəhərlərdə gediş-gəlişli küçələrin yaxınlığında yerləşən binaların aşağı mərtəbələrində güclü hava çirklənməsi və səs-küy hiss edilir. Yaxın yerləşmiş pəncərə və qonşu evlərin divarları kimi görünüşə malik mənzilin əldə edilməsi ehtimalı artır. Bu zaman adda-budda bina tikililəri yerləşən rayonlarda müasir çoxmərtəbəli binalar üçün pəncərədən panorama görünüşü açılır və təbii işıqlanma üstünlük təşkil edir. Yüksək mərtəbələr üçün mənzilin yenidən planlaşdırılmasına icazə almaq asandır, çünki mənzil üzərində tikili az çəkiyə malikdir. Nəhayət, müasir çoxmərtəbəli binalarda yuxarı mərtəbələrə mebel daşınması problemini həll edən yük liftləri vardır. İstehlakçı üstünlükvermələri mənzil təmirlərinə münasibətdə də dəyişmişdir. Əgər 90-cı illərdə ən yüksək standart "avrotəmir" hesab edilirdisə, hal-hazırda fərdi dizayner işlənməsi daha əsas sayılır. İstehlakçılar cari tendensiyalara münasibətdə daha məlumatlı olmuşlar ki, buna da inkişaf etmiş ölkələrə ziyarət kömək etmişdir.

2. Əmtəələrin (xidmətlərin) keyfiyyəti. Yaşayış təyinatlı daşınmaz əmlak obyektlərinin keyfiyyəti səmərəlilik, uzunömürlülük, ergonomiklik, ekolojilik, təhlükəsizlik, estetiklik və s. kimi müxtəlif istehlak tələblərinin təyinatı və ödənilməsi üzrə istifadəyə onun yararlılıq dərəcəsini xarakterizə edən xassələri özündə ehtiva edir. İnzibati-amiranə iqtisadiyyatda başlıca tələblərdən biri minimal sosial normalar üzrə əhalinin geniş təbəqəsinin pulsuz mənzilə ehtiyacının ödənilməsi olmuşdur. Bazar iqtisadiyyatında mənzil əhalinin müxtəlif təbəqələrinə onların imkanları və tələbləri nəzərə alınmaqla satılır, mənzil bazarında mal daha diferensiallanan olmuşdur. Digər bərabər şəraitlərdə keyfiyyət tələbin qiymətinə təsir göstərir. Lakin alınan mənzilin keyfiyyəti haqqında alıcılarda zəruri məlumatın olmaması həm ilkin, həm də təkrar bazarda

"pisləşdirən seçim" deyilən problem yaradır. J.Akerlofa görə, yaşayış təyinatlı daşınmaz əmlakın yaxşı obyektləri bazarı tez tərk edir və ya hətta ona çatmırlar (şəxsi əlaqələr əsasında satılırlar), pis obyektlər isə yenidən bazara qaytarılır. Bundan başqa, yəqin ki, bu bazarda həmçinin C.Stiglerin "qiymət-keyfiyyət göstəricisi" effekti iştirak edir. Buna əsasən zəruri məlumatların olmaması şəraitində alıcı qiyməti obyektin keyfiyyətini dolayı sübut kimi hesab etməyə başlayır. Bizim fikrimizcə, istehlakçı müasir texnologiyaların və materialların keyfiyyətini qiymətləndirmək iqtidarında olmadığı şəraitdə bu effekt ilkin mənzil bazarı üçün daha vacibdir.

3. Alıcıların gəlirləri. Mənzilə tələb həm keçmiş, həm də cari və gözlənilən gələcək gəlirlərdən asılıdır ki, bu da F.Modilyaninin həyat tsikli konsepsiyasına uyğundur. Gözlənilən gələcək gəlirlər cəmiyyətin əhval-ruhiyyəsindən (optimizm və ya pessimizmə üstünlük verilməsindən) asılıdır. Cari dövrdə gələcək gəlirlər hesabına mənzili əldə etmək imkanı da ipoteka kreditləşməsi proqramının inkişafı dərəcəsindən asılıdır.

Qeyd etmək lazımdır ki, əhali gəlirlərinin dəyişməsi alıcılar tərəfindən yaşayış təyinatlı daşınmaz əmlak obyektlərinin keyfiyyətinə tələblərin dəyişilməsi üzündən tələbin strukturunun dəyişilməsinə kömək edir. Buna görə də, alıcıların real gəlirlərinin artımı daha keyfiyyətli mənzilə tələbin artırılmasına və daha aşağı keyfiyyətli mənzilə tələbin azaldılmasına səbəb olur.

4. Digər mal və xidmətlərin qiymətləri.

A) Tamamlayıcı malların qiymətləri tələbə mənfi təsir göstərir. Belə ki, mənzilin saxlanması və təmiri xərclərinin artması, eləcə də mərkəzi istilik və mənzil sahəsinin hər kvadrat metrinə görə hesablanan digər kommunal xidmətləri üçün tariflərin yüksəlməsi, digər bərabər şəraitlərdə böyük sahəli mənzillərə tələbi azaldır. Bu zaman daşınmaz əmlak üçün tələbin strukturu dəyişəcək: aşağı gəlirli insanlar (məsələn, çoxotaqlı mənzillərdə yaşayan tənha təqaüdçülər) artıq yaşayış sahələrindən canlarını qurtarmağa başlayacaqlar (bu da belə mənzillərin təklifini artıracaq) və qənaət sinifli kiçik ölçülü mənzillərə tələbi artıracaq.

B) Əvəzedici mallara qiymətlər tələbə müsbət təsir göstərir. Belə ki, ilkin bazarda mənzillərin qiymətlərinin artması ilə, alıcılar təkrar bazarda daha çox mal almağa başlayacaqlar və əksinə. Şəhərətrafı daşınmaz əmlakın saxlanması dəyərinin azaldılması da şəhər mənzillərinə tələbi azaldacaq.

C) Müstəqil malların qiymətləri gəlir effekti vasitəsilə tələbə dolayı yolla təsir göstərir. Həqiqətən, əsas istehlak mallarının qiymətlərinin artması, yaşayış ümumi dəyərinin bahalaşması əhalinin real gəlirlərinin azalmasına gətirib çıxarır və bahalı mallara, o cümlədən yeni mənzilə tələbdə mənfi əks olunur.

5. Vaxt amili. Mənzil bazarında tələb aydın əks olunmuş mövsümi xarakter daşıyır. Ənənəvi olaraq o, yazda (bu zaman tələb şəhərətrafı daşınmaz əmlak üçün böyük dərəcədə artır) və payızda (tələb şəhər mənzillərinə artır) artır. Həmçinin, unutmaq olmaz ki, daşınmaz əmlak üzrə əməliyyatların hamısı məcburi dövlət qeydiyyatından keçməlidir, odur ki, bu, Dövlət Reyestr Xidməti orqanlarının iş günü ərzində baş verir.

6. Alıcıların sayı. İlk növbədə, mənzil alıcılarının sayına doğumun artması təsir göstərir ki, bu da mənzil şəraitinin yaxşılaşdırılması zəruriliyinə gətirib çıxarır: ya daha böyük bir sahəli mənzilin alışı və ya gənc ailələr tərəfindən ayrıca mənzilin əldə edilməsi hesabına. Son illərdə Azərbaycanda pozitiv dinamika müşahidə edilir. Azərbaycan Respublikası əhalisinin sayı 1897-1997-ci illəri əhatə edən 100 il ərzində dünya əhalisinə nisbətən daha sürətlə, yəni 4,3 dəfə artaraq 1806 min nəfərdən 7799,8 min nəfərə gəlib çatmışdır. 1997-ci illə müqayisədə 2014-cü ildə əhali artımı 23,0% təşkil etmişdir. Bütövlükdə son 20 il ərzində (1994-2014) isə bu göstərici 28,6%-ə bərabər olmuşdur.

2015-ci ilin yanvar ayına olan rəsmi məlumata görə, Azərbaycan əhalisinin sayı 9593,0 min nəfər olmuşdur. 2009-cu ilin aprelin 13-də keçirilmiş əhali sayımının rəsmi məlumatlarına görə isə Azərbaycan Respublikasında 8.922,3 min nəfər əhalinin yaşadığı təsbit edilmişdir. Hal-hazırda əhalisinin sayına görə Azərbaycan Respublikası Avropanın 19-cu ölkəsi olmuşdur. 2009-

cu ildə 1989-cu ilə nisbətən Azərbaycanın əhalisi 1.901,1 min nəfər və ya 27,1% artmışdır. Orta illik artım 95,1 min nəfər və ya 1,2% təşkil etmişdir. Azərbaycan Respublikasının demoqrafik inkişafı son 110 ildən artıq bir dövrdə gedən sosial-iqtisadi və siyasi proseslərin xarakterindən asılı olaraq güclü dəyişikliklərə məruz qalmışdır.

Mənzilə olan tələbə eləcə də həm daimi və həm də müvəqqəti xarici və daxili miqrasiya amilləri təsir edir. Respublikamız beynəlxalq aləmdə ərazisində ən çox daxili miqrant məskunlaşan ölkədir. Dünyada miqrantların 97-98 faizi başqa ölkə vətəndaşları olduğu halda, respublikamızda miqrantların üçdə ikicindən çoxu ərazilərin işğalı nəticəsində ölkə daxilində yaşayış yerini dəyişməyə məcbur olmuş daxili miqrantlardır. Onu da qeyd edək ki, respublikamızda məskunlaşan miqrantların onda doqquzundan çoxu milli mənsubiyyətinə görə azərbaycanlılardır.

Statistik rəqəmlərin təhlili göstərir ki, 2000-2004-cü illərdə əhalinin sahə aspektlərində miqrasiya proseslərində ümumi olaraq - 15,0 min nəfər azalma prosesi müşahidə olunmuşdur ki, bu da illər üzrə orta hesabla təxminən - 3,0 min nəfər təşkil etmişdir. Müvafiq proseslər 2005-2009-cu illərdə xeyli dəyişmişdir. Belə ki, 2005-2009-cu illərdə ümumi olaraq miqrasiya proseslərində - 0,4 min nəfər olmaqla azalma tendensiyası müşahidə olunmuşdur ki, bu da illər üzrə orta hesabla təxminən - 0,08 min nəfər təşkil etmişdir. 2010-2014-cü illərdə isə ölkə üzrə əhalinin sahə aspektlərində, o cümlədən miqrasiya prosesləri üzrə iştirakında 5,4 min nəfər artım prosesi qeydə alınmışdır ki, bu, son illər üzrə orta hesabla 1,08 min nəfər artım deməkdir. Onu da qeyd edək ki, emiqrasiya daimi yaşayış üçün tələbatın artması ilə müşayiət olunur. Emiqrasiyadan fərqli olaraq, miqrasiya (o cümlədən əmək) mənzil icarəsi bazarında istehlakçı tələbini artırır. Belə ki, turist mövsümünün qızğın çağında kurort şəhərlərində müvəqqəti mənzilə tələbin artması üzündən mənzilin icarə dəyəri xeyli artır. Miqrasiya prosesləri həmçinin mənzil bazarında təkrar hadisələrə səbəb olur. Belə ki, son illərdə, kommersiya məqsədləri üçün mənzil alıcılarının xüsusi seqmenti meydana çıxmışdır ki, onun da məqsədi gəlir əldə etmək üçün əmək və digər miqrantlara icarəyə verilməsi sayılır. Belə ki, müvəqqəti miqrasiya da mənzil bazarında tələbin artmasına gətirib çıxarır.

7. İstehlakçıların hər hansı siyasi və ya iqtisadi dəyişiklikləri gözləməsi. İqtisadi dəyişikliklərin gözlənilməsi özünü həm istehlak tələbi kimi, həm də gəlirlərin əmanəti formalarında göstərir. Məsələn, 2009-cu ilin son günlərində Bolqarıstanın daşınmaz əmlak bazarında satışın spekulyativ artımı müşayiət olunmuşdur: təkcə Sofiyada bir gün ərzində beş yüz mindən çox əməliyyat aparılmışdır. Nəğd pulla satın alınan əmlakın ödənilməsini qadağan edən qanun layihəsinin baxılması həyəcana səbəb oldu. Əhali və xarici investorlar gözləyirdilər ki, qanun layihəsinin qəbul edilməsindən sonra alıcının hesabından satıcının hesabına pul köçürmək üçün hər hansı əlavə xərclər meydana çıxacaqdır .

Makroiqtisadi böhranların gözlənilməsi də daşınmaz əmlak üçün tələbə təsir göstərir. Bir tərəfdən, böhran dövründə yaşayış təyinatlı daşınmaz əmlaka tələbin ixtisarına və qiymətlərinin azalmasına səbəb olan əhalinin real gəlirlərinin azalması və borc dəyərinin artırılması baş verir. Eyni zamanda mənzil təklifi qiymətlərinin azalması mənzil inşaatçılarının maliyyə vəziyyətinin pisləşməsinə gətirib çıxarır. Odur ki, daşınmaz əmlakın ucuzlaşmasının gözlənilməsi böhran zamanı mənzilin əldə olunmasını ləngidə bilər. Digər tərəfdən, böhran dövründə ipoteka kreditlərinin bahalaşmasının gözlənilməsi cari dövrdə bu cür kreditlərə tələbin artmasına gətirib çıxarır. Əmlakın alınması haqqında qərar, həmçinin, cari dövrə keçirilir. Nəticədə, əmlakın alınması vaxtına münasbətdə konkret istehlakçı seçimi onun maliyyə xərclərinin (xüsusi və borc vəsaitlərinin payı) strukturundan asılıdır. Nəhayət, qiymətlərin gözlənilən dinamikası mənzilə ehtiyacı olan alıcılara nisbətən investor alıcıların davranışına daha böyük təsir göstərir.

8. Alıcılara vergilər və dotasiyalar (subsidiyalar). Mənzil alınması və ya saxlanılması üçün vergilərin artırılması ona olan tələbi azaldır. Eyni zamanda, daşınmaz əmlakın satıcılar tərəfindən ödənilən vergilərin artırılması da mənzilə olan təklifi azaldır. Lakin, müasir iqtisadi nəzə-

riyyə sübut edir ki, vergi yükünün yeni tarazlığı və bölgüsü baxımından verginin məhz kim tərəfindən (alıcı və ya satıcı) ödənilməsinin mənası yoxdur. Daşınmaz əmlak alqısında istifadə edilən vergi tutulması əks istiqamətdə təsir göstərir: mənzilə olan tələbin artmasına kömək edir və iqtisadi nəzəriyyəyə görə, onların effekti alıcı və satıcı arasında bölüşdürülür.

İndi isə biz qiymət üzrə tələb elastikliyinə təsir edən amilləri tədqiq edək.

Qiymət üzrə tələb elastikliyinə təsir edən amillərin tədqiqi

• İstehlak strukturunda əmtəənin payı. Yaşayış təyinatlı daşınmaz əmlak müxtəlif ehtiyacları ödəyir ki, buna da A. Maslounun bütöv iyerarxiyası : fizioloji ehtiyaclar, təhlükəsizlik, məxsusluq və məhəbbət, tanınma və özünü təsdiqetmə ehtiyacları kimi baxmaq lazımdır. Bundan əlavə, o, kompleks nemətlərin xassələrinə malikdir. Buna görə də, konkret ev təsərrüfatları tərəfindən mənzilə olan tələb parametrləri (o cümlədən müxtəlif amillər üzrə tələb elastikliyi də daxil olmaqla) onun bu ehtiyac iyerarxiyasındakı mövqeyindən asılıdır.

• Ehtiyacların ödənilmə dərəcəsi konkret ev təsərrüfatları tərəfindən tələbin qiymət elastikliyinə təsir göstərir: bir ailə üzvü üçün kvadrat metrlə ümumi sahənin və ya təcrid olunmuş otaqlarının miqdarı nə qədər az olarsa, onda tələbat böyük və deməli, yeni mənzilə tələb daha az elastiki olacaqdır. Ümumiyyətlə, bütün ev təsərrüfatları üçün mənzilə tələbin qiymət elastikliyi onların yaşamaq üçün yararlılıq dərəcəsindən asılıdır.

• Əvəzedici məhsulların mövcudluğu və miqdarı. Ümumiyyətlə, mənzilin heç bir əvəzedicisi yoxdur. Lakin öz mənzilinin əvəzedici məhsulu icarəyə verilən yaşayış sahəsi sayılır. Uzun müddətli kirayə mənzil bazarının yaxşı inkişaf etdiyi ölkələrdə tələbin qiymət elastikliyi bu bazarın zəif inkişaf etdiyi ölkələrə nisbətən daha yüksəkdir. Belə ki, ABŞ-da mənzilin kirayə bazarı onun satış bazarının rəqibi sayılır ki, bu da ömür boyu ərzində Amerika əhalisinin yüksək ərazi mobilliyi ilə izah olunur.

• İstehlakçıların ümumi gəlirləri və onların fərqləndirilmə dərəcəsi. Orta gəlirli insanların əksəriyyəti üçün mənzilə olan tələb həyat səviyyəsi yüksək olan insanlara nisbətən həm qiymətə və həm də gəlirə görə daha elastikidir. Tələb alıcılıqqabiliyyətli tələbatla xarakterizə olunduqca, aztəminatlı insanlar mənzil şəraitinin yaxşılaşdırılması üçün ehtiyacları olmasına baxmayaraq yaşayış təyinatlı daşınmaz əmlak bazarında alıcı kimi hərəkət edə bilmirlər. Buna görə də, tələbin qiymət elastikliyi yalnız müştərilərin müxtəlif seqmentləri üçün deyil, həm də daşınmaz əmlakın müxtəlif sinifləri üçün fərqləndirilir.

Elit mənzil alıcıları kompleks nemətin xassələri kimi, aşağıdakıları qiymətləndirirlər:

1) topluluq (evdə 10-dan artıq mənzilin olmaması);

2) "vahid sosial ətraf mühit"in (bazar avtomatik olaraq sakinlərin "təbii öz-özünü seçim"ini həyata keçirir: oxşar gəlir, problemlər və sorğularla);

3) yerləşdiyi ərazi: nüfuzlu məhəllədə, şəhərin biznes, mədəniyyət və ya tarixi hissəsində (teatrların, muzeylərin, butiklərin mövcudluğu qiymətləndirilir);

4) evin kütləvi infrastrukturunun olmaması;

5) qonaqlar üçün avtodayanacaqların və yeraltı dayanacaqların (hər bir mənzilə mənzil sahiblərinin avtomobilləri üçün iki yer düşür) mövcudluğu;

6) sakinlərin yüksək dərəcəli təhlükəsizliyi (silahlı mühafizə, video nəzarət, qonaqlar üçün üz-kontrol, sakinlər üçün giriş kartları və s.);

7) müstəqil mühəndis avadanlığı (öz elektrik stansiyası, su təchizatı, istilik, yanğın xidməti, və s);

8) tikintidə və təmirdə yalnız ən yaxşı materialların, estetik və ergonomik bəzəklərin istifadəsi. Bu məhsulun unikallığı digər məhsulları qüsurlu əvəzedicilərə çevirir və bunun üçün ona olan tələbin qiymət elastikliyi az olur.

• Vaxt amili. Artıq qeyd edildiyi kimi, mənzil bazarında tələb aydın əks olunan mövsümi xarakterə malikdir. Aydındır ki, o, yazda və payızda yalnız artmır, həm də daha az qiymət elastikliyinə malik olur. Bundan əlavə, uzunmüddətli dövrdə qısamüddətli dövrə nisbətən yaşayış tə-

yinatlı daşınmaz əmlak obyektlərinə qiymət üzrə tələb daha elastikidir. Bu onunla izah olunur ki, uzunmüddətli dövrdə əmanətlərdən istifadə etmək, əlavə gəlir mənbələri tapmaq və ya alıcıların borc vəsaitlərini cəlb etmək imkanı vardır.

İndi isə mənzil bazarında təklifin formalaşması xüsusiyyətlərini nəzərdən keçirək.

Mənzil bazarında təklifin formalaşması xüsusiyyətləri

Mənzil təklifi dedikdə, onun mənzil sahəsi vahidləri ilə ölçülən satışının arzuolunan həcmlərinin (kvadrat metrlə və ya mənzillərin, evlərin sayı ilə) yaşayış sahəsi vahidinin qiymətindən asılılığı başa düşülür.

Yaşayış təyinatlı daşınmaz əmlakın təklifinə və onun elastikliyinə təsir edən aşağıdakı amilləri ayırmaq olar:

1. Resursların (istehsal amillərinin) qiymətləri və əlçatarlığı. İlkin təyinatlı daşınmaz əmlak bazarında təklif qiyməti kapitalın, əməyin, torpağın, sahibkarlıq qabiliyyətinin qiymətindən asılıdır. Onların artırılması zamanı tikinti firmasının təklif əyrisi yuxarı və eyni zamanda sola yerini dəyişəcəkdir. Bu, əvvəlki qiymətlə istehsalçı tərəfindən daha az miqdarda mal (mənzilin kvadrat metri hesabilə) təklif edilməsi deməkdir.

İlkin mənzil bazarında tikinti sənayesində qiymətlərin və istehsal amillərinin mənzil təklifinin qiymətinə təsirini araşdıraq.

Birincisi, dövriyyə kapitalının (tikinti materialları, yanacaq, enerji, alətlər, mebel, və s.) qiymət və əlçatarlığını ayıraq.

İlkin resursların qiymətlərinə təsir edən əsas amillərdən biri ölkədə faydalı qazıntı yataqlarının mövcudluğudur. Tikinti işləri üçün zəruri xammal çatışmazlığı digər regionlardan onların gətirilməsi zərurəti yaradır, bu isə öz növbəsində xərcləri əhəmiyyətli dərəcədə artırır. Həmçinin xammalın qiymətinə hasilat şəraitinin və xammal əlçatarlığının dəyişilməsi (əvvəlkilərin tükənməsi və yeni yataqlarının işlənməsi) təsir göstərə bilər, digər iddiaçılar (məsələn, ev təsərrüfatlarının - sement və tikinti materiallarına) tərəfindən resurslara tələbin artması, resurs bazarlarının inhisarlaşma dərəcəsinin dəyişməsi (yeni firmaların meydana çıxması və ya kiçik şirkətlərin böyük şirkətlər tərəfindən udulması).

Resursların qiymətlərində və əlçatarlığındakı dəyişikliklər uzun müddətli dövrdə tikinti şirkətlərinin davranışına təsir göstərir. Belə ki, xammal çatışmazlığı ilə bağlı çətinliklərin inşaat firmaları tərəfindən gözlənilməsi mənzil bazarında təklifin strukturunu dəyişir. Məsələn, tikinti şirkətləri şəhərətrafı daşınmaz əmlakını aktiv olaraq təklif və təşviq etməyə başlayırlar.

İkincisi, əsas kapitalın (tikinti texnikasının, maşın, avadanlıq, və s.) qiymətini və əlçatarlığını vurğulamaq lazımdır. Tikinti şirkətinin ən bahalı əsas kapitalı tikinti maşınları, mexanizm və avadanlıqları, eləcə də daşınmaz əmlak obyektləridir (ofis və anbar sahəsi, müxtəlif binalar). Yeni tikinti texnikasının dəyəri adətən aşağıdakı amillərdən asılıdır:

1) maya dəyərindən və istehsalçının mənfəət normasından;
2) vasitəçilərin (təchizatçıların) əlavələri;
3) nəqliyyat və qaimə xərcləri;
4) idxal avadanlığı üçün - gömrük rüsumları və valyuta məzənnələri.

Ölkənin lizinq təşkilatları keçən dövr ərzində öz məhdud imkanları daxilində bahalı qiymətlərə də olsa, müxtəlif növ maşın və avadanlıqlar əldə etmiş və inşaatçılara göndərmişlər. Lakin tikinti sahəsində lizinqin yüksək inkişaf sürətinə baxmayaraq, bu sahə üzrə ixtisaslaşmış lizinq müəssisələrinin olmaması üzündən ölkə inşaatçılarının müasir tipli müxtəlif inşaat avadanlıqlarına, tikinti maşınlarına tələbatı hələ də ödənilmir.

Fikrimizcə, hökumətin regionların inkişafına dair gələcəkdə nəzərdə tutulan Dövlət Proqramlarının reallaşması məqsədilə tikinti üzrə ixtisaslaşmış regional lizinq şirkətləri yaradılmalıdır. Yol inşaatı maşınları və texnoloji avadanlıqlarla aparılan lizinq əməliyyatlarının özünəməxsusluğu nəzərə alınmaqla təşkilati-hüquqi sənədlər işlənib hazırlanmalıdır. Büdcə vəsaitlərinin məhdudluğunu nəzərə alaraq büdcədənkənar mənbələr hesabına iqtisadi kömək fondlarının ax-

tarılmasını və formalaşmasını təşkil etmək lazımdır. Lakin bank strukturlarının inşaat lizinqinə cəlb olunması mürəkkəb olaraq qalır. Bunun da başlıca səbəblərinə qanunvericilikdə mövcud olan uyğunsuzluqlar, lizinqə vergiqoyma mexanizmində yetərsizliklər, lizinqin maliyyə aləti kimi geniş tanınmaması, lizinq sektorunun institusionallaşmasını dəstəkləyən layihə və mexanizmlərin yetərsizliyi aiddir.

Bankların inşaat lizinqində qeyri-aktivliyi yuxarıda sadalanan səbəblərlə yanaşı, uzunmüddətli maliyyə resurslarının yetərsizliyi ilə bağlıdır. Bu isə əsasən bankların kapitalizasiya səviyyəsinin aşağı olması, banklara etimadın qısamüddətli xarakteri, qiymətli kağızlar bazarı alətlərinin geniş tətbiq edilməməsi ilə əlaqədardır.

Üçüncüsü, borc kapitalının qiyməti və əlçatarlığı. Yüksək istehsal xərcləri və böyük tikinti vaxtı səbəbindən, yaşayış üçün daşınmaz əmlak obyektlərinin tikilməsi üçün tez-tez borc kapitalı cəlb olunur. 2014-cü ildə Azərbaycan Mərkəzi Bankının məlumatına görə, Azərbaycanın kredit təşkilatları tərəfindən inşaat və əmlak üzrə hüquqi şəxslərə və fərdi sahibkarlara 2362 milyon manat məbləğində kreditlər verilmişdir ki, bu da 2005-ci illə müqayisədə 3 dəfədən çoxdur. Tikinti işlərinin maliyyələşdirilməsində borc kapitalının payının artırılması kapitalın orta çəki qiymətinin artmasına gətirib çıxarır (məlum olduğu kimi, xüsusi kapitalın qiyməti depozit üzrə faizlə və borc kapitalının qiyməti isə kredit üzrə faizlə müəyyən edilir). Maliyyə resurslarının cəlb edilməsi nəzərə alınmaqla, əsas və dövriyyə kapitalı xərclərinin müəyyən edilməsi firmanın tam, yəni iqtisadi xərclərini müəyyən etməyə imkan verir. Borc kapitalının qiyməti yalnız təklif olunan mənzillərin qiymətinə deyil, həm də tikinti sənayesində optimal şəbəkə proqramlarının hazırlanması imkanına (bir neçə obyektlərin paralel tikintisi) və əldə edilən ehtiyatların və həyata keçirilən işlərin keyfiyyətinə təsir edir.

Dördüncüsü, əməyin qiyməti. Bu ilk növbədə, tikinti sektorunda əmək bazarının müxtəlif seqmentlərində rəqabətin dərəcəsindən, eləcə də miqrant işçilərin əmək bazarlarına daxil olmaq azadlığından asılıdır. Miqrant işçilərin əməyi tikintini ucuzlaşdırır.

Beşincisi, mənzil tikintisi üçün torpağın qiyməti və əlçatarlığı. Belə ki, heç də hər torpaq sahəsi bu məqsədlə istifadə edilə bilməz: istifadəyə icazə verilmiş sahənin kateqoriya və növünü nəzərə almaq lazımdır.

2. Yeni (daha səmərəli) texnologiyalar. Yeni texnologiyalar yaşayış təyinatlı mənzil bazarında əmtəə vahidinin istehsal xərclərini əhəmiyyətli dərəcədə azaltmağa, tikinti vaxtını ixtisar etməyə, daha geniş əhali təbəqələri üçün mənzilin əlçatarlığını artırmağa imkan verir. Belə ki, azmərtəbəli ev tikintisi bazarında, sendviç paneli, beton paneli kimi tikinti texnologiyalarının meydana çıxması şəhərətrafı evlərin və bağ evlərinin təklifinin kəskin artmasına səbəb olmuşdur.

Bu gün satılan daşınmaz əmlak mülkiyyəti haqqında məlumatları evi tərk etmədən əldə etmək olar. Müasir İnternet portalları eyni vaxtda istifadəçilərin beş kateqoriyasının informasiya tələbatını təmin etməlidirlər:

• daşınmaz əmlak mütəxəssislərini,
• daşınmaz əmlakın potensial alıcılarını,
• müxtəlif xidmətlər üzrə agentliyin potensial müştərilərini,
• biznes rəhbərlərini və mülkiyyətçilərini,
• daşınmaz əmlak sferasında proseslərlə, xəbərlərlə, tendensiyalarla və perspektivlərlə maraqlanan oxucuları.

Beləliklə, daşınmaz əmlak bazarında təkliflərin əlçatarlığı və məlumatlılığı meydana çıxdı; Satıcı bazarının əvəzinə alıcı bazarı gəldi, agentliklər daha fəal surətdə bir-biri ilə müştərilər uğrunda rəqabət aparmağa başladılar.

3. Satıcılara vergilər və dotasiyalar (subsidiyalar). İqtisadi nəzəriyyədən məlum olduğu kimi, dolayı vergilər əlavə xərclər kimi nəzərdən keçirilir və təklif qiyməti artırılır, təklifin özü isə bu zaman aşağı düşür. Birbaşa vergilərə gəldikdə, onların təklif qiymətinə təsiri dolayı sayılır. Bu

şərtlər ilkin daşınmaz əmlak bazarında həm istehsalçılar (sifarişçilər, inşaatçılar) üçün, həm də satıcılar (vasitəçilər, rieltorlar) üçün ədalətlidir.

4. İstehsal ilə bağlı malların qiymətləri. Bu və ya digər məhsulun təklif qiymətinə istehsalı ilə bağlı malların qiymətləri təsir göstərir. Belə məhsulların iki qrupunu nəzərdən keçirək:

A) İstehsalda rəqabət aparan əmtəələrin qiymətləri. Eyni istehsal sahəsi, gücü və digər resurslar üçün istifadə edilən məhsullar rəqabət aparan məhsullar sayılırlar. Belə ki, eyni bir torpaq sahəsində mənzil tikintisi obyekti kimi, kommersiya və ya sənaye təyinatlı daşınmaz əmlak obyektləri və yaxud da xüsusi təyinatlı obyekt inşa edilə bilər. Aydındır ki, bu rayonda satılan və ya icarəyə verilmiş ticarət sahələrinə və anbarlarına qiymətlərin artması mənzil tikintisinin azaldılması hesabına kommersiya təyinatlı daşınmaz əmlak tikintisi həcmlərinin artmasına səbəb olacaq və ya əksinə.

B) İstehsalda bir-birilə bağlı malların qiymətləri. Məsələn, eyni bina daxilində yerləşən mənzil və kommersiya və ya ofis sahələri bir-birilə bağlı mallar sayıla bilər. Mənzil qiymətlərində artım onun təkliflərinin artmasına, eləcə də evlərin birinci mərtəbələrində yerləşən ticarət-ofis təklifinin artmasına gətirib çıxarır. Bura binanın yeraltı struktur hissəsində yerləşən dayanacaq yeri də daxil edilə bilər.

5. Həmin malların (xidmətlərin) satıcılarının sayı. Burada aşağıdakıları aydınlaşdırmaq lazımdır: ilkin mənzil bazarında ya müstəqil hərəkət edən və ya daha tez-tez vasitəçilər vasitəsilə daşınmaz əmlak satan inşaatçılar satıcılar kimi çıxış edirlər; təkrar mənzil bazarlarında satıcılar kimi daha çox vasitəçi kimi hərəkət edən ev təsərrüfatları çıxış edirlər. Tikinti normaları və qaydalarının, eləcə də lisenziya və sertifikatlaşdırma tələblərinin sərtləşdirilməsi ilkin daşınmaz əmlak bazarında satıcıların sayını azalda bilər. Eyni zamanda, son illərdə, inzibati maneələrin azaldılmasına yönəldilmiş dövlət siyasəti qohum sahələrdən, xüsusilə də sənaye obyektlərinin tikintisi ilə məşğul olan firmaların mənzil tikintisi sahəsinə nüfuz etməsinə səbəb olacaqdır.

6. Təklifin xarici şokları. Belə şokun rolunu sektor böhranları, eləcə də tikinti sənayesinin və onu resurslarla təmin edən təchizatçıların maliyyə vəziyyətinə təsir edən makroiqtisadi böhranlar oynaya bilər.

Mənzil təklifi qısamüddətli dövrdə aşağı qiymət elastikliyi ilə, uzunmüddətli perspektivdə isə yüksək qiymət elastikliyilə xarakterizə olunur. Qısamüddətli dövrdə aşağı elastiklik tikintiyə buraxılışın prosedur çoxluğunun mövcudluğu və sahəvi istehsal dövrünün müddətliliyi ilə izah olunur. Uzunmüddətli dövrdə daha yüksək elastiklik yeni texnologiyalar hazırlayan və yeni materiallar təqdim edən yeni şirkətlərin bazar nüfuzu ilə izah olunur. Bu, əsasən ilkin mənzil bazarına aiddir.

İndi isə yaşayış təyinatlı daşınmaz əmlak bazarının müxtəlif seqmentləri üçün bazar tarazlığını və onun yaradılmasının xüsusi mexanizmlərini araşdırmağa çalışaq.

Yaşayış təyinatlı daşınmaz əmlak bazarının müxtəlif seqmentləri üçün bazar tarazlığı və onun yaradılması mexanizmləri

Mənzil və daşınmaz əmlak bazarının təşkili və inkşafi ilə bağlı zəruri mexanizmlər, əsasən də ölkə təcrübəsi də nəzərə alınmaqla tədqiq edilməlidir.

Yaşayış təyinatlı daşınmaz əmlak bazarında bazar tarazlığı dedikdə, bazarda tələb həcminin təklif həcminə bərabər ($Q_d = Q_s$) və tələb qiymətinin isə təklif qiymətinə bərabər ($P_d = P_s$) olan vəziyyət başa düşülür.

Şəkil 1.1-də qısa və uzun müddətli dövrlərdə tikinti sahəsinə giriş üçün maneələrin olmaması və ya mövcudluğu zamanı tələbin artmasına təklifin reaksiyası verilmişdir.



a) giriş maneələrin olmaması b) giriş üçün maneələrin mövcudluğu

Şəkil 1.1. Daşınmaz əmlak bazarında tələbin artmasına təklifin reaksiyası.

P - yaşayış təyinatlı daşınmaz əmlakın bir kvadrat metrinin orta qiyməti;
Q - yaşayış təyinatlı daşınmaz əmlakın kvadrat metrlərinin miqdarı;
D_1 - ilkin tələb əyrisi;
D_2 - yeni tələb əyrisi;
S_1 - ilkin təklif əyrisi ;
S_2 - yeni təklif əyrisi;
E_{s1} - qısamüddətli dövrdə ilkin tarazlıq;
E_{s2} - qısamüddətli dövrdə yeni tarazlıq;
E_{L2} - uzunmüddətli perspektivdə yeni tarazlıq.

Ümumiyyətlə, daşınmaz əmlaka qiymət üzrə tələb elastikidir, təklif qiyməti isə qeyri-elastikidir. Qısa müddətli dövrdə tələb əyrisinin D_1 vəziyyətindən D_2 vəziyyətinə hərəkəti zamanı S_1 təklif əyrisi öz mailliyini dəyişdirməyəcək, tarazlıq isə müvafiq olaraq E_{s1} nöqtəsindən E_{s2} nöqtəsinə yönələcək. Nəticədə, qısamüddətli dövrdə ya qiymət artacaq, ya da qıtlıq müşahidə olunacaqdır.

Uzunmüddətli dövrdə tələbin bu dəyişməsi satıcıların sayını artıracaq: qonşu bazarlardan yaşayış təyinatlı daşınmaz əmlak bazarına tikinti şirkətləri nüfuz etməyə başlayacaqdır, çünki bunu onlar daha sərfəli hesab edəcəklər. Bazar təklifi artacaq və daha çox elastiki olacaqdır. Nəticədə tarazlıq qiyməti azalacaq, satış həcmi isə artacaqdır (qısamüddətli dövr ilə müqayisədə). Əgər ilkin yaşayış təyinatlı daşınmaz əmlak bazarında giriş üçün aşağı maneələr varsa (Şəkil 1a), təklif yüksək giriş maneələri vəziyyətinə (Şəkil 1b) nisbətən daha böyük dərəcədə artacaq. Birinci halda əsasən satış həcmlərinin artımı, ikinci halda isə, hər şeydən əvvəl, qiymət artımı müşahidə olunacaqdır (ilkin vəziyyətlə müqayisədə). Yuxarıda verilən şəkillər təkmil rəqabəti xarakterizə edir. Əslində, ilkin yaşayış təyinatlı daşınmaz əmlak bazarı çox vaxt oliqopoliya tipinə, təkrar yaşayış təyinatlı daşınmaz əmlak bazarı isə inhisar rəqabət tipinə aid olunur.

Nəticə

Mənzillərin qiymətlərinin aşağı salınması üçün ən münasib yollardan biri sosial mənzil fondunun formalaşdırılmasıdır. Bu zaman dövlət artıq bazarda təklifçi kimi çıxış edir ki, bu da tələbin bir hissəsinin sözügedən fond tərəfindən qarşılanmasına və nəticədə qiymətlərin tənzimlənməsinə imkan verir. Hələlik, dövlət bazarında təklif deyil, tələb formalaşır. Evlərinin sökülməsinə görə kompensasiya alan vətəndaşlar həmin vəsaiti əmlak bazarına çıxararaq tələbi artırırlar.

İpoteka kreditləri verən banklar tərəfindən uzunmüddətli kredit resurslarının cəlb edilməsinin aşağıdakı modelləri mümkündür.

1. Girov ilə təmin edilmiş ipoteka istiqrazlarının banklar tərəfindən buraxılışı və maliyyə bazarında onların reallaşdırılması.

2. İpoteka kreditlərinin təkrar bazarında bu bazarın operatorları vasitəsilə bankların yenidən maliyyələşdirilməsinin təşkili.

3. İpoteka kreditlərinin girovu altında ipoteka istiqrazlarının buraxılış mexanizmi vasitəsilə bankların yenidən maliyyələşdirilməsi.

4. Müvafiq girov kağızının tərtibi ilə mənzil girovu altında bank tərəfindən hüquqi və ya fiziki şəxslərlə kredit müqavilələrinin bağlanması.

Azərbaycanda mənzil probleminin həlli üç müxtəlif, lakin qarşılıqlı əlaqədar mənzil maliyyələşmə sistemləri sayəsində həyata keçirilməlidir:

1. Maliyyələşdirmənin bazar prinsiplərinə əsaslanan ipoteka mənzil kreditləşməsi sistemi;

2. Aşağı və orta gəlirli ailələr tərəfindən mənzil alınmasının subsidiyalaşdırılması üzrə ümumrespublika, regional və bələdiyyə proqramları sistemi;

3. Uşaq evləri, yataqxanalar, qocalar evi, aşağı rahatlıq evləri və s. daxil olmaqla, yoxsul insanlar üçün sosial mənzil sistemi.

Yaxın və ortamüddətli perspektivdə dövlətin iqtisadi və sosial siyasətinə uyğun olaraq mənzil sektorunda islahatların davam etdirilməsi məqsədəuyğun sayılır. Dövlət mənzil fondunun özəlləşdirilməsinin başa çatdırılması sürətləndirilməli, dövlət və bələdiyyə mənzil fondunun inkişaf etdirilməsi məqsədilə müvafiq tədbirlər görülməlidir. Çoxmərtəbəli binaların idarə edilməsinin təşkil olunması məqsədi ilə Mənzil Məcəlləsində müəyyən olunmuş idarəetmə üsullarının tətbiq edilməsi ilə bağlı tədbirlərin görülməsinə, eləcə də mənzil-kommunal təsərrüfatı sahəsində islahatların dəstəklənməsi mexanizmlərinin müəyyən edilməsinə ehtiyac vardır.

ƏDƏBİYYAT

1. Стерник Г.М., Стерник С.Г. Типология рынков недвижимости по склонности к образованию ценовых пузырей // Имущественные отношения в Российской Федерации. - М.: Международная Академия оценки и консалтинга, 2009. - №8. - С. 31-53.
2. Малкина М.Ю., Щулепникова Е.А. Неоклассический и неоинституциональный анализ рынка жилой недвижимости Российской Федерации // Journal of Institutional Studies (Журнал институциональных исследований). Том 4, №3 - 2012. - С. 22-32.
3. Трофимова Е. Рынку жилья кризис нипочем / Е. Электронный ресурс]: Ежедневная электронная газета Утро.ру, http://www.utro.ru - 12.08.2011.
4. Azərbaycan Respublikasının Mərkəzi Bankı. Statistik bülleten. №02 (168), 02/ 2015.
5. Информационные технологии и недвижимость: объединяем материальное с виртуальным. [Электронный ресурс]: Центр коммерческой недвижимости, 24.06.2009. - http://www.c-nn.ru/news/26/
6. Малкина М.Ю., Щулепникова Е.А. Особенности формирования спроса, предложения и равновесия на рынке жилой недвижимости в России // Экономический анализ: теория и практика. - 2013. - № 16 (319).- С. 2- 14.

Ирада Вагиф кызы Абдуллаева
Сотрудник АГЭУ

Научно-теорические основы формирования спроса и предложения на жилищном рынке

Резюме

В данной статье рассмотрены особенности формирования спроса на жилищном рынке, исследованы факторы влиящие на эластичность спроса по цене, интерпретированы особенности формирования предложения на жилищном рынке.

Определено рыночное равновесие для различных сегментов рынка жилой недвижимости и особый механизм ее создания.

Рассмотрено прямое и косвенное воздействие на развитие и изучение механизмов методов оптимального использования и формирования цен на жилую недвижимость в условиях рыночной экономики (для преодоления текущих социально-экономических проблем), а также рассморены социально-экономические проблемы формирования цен на рынке недвижимости жилищного назначения.

Ключевые слова: недвижимость, жилищный рынок, ипотечный кредит,субсидии, спрос, эластичность спроса, детерминанты спроса, предложение, эластичность предложения.

İrade Vaqif Abdullayeva
employee of ASEU

Scientific-theoretical bases on formation of demand and supply in the housing market

Summary

The author reviews the features of the demand formation in the housing market, examines the factors affecting the price elasticity of demand, especially interpreted the formation of proposals on the housing market.

The market equilibrium is uncovered for the different segments of the real estate market and the special mechanism of its creation.

The direct and indirect impact on the development, study of the mechanism and methods for optimal use of pricing for residential real estate in Azerbaijan in a market economy is researched according to overcoming the current economic and social problems.

Key words: real estate, housing market, mortgage subsidies, demand, elasticity of demand, the determinants of the demand, supply, elasticity of supply.

UOT 338.48

Samirə Rasim qızı RÜSTƏMOVA
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

TURİZM XİDMƏTLƏRİ BAZARININ FƏALİYYƏT MEXANİZMİNİN ELMİ-NƏZƏRİ ƏSASLARI

Xülasə

Məqalədə əvvəlcə turizm xidmətləri bazarının mahiyyəti və funksiyaları açıqlanmış, turizm bazarının fəaliyyət mexanizminin strukturu, formalaşması xüsusiyyətləri və amilləri şərh olunmuşdur.Turizm bazarının təsnifatı və fərqli cəhətləri verilmiş, turizm xidmətləri bazarına təsir edən amillər tədqiq edilmişdir. Burada həmçinin turizm xidmətləri bazarına struktur yanaşma ilə bağlı fikirlərə aydınlıq gətirilmişdir.

Açar sözlər: turizm xidmətləri bazarı, turizm bazarının fəaliyyət mexanizmi, turizm xidmətinə tələb, turizm xidmətinin təklifi, turizm tələbi və təklifinin mövsümiliyi, struktur yanaşma.

Giriş

Turizm öz perspektiv əhəmiyyətinə görə qeyri-neft sahələri arasında aparıcı mövqelərdən birini tutur. O, dünya miqyasında sürətlə inkişaf edən biznes sahələrindən biridir. Ümumi milli məhsulun 10 faizi, ixracatın 8 faizi beynəlxalq turizmin payına düşür, göstərilən xidmətlərin təqribən 30 faizi beynəlxalq turizm vasitəsilə həyata keçirilir. Dünya üzrə əməkqabiliyyətli əhalinin 8 faizindən çoxu turizm sənayesində və onunla bağlı sahələrdə çalışır.

Qiymətli mədəni-tarixi dəyərə və əlverişli təbii şəraitə malik olan Azərbaycan turizm sahəsində böyük inkişaf perspektivlərinə malikdir. Məhz bu aspektdən yanaşdıqda, görünür ki, ölkəmizdə 2002-2005-ci illərdə və 2010-2014-cü illərdə turizmin inkişafına dair dövlət proqramlarının həyata keçirilməsi nəticəsində turizmin inkişafı üçün münbit şərait yaradılmış, beynəlxalq turizm bazarına inteqrasiyanın əsası qoyulmuş, milli turizm kompleksinin rəqabətqabliyyətliliyi əhəmiyyətli dərəcədə artmışdır. Bunun nəticəsi olaraq ölkəyə gələn turistlərin sayı ilbəil çoxalır, ölkədə fəaliyyət göstərən turizm şirkətləri şəbəkəsi genişlənir. Hazırda respublikada 272 turizm müəssisəsi, 306 hüquqi və fiziki şəxs mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyətinə dair lisenziya əsasında fəaliyyət göstərirlər. Təkcə 2014-ci il ərzində 62 hüquqi və fiziki şəxsə turizm fəaliyyəti, 74 hüquqi və fiziki şəxsə isə mehmanxana və mehmanxana tipli obyektlərin fəaliyyəti ilə məşğul olmaq üçün lisenziya verilmişdir. [1, s. 202]

Turizmin inkişafı Azərbaycan iqtisadiyyatının perspektiv inkişafının prioritet istiqamətlərindən biri hesab edilir. Qarşıda duran strateji istiqamət Azərbaycanda müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsindən ibarətdir. Belə bir istiqamətə nail olunması üçün turizm sahəsində qabaqcıl beynəlxalq təcrübədən istifadə edilməklə turizm xidmətləri bazarında mükəmməl fəaliyyət mexanizminin yaradılması və bununla da dünya turizm xidmətləri bazarında ölkə turizminin rəqabət qabiliyyətinin artırılması zəruridir.

Turizm xidmətləri bazarının mahiyyəti və funksiyaları

Məlumdur ki, turizm dünya təsərrüfat kompleksinin aparıcı sahələri sırasına daxildir. İqtisadi göstəricilərinə görə o, Azərbaycan iqtisadiyyatında, neft emalı sənayesindən sonra ikinci, iş yerlərinin sayına görə isə birinci yeri tutur. [2, s.13] İqtisadi ədəbiyyatda turizmin aşağıdakı konseptual təriflərinə rast gəlinir. [3, s. 265-269]:

- turizm-insanların müxtəlif turist marşrutları üzrə yerdəyişməsi prosesi və nəticəsidir;
- turizm-yaşayış yerinə səyahət və ora qayıtmaqdır;
- turizm-turistin daimi yaşayış ölkəsindən çıxıb getməsidir;

• turizm-turistin bir neçə dündən, həftə və ya aylardan sonra daimi yaşayış yerinə qayıtmasıdır.

Turizm - turist xidmətləri istehlakçılarının mövcud maliyyə və müvəqqəti resurslardan asılı olan fəaliyyət növü kimi çıxış edir. O, hər şeydən əvvəl iqtisadi məfhumdur, çünki turistlərə xidmətlərin satışı və bundan gəlirlərin alınması ilə, həmçinin iş yerlərinin yaradılması ilə bağlıdır. [4, s. 3]

Turizm xidmətləri, digər xidmət sferası müəssisələrinin fəaliyyət nəticəsi kimi ticarətin predmeti sayılır, turizm məhsulunun istehsalçıları, satıcıları və alıcıları öz aralarında turizm xidmətləri bazarında görüşürlər.

Turizm bazarı xidmətlər bazarıdır. Belə ki, xidmətlər əsas tədavül predmeti kimi çıxış edir və inkişaf etmiş turizm bazarlarında bütün satış həcminin 80 faizini təşkil edir. Satış və istehlak bazarlarında turizm məhsulları və xidmətləri istehsalçılarının rəqabət mühiti formalaşır. Belə ki, bazar payının 10 faiz itirilməsi, mənfəət normasının 5-6 faiz aşağı düşməsinə səbəb olur. İstehlakçı uğrunda mübarizədə rəqibin qiymətləndirilməməsi hətta iri şirkətləri xeyli itkilərə və böhranlara gətirib çıxarır. [5, s.37]

Rus alimləri O.İ.Kapustinanın, N.İ.Voroxun və Q.A.Smirnovanın birgə yazdıqları monoqrafiyada turizm bazarı turizm xidmətlərinin alıcı (tələb göstərənlər) və satıcılarını (təchizatçılarını) bir yerə yığan institut və mexanizm kimi təqdim olunur. [6, s.12] Adi əmtəə bazarlarından fərqli olaraq turizm bazarı əmtəələrin satıcılardan alıcılara hərəkətini özündə ehtiva etmir. Əksinə, alıcıların özləri ehtiyatda saxlanmış xidmətləri almaqdan ötrü təyinat yerlərinə yerdəyişmə edirlər. Turizm bazarının mahiyyəti özünü onun aşağıdakı funksiyalarında ifadə edir: [7]

- Turizm məhsulunda ifadə olunan dəyər və istehlak dəyərinin reallaşdırılması;
- Turizm məhsulunun istehlakçıya (turistə) qədər çatdırılması prosesinin təşkili;
- Əməyə maddi stimulların iqtisadi təminatı.

Beləliklə, turizm xidmətləri bazarı (turizm bazarı) turizm resursları əsasında yaradılan turizm məhsullarının və pulların hərəkəti səbəbindən alıcılar (turistlər) və satıcılar (turoperatorlar və turagentlər) arasında meydana çıxan konkret iqtisadi münasibətlərin və əlaqələrin məcmusudur. Başqa sözlə, turizm xidmətləri bazarı - əhalinin istirahəti, asudə vaxtını əyləncəli keçirməsi və ya sağlamlığı ilə bağlı xidmətlərə olan ehtiyaclarının ödənilməsi sahəsi kimi çıxış edir.

Turizm bazarının fəaliyyət mexanizminin formalaşması xüsusiyyətləri və amilləri

İqtisadi ədəbiyyatda qeyd edilir ki, turizm bazarı iqtisadi sistem kimi dörd əsas elementin qarşılıqlı təsiri nəticəsində formalaşır: turizm tələbi, turizm məhsulunun təklifi, qiymətlər və rəqabət [8].

Turizm bazarının əsas elementlərinə aiddir: [9]

1. Subyektlər – turizm məhsulunun təşkilatçıları və satıcıları (turoperatorlar və turagentlər), onların əsas agentləri – turizm xidmətlərinin istehsalçıları (mehmanxanalar, iaşə müəssisələri, nəqliyyat təşkilatları, ekskursiya bürosu və s.) və turizm xidmətlərinin istehlakçıları;
2. Obyektlər – turizm müəssisələri, ödəniş vasitələri;
3. Münasibətlər – mübadilə, tərəfdaşlıq, rəqabət və s.;
4. Mühit – iqtisadi, siyasi-hüquqi, sosial-mədəni.

Bizim fikrimizcə, turizm bazarının əsas tərkib elementləri sırasına turizm tələbini, turizm təklifini və turizm məhsulunu daxil etmək daha düzgün olardı. Başqa sözlə, turizm bazarının fəaliyyət mexanizmi tələb və təklifin tarazlaşması sisteminə təsir edir, turizm məhsulu, pul axını və turist axını arasında əlaqəni formalaşdırır. Bu isə o deməkdir ki, turizm bazarının fəaliyyət mexanizminə 2 əsas blokun qarşılıqlı təsiri baxımından yanaşmaq lazımdır:

1.Turizm xidmətinə tələb. Bu tələbi formalaşdıran turistləri 3 qrupda birləşdirmək olar: tələbatı və arzusu olan turistlər; yüksək alıcılıq qabiliyyəti olan turistlər; alıcılıq davranışı olan turistlər.

2.Turizm xidmətinin təklifi. Bu təklifi alıcılara təqdim edənləri isə aşağıdakı 3 qrupda birləşdirmək olar: turoperatorlar firması; turagent firması; turizm sənayesi.

Turizm tələbi - səyahətdə istehlakçıların miqdar ifadəsində pulla təmin olunmuş və bazarda təqdim edilmiş tələbatıdır. Turizm tələbinin ölçüsü xeyli dərəcədə istehlakçıların gəlirlərinin və təhsilinin səviyyəsindən asılıdır. Təhsilin yüksək səviyyəsi müxtəlif insanların digər ölkələr və xalqlar haqqında bilgilərə, təmas sferalarında dünyanın bütün regionları ilə daimi əlaqənin qurulmasına və inkişafına cəhdi artırır.

Rus alimləri V.Q.Qulyayev və N.S.Frolovun fikrincə, tələb həm obyektiv və subyektiv, həm də ümumi və spesifik amillərin təsiri altında formalaşır. [10] Onlar tələbin obyektiv amillərinə əhalinin gəlirlərini, əhalinin demoqrafik strukturunu, siyasi vəziyyəti, ekoloji şəraiti, sosial-mədəni sferanı aid edirlər. Subyektiv amillərə isə istehlakçıların psixolji xüsusiyyətlərini və vərdişlərini, milli ənənələri, moda və nüfuzu, səyahətin motivlərini və s. daxil edirlər. Turizm bazarının həcmini müəyyən edən ümumi amillərə əhalinin alıcılıq qabiliyyəti, onun demoqrafik strukturu və sosial-mədəni xarakteristikası; spesifik amillərə isə turizm xidmətlərinin təklif nomenklaturası və qiyməti, səyahətin əlçatarlığı, turizm məhsulunun hərəkəti üzrə tədbirlər, eləcə də istehsalçının imici daxildir.

Qeyd etmək lazımdır ki, turizm xidmətləri bazarı əhalinin bir sıra obyektiv və subyektiv amillərin təsiri altında formalaşan ödəməqabiliyyətli tələbi ödəmək üçün fəaliyyət göstərir.

Turizmə olan tələbin inkişafının obyektiv şərtləri kimi iqtisadi şəraiti, sosial-mədəni mühiti, psixoloji şərtləri, urbanizmin dərəcəsini, siyasi mühiti, ekoloji vəziyyəti qeyd etmək olar. Subyektiv amillərə isə dini-etnik mənsubiyyət, yaş və cinsi mənsubiyyət, ailə vəziyyəti və uşaqların sayı, sosial mənsubiyyət, yaşayış yeri, həyat tərzi və şəraiti, peşə və ixtisas, asudə vaxtın mövcudluğu, dəb, bazarın konyunkturu aiddir. Beləliklə, turizm məhsuluna olan tələb əhalinin müəyyən həyat tərzi və spesifik səviyyəsi şəraitində yaranır və o, ərazinin resurs şəraiti ilə şərtlənən dəyişikliklərdən asılıdır.

Turizm xidmətləri bazarında təklif - istehsalçıların müəyyən qiymətə satmağa hazır olduqları turizm təyinatlı dəyərlərin, xidmətlərin və məhsulların məcmusudur. Başqa sözlə, turizm təklifi - satış üçün nəzərdə tutulmuş və müəyyən dövr ərzində müəyyən qiymət üzrə istehlakçılara təklif olunan turların (xidmətlərin) istiqamətləri (səfər regionları) və həcmidir.

Turizm bazarının xarakteristikası zamanı aşağıdakı halları nəzərə almaq lazımdır. [11, s. 37-38]:

- əsas alqı-satqı predmeti xidmətlər sayılır;
- alıcı və satıcıdan başqa turizm bazarının mexanizminə tələb və təklifin qarşılıqlı təsirini təmin edən vasitəçi həlqələrin əhəmiyyətli sayı daxil edilir;
- turizm xidmətlərinə tələb bir sıra xüsusiyyətləri: maddi imkanlarına, yaşına, məqsədlərinə və motivlərinə görə səfər iştirakçılarının böyük müxtəlifliyi; elastikliyi; fərdiliyi və diferensiallaşmanın yüksək dərəcəsi; əvəzedilənliyi; turizm təklifindən zaman və məkana görə uzaqlığı ilə fərqlənir.
- turizm təklifi bir sıra fərqləri: turizmdə əmtəə və xidmətlər üçtərəfli xarakterə malikdir (təbii resurslar, insan tərəfindən yaradılan resurslar; turizm xidmətləri); turizm sənayesinin yüksək fondtutumluluğu; aşağı elastikliyi, komplektlilyi ilə xarakterizə olunur.

Rus mütəxəssisləri V.İ.Azar və S.Y.Tumanovun fikrincə, turizm bazarının əsas xidmətləri üçün substitusiyanın (qarşılıqlı əvəzedilənliyin) və komplementarlığın (qarşılıqlı uyğunluğun) təsiri xarakterikdir. [12]

Turizm bazarının təsnifatı və fərqli cəhətləri

Mövcud turizm xidmətləri bazarını aşağıdakı əlamətlər üzrə təsnifləşdirmək olar:

1. Turizm məhsulunun partiyasından asılı olaraq: topdansatış, pərakəndə satış;
2. Turistlərin sayından asılı olaraq: kütləvi, populyar, fərdi;
3. Miqyasından asılı olaraq: dünya, milli, lokal (regional);

4. Turist axını istiqamətindən asılı olaraq: səfərdən gəlmə, səfərə getmə.

Satışa çıxarılan turizm məhsulunun partiyasının ölçüsündən asılı olaraq bazar topdansatış və pərakəndə satış bazarlarına bölünür. Topdansatış bazarında gələcəkdə yenidən satışı məqsədilə turizm məhsulu iri partiyalarla satılır və alınır. Bu bazarda hüquqi şəxslər fəaliyyət göstərirlər. Pərakəndə satış bazarında isə həmin xidmətlər fərdi alıcılara onların şəxsi tələbatının ödənilməsi üçün satılır. Bir turizm məhsulunun alıcılarının sayından asılı olaraq turizm bazarlarının üç növü mövcuddur:

- Kütləvi. Burada turistlər tur proqramı ilə nəzərdə tutulan və tamamilə qabaqcadan nəzərdə tutulan və tamamilə qabaqcadan ödənilən xidmət və əyləncələrin standart dəsti ilə kifayətlənirlər. Satışa təklif edilən turların əsas kütləsini paket turları təşkil edir.
- Populyar. Burada turistlərin çox da böyük olmayan sayı kiçik qrupların tərkibində daha bahalı turlar üzrə səyahər edirlər. Burada servisin daha yüksək səviyyəsi, bahalı mehmanxanalarda yerləşdirmə, eləcə də səyahət dövründə turistlərin ödədiyi bir sıra əlavə xidmətlər nəzərdə tutulur. Bu turlar daha bahalı olsalar da, daha böyük seçim azadlığı təklif edir.
- Fərdi. Burada turistlər təklikdə səyahət edirlər, öz marşrutunu müstəqil planlaşdırır, nəqliyyat xidmətlərinə və mehmanxanalarda yerləşməsinə bütün zəruri sifarişlərini yerinə yetirir.

Miqyasına görə turizm bazarları dünya, milli və lokal olaraq fərqlənir. Dünya bazarı – dünyanın bütün ölkələrini əhatə edir; milli - ayrılıqda götürülmüş ölkənin turizm bazarıdır; lokal (regional) - ayrıca bir regionun turizm xidmətləri bazarıdır. Müasir iqtisadi sistem bu bazarların birgə mövcudluğu ilə xarakterizə edilir, çünki onlar bir-biri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərirlər. Qlobal, milli və regional turizm xidmətləri bazarlarının birgə fəaliyyəti onların mövcud vəziyyətinin və inkişafının təhlilinin aparılmasına təsir göstərir. Belə ki, turizm məhsulunun istehsalçıları regional bazara çıxarkən qlobal və milli turizm xidmətləri bazarlarının vəziyyətini və inkişaf meyillərini nəzərə almalıdırlar.

Turizm xidmətinin istiqamətindən asılı olaraq bazarı səfərə getmə və səfərdən gəlmə bazarlarına ayırmaq olar.

Turizm xidmətləri bazarının fərqli cəhətləri aşağıdakılardan ibarətdir:

1. Bazarda satılan əmtəənin keyfiyyətinin duyulmazlığı, qorunmazlığı, qeyri-daimiliyi.
2. Turist tərəfindən tura hüququn əldə edilməsi və turizm xidmətlərinin birbaşa istehlakı arasında vaxta görə uyğunsuzluq.
3. Təklif olunan turizm xidmətlərinin qiyməti və turist gəlirləri üzrə turizm tələbinin yüksək elastikliyi.
4. Yaşından, gəlirin, təhsilin səviyyəsindən, turist üstünlükverməsindən asılı olaraq turizm xidmətləri istehlakçılarının yüksək diferensiasiyası.
5. Səfərə getmə və səfərdən gəlmə kimi turizm bazarlarına xas olan mövsümilik.
6. Turizm təklifinin aşağı və cansız mövsümlərə qeyri-çevikliyi.
7. Turizm xidmətlərinin istehsalçıları arasında yüksək rəqabət və bununla şərtlənən təklif olunmuş turizm məhsulunun yüksək əvəzedilənliyi.

Turizm bazarında effektiv fəaliyyətin həyata keçirilməsi üçün turizm xidmətləri istehsalçılarının və satıcılarının marketinq xidmətləri onun tədqiqini, o cümlədən turizm tələbi və təklifinin təhlilini aparırlar. Bu zaman turizm bazarlarının iqtisadi təhlilində diqqət turizm təklifinin deyil, turizm tələbinin təhlilinə verilməlidir. Bu, ilk növbədə, turizm məhsulunun kompleksliyi və çoxkomponentliyi ilə izah olunur. Çox vaxt bu və ya digər sektorun ümumi həcmində xidmət sferasının, məhz turizmə düşən payı ayırmaq, demək olar ki, mümkün deyil. Bununla yanaşı, çox hallarda bir turizm məhsulunun müxtəlif tərkib hissələri təkcə müxtəlif sahələrə deyil, həm də müxtəlif ölkələrin qeydiyyatında olan (beynəlxalq turizm halında) müəssisələr tərəfindən istehsal olunur ki, bu da təhlilin aparılması üçün məlumatların toplanmasını mürəkkəbləşdirir. Bu səbəblər üzündən əksər hallarda turizm təklifinin təhlili onun müxtəlif seqmentləri üzrə: mehmanxana xidmətləri, turoperator xidmətləri, nəqliyyat xidmətləri üzrə aparılır. Aparılan təhlilin

nəticələri ölkə və ya region səviyyəsində turizmin inkişafının strateji planlarının, turizm müəssisəsinin marketinq strategiyasının tərtibi üçün əsas sayılır. Strategiya işlənib hazırlanarkən ölkə və ya regionun turizm potensialının, xüsusilə də turizmin hansı forma və növlərinin həmin ərazi üçün daha perspektivli olmasının tədqiqi mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, səyahətin məqsədindən asılı olaraq, turizm xidmətləri bazarının aşağıdakı növləri fərqləndirilir: yaşıl turizm bazarı; etnik turizm bazarı; işgüzar turizm bazarı; idman turizmi bazarı; dini turizm bazarı; ekstremal turizm bazarı və s.

Turizm bazarı turist mallarının alış - satışını təmin edən, sorğu ilə təklifi tarazlaşdıran ictimai və iqtisadi bir hadisədir. Başqa mal bazarları kimi turizm bazarı da çox müxtəlifdir və onun strukturunda öz miqyasına görə xırda bazarlar da olur. Bununla əlaqədar, turizm bazarı öz əlamətlərinə görə marketinq üçün vacib olan müxtəlif qruplara bölünür:

1. Əhatə etmə ərazisinə görə: daxili turizm bazarı. Bu bazar ölkə daxilində turistlərin bir rayondan başqa rayona olan səyahətləri nəticəsində formalaşır; beynəlxalq turizm bazarı. Bu bazar özü də iki cür olur, ölkəyə gəlmə turizm bazarı və ölkədən xaricə gedən turizm bazarı.

2. Səyahət məqsədinə görə turizm bazarları: rekreasiya, işgüzar, elmi, idman, dərketmə, mədəni, dini, etnik və s.

3. Nəqliyyat formasına görə: piyada, dəmiryolu, aviaturizm, dəniz və çay turizmi, avtoturizm, veloturizm və s.

4. Marketinq fəaliyyətinə görə: məqsədyönlü, məsələn, reklam məqsədi ilə yeni turist marşrutu ilə tanışlıq və s.; gələcəyi olmayan və ya perspektivli turizm bazarı; əsas və ya köməkçi istiqamətli turizm bazarı.

Turizm bazarının bu cür qruplara bölünməsi turizm marketinqinin planlaşdırılması üçün çox vacibdir. Satışın həcmindən narazı qalan firmalar inkişaf perspektivlərini müəyyənləşdirir və xidmət göstərdiyi bazarın seqmentində öz fəaliyyətini genişləndirirlər.

Çünki, bu, bazarın öyrənilməsini asanlaşdırır və onun iş xüsusiyyətlərini təyin edir. Turizm bazarlarında qazanılan müvəffəqiyyətlər məhsulun cazibədarlığından asılıdır.

Turizm xidmətləri bazarına təsir edən amillərin tədqiqi

V.V. Filonenko turizm xidmətləri bazarına təsir edən amilləri stimullaşdırıcı və limitləşdirici amillərə bölür. [13, s.41-42] O, stimullaşdırıcı amillərə demoqrafik, iqtisadi və sosial amilləri, limitləşdirici amillərə qlobal və lokal amilləri aid edir.

Milli turizm bazarı bir sıra daxili və xarici amillərin təsiri altında formalaşır və inkişaf edir.

Daxili amillərə aşağıdakıları aid etmək olar: sosial-iqtisadi inkişafın səviyyəsi; sosial-siyasi vəziyyət; iqtisadiyyatın inkişafının tarixi amilləri; istehsal sahələrinin inkişafı səviyyəsi; nəqliyyatın və nəqliyyat şəbəkəsinin inkişafı səviyyəsi; demoqrafik vəziyyət və əhalinin strukturu; miqrasiya prosesləri; əhalinin həyat şəraiti və həyat səviyyəsi.

Xarici amillərə isə dövlətin iqtisadi və siyasi stabilliyi; dövlətin beynəlxalq təşkilatlarda iştirak etməsi; beynəlxalq əlaqələrin xarakteri aiddir.

Turizm bazarının əsas xüsusiyyətlərindən biri turizm tələbi və təklifinin mövsümiliyi sayılır.

Xarici alimlərin çoxlu sayda əsərləri turizmdə mövsümilik məsələsinin öyrənilməsinə həsr edilmişdir. Çünki bu amil turizm bazarlarının və regionların inkişafına əhəmiyyətli təsir göstərir, onun təsir dərəcəsi isə turizmin idarə edilməsi sahəsində dövlət proqramlarının reallaşdırılmasının köməyi ilə təshih oluna bilər. Turizmdə mövsümilik amilinin birinci tədqiqatçısı ingilis alimi Bar On 1975-ci ildə mövsümiliyi, "hər il və təqribən eyni vaxtda və təxmini bərabər kəmiyyətlərlə meydana çıxan hadisə" kimi müəyyən etmişdir. [14] Kanada alimi R.V.Batler 1994-cü ildə mövsümiliyi "turizm fenomenində müvəqqəti disbalans kimi" xarakterizə edir və bu da müştərilərin sayı, ikitərəfli avtomobil yolu və digər nəqliyyat vasitələrində hərəkət edən müştərilərin xərcləri kimi kəmiyyət ölçülərinin dəyişməsində ifadə oluna bilər. [15, s. 332-339]

Mövsümiliyin əsas səbəblərini aşağıdakı üç qrupda birləşdirmək olar:

- təbii (məsələn, iqlim, günəşli günlərin müddəti, temperaturun səviyyəsi, yağış fəsilləri və ya qış dövrləri);
- institusional (məsələn, dini və milli bayramlar, işgüzar dövriyyənin adətləri, ənənələr);
- təklif tərəfindən məhdudiyyətlərin mövcudluğu (məsələn, ixtisaslı heyətin, yerləşdirmə vasitələrinin, nəqliyyat infrastrukturunun mövcudluğu və ya yoxluğu). [16, s. 299-312]

Bütün bu səbəblər bir-biri ilə sıx surətdə və qarşılıqlı əlaqədardırlar.

Təbii və institusional səbəblər təkcə səfərə gələn turist axınının həcminə, həm də ölkədən səfərə gedən turistlərin sayına təsir göstərə bilər. Məsələn, Azərbaycanda yeni il tətilləri çoxlu sayda azərbaycanlıların daha isti ölkələrə səfərini stimullaşdırır (xarici səfərlərə mövsümi turist tələbi).

Turizmdə mövsümilik həm tələb, həm də təklif tərəfindən müşahidə olunur.

Mövsümiliyin nəticələrini aşağıdakı qruplarda birləşdirmək olar. [17]

- turizm təklifi tərəfindən mövsümi məhdudiyyətlər;
- yerli əhali arasında mövsümi məşğulluq;
- pik fəsillərdə turizm yerlərinin ekoloji yaşına neqativ təsir;
- turizm yerləri üçün sosial-mədəni və infrastruktur nəticələr.

Turizmin mövsümiliyinə təsir edən amillərə təbii-iqlim, iqtisadi, asudə vaxtın mövcudluğu, demoqrafik, psixoloji və texnoloji amillər daxildir. [6, s. 15-16]

Turizm xidmətləri bazarına struktur yanaşması

Turizm xidmətləri bazarı bu xidmətlərin istehlakı xüsusiyyətlərinə uyğun gələn struktura malikdir. Bu bazarın iki əsas struktur komponentini qeyd etmək olar: istehlakçı bazarı - bu bazarda turizm məhsuluna olan tələb formalaşır; istehsalçı bazarı - bu bazarın subyektlərinin fəaliyyəti tələbin yaradılmasına istiqamətlənir.

Hər hansı bir ərazidə turizm müəssisələrinin mövcudluğu turizm xidmətləri bazarının ərazi strukturunun məntəqələrinin formalaşmasını xarakterizə edir. Eynitipli turist firmalarının sayının çoxaldılması regionda tələbin strukturlaşmasına səbəb olur və müştəri bazarının ərazi strukturu mərkəzlərinin formalaşmasına yardım edir. Digər tərəfdən, istehsalçının ərazi fəaliyyəti ekskursiya məntəqələri, turizm mərkəzləri, turist-rekreasiya qovşaqları ilə təqdim oluna bilər. Məsələn, tarixi və mədəni abidələrin mövcudluğu zamanı ekskursiya məntəqələrindən istifadə olunur.

Nəticə

1. Səyahətlərdə istehlakçıya tələbatın ödənilməsi məqsədinə malik olan turizm xidmətləri özündə turizm sənayesi müəssisələrinin və təşkilatlarının fəaliyyətini və turistin turizm istehlakının ödənilməsi üzrə qonaqpərvərlik nəticələrini ehtiva edir. Turizm xidmətlərinin kompleksliyinə və çoxkomponentliyinə baxmayaraq, xidmətlərin əksəriyyəti üçün özünəməxsus əlamətlər səciyyəvidir.

2. Turizm xidmətlər sferasında mühüm yer tutur. Turizm sektoruna böyük və ya kiçik dərəcədə, demək olar ki, xidmət sferasının bütün sektorları daxildir.

3. Turizm bazarları üçün yüksək rəqabət və turizm məhsulunun əvəzedilənliyi səciyyəvidir. Turizm xidmətləri bazarlarının uğurlu inkişafı üçün ərazi potensialı və turizmin inkişafı üçün perspektiv növlərin müəyyən edilməsi nəzərə alınmaqla turizm bazarının inkişaf strategiyasının işlənib hazırlanması və reallaşdırılması vacibdir. Bu onunla şərtlənir ki, turizmin perspektiv forma və növlərinin düzgün müəyyən edilməsi ölkənin və regionların inkişafına təsir etmək qabiliyyətindədir. Səfərə gəlmə və beynəlxalq turizm turizm infrastrukturunun inkişafına, yeni iş yerlərinin yaradılmasına, müştərilərə xidmət keyfiyyətinin yüksəlməsinə kömək edir, inteqrasiya proseslərinə və vahid dünya turizm məkanının formalaşmasına yardım edir, ölkənin ödəniş balansına müsbət təsir göstərir.

4. Müxtəlif ölkələrdə turizm bazarlarının inkişaf səviyyəsi təkcə əlverişli təbii-coğrafi və mədəni-tarixi potensialların mövcudluğu ilə deyil, həm də turizm bazarlarının stimullaşdırıcı və limitləşdirici amilləri ilə şərtlənir. Turizm xidmətləri bazarlarının inkişafında mühüm rol milli və regional turizm xidmətləri bazarlarının strateji inkişaf planlarının işlənib hazırlanması və reallaşdırılması ilə məşğul olan dövlət hakimiyyəti orqanlarına məxsusdur.

5. Təbii və institusional səbəblər təkcə səfərə gələn turist axınının həcminə, həm də ölkədən səfərə gedən turistlərin sayına təsir göstərə bilər. Məsələn, Azərbaycanda yeni il tətilləri çoxlu sayda azərbaycanlıların daha isti ölkələrə səfərini stimullaşdırır (xarici səfərlərə mövsümi turist tələbi).

6. Eynitipli turist firmalarının sayının çoxaldılması regionda tələbin strukturlaşmasına səbəb olur və müştəri bazarının ərazi strukturu mərkəzlərinin formalaşmasına yardım edir. Digər tərəfdən, istehsalçının ərazi fəaliyyəti ekskursiya məntəqələri, turizm mərkəzləri, turist-rekreasiya qovşaqları ilə təqdim oluna bilər.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü ildə fəaliyyəti haqqında hesabat. Bakı, 2015, 455 s.
2. Егоров В.Е. Государственно-правовое регулирование организованного туризма (историко-теоретическое правовое исследование): Монография / В.Е. Егоров. - Псков: Издательство ООО "ЛОГОС Плюс", 2011, 112 с.
3. Зорин И.В., Квартальнов В.А. Энциклопедия туризма: Справочник. - М.: Финансы и статистика, 2004, 368 с.
4. Грачева О.Ю., Маркова Ю.А., Мишина Л.А., Мишунина Ю.В. Организация туристического бизнеса: технология создания турпродукта.
5. Н.П.Горбунов, О.Н.Яценко, И.А.Небога. Конкурентоспособность туристических услуг. Проблемы и способы оценки. Вісник НТУ "ХПІ". 2013. № 53 (1026).
6. Капустина О.И., Ворох Н.И., Смирнова Г.А. Исследование рынка туристских услуг (на ма териалах Смоленской области): монография. - СПб.: Издательство Санкт-Петербургского университета управления и экономики, 2014, 190 с.
7. Азар В.И. Очевидные проблемы развития туризма в России // Труды Академии туризма. 2006. Вып. 3.
8. Блохин Ю. И. Разработка методических основ и создание методики оценки социально-экономической целесообразности развития туризма в РФ и ее регионах // Труды Академии туризма. 2007. Вып. 2.
9. Дуфала В. Инструментарий для формирования стратегии предприятия / В.Дуфала // Менеджмент в России и за рубежом. - 1998, № 1.
10. Гуляев В.Г., Фролов Н.С. Организация и технология предпринимательства в туризме. Подготовка кадров для малого бизнеса. М.: Государственный комитет РФ по поддержке и развитию малого предпринимательства, 2007.
11. Мартышенко Н.С. Формирование стратегии развития туризма в Приморском крае: монография. - Владивосток: Дальнаука, 2009, 214 с.
12. Азар В.И., Туманов С.Ю. Экономика туристского рынка. М.: ИПК госслужбы, 2005.
13. Филоненко В.В. Перспективные направления развития рынка туристических услуг Хабаровская края. Диссертация на соискание ученой степени кандидата экономических наук. Хабаровск-2015, 169 с.
14. Bar On, R.V. (1975). Seasonality in Tourism - A Guide to the Analysis of Seasonality and Trends for Policy Making, London: The Economist Intelligence Unit Ltd., Technical Series №. 2.

15. Butler R.W. (1994). Seasonality in Tourism: issues and problems, in: Seaton A.V. et al (Eds) Tourism: The State of the Art, Chichester: John Wiley and Sons, pp. 332-339.
16. Baum T. & Hagen L. (1999). Responses in seasonality: the experiences of peripheral destinations, International Journal of Tourism Research, 1(5), pp. 299-312.
17. Markus Landvogt Why Combating Seasonality in New Zealand Requires a More Coordinated Multi-layered Approach Including Collaboration with Airlines.

Самира Расим гызы Рустамова
докторант АУК

Научно-теоретические основы механизма функционирования рынка туристических услуг

Резюме

В данной статье раскрыта сущность и функции рынка туристических услуг, интерпретирована структура, особенности формирования и факторы механизма функционирования рынка туристических услуг. Автором дана классификация и показаны различные особенности туристического рынка, исследованы факторы, влияющие на него. В конце определена позиция автора о структурном подходе рынку туристических услуг.

Ключевые слова: рынок туристических услуг, механизм функционирования туристического рынка, спрос на туристические услуги, предложение туристических услуг, сезонность туристического спроса и предложения, структурный подход.

Samira Rasim Rustamova
PhD of ACU

Scientific-theoretical basis of mechanism of functioning of tourism services market

Summary

In the article, the nature and functions of tourism market are explained, structure of mechanism of functioning of tourism market, factors and characteristics of its formation are described. Classification and different aspects are shown; factors affecting tourism market are analyzed. Some ideas concerning structural approach to the tourism market are also discussed.

Key words: market of tourism services, mechanism of functioning of tourism market, demand for tourism services, supply of tourism services, seasonal changes in supply and demand in tourism market, structural approach.

УОТ 334.012

Хадиджа Физули кызы МАМЕДОВА,
докторант Азербайджанского
Технологического Университета

СИСТЕМА ЦЕЛЕЙ И УСЛОВИЙ РАЗВИТИЯ КОНКУРЕНТОСПОСОБНОСТИ НА ПРЕДПРИЯТИЯХ ЛЕГКОЙ ПРОМЫШЛЕННОСТИ

Резюме

Легкая промышленность - старейшая отрасль многоотраслевого производственного комплекса с большим потенциалом и богатыми трудовыми традициями.

Легкая промышленность включает в себя ряд отраслей: текстильную, доля которой в общем объеме производства составляет 48,2%, швейную (30,1%), кожевенную, меховую, обувную (20,9%). В свою очередь, текстильная промышленность включает 9 подотраслей - хлопчатобумажную, льняную, шерстяную, шелковую, нетканых материалов, пенько - джутовую, текстильной галантереи, трикотажную, валяльно - войлочную. [1]

Легкая промышленность входит в комплекс отраслей, производящих как товары народного потребления, как и техническую продукцию.

Ключевые слова: текстиль, швейный, экономика, производительность, организация и управление

Введение

До 2010 г. производства изделий технического назначения, обеспечивающее другие отрасли экономики страны достигало 50% общего обьема производства продукции лёгкой промышленности. Наивысшего объема, проуводства текстильная и легкая промышленность достигали в 2005-2013 гг., когда были реализованы региональные программы социально-экономические развития регионов.

Для сравнения, доля легкой промышленности в общем объеме промышленного производства (в обрабатывающих отраслях) в развивающихся странах составляет: в Бангладеш-42,7%, в Пакистане - 34,7%, в Индонезии - 18,2%, в Турции - 20,2%, в Китае - 13,1%. В развитыхстранах доля легкой промышленности тоже достаточно велико. В Италии его доля составляет 13,3% общего объема производства обрабатывающих отраслей, в Португалии 19,5% и ее объем уступает только машиностроению и металлообработке, в США легкая промышленность составляет 5,1% в общем объеме продукции обрабатывающих отраслей, что больше, чем цветной и черной металлургии вместе взятых. [2]

Все лёгкой предприятия промышленности находятся в 24 районах, в том числе предприятия текстильной промышленности в-19, обувной-в 20, швейной в Баку, Евлах, Геранбое, Акстафе и др. районах.

Таким образом, менее 10 предприятий легкой промышленности фактически определяют ее основной производственный потенциал.

Общее положение текстильной промышленнсти Азербайджана

Продукция легкой и текстильной промышленности идет на удовлетворение потребности наимение в различных тканях: хлопчатобумажных, льняных, шерстяных, шелковых; нетканых материалах, а также швейных, трикотажных, чулочно-носочных, ковровых и меховых изделиях, обуви, головных уборах, текстильной и кожевенной галантереи. Достаточно высок удельный вес продукции производственно-технического и специального назначения.

Технологический цикл текстильной и легкой промышленности связан с использованием продукции сельского хозяйства, химической и машиностроительной отраслей, что в свою очеред способствует их развитию. [3]

Данная отрасль обеспечивает также потребности населения в изделиях и хозяйствующих субъектов в специальной, рабочей одежде и обуви, средствах индивидуальной защиты. Ее устойчивая работа-одна из основ гарантии экономической безопасности страны, так как это обеспечивает наличие отечественного воинского вещевого имущества, продукции для медицины, специальной и рабочей одежды, изделий для детей и пожилых а также, поддерживает функционирование целого ряда других отраслей экономики страны: химической, нефтедобывающей, целлюлозно-бумажной отраслей, транс-порта, связи, экологии.

В структуре товарной продукции Азербайджанской республики доминирующее положение занимает продукция подотраслей текстильной промышленности: хлопчатобумажной, шерстяной, льняной, шелковой, трикотажный, нетканых материалов и других. На их долю приходится до 30% общей стоимости товарной продукции, а доля продукции подотраслей-легкой промышленности - швейной, кожевенно-обувной и меховой составляет лишь 20%.

Согласно СМИ экспорт Китая в 2004г. увеличился по легкой промышленности в ЕС в 5 раз. А импорт - на 20%. Негативные последствия беспошлинного и безналогового импорта сказываются не только на сегодняшних объемах производства но, что еще более важно, лишают отрасль перспективы развития. Из всего вышесказанного ясно что, основной причины спада производства, стала увеличение импорта продукции. 2003 год является вторым после 2001 годом, когда выпуск продукции легкой промышленности сократился (по сравнению с предыдущим годом).

Рассмотрим динамику роста производства в легкой промышленности в период с 2011 по 2014 гг. (в процентах к предыдущему году), представленную на рис. 1.



Рисунок1. Динамика производства текстильной и легкой промышленности в процентах к предыдущему году.

Снижения темпов роста и объема выпуска продукции в ряде отраслей легкой промышленности происходила на фоне роста уровня жизни населения и увеличения покупательского спроса на одежду и обувь на внутреннем рынке.

Доля убыточных предприятий превысила в 2013 году- 50%. Соответственно уменьшились отчисления в бюджет, произошло резкое сокращения рабочих мест, а это в свою очеред оказало негативное влияние на уровень пути населения.

За январь- апрель 2013 года объем производства продукции легкой промышленности снизился по сравнению с соответствующим периодом 2018 г. на 3,7%, что в основном обусловлено снижением конкурентно- способности и вытеснением отечественных товаров дешевым импортом.

Производство продукции швейной промышленности возросло по сравнению с уровнем января- апреля 2013г. на 1,4%.

Увеличение производства в кожевенно-обувной промышленности соста-вило 1,0%. Несмотря на ограничения экспорта кожевенного сырья выпуск обуви сократился на 3,6% по сравнению с январем-апрелем 2013г., что во многом обусловлено ростом объемов нелегальной продукции, поступающей на рынок.

Однако повышение качества и дифференциация ассортимента позво-лили повысить конкурентоспособность отрасли. К сожалению, качество роста обеспечивалось предприятиями, которые, не имея достаточных оборотных средств, перешли на давальческое сырье.

Толлинг, под которым в легкой промышленности подразумевается производства изделий из сырья не азербайджанского происхождения с последующим их экспортом, вот что дало возможность выжить отечественной швейной промышленности в год наплыва дешевого китайско-турецкого импорта.

Современные теоретические разработки по развитию промышленного производства в их исползование в легкой промышленности.

Снижение темпов производства во многом связано с избыточным ростом аналогичной импортной продукцией и сокращением объемов переработки по толлингу.

В первое время после кризиса работа по толлинговым схемам приносила «давальцам» хорошую прибыль, но в результате последующего укрепления курса маната эти схемы становились менее выгодными. Из предприятий выжималось все возможное, и они оставались лицом к лицу со своими проблемами емах: изношенное оборудование, низкие зарплаты и долги.

Именно толлинг позволил наиболее прогрессивно оснащенным предприятиям “выжить” в годы общего резкого производства при ставках на кредиты около 24%, а также способствовал освоению новых технологий, повышению профессионализма кадров, выпуску продукции с товарными знаками “Берхаус”, “Шпальман”, “Саламандер” и другие.

Несмотря на улучшение качества изделий, в том числе за счет дизайна и внешнего вида, характерное для последнего времени, резко снизилось конкурентоспособность отечественной продукции. Прежде всего это произошло из-за возросшей стоимости изделий конкурентов по цене затрат, что всегда являлось проблемой для экономики Азербайджана, которая имеет ещё большую актуальность в крупных в таких городах как, например в Баку и Гянджа. Поэтому анализ себестоимости является весьма показательным и актуальным.

За последние 10 лет произошли принципиальные изменения в структуре себестоимости изделий легкой промышленности (рисунки 2-4).



Рисунок 2. Структура себестоимости текстильной продукции в 2005 г.



Рисунок 3. Структура себестоимости текстильной продукции в 2010 г.



Рисунок 4. Структура себестоимости текстильной продукции в 2014г.

В связи с изменением режима работы предприятий с двух и трех слянной работа на до одно сменую работу, каждый день приходится запускать оборудования заново, после которого возможны обрывы нитей и как возникает необходимось повторной наладки оборудования, каторая занимает примерно 1 час. Следовательно, простой оборудования превышают 20%, условно-постоянные расходы в себестоимости возросли в 2 раза.

Хотя сырье покупается практически по мировым ценам, качество сырья оставляет желать лучшего. Закупка сырья осуществляется в основном за счет кредитов банков, а не за счет собственных оборотных средств. Высокая доля расчетов на основе долларов и в евро, высокие процентные ставки банков ставят многие предприятия на грань банкротства.

Руководители предприятий фактически не обращают внимания на уровень производительности труда, а их стремление сохранить трудовые коллективы при использовании производственных мощностей менее чем на 20-25% еще более усугубляет экономическое состояние отрасли. В связи с отсутствием “длинных” банковских кредитов и невозможностью получения краткосрочных кредитов под 16% годовых, объясняет во многом удручающее положение отечественных предприятий.

Заключение

Нет оснований считать, что сложившаяся неблагоприятная тенденция изменится автоматически. Для этого необходима система мер антикризисного менеджмента, учитывающего как инновационные подходы к развитию предприятия, так и финансовое обеспечение внедрения разно-масштабных инноваций (от организационных до технологических). При этом необходимо учесть и то, что в период кризисного развития предприятия, говорят

о нехватке финансовых ресурсов. Для решения возможного противоречия между целями и самими вожностями достижению этих целей необходимо рассмотреть специфику кризисных тенденций в отрасли.

ЛИТЕРАТУРА

1. Выступление Фомина Б.М. по теме: "О мерах поддержки развития текстильной и лекгой промышленности России".
2. Доклад заместителя промышленности науки и технологии РФ Владимира Фридлякова на коллегими и нистерства населения развития текстильной и легкой промышленности за период 2013 г.
3. Məmmədov F.Ə.Gəncədə toxuculuq və yüngül sənaye müəssisələrinin hazırkı vəziyyəti və inkişaf perspektivləri. Gəncə Dövlət Universitetində keçirilmiş beynəlxalq konfransın materialları. Gəncə, 2008, s.111-114.

Xədicə Fizuli qızı Məmmədova
Azərbaycan Texnologiya Universitetinin doktorantı

Yüngül sənaye müəssisələrinin rəqabət qabiliyyətinin inkişafı üçün məqsəd və şərtlərin sistemləşdirilməsi

Xülasə

Elmi məqalədə Azərbaycan Respublikasında toxuculuq və yüngül sənayenin hazırki vəziyyəti, toxuculuq və yüngul sənayedə istehsal olunan məmulatlar haqqında geniş məlumat verilir. Eyni zamanda bu sahələrin inkişafı ilə bağlı çoxlu təkliflər verilir. Məqalədə son 10 ərzində toxuculuq və yüngül sənaye müəssisələrinin müasir vəziyyəti təhlil edilmiş və bu sahənin inkişafı üçün tədbirlər planı işlənmişdir.

Açar sözlər: toxuculuq, iqtisadiyyat, təşkiletmə, idarəetmə.

Khadija Fizuli Mammadova
PhD of Azerbaijan Technological University

The system of goals and conditions for the development of competitiveness of the enterprises light industry

Summary

This scientific work covers the modern situation of textile and light industry, broad information about the materials produced in textile and lightindustry. The meanwhile, there are a lot of suggestions made regarding the development of these sectors.

Key words: textile, sewing, economy, organization and management.

IV BÖLMƏ
MALİYYƏ, BANK, VERGİ VƏ AUDİT

UOT 336.71

prof. Zahid Fərrux oğlu MƏMMƏDOV
ADİU-nin "Bank işi kafedrası"nın müdiri, i.e.d
Emin Adil oğlu QƏRİBLİ
ADİU-nun "Əlavə təhsil şöbəsi"nin müdiri, i.e.n.

BANK SİSTEMİNİN DAYANIQLIĞININ TƏNZİMLƏNMƏSİNİN METODLARI VƏ MONİTORİNQİ ÜSULLARI

Xülasə

Müasir şəraitdə bank sisteminin müxtəlif növ risklərə məruz qalması müşahidə olunur. Ölkə iqtisadiyyatının və bank sisteminin dayanıqlığının təmin olunması müasir elmin vacib problemlərindəndi. Milli iqtisadiyyatın inkişaf mərhələsindən asılı olaraq dayanıqlığın təmin olunma metodları və monitorinq üsullarına yenidən baxılması və hazırlanması vacib əhəmiyyət kəsb edir. Məqalədə dünyada tədbiq olunan muasir metod və üsullar təhlil olunur və Azərbaycan şəraitinə tədbiq olunması yolları araşdırılır.

Açar sözlər: dayanıqlıq, pul kredit tənzimlənməsi, yenidənmaliyyələşdirilmə, anti-tsiklik tənzimlənmə, qiymətləndirmə, monitorinq.

Giriş

Bank sisteminin dayanıqlığı bank sisteminin strukturunun, bloklarının və elementlərinin uzunmüddətli, tədrici, balanslaşdırılmış inkişaf prosesidir. Bu proses onun göstəricilərinin kəmiyyət və keyfiyyət baxımından dəyişməsinə və bütövlükdə cəmiyyətin sosial-iqtisadi münasibətlərinin inkişafı üçün səmərəli şəraitin yaranmasına gətirib çıxarır. İqtisadiyyatın real sektorunun və onun digər subyektlərinin tələbatları nəzərə alınmadan dayanıqlığa nail olmaq mümkün deyil, çünki qeyri-stabillik və bank sisteminin fəaliyyət göstərdiyi xarici mühit problemləri birinci növbədə onun daxili vəziyyətinə öz təsirini göstərir.

Bank sisteminin pul-kredit tənzimlənməsinin üsulları

Bank sektorunun dayanıqlığının idarə edilməsi həm makro, həm də mikrosəviyyədə həyata keçirilir. Mikrosəviyyədə onun məqsədi stabilliyi və bank sisteminin ayrı-ayrı subyektlərinin və onun infrastrukturunun uzunmüddətli balanslaşdırılmış inkişafını təmin etməkdirsə, makrosəviyyədə pul-kredit siyasəti tədbirləri sistemi həyata keçirilir ki, bunun da məqsədi bütövlükdə milli iqtisadiyyatın inkişafı üçün səmərəli şəraitin yaradılmasıdır.

Bu qlobal vəzifənin həlli yollarını müəyyən etmək üçün aralıq (taktiki) məqsədlər sistemindən istifadə olunur: valyuta hədəflənməsi, faiz stavkalarının hədəflənməsi, son zamanlar isə - inflyasiyanın hədəflənməsi.

Ənənəvi olaraq pul-kredit tənzimlənməsinin alətləri diskont siyasəti, icbari rezervlər norması, habelə açıq bazarda həyata keçirilən əməliyyatlar və remaliyyələşdirmədən ibarət olmuşdur.

AR MB-nın bank fəaliyyətinin dayanaqlı inkişafı təmin etmək üçün istifadə etdiyi idarəetmə alətləri inkişaf etmiş bazarın olmasını nəzərdə tutmaqla pul dövriyyəsinin inzibati deyil, iqtisadi tənzimləmə formasını təşkil edir və bir-biri ilə sıx bağlıdır. [1, 26 s.]

Pul-kredit sferasının tənzimlənməsinin konkret alətlərinin seçilməsinə gəlincə, qeyd etmək lazımdır ki, qiymətli kağızlar bazarının zəifliyi, adekvat hüquqi və təsisat strukturlarının, habelə

açıq bazarda əməliyyatların aparılması təcrübəsinin azlığı şəraitində Azərbaycanın monetar orqanları yaxın zamanlarda pul siyasətinin əsas aləti kimi açıq bazarda həyata keçirilən əməliyyatlardan (ABƏ) istifadəsi zəif olaraq qalacaqdır.

Pul-kredit siyasətinin klassik alətlərindən istifadə etməklə unutmamalıyıq ki, onun taktiki məqsədlərinə (milli valyuta məzənnəsinin stabilliyi, inflyasiyanın məhdudlaşdırılması, investisiya resursları axınının təmin edilməsi və s.) nail olmaq avtomatik olaraq iqtisadi artımın təmin edilməsi, davamlı inkişafla, iqtisadiyyatın strukturunun optimallaşdırılması, iqtisadiyyatın antitsiklik tənzimlənməsi ilə bağlı olan strateji məqsədlərə çatmaq demək deyil. Onlara nail olmaq üçün kapitalların hərəkət hesablarının tənzimlənməsi, vergi tənzimlənməsi, gömrük qanunvericiliyi, innovasiyalara dəstək, investisiyaların səmərəliliyinin təmin edilməsi, büdcə tənzimlənməsi və s. də daxil olmaqla maliyyə və iqtisadi tədbirlər sistemi uzlaşdırılmalıdır. [2, s. 38]

Bu vəzifənin həlli üçün milli iqtisadiyyatın dayanıqlı inkişafı kontekstində pul-kredit siyasəti tədbirlərinin səmərəliliyini qiymətləndirməyə imkan verən alət tələb olunur. Bu məqsədlər üçün pul və mallar bazarının klassik tarazlıq modelindən istifadə edilə bilər. Onun köməyi ilə Mərkəzi Bankın pul-kredit siyasətinin nəticələrini qiymətləndirmək olar. [3, s.24]

Aparılan təhlil ilk növbədə aşağıdakı fərziyyəni təsdiq etdi: iqtisadiyyatda qiymətlərin səviyyəsinə qeyri-monetar xarakterli amillər (xərclərin inflyasiyası, xarici inflyasiya) əsaslı təsir göstərir. Bu, o deməkdir ki, bank sektorunun və bütövlükdə iqtisadiyyatın stabilliyini dəstəkləmək üçün monetar xarakterli tədbirlər yetərli deyil - inflyasiyanı tənzimləmək üçün inflyasiyanın daha mürəkkəb və incə tənzimləmə mexanizmləri işlənməlidir [4, s. 43].

Aparılan analiz daha bir nəticəni əldə etməyə imkan verir: pul siyasəti nominal stavkaların səviyyəsinə və pul təklifinə birbaşa və əhəmiyyətli təsir göstərir. Lakin pul-kredit siyasəti tədbirləri real stavkalara və iqtisadiyyatdakı qiymətlərin səviyyəsinə az təsir göstərir. [5, s. 20]

Bank sisteminin dayanıqlığı aşağıdakı amillər qrupunu şərtləndirir:

- pul kütləsinin milli iqtisadiyyatın tələbatlarına uyğunluğu - pul təklifinin stabilliyi amilləri;
- iqtisadi subyektlər arasında pul hesabatlarının aparılmasında fasiləsizlik - likvidlik amilləri;
- iqtisadi artım və milli iqtisadiyyatın investisiya aktivliyinin həvəsləndirilməsi üçün səmərəli şəraitin olması.

Mövcud vəziyyətdə aşağıdakıların həyata keçirilməsi məqsədəmüvafiq hesab olunur:

1) Bankın siyasətinin vəzifəsi kimi iqtisadiyyatın real sektoruna investisiyaların artımı, faiz stavkalarının, o cümlədən uzunmüddətli faiz stavkalarının azaldılması müəyyən edilməlidir;

2) Valyuta və vergi tənzimlənməsi kapitalının xaricə "qaçışı"nın qarşısının alınmasına yönələn qanunvericilik və normativ məhdudiyyətlər tətbiq edilməlidir. Eyni zamanda milli ixracatçılarla idxalçıların inkişaf bankı qrupu tərəfindən çevik həvəsləndirmə sistemi yaradılması. Bu sistem həmin fəaliyyətin innovasiya yönümlüyünün yüksəldilməsinə hədəflənməlidir;

3) Kapitalın "miqrasiyası"nın inzibati tənzimlənməsi ilə birgə ölkənin investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi üçün dövlətin iştirakı olan bankların daxil edilməsi hesabına genişlənən inkişaf bankları sistemindən istifadə edilməlidir. Mərkəzləşdirilmiş investisiyalardan məqsədli istifadənin monitorinq sistemi yaradılmalı, inkişaf banklarının rəhbərliyini iqtisadiyyatın real sektorunda investisiya fəaliyyətinin məhsuldarlığının yüksəldilməsi üzrə məqsədlərə nail olma baxımından həvəsləndirmək lazımdır;

4) Bankların uzunmüddətli remaliyyələşdirmə proqramları çərçivəsində Mərkəzi Bank tərəfindən təklif olunan vəsaitlərdən məqsədli istifadə üzərində təsirli nəzarət sistemi yaradılmalıdır;

5) İqtisadiyyatın prioritet sektorlarında həyata keçirilən innovasiya layihələri üçün vergi stimulları sistemi yaradılmalı, eyni zamanda bu kimi fəaliyyətin reallığı üzərində nəzarət təmin edilməli, mərkəzləşdirilmiş investisiya resurslarından qeyri-məqsədli və səmərəsiz istifadəyə görə mülki və cinayət məsuliyyəti tədbirləri müəyyən edilməlidir;

6) Milli maliyyə bazarlarının qısamüddətli spekulyativ gəlir əldə etmək məqsədi güdən xarici investorların hərəkətlərindən müdafiə sistemi işlənməli, bu kapitalın səviyyəsi üzərində nəzarət sistemi yaradılmalı və ondan istifadə sferalarına məhdudiyyətlər müəyyən edilməlidir;

7) Milli iqtisadiyyatın və bank sektorunun tədricən deinhisarlaşması üçün tədbirlər işlənməlidir;

8) Dövlət müəssisələrinin və bankların korporativ idarəetmə sistemi dəyişdirilməlidir. Onların strategiyası ümumdövlət uzunmüddətli və ortamüddətli planlarla inteqrasiya etməlidir. Dövlət müəssisələrinin və bankların fəaliyyətini planlaşdırmaq üçün elə bir sistem yaradılmalıdır ki, həmin sistem onların investisiya proqramlarını milli iqtisadiyyatın qlobal sosial-iqtisadi inkişaf planları ilə uzlaşdıra bilsin. [6, s. 25];

9) Ölkə iqtisadiyyatında inflyasiya xərclərinə səbəb olan kommersiya müəssisələrinin xərcləri üzərində inzibati nəzarət və vergi tənzimləmə tədbirləri sərtləşdirilməlidir. İlk öncə bunları əsasən dövlətə məxsus olan müəssisələrin fəaliyyəti üzərində nəzarət üçün istifadə edilməlidir;

10) Ölkə iqtisadiyyatında məqsədli monetar ekspansiyanın aparılması təmin edilməlidir: iqtisadiyyatın innovasiya inkişafı məsələlərinin həlli üçün əlavə resurslardan istifadə üzərində ətraflı nəzarət təmin edilməklə iqtisadiyyatın monetizasiya səviyyəsi yüksəldilməli, bu vəzifənin həlli üçün kommersiya bankları və ilk növbədə kapitalda dövlətin iştirakı olan banklar cəlb edilməlidir. [7, s. 42];

11) İqtisadiyyatın innovasiya yönümlü inkişafı üzrə prioritet proqramların həyata keçirilməsi üçün enerji potensialından birbaşa istifadə kanalları və alətləri yaradılmalıdır.

Bank sisteminin dayanıqlılığının qiymətləndirilməsi və monitorinqi üsulları

Bank sektorunun səmərəliliyinin və dayanıqlığının təmin edilməsi tədbirləri bir çox halda onun monitorinqindən asılıdır.

Məlum olduğu kimi, Mərkəzi Bankların bank tənzimlənməsi və nəzarəti sistemi çərçivəsində kommersiya banklarının fəaliyyətinin monitorinqi aşağıdakı kompleks məsələlərin həllinə yönəlmişdir:

- Ölkənin iqtisadi inkişafının və kommersiya bankları sisteminin fəaliyyətinin əsas göstəricilərini əks etdirən informasiyanın toplanması;
- Bank sisteminin dayanıqlıq göstəricilərinin təhlili və proqnozu, bank sisteminin sistemli risklərinin qiymətləndirilməsi;
- Bankların etibarlılığını, bank sisteminin dayanıqlığını şərtləndirən müxtəlif amillərin təsir etmə dərəcəsinin aşkar edilməsi və qiymətləndirilməsi;
- Bank sisteminin dövlət tənzimlənməsi çərçivəsində aparılan tədbirlərin səmərəliliyinin qiymətləndirilməsi.

Monitorinqin əsas istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- əmsalların monitorinqi;
- bank risklərinin mütəmadi monitorinqi;
- stress-testləşdirmənin nəticələri əsasında monitorinq;
- bank sektorunun maliyyə davamlılığı göstəricilərinin monitorinqi;
- inzibatçıların fəaliyyətinin nəticələri üzrə informasiyanın monitorinqi;
- qeyri-maliyyə sektoru müəssisələrinin monitorinqi.

Monitorinqin bu istiqamətlərindən hər biri müvafiq funksional əhəmiyyətə malikdir. Lakin tədqiqatlar göstərir ki, onun qüsurları var.

Əmsalların monitorinqi əmsallar sisteminin analizidir. Bu analizlər müvafiq qanunvericilik aktlarına uyğun aparılır Lakin daim qloballaşan dünyada bu normativlər sistemlərinin təkmilləşdirilməsinə ehtiyac var. [8, s. 27]

Mütəxəssislərin fikirlərinə görə, bank hesabatçılığının mötəbərliyi problemini həll etmək üçün bank sisteminin biznesin aparılması üzrə beynəlxalq standartlara və MHBS-ya keçidi üçün

şərait yaratmaq, həddindən artıq olan icbari iqtisadi normativlərin sayını azaltmaq, Mərkəzi Bankların normativ aktlarını təkmilləşdirmək, Bazel IIİ elementlərini tətbiq etmək, bank hesabatlarının auditor şirkətləri tərəfindən yoxlanması prosesi üzərində nəzarəti gücləndirmək və s. lazımdır. [9, s. 46]

Bu problemin həlli çərçivəsində həmçinin rəhbər və baş mühasiblərə, bankların uçot-əməliyyat işinin təşkilinə, daxili nəzarət sisteminə daha yüksək tələblər irəli sürülməsi vacib şərtdir. Bununla yanaşı ənənəvi əmsallar sistemini bankların öz fəaliyyətində üzləşdikləri risklərin kompleks analizinin yeni sxemi ilə tamamlamaq lazımdır. Bank fəaliyyətinin monitorinqinin bütün istiqamətlərinin inkişafı da elə məhz buna səbəb olacaqdır [10, s. 25].

Bu, bir çox mənada risklərin mütəmadi monitorinqinə də aiddir. Hal-hazırda bu, aşağıdakı istiqamətləri özündə birləşdirir. [11, s. 42]:

- kapitalın yetərliliyinin monitorinqi;
- kredit risklərinin monitorinqi (qeyri-maliyyə müəssisələrinin kreditləşdirmə riski və istehlakçı kreditləşdirmə riski). [12, s. 23];
- likvidlik riskinin monitorinqi;
- bazar riskinin monitorinqi.

Risklərin monitorinqi hər ay aparılır və bankın fəaliyyətindəki qeyri-səmərəli tendensiyaları ən erkən mərhələlərdə aşkarlamaq məqsədini daşıyır. [13, s. 47-50]

Bank sisteminin müxtəlif növ risklərə məruz qala bilmə dərəcəsi və kapitalın yetərliliyinin vəziyyəti haqqında informasiya Mərkəzi Bank tərəfindən ölkənin bank sektorunun inkişafı haqqında müvafiq il üçün hesabatlarda və bank sektorunun icmallarında mütəmadi olaraq gətirilir.

Nəticə

Beləliklə, hal-hazırda Mərkəzi Banklar bank sektorunun dayanıqlığının müxtəlif monitorinq üsullarından istifadə edir. Bank fəaliyyətinin monitorinqinin əsas istiqamətlərinin səmərəliliyinin daha da yüksəldilməsi və inkişaf etdirilməsi bank sisteminin maliyyə dayanıqlığının möhkəmləndirilməsinə xidmət edəcəkdir.

Bununla belə, hesab edirik ki, Mərkəzi Banklar:

- kommersiya bankları tərəfindən təqdim olunan maliyyə hesabatlarının mötəbərliyi üzərində nəzarəti gücləndirməli;
- auditor şirkətləri tərəfindən bank hesabatlarının yoxlanmasının gedişi üzərində nəzarəti gücləndirməli;
- rəhbərlərə və baş mühasiblərə, bankların uçot-əməliyyat işinin təşkilinə, daxili nəzarət sisteminə verilən tələbləri artırmalı;
- ənənəvi əmsallar sisteminə bankların öz fəaliyyətində üzləşdikləri risklərin kompleks təhlilini əlavə etməlidir. Bu, bank fəaliyyətinin monitorinqinin bütün istiqamətlərinin inkişafına şərait yaradacaqdır;
- kredit riskləri üzərində nəzarəti gücləndirmək məqsədilə mərkəzləşdirilmiş kredit informasiya sistemini - kredit informasiyası bürosunu yaratmalıdır.

ƏDƏBİYYAT

1. Məmmədov Z.F. Bank fəaliyyətinin əsasları. Bakı, UNEC. 2015, s. 26.
2. Богданова О.М. Коммерческие банки России: формирование условий устойчивого развития. - М.: Финстатинформ, 1998, с. 38.
3. Живалов В.Н. Повышение устойчивости функционирования коммерческих банков. - М.: РАГС, 2014, с.24.
4. Иванов В.В. Анализ надежности банка. - М.: Русская деловая литература, 2006, с.43.
5. Каримов Р.В. Денежно-кредитная политика и банковский надзор: Ижевск: Изд-во Ин-та экономики и упр. УдГУ, 2009, с.20.

6. Масленченков Ю.С. Финансовый менеджмент в коммерческом банке: Фундаментальный анализ. - М.: Перспектива, 2012, с. 5.
7. Мамедов З.Ф. Дизайн финансового надзора: страновые особенности и новые тенденции в мире с учетом уроков мирового кризиса // “Государственное регулирование экономики и повышение эффективности деятельности субъектов хозяйствования”. 8-я Международная научно - практическая конференция Академия управления при Президенте Республики Беларусь. 18-19 апреля 2013, с. 42.
8. Мамедов З.Ф. Повышение эффективности деятельности Центрального Банка Азербайджана» / современное гуманитарное образование: традиции, инновации, перспективы/ Секция 6. “Государственная и муниципальная власть и общество: проблемы взаимодействия”. 11 апреля 2013 года. Международная научно-практическая конференция. Санкт-Петербург - Санкт-петербургский институт гуманитарного образования. 2013,с. 27 .
9. Мамедов З.Ф. Современное состояние банковского сектора Азербайджана в контексте стран СНГ: современное состояние и проблем III международная научно-практическая конференция “системный анализ в экономике – 2014” Научно-практическая конференция “Системный анализ в экономике – 2014” состоится 13 -14 ноября 2014 г. в Финансовом университете при Правительстве Российской Федерации г. Москва, Ленинградский проспект, 55, с.46.
10. Мамедов З.Ф. Банковский сектор Азербайджана: анализ и оценка // “Государственное регулирование экономики и повышение эффективности деятельности субъектов хозяйствования”. 9-я Международная научно - практическая конференция Академия управления при Президенте Республики Беларусь. 10-11 апреля 2014,с. 25.
11. Мамедов З.Ф. Центральный банк Азербайджана: новые вызовы в современных условиях “Экономическая политика России в условиях глобальной турбулентности”, которая пройдет в Москве 24-26 ноября 2014 года в Финансовом университете при Правительстве Российской Федерации г. Москва, Ленинградский проспект, 55, с. 42.
12. Мамедов З.Ф. Анализ и оценка банковского сектора Азербайджана в контексте стран // “Правовые и управленческие проблемы деятельности государства и хозяйствующих субъектов: российский и международный опыт”. IX Международная научно - практическая конференция. Филиал РГГУ в г. Домодедово. Интеграция. 2014,с. 23.
13. Мамедов З.Ф. Основные пути повышения уровня капитализации Азербайджанских банков // “Государственное регулирование экономики и повышение эффективности деятельности субъектов хозяйствования”. 10-я Международная научно-практическая конференция Академия управления при Президенте Республики Беларусь. 16-17 апреля 2015. Пленарный доклад. С.47 -50.

проф. Захид Фаррух оглы Мамедов,
к.е.н. Эмин Адил оглы Гарибли

Методы регулирования и мониторинга стабильного развития банковской системы

Резюме

В современных условиях банковская система подвергается различным видам рискам. Обеспечение устойчивости банковской системы и в целом экономики является одной из главных проблем современной науки. В зависимости от этапа развития необходимо заново рассматривать методики мониторинга и методы обеспечения устойчивости. В статье анализируется современные методы анализа, и рассматриваются пути применения их в условиях Азербайджана.

Ключевые слова: устойчивость, регулирование денежного кредитования и рефинансирования, анти-циклическая регуляция, оценки и мониторинга.

Prof. Zahid Farrukh Mamedov,
Phd. Emin Adil Garibli

The stability of the banking system of regulation methods and ways of monitoring

Summary

In modern conditions the banking system is exposed to different types to risks. Ensuring stability of a banking system and in general economy is one of the main problems of modern science. Depending on a stage of development it is necessary to consider anew techniques of monitoring and methods of ensuring stability. In article it is analyzed modern methods of the analysis, and ways of their application in the conditions of Azerbaijan are considered.

Key words: sustainability, regulation of money lending, refinancing, anti-cyclical regulation, evaluation and monitoring.

UOT 336.71; 33:311

Təhminə ƏLİYEVA
i.f.d., dos., ADİU;
Humay MÜRSƏLOVA
ADİU, "Statistika" kafedrası.

AZƏRBAYCAN RESPUBLİKASINDA BANK-MALİYYƏ STATİSTİKASININ TƏHLİLİ VƏ TRANSMİLLİ QİYMƏTLƏNDİRMƏ

Xülasə

Məqalədə iqtisadiyyatın mərkəzləşdirilmiş idarəetmə prinsiplərindən bazar münasibətlərinə keçid dövründə iqtisadi statistik təhlil və proqnozlaşdırmanın yeni metodoloji bazasının yaradılması və onun iqtisadiyyata tətbiq olunması araşdırılmışdır. Həmçinin məqalədə Mərkəzi Bankda statistikanın inkişafı çərçivəsində "Elektron Statistik Analitik Hesabatlılıq Sistemi-2" layihəsinin icrasının qrafik üzrə davam etdirilməsinin respublikanın bank sistemində oynadığı rola və göstərdiyi nəticələrə baxılmış və onun statistik təhlili araşdırılmışdır.

Açar sözlər: bank-maliyyə sistemi, bank-maliyyə statistikası, hesabatlılıq sistemi, transmilli qiymətləndirmə.

Giriş

Mərkəzi Bankda statistikanın inkişafı çərçivəsində "Elektron Statistik Analitik Hesabatlılıq Sistemi-2" layihəsinin icrasının qrafik üzrə davam etdirilməsi respublikanın bank sistemində statistik təhlilin aparılmasının bariz nümunəsidir. Real sektor, xarici sektor, monetar sektor, bank-maliyyə sistemi və milli hesablar sistemi analitik statistikanın əhatəsini genişləndirmişdir. Bank-maliyyə statistikası üzrə hesabatlığın və statistik bülletenlərin mikro əhatəsinin genişləndirilməsi davam etdirilir. Mərkəzi Bank tərəfindən aparılan real sektorun monitorinqində iştirak edən müəssisə və təşkilatların əhatə dairəsinin genişləndirilməsi hazırda davam etdirilir və bu əsasda iqtisadi fəallıq indeksinin müntəzəm hesablanması təmin edilmişdir. Bunun nəticəsi olaraq əvvəlki illərdə olduğundan 2014-cü ildə Azərbaycan bank sistemi qlobal iqtisadiyyatda gedən mürəkkəb proseslər fonunda əsas göstəricilər üzrə daha çox müsbət inkişaf dinamikasına nail olmuş, sabitlik və dayanıqlıq nümayiş etdirmişdir. Onu da qeyd etmək lazımdır ki, həyata keçirilmiş siyasət nəticəsində bankların kapitalizasiyası üzrə "yol xəritəsi" uğurla icra edilmiş, bank sektorunun rəqabət qabiliyyəti yüksəlmiş və maliyyə dərinliyi artmışdır. 2014-cü ildə bank sektorunun artım tempinin iqtisadiyyatın artım tempi ilə uzlaşması, kredit ekspansiyasının stabilləşdirilməsi Mərkəzi Bankın əsas prioriteti olmuşdur. Bununla əlaqədar, bank xidmətləri bazarında risklərin preventiv qaydada qarşısının alınması məqsədi ilə Mərkəzi Bank bir sıra tədbirlər həyata keçirmişdir. Aktivlərin uzunmüddətli dinamikası bank sektorunun sürətli artım fazasının daha təmkinli artımla əvəz olunmasını əks etdirir. 2014-cü ildə əhalinin müxtəlif növ bank xidmətlərindən istifadə səviyyəsi artmışdır. Əmanətlərin, kreditlərin, məhsul çeşidi və borcalanların sayının artım dinamikası davam etdirilmişdir.

Azərbaycan Respublikasında bank-maliyyə statistikasının təhlili

2014-cü il ərzində Azərbaycan Mərkəzi Bankının həyata keçirdiyi maliyyə sabitliyi siyasəti bank sisteminin maliyyə dayanıqlığının qorunmasına və maliyyə vasitəçiliyinin genişlənməsinə yol açdı. Bank sisteminin maliyyə vasitəçiliyini ifadə edən göstəricilərdə müsbət dinamik inkişafa nail olundu. 2014-cü ildə qeyri-neft ÜDM-inə nisbətdə bank aktivləri 76%-ə, iqtisadiyyata kreditlər 56,1%-ə, bankların kapitalı 12,9%-ə yüksəldildi.

İl ərzində fəaliyyət göstərən xarici kapitallı bankların sayı 23-ə çatmış və bank sektoruna xarici kapital investisiyalarının həcmi 105,2 mln. manat (23%) artaraq 566,8 mln. manata çatmışdır. Banklar mürəkkəbləşən makroiqtisadi proseslər fonunda aparıcı reytinq agentlikləri tərəfin-

dən müəyyən edilən reytinqlərini qoruyub saxlaya bilmişlər. [1, s.7] Hesabat ilində iqtisadiyyatın maliyyə xidmətlərinə tələbatının ödənilməsi, maliyyə xidmətlərinə çıxış imkanlarının artırılması məqsədilə bankların filial şəbəkəsinin və digər struktur bölmələrinin genişləndirilməsi prosesi davam etmişdir. 2014-cü il ərzində bankların 50 yeni filialı açılmış, bank filiallarının sayı 752-yə çatmışdır. Yeni 14 bank şöbəsi açılmış və bank şöbələrinin sayı 148-ə çatmışdır. Yeni açılmış bank filiallarının 37-i ölkənin müxtəlif regionlarının payına düşür. Aparılan statistik təhlilə əsasən 01.01.2014-cü il tarixinə cəmi bank filiallarının 389-u regionlarda fəaliyyət göstərir. 2014-cü ildə də kredit təşkilatları tərəfindən regionların kreditləşdirilməsi prosesi davam etdirilmişdir ki, il ərzində regionlara kredit qoyuluşları 54,6% artmışdır. Bank sektorunun inkişafı ilə yanaşı məhdud bank xidmətlərini göstərən digər maliyyə institutlarının da fəaliyyəti genişlənmişdir [2, s.6] Qeyri-bank kredit təşkilatları, o cümlədən kredit ittifaqları, bank olmayan kredit təşkilatları və digər bu növ maliyyə təsisatlarının sayı 157-ə, onların filiallarının sayı isə 212-ə çatmışdır. Aparılan islahatlar nəticəsində il ərzində qeyri-bank kredit təşkilatlarının ümumi aktivləri 20%, onlar tərəfindən verilmiş kreditlərin həcmi isə 21% artmışdır. Bank infrastrukturunun coğrafi şəbəkəsinin genişlənməsi iqtisadi agentlərin, xüsusilə də əhalinin bank xidmətlərinə çıxış imkanlarını genişləndirmişdir.

Statistik təhlil nəticəsində məlum olur ki, hazırda ölkə ərazisinin hər 100000 kvadrat metrinə 7,9, hər 100000 nəfər yetkinlik yaşına çatmış insana isə 17,5 bank və qeyri-bank kredit təşkilatları maliyyə xidmətləri göstərir. 2014-cü ildə bankların daxili və xarici mənbələrdən cəlb etdikləri resurslar 23,7% artaraq (4026 mln. manat) 21023 mln. manata çatmışdır. Hesabat ilində də bankların resurs bazasının formalaşmasında hüquqi (maliyyə və qeyri-maliyyə təşkilatları) və fiziki şəxslərdən cəlb olunmuş vəsaitlərin payı yüksək olmuşdur. İl ərzində bankların ümumi əmanət və depozitləri (maliyyə təşkilatlarının depozitləri daxil olmaqla) 23,9% artaraq 15453,4 mln. manata çatmış və cəmi öhdəliklərin 73,5%-ni təşkil etmişdir. Həmçinin qeyd etmək lazımdır ki, 2014-cü ildə əhalinin əmanətləri 12% artaraq 7188,4 mln. manata çatmış, onların bankların öhdəliklərində xüsusi çəkisi isə 29% təşkil etmişdir.

2014-cü ildə korporativ sektorun depozitləri 41% və ya 1148 mln. manat artaraq 01 yanvar 2015-ci il tarixinə 3966,9 mln. manat təşkil etmişdir. Müqayisə üçün qeyd edək ki, 2013-cü ildə korporativ sektorun depozitləri bir qədər aşağı, bu il isə artım 0,6% olmuşdur. Korporativ sektorun müddətli depozitləri 66%, tələbli depozitləri isə 33% artmışdır. Korporativ sektorun depozitlərinin resurs bazasında payı 16%-ə çatmışdır ki, 2013-cü ildə bu göstərici 14% olmuşdur.

2014-cü ildə maliyyə institutlarından cəlb edilmiş vəsaitlərin həcmi 01 yanvar 2015-ci il tarixinə 8,4 mlrd. manat (bank aktivlərinin 33,3%-ni) təşkil etmişdir. 2014-cü ildə digər maliyyə institutlarından cəlb edilmiş vəsaitlər 23% artmış və bank sektorunun mühüm maliyyələşmə mənbələrindən birinə çevrilmişdir.

Apardığımız təhlilin göstəricilərindən məlum olmuşdur ki, bank əmanətçilərinin strukturunda ciddi dəyişikliklər baş verməmiş, rezident fiziki şəxslərin əmanətlərinin ümumi əmanətlərdə xüsusi çəkisi 90%, qeyri-rezident əmanətçilərin əmanətlərinin xüsusi çəkisi isə 10% təşkil etmişdir. Qeyri-rezident banklardan cəlb edilmiş vəsaitlərin həcmi hesabat ilinin sonuna 4781 mln. manat olmuşdur. Xaricdən cəlb olunmuş vəsaitlər cəmi aktivlərin 19%-ni təşkil etmişdir.

2014-cü ildə bank sektorunun aktivləri 4797 mln. manat və ya 23,5% artaraq 25182 mln. manata çatmışdır. Bank kreditləri 2999 mln. manat və ya 21% artaraq 17174 mln. manat olmuşdur. Müqayisə üçün qeyd edək ki, 2013-cü ildə xalis kredit portfelinin artım tempi 26% olmuşdur. İl ərzində kreditlərin aktivlərdə payı 68,2% təşkil etmişdir ki, bu da əsasən Mərkəzi Bankın sektorun kredit aktivliyi üzrə apardığı tənzimləmə tədbirləri nəticəsində baş vermişdir. Qeyd edək ki, ümumiyyətlə, son 8 il ərzində kreditlərin aktivlərdə payı orta hesabla 70% təşkil etmişdir. [3, s. 35]

2014-cü ildə kredit portfelinin artım tempinin sabitləşməsi fonunda likvid aktivlər və investisiyaların aktivlərdə xüsusi çəkisi 28%-ə çatmışdır. Kredit portfelinin artımının əsas mənbəyi əhalinin əmanətləri və korporativ sektorun depozitləri olmuşdur. Uzunmüddətli kreditlərin

həcmi 21% artaraq ilin sonuna 14611.3 mln. manat təşkil etmişdir. 2014-cü ilin sonuna kredit portfelinin strukturunda uzunmüddətli kreditlərin xüsusi çəkisi 79% (01.01.2014 tarixinə 78%) olmuşdur. 2014-cü ildə milli valyutada olan kreditlərin artım tempi 22% olmaqla, xarici valyutada kreditlərin artım tempini 16% üstələmişdir. İlin sonuna kredit portfelində manatla kreditlərin xüsusi çəkisi 73% təşkil etmişdir.

Hesabat ilində bank sektorunun iqtisadi artıma maliyyə dəstəyi davam etmişdir. Belə ki, 2014-cü il ərzində banklar üçün iqtisadiyyatın müxtəlif istehsal sahələrinin kreditləşməsi prioritet olmuşdur. İl ərzində kredit qoyuluşları rabitə və nəqliyyat sektorunda 45%, sənaye və istehsal sektoruna 34%, kənd təsərrüfatı və emala 16%, inşaat və əmlak sektoruna 8% artmışdır. 2014-cü ildə bankların məcmu kapitalı 25% və ya 842,6 mln. manat artaraq 4269,1 mln. manata çatmışdır. I dərəcəli kapital il ərzində 29% yüksəlmiş, onun məcmu kapitalda xüsusi çəkisi 82,3% təşkil etmişdir. Məcmu kapitalın artımının əsas mənbəyi (89%) nizamnamə kapitalı olmuşdur. Belə ki, nizamnamə kapitalı 753 mln. manat və ya 29% artmışdır. Bütövlükdə, il ərzində kapitalın artım tempi risk dərəcəsi üzrə ölçülmüş aktivlərin artım tempini üstələmişdir.

Bank sisteminin məcmu kapital adekvatlığı artaraq 19,2%-ə, I dərəcəli kapitalın adekvatlıq əmsalı isə artaraq 15,4%-ə çatdırıldı. 2014-cü ildə bankların əldə etdikləri mənfəət (vergi ödənilənədək) 458 mln. manat olmuş, vergilər ödənildikdən sonra isə xalis mənfəətin həcmi ötən illə müqayisədə 38% artaraq 370,54 mln. manat təşkil etmişdir.

Həmçinin faiz gəlirlərinin də müqayisəli təhlilinə nəzər saldıqda görürük ki, faiz gəlirləri ötən illə müqayisədə 36,9% artmış və 2255,73 mln. manata o cümlədən müştərilərə verilmiş kreditlər üzrə faiz gəlirləri 38% artaraq 2106 mln. manata çatmışdır. Bankların ümumi gəlirləri 2732,1 mln. manat təşkil etmişdir ki, bu da 2013-cü ildəki göstəricidən 642 mln. manat və ya 30,8% çoxdur. 2014-cü ildə bütün faiz gəlirlərinin ümumi gəlirlərdə xüsusi çəkisi artaraq 82,6% olmuşdur. Faiz xərcləri ötən illə müqayisədə 20% artmış və 986 mln. manat təşkil etmişdir. Faiz xərclərinin orta aktivlərə nisbəti 4,36% təşkil etmişdir. [4,s87] İl ərzində bankların xalis faiz mənfəəti 1269,29 mln. manat təşkil etmişdir ki, bu da 2013-cü ilə nisbətən 440,07 mln. manat və ya faizlə desək 53% çoxdur. İl ərzində bankların qeyri-faiz xərcləri ötən illə müqayisədə 19,7% artmış və 909 mln. manat təşkil etmişdir. Orta aktivlərdə cəmi qeyri-faiz xərclərinin payı sabit qalaraq 4,02% əmək haqqı, kompensasiya və digər əməliyyat xərclərinin artımı ilə şərtlənmişdir.

2014-cü ildə bank sektorunun aktivlərinin gəlirliliyi 1,7%, kapitalın gəlirliliyi 11,6% təşkil etmişdir. 2014-cü ildə ölkə iqtisadiyyatına investisiya qoyuluşu 17,6 mlrd. manat təşkil etmişdir ki, bu da ÜDM-in 30%-nə bərabərdir. Qeyri-neft sektoruna investisiyaların həcmi ümumi investisiya qoyuluşlarının 66%-ni təşkil etmiş və 11,6 mlrd. manat səviyyəsində olmuşdur. O cümlədən qeyri-neft sənayesinin inkişafına 1,3 mlrd. manat sərf edilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitin 72,3%-i daxili mənbələr, 27,7%-i isə xarici mənbələr hesabına formalaşmışdır. Əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 54,8%, bank kreditləri 3,1%, büdcə vəsaitləri 36,6%, büdcədənkənar fondların vəsaitləri 1,8% və əhalinin şəxsi vəsaitləri 3,2% təşkil etmişdir. Mərkəzi Bank tərəfindən aparılan real sektorun monitorinqinin nəticələri də ölkədə investisiya fəallığının yüksəldiyini göstərir. [5, s. 59] İl ərzində monitorinqə cəlb olunmuş müəssisələrin 58,3%-i investisiya fəaliyyəti ilə məşğul olmuşlar.

Təhlil və transmilli qiymətləndirmə

Dövlətin iqtisadi və sosial təhlükəsizliyini, maliyyə və təbii sərvətlərdən səmərəli istifadə edilməsini təmin etmək üçün müvafiq tədbirlər hazırlanır və bütün bu tədbirlər sistemi dövlətin maliyyə və iqtisadi siyasətinin əsasını təşkil edir. Maliyyə siyasətinin hasırlanması zamanı ticari malların, yəni qiymətləri dünya bazarında müəyyən olunan əmtəələrin konyunkturu haqqında informasiya dəyişdiyi üçün önun dinamik öyrənilməsi və gələcək vəziyyətinin proqnozlaşdırılması tələb olunur. Həmin proqnozlar ölkənin büdcəsinin tərtibində və müvafiq iqtisadi siyasətin

hazırlanmasında istifadə edilir. Qeyd etmək lazımdır ki, iqtisadiyyatın inkişafına təsir göstərən aşağıdakı amilləri proqnozlaşdırma zamanı nəzərə almaq lazımdır:

- müxtəlif bazarlarda tələb və təklifin müqayisəli təhlili və istehsal qiymətləri arasında fərqlərin aşkar edilməsi;
- təsərrüfat vahidlərinin istehsal ehtiyatlarının və maliyyə vəsatlərinin davamlılığının öyrənilməsi;
- istehsal və idxalın dəyişməsi ilə əlaqədar daxili bazarın quruluşu;
- real tələbatın artmasının istehsalın artmasına təsiri və ya ehtiyatların azalmasına görə idxalın artması;
- iqtisadi aktivliyin, məşğulluğun və gəlirlərin dəyişməsi;
- istehsal və istehlak qiymətlərinin dəyişməsinin əhalinin alıcılıq qabiliyyətinə təsiri və müvafiq olaraq konyunktur dəyişikliyi (konyunktur dəyişikliyi əvvəl dünya, sonra ölkə və nəhayət təsərrüfat vahidi səviyyəsində baş verir). Təcrübə göstərir ki, müasir informasiya texnologiyalarının və metodologiyanın tətbiqi statistik məlumatların işlənməsində köklü dəyişikliyə səbəb olmuşdur. Belə ki, köhnə üsullarla informasiyanın işlənməsi alınmış nəticənin keyfiyyətinin lazımi səviyyədə olmasını təmin etmir.

Bu metodoloji material əsasən üç bölmədən ibarətdir:

- statistik məlumatların keyfiyyət göstəriciləri;
- statistik məlumatların istehsalı prosesində əmələ gələn tipik səhvlər;
- statistik müayinələrdə səhvlərin hesablanması metodu.

Statistik məlumatların faydalılığı, dəqiqliyi, reprezentativliyi, müqayisəliliyi, əldə edilmə mümkünlüyü, şəffaflığı, əlaqəliliyi, əhatə dairəsi keyfiyyət göstəriciləri bölməsində araşdırılmışdır. Statistik müşahidə prosesində əmələ gələn səhvlər müxtəlif mərhələləri (seçmə, sorğu və məlumatların işlənməsi) əhatə edir. Yaranan səhvlərin təsnifatı ikinci bölmədə göstərilmişdir.

Üçüncü bölmədə səhvlərin hesablanma alqoritmi araşdırılır. Əmələ gələn səhvlərin səviyyəsi seçmə əlaməti üzrə variasiya əmsalından, müayinənin əhatə dairəsindən, sorğuya cavab vermə dərəcəsindən, klasterləşmədən və s. amillərdən asılı olduğu üçün, müşahidə prosesinin müvafiq mərhələlərində nəzarət zəruridir. Ona görə də müşahidə proqramında keyfiyyətə nəzarət sistemi texnoloji prosesin bütün mərhələlərini əhatə etməlidir. Qeyd edilməlidir ki, bu mövzunun hazırlanmasında statistika üzrə beynəlxalq təşkilatların təlimatlarına, müşahidələrin aparılmasına dair dərsliklərə və mövcud təcrübələrə istinad edilmişdir. 2014-cü ildə ÜDM real ifadədə 2,8% artmış və onun həcmi nominal olaraq 59 milyard manata çatmışdır. İl ərzində yaradılan əlavə dəyərin 2/3 hissəsi məhsul istehsalı sahələrinin, 1/3 hissəsi isə xidmət sahələrinin payına düşmüşdür. ÜDM-in artımı qeyri-neft sektorundakı fəallıq hesabına baş vermişdir. Belə ki, hesabat ilində qeyri-neft sektorunun real artımı 7% təşkil etmişdir. Bu sektorun ÜDM-də xüsusi çəkisi ötən illə müqayisədə artaraq 61% olmuşdur.

Təhlildən görünür ki, "Sənaye ili" çərçivəsində görülmüş işlər qeyri-neft sənayesində müsbət meyillərin güclənməsi ilə müşayiət olunmuşdur. Ümumilikdə, 2014-cü ildə qeyri-neft sənayesində 9% artım qeydə alınmışdır. Mərkəzi Bank tərəfindən aparılan qiymətləndirmələr və sorğular ölkədə iqtisadi fəallığın yüksək olduğunu təsdiq edir. [6, s. 78] 2014-cü ildə xarici ticarət tərəfdaşı olan ölkələrdə orta illik inflyasiya Azərbaycandakı inflyasiyadan 5,4% təşkil etmişdir. Son 3 il ərzində ölkə daxilində inflyasiya bir qayda olaraq, xarici ticarət tərəfdaşı ölkələrindən aşağıdır. Faktiki kapital adekvatlığı göstəriciləri Mərkəzi Bankın müəyyən etdiyi minimal normalar və beynəlxalq təcrübədə qəbul olunmuş minimal səviyyədən yüksəkdir. İl ərzində xarici iqtisadi əməliyyatların müsbət saldosunun əldə olunmasında neft-qaz sektoru mühüm rol oynamışdır. Neft-qaz sektoru üzrə ümumi daxilolmalar əsasən neftin və təbii qazın ixracı və bu sektora cəlb edibn xarici kapitalın hesabına formalaşır.

Bu sektor üzrə ödənişlər isə mənfəətin və investisiyaların repatriasiyasını, avadanlıqların və xidmətlərin idxalını əks etdirir. 2014-cü ildə neft-qaz sektoru üzrə yaranmış profisit 20,1 mlrd. dollar olmuşdur.

2014-cü ildə cari əməliyyatlar hesabında 10,4 milyard dollar məbləğində profisit ÜDM-in 14%-i yaranmış, o cümlədən neft-qaz sektoru üzrə cari hesabın profisiti 18 milyard dollar məbləğində olmuşdur. Neft-qaz sektorunun profisiti qeyri-neft sektoru üzrə cari 7,6 mlrd. dollar məbləğində kəsirini tam örtmüşdür.

Cədvəl 1.

Tədiyyə balansının əsas göstəriciləri, mln. dollar

	2013-cü il	2014-cü il
Cari əməliyyatlar və kapital hesabı	**13066.5**	**10423.6**
Xarici ticarət balansı	21382.4	18927.6
Xidmətlər balansı	-4189.0	-6089.6
İlkin gəlirlər balansı	-4120.6	-2581.7
-investisiya gəlirlərinin repatriasiyası	-4190.3	-2599.4
Təkrar gəlirlər balansı	6.6	174.2
Kapital hesabı	-12.9	-6.9
Maliyyə hesabı	**-6488.8**	**-3419.1**
Xalis maliyyə aktivləri	11771.4	11692.2
- xaricə yönəldilmiş birbaşa investisiyalar	1490.0	2208.8
- portfel investisiyaları	322.8	429.5
- digər investisiyalar	9958.6	9053.9
Xalis maliyyə öhdəlikləri	5282.6	8273.1
- Azərbaycana cəlb olunmuş birbaşa investisiyalar	6290.2	8049.2
- cəlb olunmuş investisiyalarm repatriasiyası	-3661.0	-3635.7
- neft bonusu	2.3	17.0
- portfel investisiyaları	1041.3	1750.9
- digər investisiyalar	1609.8	2091.7
Balanslaşdırıcı maddələr	**-2736.7**	**-2810.3**
Tədiyyə balansının ümumi saldosu (Ölkənin ehtiyat aktivlərinin dəyişməsi)	**3841.0**	**4194.2**

***QEYD**: AR DSK-nın materialları əsasında tərtib edilmişdir.*

Xarici ticarət dövriyyəsi 37.6 mlrd. dollar təşkil etmiş və xarici ticarət balansı 18,9 mlrd. dollar məbləğində müsbət saldo ilə nəticələnmişdir. İl ərzində ümumi ixracın həcmi idxalı 3 dəfə üstələmişdir.

İl ərzində Azərbaycanın dünyanın 154-dək dövləti ilə ticarət əlaqələri olmuşdur. Xarici ticarətin 8,3%-i MDB üzvü olan dövlətlərin, 91,7%-i isə digər xarici dövlətlərin payına düşmüşdür. Ölkənin İtaliya, Türkiyə, Birləşmiş Krallıq, Almaniya, ABŞ, Rusiya, İndoneziya, İsrail, Fransa və Yaponiya ilə daha intensiv ticarət əlaqələri olmuşdur. Qeyri-neft-qaz sektorunun mal ixracı 1,6 milyard dollardan çox olmuşdur. 2014-cü ilin yekunları üzrə qeyri-neft-qaz sektorunun cəmi ixracının strukturunda əmtəə ixracı 27,5%, xidmət ixracı isə 72,5% təşkil etmişdir. Hesabat ilində cəmi ixrac 28,3 mlrd. dollar təşkil etmişdir. İxrac olunmuş malların strukturunda neft - qaz məhsullarının payı 94,2% olmuşdur.

Xarici dövlətlərə 25,3 milyard dollar dəyərində neft məhsulları ixrac olıunmuş, ixrac olunmuş neft məhsullarının 1,8 milyard dolları neft emalı məhsullarının, 23,5 milyard dolları isə xam neftin ixracının payına düşür. İdxalın strukturunda investisiya qoyuluşları ilə bağlı gətirilmiş ma-

şın-avadanlıqların və malların xüsusi çəkisi 12,1% təşkil edərək 1127,9 mln. dollar olmuşdur. [7, s. 67]

Qarşılıqlı xidmətlər dövriyyəsinin 14,3%-i nəqliyyat xidmətləri üzrə aparılan əməliyyatların payına düşür. Ümumi dəyəri 2097,5 mln.dollar olan nəqliyyat xidmətlərinin 46,9%-i Azərbaycan rezidentlərinin xarici dövlətlərin nəqliyyat sistemlərindən istifadə etmələri ilə əlaqədardır. Azərbaycanın rezidentlərinin qeyri-rezidentlərə göstərdikləri nəqliyyat xidmətlərinin ümumi dəyəri isə 1113,6 mln. dollar təşkil etmişdir. Xidmətlər ixracında turizm daxilolmalarının payı artır. Hesabat ilində xarici ölkə vətəndaşlarına turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 2431,5 mlrd. dollar məbləğində qiymətləndirilmişdir. Bunun 28,3%-i qeyri-rezidentlərin Azərbaycana işgüzar səfərləri ilə bağlıdır. Öz növbəsində xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə turizmlə bağlı göstərilən xidmətlərin dəyəri əvvəlki ilə nisbətən 4,6% artaraq 3 mlrd. dollar olmuşdur. Bunun 67,4%-i Azərbaycan vətəndaşlarının şəxsi səfərləri ilə bağlı xarici ölkələrdə olarkən sərf etdikləri vəsaitlərin payına düşür.

Qeyri-neft sektorunda xidmətlər idxalı 2014-cü ildə 10% artaraq 6,3 mlrd. dollar təşkil etmişdir. Ümumiyyətlə, qarşılıqlı xidmətlərin ölkənin xarici dövlətlərlə əmtəə və xidmətlər üzrə ümumi idxal-ixrac dövriyyəsində xüsusi çəkisi 28% təşkil etmişdir. Hesabat dövründə ilkin gəlirlər üzrə daxilolmaların və ödənişlərin ümumi dövriyyəsi 5,9 mlrd. dollara çatmışdır. Bu məbləğin isə əsas hissəsini yəni 3,1 mlrd. dollar təşkil etməklə beynəlxalq neft-qaz konsorsiumları üzrə xarici investorların payına düşən gəlirlərin repatriasiyası (əsasən xam neft şəklində), qeyri-rezidentlərə ödənilmiş əmək haqları 286,5 mln. dollar və xarici kreditlərdən istifadəyə görə ödənilən faizlər 547,5 mln. dollar təşkil edir. Təkrar gəlirlər üzrə xarici ölkələrlə aparılan əməliyyatların ümumi dəyəri 3,4 mlrd. dollar məbləğində qiymətləndirilmişdir. Bu məbləğin 52,5%-ni ölkəyə daxilolmalar təşkil edir. Bütövlükdə, təkrar gəlirlər üzrə əməliyyatların saldosu müsbət 174,2 mln. dollar təşkil etmişdir. İl ərzində ölkənin xalis maliyyə aktivləri 11,7 mlrd. dollar təşkil etmişdir. Bu göstərici əsasən xaricə yönəldilmiş birbaşa investisiyalar 2208,8 mln. dollar, portfel investisiyaları 429,5 mln. dollar və digər investisiyalar 9053,9 mln. dollar hesabına formalaşmışdır. Birbaşa investisiyalar formasında xaricdən cəlb olunmuş sərmayələrin ümumi məbləği 8 mlrd. dollar olmuşdur. [8, s.74] Bu investisiyaların strukturunda neft-qaz sektorunun xüsusi çəkisi 83,6% təşkil etmişdir. Qiymətləndirmələrə görə qeyri-neft sektoruna cəlb olunmuş birbaşa investisiyaların ümumi məbləği 1318,5 mln. dollar olmuşdur. 2014-cü ildə Azərbaycandan xarici iqtisadiyyata yönəldilmiş birbaşa investisiyalar isə 2,2 mlrd. dollar təşkil etmişdir.

Hesabat ilində kreditlər və ssudalar üzrə xalis maliyyə aktivləri 189.2 mln. dollar, xalis maliyyə öhdəlikləri isə 1543,5 mln. dollar artmışdır. Xalis maliyyə öhdəlikləri birbaşa dövlət və dövlət təminatlı kreditlər 423,5 mln. dollar, banklar 449,4 mln. dollar və digər müəssisələr və firmalar hesabına 670,6 mln. dollar artmışdır. Depozitlər və nağd valyuta üzrə xalis maliyyə aktivləri 4,8 mlrd. dollar, xalis maliyyə öhdəlikləri isə 410,0 mln. dollar artmışdır. Tədiyyə balansında profisit ölkənin strateji valyuta ehtiyatlarının artmasına səbəb olmuşdur. Hesabat dövründə ölkənin ehtiyat aktivləri 4194 mln. dollar məbləğində artmışdır. 2014-cü ilin yekunları üzrə ölkənin strateji ehtiyatlarının ÜDM-ə nisbəti 68,4%, idxala kifayətliliyi isə 30 aydan çox olmuşdur. Apardığımız təhlilin nəticələrindən göründüyü kimi, 2014-cü ilin "Elektron Statistik Analitik Hesabatlılıq Sistemi-2" layihəsinin icrası sayəsində respublikanın bank sisteminin dinamik inkişafına nail olunmuşdur.

Nəticə

Alınmış nəticələr çərçivəsində tsikli qabaqlayan və tsiklə nisbətdə gecikən indikatorlar formalaşdırılmışdır. İl ərzində müxtəlif ekonometrik metodlardan istifadə etməklə, biznes tsiklləri və iqtisadi fluktuasiyaların mənbələri tədqiq edilmişdir. "Tsiklik barometrin ölçülməsi" adı ilə aparılan bu tədqiqat çərçivəsində məcmu buraxılış kəsirinin mövcud vəziyyəti və perspektiv dəyişmə meyli, habelə iqtisadiyyatın tsikl üzrə yerləşmə nöqtəsi qiymətləndirilmişdir. Aparılan

qiymətləndirmələr əsasında Mərkəzi Bank inflyasiyanın və məşğulluğun gələcək dinamikasını öyrənməklə mühüm nəticələr əldə etmişdir. İnkişafın istiqamətlərinin düzgün proqnozlaşdırılması və obyektiv qərarların generasiyası dolğun və hərtərəfli informasiya təminatına əsaslanır və yalnız doğru statistik məlumatları ekonometrik təhlil, modellər vasitəsi ilə proznozlaşdırmaq mümkündür. İqtisadi (maliyyə və qeyri-maliyyə) aktivlərə sərmayə qoyuluşu ekoloji, iqtisadi və insan kapitalının kəmiyyət və keyfiyyətinin düzgün statistikasını tələb edir. Bu məsələlərin vaxtında həll edilməməsi qoyulmuş sərmayələrin effektivliyini və strukturunu müəyyənləşdirmək üçün çətinlik yaradır. Hətta fəaliyyətin son nəticəsi ilə ilkin xərclərin müqayisəsi belə mümkün olmur. Bütün bu problemləri sistemli araşdırmaq ücün beynəlxalq təşkilatlar tərəfindən davamlı inkişaf konsepsiyası irəli sürülmüşdür. Həmin konsepsiyaya əsasən sərmayənin optimal qoyuluşu ölkədə iqtisadi inkişafa və sosial ədalətin bərpa olunmasına yönəldilir.

Uzunmüddətli dövrdə iqtisadi diversifikasiya və ixrac yönümlü iqtisadiyyatın dəstəklənməsi istiqamətində idxal və ixracın daxili və xarici tələbə, həmçinin məzənnəyə elastikliyi tədqiq edilmişdir. Alınmış nəticələr qlobal şokların və məzənnədəki dəyişikliklərin transmissiyasının qiymətləndirilməsində mühüm rola malikdir. Maliyyə sisteminin inkişafının tədqiqi istiqamətində bank sektorunun maliyyə vasitəçiliyi və iqtisadi artım arasında əlaqə qiymətləndirilmişdir.

ƏDƏBİYYAT

1. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2013.
2. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2014.
3. Məmmədov Z.F. Pul və Banklar. Bakı, 2008, 399 s.
4. Ələkbərov Ə.Ə. Sosial-iqtisadi inkişafın maliyyə - büdcə parametrlərinin tənzimlənməsi (monoqrafiya). Bakı, “Elm”, 2007, 448 s.
5. Трубникова Е.И. Координация деятельности органов контроля за исполнением федерального бюджета // Финансы и кредит. 2008, № 6.
6. Əlirzayev Ə.Q. Təcrübə meyillər və perspektiv istiqamətlər. Bakı, 2005.
7. Əliyeva T.T., Əsgərova T.V. Dünya ölkələrinin bank sistemi. Bakı, 2014.
8. Jang-Yung-Lee Sterlizing Capital Inflows IMF Washington 2000.

Тахмина Алиева
д.ф.э , АГЭУ;
Хумай Мурсалова
АГЭУ

Исследование, финансово - банковской статистики в Азербайджанской Республике, анализ и транснациональная оценка

Резюме

В статье исследовано создание новой методологической базы экономико-статистического анализа и прогнозирования, а также применение ее в экономике в период перехода от принципов централизованного управления экономики к рыночным отношениям. Кроме того, в статье изучена роль и результаты продолжения схематичного выполнения проекта “Электронная статистическая и аналитическая расчетная система” в банковской системе республики в рамках развития статистики в Центральном Банке и произведен его статистический анализ.

Ключевые слова: финансово-банковская система, финансово-банковская статистика, расчетная система, транснациональная оценка.

Tahmina Aliyeva,
doctor of philosophy in economics, ass. prof. ASEU;
Humay Mursalova
ASEU

A study, analysis and transnational estimation of the bank-finance statistics in Azerbaijan Republics

Summary

In ths paper is analized a development of the new methodological basis for the economic statistical analysis and prognosing with its further apply to economy in the period of transition to market relations from the centralized management principles of economy. İn addition a continuation of the "E-2 Statistical Analysis Reporting System" according to the schedule as the project in the framework of development of statistics in Central Bank, its role in a banking system and statistical analysis has been carried out.

Key words: the bank-financial system, the bank-financial statistics, reporting system, transnational estimation.

UOT 336.71

Tural Mahir oğlu MUSTAFAZADƏ
Azərbaycan Universitetinin dissertantı

BANK XİDMƏTLƏRİNİN İNKİŞAF MEYİLLƏRİNİN TƏHLİLİ

Xülasə

Məqalədə son zamanlar beynəlxalq bank xidmətlərində baş verən meyillər tədqiq olunur. Qeyd olunur ki, dünya bank sektorunda rəqabətin gücləndirilməsi və informasiya texnologiyalarının inkişafı bank xidmətlərinin telefon, modem və kompüter vasitəsilə göstərilməsini nəzərdə tutan ev bankçılığının yaranmasına gətirib çıxarmışdır. Məqalədə həmçinin maliyyə məsləhəti, aktivlərin idarəedilməsinin bankların əməliyyatında ön plana çıxdığı göstərilir.

Açar sözlər: investisiya bankçılığı, ev bankçılığı, mobil bankçılıq, internet bankçılığı.

Giriş

Bankın dünya bank sektoruna inteqrasiyasının mühüm şərtlərindən biri bankın göstərdiyi xidmətlərin beynəlxalq bank xidmətlərinin keyfiyyət meyarlarına cavab verməsidir. Müasir beynəlxalq bank xidmətlərinin təhlili investisiya, məsləhət, informasiya, ev bankçılığı xidmətlərinin sürətlə artdığını göstərir. Maliyyə məsləhəti, aktivlərin idarəedilməsi, mobil və İnternet-bankçılığı xidmətləri bankların əməliyyatında ön plana çıxır.

Bank xidmətlərinin telekommunikasiya vasitəsilə göstərilməsi bank xidmətləri inkişafının əsas meyillərindən biri olaraq çıxış edir. Bank xidmətləri bazarının tədqiqi bank xidmətlərinin göstərilməsi zamanı telefon, telefaks və İnternetin rolunun sürətlə artdığını göstərir. Statistikaya əsasən bankın illik xərclərində kompüter xərclərinin payı 17%-dən çox təşkil edir.

Müasir banklar xüsusi diqqəti risklərin minimallaşmasına ayırır. Bu risklərin sığortalanmasının əsas alətlərindən biri overdraft kreditidir: bankın overdraft krediti müştərinin müvəqqəti maliyyə çətinlikliyini aradan qaldıraraq birincisi, müştərilərin maliyyə dayanıqlığını təmin edir, ikincisi müştəri ilə daha sıx əlaqələr yaratmağa və beləliklə, öz mövqelərini gücləndirməyə imkan verir.

Dünya maliyyə bazarları inkişaf etdikcə və yeni maliyyə alətləri yarandıqca bankların beynəlxalq investisiya xidmətlərinin əhəmiyyəti artır. Bu xidmətlərin göstərilməsi bankın dünya maliyyə sisteminə yüksək dərəcədə inteqrasiya olduğunu göstərir, çünki onun bütün iştirakçıları ilə sıx əməkdaşlığını nəzərdə tutur. Transmilli bankların müştərilərinə göstərdiyi əsas bank investisiya xidmətlərinə maliyyə resurslarının cəlb olunması; biznesin restrukturizasiyası (birləşmələr və udmalar); broker xidmətləri; aktivlərin idarəedilməsi (qiymətli kağızlar portfelinin); müştərilərə məsləhətlər kimi xidmətləri aid etmək olar.

Müasir bank xidmətlərinin inkişaf meyilləri: ev bankçılığı

Bankın dünya bank sektoruna inteqrasiyasının mühüm şərtlərindən biri bankın göstərdiyi xidmətlərin beynəlxalq bank xidmətlərinin keyfiyyət meyarlarıdır. Müasir beynəlxalq bank xidmətlərinin təhlili investisiya, məsləhət, aktivlərin idarəedilməsi, mobil və İnternet-bankçılığı xidmətlərinin sürətlə artdığını və bankların əməliyyatında ön plana çıxdığını göstərir. Dünya bank sektorunda rəqabətin gücləndirilməsi və informasiya texnologiyalarının inkişafı, bank xidmətlərinin müştərinin evində və ya ofisində telefon, modem və kompüter vasitəsilə göstərilməsini nəzərdə tutan tamamilə yeni bank xidməti olan ev bankçılığının yaranmasına gətirib çıxarmışdır. Ev bankçılığı göstərilən xidmətlərin çeşidini artırmağa, müştərilər üçün bankın və bank xidmətlərinin əlçatanlığını artırmağa, onların göstərilməsini sürətləndirməyə və maya dəyərini və əməktutumluğu azaltmağa imkan verir. [4, s.5]

Ev bankçılığında üç əsas inkişaf istiqamətini qeyd etmək olar [4]: “müştəri-bank” sistemi, internet bankçılığı və mobil bankçılıq.“Müştəri-bank” sistemi vasitəsilə bankın müştəriləri evdən

və ya ofisdən müxtəlif əməliyyatları həyata keçirə bilir: vəsaitlərin bir hesabdan digər hesaba köçürülməsi, kredit almaq üçün müraciətin edilməsi, ödənişlərin həyata keçirilməsi və s. İnternet bankçılığı bank xidmətlərinin İnternet vasitəsilə göstərilməsidir. "Müştəri-bank" sistemindən fərqli olaraq İnternet bankçılığı hansısa kompüterə bağlı deyil və müştəri bank əməliyyatlarını istənilən bankda İnternet vasitəsilə həyata keçirə bilir.

Mobil bankşılıq bank əməliyyatlarının mobil telefon, noutbuk və sair mobil qurğular və simsiz İnternet vasitəsilə həyata keçirilməsidir. İnternet bankçılığının mühüm istiqamətlərindən biri internet vasitəsilə 24 saat ərzində fərdi məsləhətlərin verilməsidir. İnternet bankçılığının inkişafı banklarda filial və şöbələr şəbəkəsinin rolunun azalmasına gətirib çıxarır. İnternet xidmətlərinin göstərilməsi nəticəsində filiallardan istifadə edənlərin sayı və beləliklə filial əməliyyatlarının həcminin azaldılması bank xərclərini 20%-dək azaltmağa imkan verir. [2]

Son zamanlar həmçinin mobil ödənişlərin sürətli inkişafı müşahidə olunmaqdadır. MasterCard-ın sifarişi ilə 56 ölkədə, Şimali və Cənubi Amerika, Avropa və Sakit okean hövzəsi regionlarında həyata keçirdiyi "Mobil Ödənişlərin Araşdırması" mobil ödənişlərin inkişaf etdiyini, həmçinin istifadənin və bu xidmət növündən istifadə edərək ödənişləri qəbul edən ticarət müəssisələrinin sayının sürətlə artdığını göstərir. [1, s.13] Belə ki, 2013-cü ildə sosial mediada mobil ödənişlərdən istifadəni müzakirə edən əhalinin 81%-inin bu xidmət vasitəsi ilə ödənişlər həyata keçirdiyi məlum olmuşdur. Halbuki 2012-ci ildə bu göstərici cəmi 32% təşkil edirdi. Mobil ödənişlərin inkişafını şərtləndirən əsas amillərdən biri ticarət müəssisələrinin bu tip ödəniş sisteminə münasibətinin dəyişməsidir. Belə ki, ticarət şirkətləri mobil ödənişlərin qəbulunu müqayisəli üstünlük kimi qəbul edir. Mobil ödənişlərin inkişafı bank sektoru üçün yeni imkanlar yaradır. Bir çox banklar mobil ödənişlər sistemini işə salır. Sistem insanlara mobil telefon vasitəsilə bank hesabından pul köçürmələrini həyata keçirməyi, depozitlərin yerləşdirilməsi (çekin şəklinin çəkilməsi ilə), ödənişləri və s. əməliyyatları həyata keçirirlər.

Mobil ödənişlər sistemi bank xidmətlərinə çıxışı olmayan milyonlarla insanlar, ilk növbədə aşağı gəlirli əhali üçün nəzərdə tutulur və mobil operatorların xidmət sahələrinin bank bazarında genişlənməsinin əsas məqsədi mobil istifadəçilərin müştəri loyallığının artırılmasıdır. [1, s. 15] Belə ki, Federal Rezerv Sisteminin araşdırması nəticəsində məlum olmuşdur ki, ABŞ-da bank hesabı olmayan əhali qrupu mobil bank xidmətinə maliyyəyə çıxış vasitəsi kimi baxır. [1, s. 16] Araşdırma göstərir ki, respondentlərin 23%-i mobil bankçılıqdan istifadənin ən əsas səbəbi kimi formal bank hesabı açmağa ehtiyacın olmamasını göstərsə də, 17% bank hesabının açılması üçün kifayət qədər pulunun olmadığını qeyd edir. Araşdırma həmçinin göstərir ki, mobil telefon istifadəçilərinin 90%-i son 12 ayda telefonları balans hesablarını və ya son tranzaksiyaları yoxlamaq üçün istifadə etmişlər. Bu da ABŞ-da istehlakçı davranışlarının ənənəvi bankçılıqdan uzaqlaşdığına işarədir. Mobil bankçılıq kənd yerlərində daha böyük əhəmiyyət kəsb edir. Belə ki, tez-tez iri şirkətlərin fermerlərə ödəniş etmək zərurəti yaranır. Lakin, bu zaman ödənişi qəbul edən şəxslərin bank hesabı olmur və ya nağd şəkildə ödəniş etmək mümkün deyil. Bu xidmət vasitəsilə həmin təşkilatların bank hesabından ödənişi qəbul edəcək şəxslərin mobil portmanata və əksinə ödənişləri həyata keçirməyə imkan verir. Mobil bankçılıq əhalinin gəlirləri aşağı olan ölkələrdə də tətbiq olunur. 2013-cü ilin sonunda mobil bankçılıq Keniyada tətbiq olunmuşdur və əsasən bankların korporativ müştərilərini əhatə edir. Bu xidmət həmçinin Nigeriyada da tətbiq olunmağa başlanmışdır və xidmətin Asiya və Afrikanın daha 10 ölkəsində tətbiqi planlaşdırılır. [8]

Aparıcı transmilli bankların inkişaf meyillərinin təhlili dünya bank sektorunun yaxın gələcəkdə aşağıdakı istiqamətdə inkişaf edəcəyini deməyə əsas verir: şirkətlərdə "daxili bankların" yaradılması; balansdankənar xidmətlərin göstərilməsi hesabına bank fəaliyyətinin diversifikasiyası;qiymətli kağızlar bazarında fəaliyyətin genişləndirilməsi.

"Daxili bank". Son zamanlar transmilli şirkətlərdə, şirkətlərin maliyyə ehtiyaclarını təmin edən "daxili bank"ın yaradılması meyli genişlənmişdir. [9;10; 1] "Daxili banklar" Britiş Petroli-

um , Airbus [6], Volvo [13] və sair şirkətlərdə fəaliyyət göstərir. Şirkətlərdə "Daxili bank"ın yaradılması aşağıdakı məqsədləri güdür: şirkətdaxili maliyyələşmənin həyata keçirilməsi;şirkətdaxili kommersiya ödəmələrinin həyata keçirilməsi;kənar tərəflərlə ödəmələrin həyata keçirilməsi."Daxili bank" şirkətlərə bank xərclərini azaltmağa imkan verir: xarici bank hesablarının sayı azalır və bu, bank hesabları üzrə komissiya xərclərini azaldır; Şirkətdaxili borclar şirkətlərə faiz xərclərini azaltmağa imkan verir.

Məsləhət və informasiya xidmətləri

Banklarda balansdankənar xidmətlərin həcminin artması məsləhət və informasiya xidmətlərinin rolunun artması ilə əlaqədardır. Məsləhət xidmətləri arasında ən çox maliyyə məsləhətləri, birləşmə və udma üzrə, strateji investorun axtarışı üzrə, müflisləşmə üzrə məsləhətlər artmışdır. Balansdankənar xidmətlərin həcminin artması həmçinin informasiya xidmətlərinin artması ilə əlaqədardır. İnformasiya resurslarının real iqtisadi resurslara transformasiya olunduğu və informasiya xidmətlərinin istehlak və istehsal obyektinə çevrildiyi müasir şəraitdə banklar daha çox müştəri üçün informasiya və məsləhət mərkəzi kimi çıxış edir.

Xarici bank aktiv və passivlərinin artması

Son zamanlar multivalyuta kredit xətləri geniş yayılmışdır. Belə ki, transmilli banklar müştərilərə kredit verərkən onlara ölkəni, valyutanı və faiz dərəcəsini seçmək hüququnu verir və bu, müştərilərə ən ucuz maliyyələşmə mənbələrini seçməyə imkan verir. Son zamanlar xarici ticarətdə müşahidə olunan artım beynəlxalq bank xidmətlərinin artmasını şərtləndirir. Belə ki, 1980-90-cı illərdə dünya ixracının orta illik artım tempi 5,9%, 1990-2000-ci illərdə 6,7% olmuşdursa, 2000-2010-cu illərdə bu göstərici 10,9% təşkil etmişdir. Müvafiq olaraq Böyük Britaniyada xarici bank aktivləri (ÜDM-ə nisbətdə) 2002-2009-cu illərdə 156%-dən 249%-dək, 169%-dən 274%-dək, Fransada 56%-dən 96%-dək, Almaniyada 68%-dən 93%-dək, İtaliyada 20%-dən 28%-dək artmışdır (diaqram 1). Xarici bank passivləri də müvafiq olaraq artmışdır: Böyük Britaniyada 2002-ci ildə 169%-dən 2009-cu ildə 274%-dək, Fransada 60%-dən 90%-dək, İtaliyada 25%-dən 41%-dək (diaqram 2). Almaniyada isə böhran ilə əlaqədar olaraq xarici bank passivlərində azalma müşahidə olunur: xarici bank passivləri (ÜDM-ə nisbətdə) 2002-ci ildə 58%, 2007-ci ildə 60%, 2009-cu ildə 51% təşkil etmişdir.



Mənbə: [7, s. 25]

Bankların göstərdiyi xidmətlər aşağıdakı meyarlara cavab verməlidir [4]: Hesablaşmaları həyata keçirmək üçün banklar likvid vəsaitlərin kifayət həcmini təmin edən aktiv və kapitala malik olmalıdırlar; Bankların beynəlxalq hesablaşmaları həyata keçirmək üçün bütün əsas hesablaşma sistemlərinə birbaşa çıxışı olmalıdır; İnkişaf etmiş filial və müxbir şəbəkəsinin mövcud olması; Rəqabətqabiliyyətli tariflərlə yüksək keyfiyyətli xidmətlərin göstərilməsi.

Bank sektorunda risklərin minimallaşdırılması

Müasir banklar xüsusi diqqəti risklərin minimallaşmasına ayırır. Bu risklərin sığortalanmasının əsas alətlərindən biri overdraft kreditidir: bankın overdraft krediti müştərinin müvəqqəti maliyyə çətinliyini aradan qaldıraraq birincisi, müştərilərin maliyyə dayanıqlığını təmin edir, ikincisi müştəri ilə daha sıx əlaqələri yaratmağa və beləliklə öz mövqelərini gücləndirməyə imkan verir.

Bankın dünya maliyyə sisteminə inteqrasiyası prosesində həmçinin müştərinin xarici ticarət müqavilələri üzrə beynəlxalq bank xidmətləri mühüm rol oynayır: avans ödəmələrinin həyata keçirilməsi, daşınmadan sonra ödəmə, açıq hesab ticarəti, akkredetivlərin açılması və təsdiqi, inkasso xidmətləri.

Beynəlxalq investisiya xidmətləri

Dünya maliyyə bazarları inkişaf etdikcə və yeni maliyyə alətləri yarandıqca bankların beynəlxalq investisiya xidmətlərinin əhəmiyyəti artır. Bu xidmətlərin göstərilməsi bankın dünya maliyyə sisteminə yüksək dərəcədə inteqrasiya olduğunu göstərir, çünki onun bütün iştirakçıları ilə sıx əməkdaşlığını nəzərdə tutur. Transmilli bankların müştərilərinə göstərdiyi əsas bank investisiya xidmətlərinə aşağıdakıları aid etmək olar: maliyyə resurslarının cəlb olunması; biznesin restrukturizasiyası (birləşmələr və udmalar); broker xidmətləri;aktivlərin idarəedilməsi (qiymətli kağızlar portfelinin idarə edilməsi); müştərilərə məsləhətlər.

Transmilli bankların müştərilərinə göstərdiyi əsas investisiya xidmətlərindən biri maliyyə vəsaitləri və investisiyaların cəlb edilməsi üzrə xidmətdir. Maliyyə vəsaitlərinin cəlb edilməsi əsasən müştərinin qiymətli kağızlarının yerləşdirilməsini nəzərdə tutur.

Şirkətin nizamnamə kapitalını artırmaq məqsədilə və ya yeni yaradılmış şirkətin səhmlərinin emissiyası və yerləşdirilməsi prosesi 1 ilə qədər uzana bilər və 4 mərhələdən ibarətdir:1-ci mərhələ - Hazırlıq. Müştəri ilə müqavilənin imzalanmasına hazırlıq, ilk görüş, sövdələşmənin strukturlaşmasının detallı qrafikinin hazırlanması. 2-ci mərhələ-sənədlərin hazırlanması. Səhmlərin həcmi, müddəti, təklifin strukturu və qiyməti və yerləşdirmə metodikasının müəyyən edilməsi üzrə məsləhətlər. 3-cü mərhələ-marketinq tədbirləri. Səhmlərin yerləşdirilməsi proqramının investorlara prezentasiyası. 4-cü mərhələ-sövdələşmənin bitməsi. Sövdələşmənin bitməsi üçün zəruri hüquqi sənədlərin hazırlanmasına nəzarət.

Qeyd edək ki, investisiya bankları özləri də çox vaxt mənfəət əldə etmək üçün şirkətlərin qiymətli kağızlarının alqı-satqısında iştirak edir.Banklar müştərinin qiymətli kağızlarının yerləşdirilməsi ilə yanaşı müştəri üçün maliyyə vəsaitlərini digər yollarla da cəlb edə bilər, məsələn, sindikat kreditin təşkili və idarə edilməsi. Bank həmçinin özü də sindikat kreditləşmədə iştirak edə bilər. Bir neçə transmilli bank tərəfindən verilən sindikat kreditləşmədə iştirak bankların inteqrasiyasını gücləndirməklə yanaşı həmçinin bankların kredit risklərini azaltmağa imkan verir.

Bankların geniş istifadə etdiyi ən müasir maliyyə aləti sekyuterizasiyadır. Sekyuterizasiya borcverənin aktivləri əsasında törəmə qiymətli kağızların emissiyasını nəzərdə tutur. Sekyuterizasiyanın mahiyyəti ondan ibarətdir ki, banklar bir neçə aktivi (buna baza aktiv deyilir) bir pula birləşdirib xüsusi yaradılmış maliyyə şirkətinə satır. Sonra həmin maliyyə şirkəti əldə etdiyi aktivlər əsasında qiymətli kağızlar buraxır. Bu qiymətli kağıların sahibi baza aktivin gətirdiyi gəlirin müəyyən hissəsini əldə edir. [3, s. 48]

Maliyyə məsləhətləşməsi aşağıdakı xidmətləri daxil edir: şirkətin kompleks yoxlanılması, maliyyə modelləşməsi, investisiya cəlbediciliyinin qiymətləndirilməsi, şirkətin biznes-planının hazırlanması, investorlar və sövdələşmə iştirakçıları üçün informasiya memorandumunun hazırlanması, potensial investorların seçilməsi, sövdələşmənin strukrurlaşması, danışıqların aparılması.

Beynəlxalq fond bazarları inkişaf etdikcə müştərilərin aktivlərinin idarə edilməsi üzrə bank xidmətləri geniş yayılmaqdadır. Aktivlərin idarəedilməsi üzrə beynəlxalq bank xidmətləri beynəlxalq fond bazarlarında investisiya portfelinin formalaşdırılması və idarəedilməsi üzrə xidmətləri nəzərdə tutur.

Müştərinin portfelinin formalaşdırılması və idarəedilməsi üzrə xidmətlər aşağıdakı mərhələlərdən ibarətdir:

1) Ölkənin, regionun makroiqtisadi təhlili, bazarların təhlili;

2) İnvestisiya portfelinin regionlar üzrə strukturlaşması (ölkələrin reytinq qiyməti və investisiya alətlərinin seçilməsi);

3) Potensial investisiya portfelinin aşağıdakı meyarlar üzrə ölkələr üzrə bölüşdürülməsi: təhlil olunan ölkələrin makroiqtisadi göstəricilərinin müqayisəsi, dövlət büdcələri göstəricilərinin müqayisəsi, fond bazarlarında likvidliyin müqayisəsi, ölkə risklərinin müqayisəsi;

4) Ölkələr üzrə portfelin şaxələndirilməsinə yenidən baxılması və hər bir region üzrə investisiya alətlərinin seçim strategiyasının formalaşması;

5) İnvestorun portfelinin formalaşması və idarəedilməsi.

Portfelin idarəedilməsi üzrə xidmətlərlə yanaşı həmçinin qiymətli kağızların saxlanması və alqı-satqı sövdələşmələri üzrə hesablaşmaların həyata keçirilməsi üzrə bank xidmətləri göstərilir.

Nəticə

Bankın dünya bank sektoruna inteqrasiyasının mühüm şərtlərindən biri bankın göstərdiyi xidmətlərin beynəlxalq bank xidmətlərinin keyfiyyət meyarlarına cavab verməsidir.

Dünya bank sektorunda rəqabətin gücləndirilməsi və informasiya texnologiyalarının inkişafı telefon, modem və kompüter vasitəsilə göstərilməsini nəzərdə tutan ev bankçılığının yaranmasına gətirib çıxarmışdır.

Ev bankçılığı bank xidmətlərinin çeşidini artırmağa, müştərilər üçün bankın və bank xidmətlərinin əlçatanlığını artırmağa, onların göstərilməsini sürətləndirməyə və maya dəyərini və əməktutumluğunu azaltmağa imkan verir.

İnternet bankçılığının inkişafı filiallardan istifadə edənlərin sayını və beləliklə filial əməliyyatlarının həcmini azaldaraq bank xərclərini 20%-dək azaltmağa imkan verir.

Mobil bankçılıq bank xidmətlərinə çıxışı olmayan milyonlarla insanlar, ilk növbədə aşağı gəlirli əhali üçün nəzərdə tutulur. Mobil bankçılıq kənd yerlərində daha böyük əhəmiyyət kəsb edir, çünki iri şirkətlərin fermerlərlə ödənişlərini aşanlaşdırır.

Son zamanlar xarici ticarətdə müşahidə olunan artım beynəlxalq bank xidmətlərinin artmasını şərtləndirir. Böyük Britaniyada xarici bank aktivləri (ÜDM-ə nisbətdə) 2002-2009-cu illərdə 156%-dən 249%-dək, 169%-dən 274%-dək, Fransada 56%-dən 96%-dək, Almaniyada 68%-dən 93%-dək, İtaliyada 20%-dən 28%-dək artmışdır.

Dünya maliyyə bazarları inkişaf etdikcə və yeni maliyyə alətləri yarandıqca bankların beynəlxalq investisiya və məsləhət xidmətlərinin əhəmiyyəti artır. Bu xidmətlərin göstərilməsi bankın dünya maliyyə sisteminə yüksək dərəcədə inteqrasiya olduğunu göstərir, çünki onun bütün iştirakçıları ilə sıx əməkdaşlığını nəzərdə tutur.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikası Mərkəzi Bankı. Tədqiqat bülleteni, №1, 2014.
2. Володина В.Н. Банковское обслуживание частного клиента с использованием мобильной связи//Банковские услуги <http://www.SmartCat.ru/Referat/itfeqramvr/>. 2001. № 9.
3. Джобст А. Что такое секьюритизация? Финансы & развитие, сентябрь 2008.
4. Петров А.В. Макроэкономические аспекты интеграции российских банков в мировую финансовую систему, www.smartcat.ru/Referat/FinancialManagement/Debentures.shtml <http://www.smartcat.ru/Referat/FinancialManagement/Debentures.shtml>
5. Соколова В.В. İnternet-bankinq
6. Airbus to buy German-based bank for in-house ops, http://www.marketwatch.com/story/airbus-to-buy-german-based-bank-for-in-house-ops-2014-02-14, Feb. 14, 2014, 3:41 a.m.

7. Allen F., Beck Th., Carletti E., Lane Ph.R., Schoenmaker D and Wagner W. Cross-Border Banking in Europe: Implications for Financial Stability and Macroeconomic Policies, Centre for Economic Policy Research 2011.
8. The Banker. The Banker technology projects of the year 2014, August 2014.
9. Fact Sheet: Payment Factory And In-House Bank, Wall Street Systems, 2007.
10. Heinkel and Levi. The structure of international banking', Journal of International Money and Finance, 11, 251-72. 1992.
11. İn-House Banks: Gaining in Popularity, http://www.treasury-management.com/article/1/267/2240/in-house-banks-gaining-in-popularity.html
12. http://www.bp.com/en/global/corporate/press/bp-magazine/issue-four-2011/bp-treasury.html
13. http://www3.volvo.com/investors/finrep/ar13/eng/riskanduncertaintie/financial-risk.html
14. http://fn.dealogic.com/fn/IBRank.htm <http://fn.dealogic.com/fn/IBRank.htm>
15. http://invbirzha.blogspot.com/2011/12/blog-post_14.html <http://invbirzha.blogspot.com/2011/12/blog-post_14.html>

Турал Махир оглы Мустафазаде
диссертант Университет Азербайджана

Анализ тенденций развития банковских услуг

Резюме

В статье исследуются последние тенденции в развитии банковских услуг. Отмечено, что развитие информационных технологий в банковском секторе и усиления конкуренции в сфере банковских услуг привело к развитию домашнего банкинга, предусматривающего оказание банковских услуг посредством телефона, модема и компьютера. В статье также показано, что финансовое консультирование, управление активами становятся основными банковскими услугами.

Ключевые слова: инвестиционный банкинг, домашний банкинг, мобильный банкинг, интернет банкинг.

Mustafazade Tural
candidate for a degree of
Azerbaijan University

Analysis of tendencies in banking services

Summary

The article explores recent trends in banking services. It is noted that strengthening competition and development of information technology in the global banking sector has led to the creation of home banking providing for rendering services by means of telephone, modem and the computer. The article also shows that financial advisory, asset management comes to the foreground in banking services.

Key words: investment banking, home banking, mobil banking, internet banking.

UOT 336.1; 336.22

Fail Mail oğlu KAZIMOV
AMEA-nın İqtisadiyyat İnstitutunun doktorantı

MİLLİ İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNDƏ VERGİ SİYASƏTİNİN ROLU VƏ ONUN ƏSAS GÖSTƏRİCİLƏRİ

Xülasə

Ölkədə formalaşdırılan və həyata keçirilən vergi siyasəti iqtisadiyyatın dinamik inkişafının, milli iqtisadi təhlükəsizliyinin təmin olunmasının əsas göstəricisidir.

Məqalədə Azərbaycan Respublikasının vergi sisteminin formalaşması, əsas inkişaf istiqamətləri təhlil olunmuş, eyni zamanda vergi islahatlarının həyata keçirilməsində, vergi mexanizmlərinin səmərəliliyinin yüksəldilməsində, mütərəqqi vergi siyasətinin formalaşmasında mühüm əhəmiyyətli məsələlər öz əksini tapmışdır. Bununla yanaşı Azərbaycanda vergi sisteminin təkmilləşdirilməsinə dair təkliflər verilmişdir.

Açar sözlər: milli iqtisadiyyat, vergi siyasəti, vergi islahatı, ikiqat vergitutma, iqtisadi təhlükəsizlik, milli gəlir, iqtisadiyyatın tənzimlənməsi.

Giriş

Hər bir ölkənin milli təhlükəsizliyinin maddi əsasını milli iqtisadiyyat təşkil edir. Milli iqtisadi təhlükəsizlik mürəkkəb quruluşa malik olub, iqtisadiyyatın ayrı-ayrı sahələrini bütün səviyyələrdə əhatə edir. İqtisadi təhlükəsizlik - milli iqtisadiyyatın müstəqilliyini, sabitliyini və dayanıqlığını təmin edən, ona daim yenilənməyə və özünü təkmilləşdirməyə imkan verən şərt və amillərin məcmusudur.İqtisadi təhlükəsizliyin mahiyyətini milli maraqların zəmanətli müdafiəsini təmin edən iqtisadiyyatın və hakimiyyət təsisatlarının vəziyyəti, ümumilikdə ölkənin sosial yönümlü inkişafı, daxili və xarici bazarların inkişafının əlverişsiz şəraiti zamanı onun kifayət qədər müdafiə potensialına malikolma qabiliyyəti təşkil edir. [7, s. 29]

Milli iqtisadi təhlükəsizliyin təmin olunmasının əsas mexanizmləri. Azərbaycan Respublikasında milli iqtisadi təhlükəsizlik sisteminin tənzimlənməsi "Milli Təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli Qanunla təsbit olunmuş, dövlət tərəfindən yaradılan, qanunvericilik çərçivəsində fəaliyyət göstərən və Azərbaycan Respublikasının milli təhlükəsizliyini təminetmə qabiliyyətinə malik olan qurumlar tərəfindən həyata keçirilir.Azərbaycan Respublikasının iqtisadi sahədə milli təhlükəsizliyinin təmin olunması Azərbaycan Respublikasının milli iqtisadiyyatının və iqtisadi münasibətlərinin inkişafına təhlükə yaradan daxili və xarici amillərdən qorunmasıdır. [1, s. 1] Milli iqtisadi təhlükəsizlik xüsusilə iqtisadi böhran fazasında daha əhəmiyyətli xarakter daşıyır. Xalqın həyat səviyyəsinin yüksəldilməsi, strateji ehtiyatlardan səmərəli istifadə edilməsindən ibarət iqtisadi maraqların təmin olunması, geniş anlamda dünyada mövcud həyat səviyyəsi kriteriləri və sosial rifahın təmin olunması iqtisadi təhlükəsizliyin əsas göstəricisidir.

Milli iqtisadiyyat dedikdə, beynəlxalq iqtisadiyyatla qarşılıqlı əlaqə və asılılıq halında olan, ayrı-ayrı ölkələrin inzibati ərazi sərhədləri üzrə təbii, coğrafi, sosial-iqtisadi və texniki-texnoloji fərqlərinə görə bölünən müstəqil təsərrüfat sistemi başa düşülür. [4, s. 20] Əlbəttə ki, ölkənin milli təhlükəsizliyinin təmin olunması üçün ilk növbədə onun milli iqtisadi sistemi qurulmalı,mümkün qədər ölkənin iqtisadi modeli formalaşdırılmalıdır.

İqtisadi təhlükəsizliyin təmin edilməsinin və iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinin makroiqtisadi baxımdan mühüm alətlərindən biri, ən əsası büdcənin formalaşmasında müstəsna yeri olan vergilərdir. Dövlətin gəlirlərinin əsas formalaşma mənbəyi və iqtisadiyyatın əsas tənzimləmə vasitəsi olan vergilər milli iqtisadi təhlükəsizliyin təmin olunmasında mühüm rol oynayır.

Qapalı iqtisadi, inzibati idarəetmə sistemindən çıxıb bazar iqtisadiyyatına inteqrasiya edən ölkəmizin qarşısında duran əsas hədəflərdən biri də liberal və sosial iqtisadi sistemin tələblərinə uyğun vergi sisteminin qurulması olmuşdur.Müasir bazar iqtisadi sisteminin fəlsəfəsini təşkil edən liberal anlayış dövlətin iqtisadiyyata məhdud müdaxiləsini özündə ehtiva edir və burada əsas hədəf dövlət xərclərinin yeganə mənbəyi olan vergilərin artırılmasıdır. [12] Liberal iqtisadi sistem əhaliyə əsas iqtisadi azadlıqlara dövlət təminatı və hər şeydən əvvəl, hər bir arzu edən şəxsə "öz işinə" malik olmaq üçün sahibkarlıq fəaliyyəti növlərinin seçim azadlığını verir. Bu gün liberal anlayışların qayəsini təşkil edən prinsiplər çox sadədir: maksimum miqdarda vergi toplamaq və bunun müqabilində əhaliyə az miqdarda vəsaiti xidmət kimi təqdim etməkdir.

Sosial yönümlü bazar iqtisadi sistemində əhalidən yığılan vergilər mədəni sahələrin idarə olunması, sosial bölmənin maliyyələşdirilməsi və idarə edilməsinə, eləcə də dövlət və qeyri-dövlət bölmələrinin qarşılıqlı fəaliyyətinin təmin olunmasına daha çox sərf olunur. Müstəqillik əldə etdikdən sonra ölkəmizdə sosial yönümlü bazar iqtisadiyyatı sistemi formalaşdırılmış və bu model iqtisadiyyatımız üçün prioritet hesab olunmuşdur.

Dövlətin iqtisadi və sosial siyasətinin həyata keçirilməsinin əsas mexanizmi maliyyə sistemi və onun tərkib hissəsi olan büdcə-vergi siyasətidir. İqtisadi tarazlığın əldə olunmasında dövlətin iqtisadi siyasətinin əsasını təşkil edən vergi siyasətinin müstəsna rolu vardır.

Vergi siyasəti dedikdə, maliyyə resurslarının yenidən bölüşdürülməsi hesabına dövlətin və cəmiyyətin ayrı-ayrı sosial qruplarının maliyyə hesabatlarının təmin olunmasının və həmçinin ölkə iqtisadiyyatının normal inkişaf etdirilməsi məqsədilə ölkənin vergi sisteminin formalaşdırılması üzrə dövlətin keçiridiyi iqtisadi, maliyyə və hüquqi tədbirlərin məcmusu başa düşülür. [2, s. 32] Dövlət büdcəsinin gəlirlərinin təxminən 80-90%-ni formalaşdıran vergilər mal və xidmətlərin satışından, fiziki və hüquqi şəxslərin gəlirlərindən yığılaraq dövlətin real sektorunda maliyyə resursu kimi istifadə edilir və bilvasitə olaraq ümumi daxili məhsulun (ÜDM) artımına təsir göstərir. Ölkənin iqtisadi sabitliyinin və sosial rifahının təmin olunması məqsədilə real sektorlara qoyulan investisiyaların artması, sahibkarlara dövlət tərəfindən göstərilən müxtəlif yardımlar infrastruktur layihələrinin maliyyələşdirilməsində dövlətin əlində əsas vasitə rolunu oynayır. [8]

Vergilər iqtisadi fəallığa birbaşa təsir göstərir. Vergilər və iqtisadi fəaliyyət arasında sadə korrelyasiya göstərir ki, iqtisadi fəallıq artdıqda vergi daxilolmaları daha sürətlə artır.Məhz vergilər iqtisadiyyatın elə bir koteqoriyasıdır ki,burada dövlət istənilən təbəqədən olan əhalinin maraqları ilə istənilən məqamda toqquşur. Dövlət və fərd arasındakı etimad, ictimai təbəqənin fəaliyyətlərinin təsirləri, vergi sistemindən irəli gələn təsirlər, ən əsası cəmiyyətdə sağlam vergi şüurunun yaradılması vacib hesab olunur.Dövlət vergi siyasətilə, aksiz, rüsum dərəcələrini, maliyyə sanksiyalarını müəyyən etməklə və s. vəsait ayırmaqla iqtisadiyyata bilavasitə və dolayısı ilə təsir edir və ölkənin milli və iqtisadi təhlükəsizliyini qoruyur. [3, s.11]

Vergi siyasəti ölkənin iqtisadi inkişaf siyasətini reallaşdıran əsas mexanizmlərdəndir. Dövlətin yeritdiyi iqtisadi siyasətin məqsəd və formalarından asılı olaraq vergi siyasətinin aşağıdakı müxtəlif tiplərindən istifadə olunur:

- Optimal vergi siyasəti;
- Maksimal vergi siyasəti;
- Sosial yönümlü yüksək dərəcəli vergi siyasəti.

Optimal vergi siyasəti vasitəsilə ölkədə vergi yükü optimal səviyyədə saxlanılır və yüngülləşdirilir, eyni zamanda əlverişli vergi mühiti yaradılır. Milli istehsalın inkişafının və rəqabətqabiliyyətiliyinin artırılmasına yönəldilən ən vacib addımlardan biri də vergi yükünün azaldılmasıdır. İqtisadiyyatın vergi tənzimlənməsi sahəsində vergi dərəcələrinin optimallaşdırılmasının xüsusi əhəmiyyəti vardır. Bu prosesin nəzəri mahiyyəti vergilərin fiskal və tənzimləyici funksiyaları arasında nisbi bərabərliyə nail olunmasından ibarətdir. Onların üstünlüklərinin qeyd olunması təcrübə üçün çox zəruridir. [11]

Maksimal vergi siyasəti yüksək vergitutma, aşağı səviyyədə vergi güzəştlərinin tətbiqi ilə xarakterizə olunur.

Sosial yönümlü vergi siyasətində sosial müdafiə məqsədlərinə nail olmaq qarşıya qoyulur.

Vergilərin ən mühüm iqtisadi təsir sahələrindən biri də gəlirlərin bölgüsüdür. Milli gəlirin yenidən bölüşdürülməsi sahəsində dövlət büdcəsinə yığılan vergilər gəlir yaradılmayan (dövlət idarəçiliyi, müdafiə, təhsil, səhiyyə, sosial təminat) qeyri-istehsal sahələrini maliyyə vəsaitləri ilə təmin edir və zəif inkişaf edən iqtisadi sahələrə dotasiya, subsidiyalar ayıraraq iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafını stimullaşdırır. İnkişaf etmiş ölkələrdə müxtəlif səviyyəli büdcələr vasitəsilə ÜDM-in 30-50%-ə qədəri yenidən bölüşdürülür.

Azərbaycanda həyata keçirilən vergi siyasəti, aparılan islahatlar və əsas inkişaf istiqamətləri. Bazar münasibətlərinə keçidin müasir mərhələsində milli iqtisadiyyatın ən səciyyəvi cəhəti onun dövlət tənzimlənməsidir. Bu isə bir tərəfdən dövlətin iqtisadiyyata müxtəlif yollarla, o cümlədən vergilər vasitəsilə təsirinin səmərəli vasitə və üsullarının müəyyən edilməsini, digər tərəfdən isə bu və ya digər iqtisadi siyasət tədbirlərinin təsiri altında iqtisadiyyatın dəyişmə istiqamətinin və dövlətin fiskal siyasətinin alternativ variantlarının səmərəliliyinin qiymətləndirilməsi məsələlərinin həll edilməsini aktual edir. [5, s. 392]

Hazırda Azərbaycan Respublikasında vergi siyasətinin ana xətti aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

- vergi sisteminin normativ-hüquqi bazasının yaradılması,vergi mədəniyyətinin formalaşdırılması;
- vergi ödəyicilərinin fəaliyyəti üçün əlverişli şəraitin yaradılması və onların hüquqlarının maksimum qorunması;
- vergi yükünün optimal səviyyədə saxlanılması;
- vergi sisteminin idarəetmə orqanlarının fəaliyyətinin digər dövlət orqanları ilə əlaqələndirilməsi;
- sahibkarlıq və investisiya fəallığını stimullaşdıran,sadə və vergi ödəyicisi tərəfindən başa düşülən vergi sisteminin yaradılması. [10]

2001-ci ilin yanvarın 1-dən qüvvəyə minən Azərbaycan Respublikasının Vergi Məcəlləsi müstəqil Azərbaycanın həyatında yeni tarixi bir hadisə olaraq vergi sisteminin təkmilləşdirilməsi və onun beynəlxalq standartlara uyğunlaşdırılması sahəsində atılmış mühüm addımlardan hesab olunur. Ölkəmizdə vergi sferasında aparılan islahatların tərkib hissəsi kimi qabaqcıl dünya təcrübəsinə əsaslanan vergi xidməti qurulmuş, xidmətin müasir Avropa standartlarına uyğunlaşdırılması istiqamətində əməli addımlar atılmışdır. Həyata keçirilən transformasiyanın mühüm tərkib hissələrindən biri "Azərbaycan Respublikasında vergi inzibatçılığının təkmilləşdirilməsi dövlət proqramı"nın reallaşdırılması olmuşdur. Ölkə Prezidentinin 2005-ci il 12 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş dövlət proqramının həyata keçirilməsi nəticəsində vergi orqanlarında idarəetmə sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması,vergilərin könüllü ödənilməsi sisteminin,vergi ödəyicilərinin hüquqlarının qorunması, vergidən yayınma halları ilə mübarizənin gücləndirilməsi, vergilərin məcburi ödənilməsi sisteminin təkmilləşdirilməsi və vergi borclarının yaranmasının qarşısının alınması istiqamətində mühüm işlər görülmüşdür. Vergi orqanlarının ən mühüm strateji məqsədlərini müəyyən edən dövlət proqramının icrası çərçivəsində 5 əsas strateji istiqaməti əhatə edən tədbirlər kompleksi həyata keçirilmişdir. ABŞ Xəzinədarlıq Departamentinin, Beynəlxalq Valyuta Fondunun və Dünya Bankının ekspertləri Azərbaycanda vergi inzibatçılığının təkmilləşdirilməsi üzrə dövlət proqramı çərçivəsində həyata keçirilən işləri həm inkişaf etməkdə olan ölkələr, həm də MDB dövlətləri üçün nümunəvi strateji proqram kimi qiymətləndirmişlər. 2006-cı ildə vergi menecmentinin elektron qaydada qurulmasına imkan verən Avtomatlaşdırılmış Vergi İnformasiya Sisteminin (AVİS) tətbiqinə nail olunmuşdur. Bu sistem vasitəsilə Vergilər Nazirliyi digər dövlət strukturları və qurumlarla elektron məlumat mübadiləsi qurmuşdur. Vergilər Nazirliyi ilə Mərkəzi Bank və banklar arasında elek-

tron sənəd mübadiləsi haqqında kollektiv saziş imzalanmışdır. Azərbaycanda vergi sisteminin tənzimlənməsinin əsas hüquqi bazası Vergi Məcəlləsi hesab olunur və indiyidək bu məcəlləyə çox sayda əlavə və dəyişikliklər edilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır.Mütəmadi olaraq vergi qanunvericiliyinin təkmilləşdirilməsi məqsədilə ölkədə sabit vergi mühitinin yaradılmasına, vergi yükünün azaldılmasına, vergi güzəştləri sisteminin tətbiq edilməsinə, azad sahibkarlığın stimullaşdırılmasına, vergi ödəyicilərinin hüquq və mənafelərinin qorunmasına xidmət edən müddəalar Vergi Məcəlləsinə daxil edilmişdir.

Son 10 ildə mənfəət vergisinin dərəcəsi 27%-dən 20%-ə, ƏDV-nin dərəcəsi 20%-dən 18%-ə endirilmiş, fiziki şəxslərin gəlir vergisinin hesablanması mexanizmi sadələşdirilərək bu verginin hesablanması şkalası 6 pilləlidən 2 pilləliyə endirilmiş, iki vergi dərəcəsi (14% və 25%) saxlanılmış, fiziki şəxslərin 14% dərəcəsi ilə vergiyə cəlb olunan aylıq gəlirlərinin maksimum həddi 2500 manatadək artırılmışdır.

2008-ci ildən sahibkarlıq subyektlərinin qeydiyyatının "bir pəncərə" prinsipi tətbiq edilməklə aparılması göstərilən elektron xidmətlərin mühüm tərkib hissəsi olmaqla vergi ödəyiciləri və beynəlxalq təşkilatlar tərəfindən çox müsbət qiymətləndirilmişdir. 2008-ci ildə Azərbaycanda ilk dəfə ƏDV inzibatçılığı prosesində vergi nəzarətinin tam elektronlaşdırılmasına imkan verən ƏDV depozit hesablarının tətbiqinə başlanmışdır. Vahid ƏDV depozit hesabının tətbiqi ƏDV üzrə vergidən yayınmaların qarşısının alınmasına, eyni zamanda, vergi ödəyicilərinin ƏDV üzrə inzibati yükünün azaldılmasına da şərait yaratmışdır.



Qrafik 1. ƏDV-nin dinamikası: Maliyyə Nazirliyinin 2014-cü ilin dövlət və icmal büdcələrinin layihələrinin təqdimatı.

Dünyada baş verən qlobal böhran xarakterli proseslərə baxmayaraq Azərbaycanda vergi yükünün azaldılması yolu ilə real sektorun təşviqi məqsədilə dəfələrlə bir sıra qərarlar qəbul edilmişdir. Vergi dərəcələrinin azaldılması əsasən real sektorda büdcə gəlirlərinin bir hissəsinin saxlanılması məqsədilə qəbul edilmişdir. Başqa sözlə, bu tədbirlər iqtisadi fəallığın stimullaşdırılmasına yönəlmiş və onun sayəsində müəssisələrin gəlir və mənfəəti artmış, nəticədə vergitutma bazasının genişlənməsi hesabına dövlət büdcəsinə daxilolmalar artmışdır. Vergilər Nazirliyinin 2010-cu ildə tətbiq etməyə başladığı innovativ texnologiyalardan biri də "onlayn kargüzarlıq" sistemidir. Bu sistem vasitəsilə e-hökumət quruculuğunun əsas tərkib hissələri olan "vətəndaş-dövlət", "biznes-dövlət" və "biznes-biznes" münasibətləri müasir beynəlxalq standartlar səviyyəsində təşkil edilmişdir. 2010-cu ildən etibarən nağd hesablaşmaların aparılması üzərində nəzarət tədbirlərinin gücləndirilməsi məqsədilə vergi ödəyicilərinin nəzarət-kassa aparatlarının yaddaşındakı məlumatların GPRS şəbəkəsi vasitəsilə vergi orqanlarının məlumat bazasına ötürülməsinə başlanılmışdır. 2011-ci il yanvar ayının 1-də 2011-2015-ci illəri əhatə edən "Vergi orqanları tərəfindən vergi ödəyicilərinə göstərilən xidmətlərin inkişafı Konsepsiyası" təsdiq olunmuş, vergilərin könüllü ödənilməsi sisteminin təkmilləşdirilməsi və daha əlverişli biznes mühitinin formalaşdırılması məqsədilə vergi ödəyiciləri üçün xidmət terminalları yaradılmışdır.

2011-ci ilin iyul ayının 1-dən sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslərin dövlət qeydiyyatı elektron formata keçirilmişdir. Ölkədə aparılan vergi siyasətinin əsas istiqamətlərindən biri də vergilərin iqtisadi fəallığa stimullaşdırıcı təsirini artırmaq, investisiyaları təşviq etməkdir. Vergi dərəcələrinin statistikasına nəzər salsaq görərik ki, vergi dərəcələri mərhələlərlə əsaslı şəkildə azaldılmışdır. Bütün bunların nəticəsində Azərbaycan Respublikasında əksər vergilərin dərəcələri digər ölkələrdəki analoji vergi dərəcələrindən xeyli aşağıdır. Bundan başqa fiziki şəxslərin gəlir vergisinin hesablama mexanizmi sadələşdirilmişdir. Ölkədə kiçik və orta sahibkarlığın inkişafını dəstəkləmək, onların vergitutma mexanizmini sadələşdirmək məqsədilə 2001-ci ildən sadələşdirilmiş vergi tətbiq edilir. Azərbaycan Respublikasının vergi siyasətində islahatları sahəsində atılan mühüm addımlardan biri kimi dövlətlərarası ikiqat vergiqoymanın aradan qaldırılması haqqında sazişləri göstərmək olar. Respublikamızda həyata keçirilən vergi islahatlarının əsas istiqamətlərindən biri də əlverişli vergi mühitinin yaradılması ilə xarici investorların ölkəyə cəlb edilməsidir. Bu məqsədlə bir sıra dövlətlərlə beynəlxalq müqavilələr bağlanmışdır. Bu müqavilələr əsasən investisiyaların təşviqi və qorunması,gəlirlərə və əmlaka görə ikiqat vergitutmanın aradan qaldırılması, nəqliyyat daşınmalarını və kredit sazişlərini əhatə edir. Xarici investisiyaların ölkə iqtisadiyyatına axınını stimullaşdırmaq, zəngin neft-qaz yataqlarının mənimsənilməsini sürətləndirmək məqsədilə Azərbaycan Respublikası ərazisində hasilatın pay bölgüsü üzrə sazişlər əsasında fəaliyyətini həyata keçirən xarici şirkətlər üçün müvafiq protokollarla tənzimlənən, Vergi Məcəlləsindən fərqli üstünlüklərə malik olan xüsusi rejimli vergitutma mexanizmi də nəzərdə tutulmuşdur. Bütün bu görülən tədbirlər son illərdə xarici vergi ödəyicilərinin sayının artmasına, xarici investisiyaların iqtisadiyyata axınının xeyli güclənməsinə səbəb olmuşdur.

Dövlət büdcəsinə vergi daxilolmaları haqqında məlumatdan göründüyü kimi vergi dərəcələrinin dəyişmə dinamikası və səmərəli vergi siyasəti qısa müddətdə vergi daxilolmalarının artımına zəmin yaratmışdır.

Cədvəl 1.

Vergi və digər ödənişlər	**Dövlət büdcəsinə vergi və sair daxilolmalar haqqında məlumat Daxilolmalar (min AZN)**				
	2010	**2011**	**2012**	**2013**	**2014**
ƏDV	1 271 462,7	1 387 662,7	1 483 585,3	1 723 917,5	2 048 656,7
Aksizlər	452 027,4	417 394, 4	454 642,4	511 976,6	740 292,9
Mənfəət vergisi	1 429 824,9	2 133 993,3	2 252 223,2	2 374 791,6	2 302 887,7
Mədən vergisi	130 074,4	129 770,0	125 782,7	121 480,2	116 162,3
Torpaq vergisi	35 311,2	35 321,0	30 596,1	33 113,2	35 398,1
Əmlak vergisi	101 811,5	103 867,1	105 087,4	125 147,6	141 275,5
Fiziki şəxslərin gəlir vergisi	590 235,1	715 656,2	812 958,4	859 656,6	980 233,3
Dövlət rüsumu	89 519,1	104 804,8	103 186,3	123 229,5	111 082,3
Yol vergisi	15 168,8	28 095,4	28 655,3	24 383,5	22 313,9
Sadələşdirilmiş vergi	65 525,0	100 425,7	111 423,2	119 526,3	153 396,7
Sair daxilolmalar	111 839,9	318 071,4	517 226,2	646 410,8	461 923,0
Cəmi	**4 292 800,0**	**5 475 062,0**	**6 025 366,5**	**6 663 633,4**	**7 113 622,4**

Mənbə: www.taxes.gov.az <http://www.taxes.gov.az>

Dünya Bankının "Doing Business 2012" və PWC şirkətinin "Paying Taxes 2012" hesabatlarına əsasən, vergi qanunvericiliyinin normalarına riayət edilməsinin sadəliyi subindikatorları üzrə Azərbaycanın göstəriciləri istər regional, istərsə də orta dünya göstəricilərindən yüksəkdir. Ölkəmiz "Paying Taxes 2012" hesabatında 2011-ci ildə vergi ödəmələrinin sadəliyi reytinqində 26 pillə irəliləmişdir.

Son illər vergi sisteminin orta perspektivlər üçün inkişaf istiqamətlərini müəyyən edən iki mühüm sənəd: "Vergi qanunvericiliyinin təkmilləşdirilməsinin strateji istiqamətləri" və "Vergi

inzibatçılığının təkmilləşdirilməsi məqsədilə informasiya-kommunikasiya texnologiyalarının istifadə imkanlarının genişləndirilməsi haqqında" konsepsiyalar və 2011-2015-ci illəri əhatə edən "Vergi orqanları tərəfindən vergi ödəyicilərinə gostərilən xidmətlərin inkişafı Konsepsiyası" qəbul edilmişdir.

Hazırda haqqında danışdığımız məqsədlər çərçivəsində yaxın perspektivdə gözlənilən bəzi layihələrin həyata keçirilməsi nəzərdə tutulur. Respublikamız daha yüksək sosial-iqtisadi,innovativ iqtisadiyyatına keçid mərhələsinə qədəm qoymuşdur. Bu strateji məqsədlər və ölkənin maliyyə imkanlarının sürətlə artması vergi qanunvericiliyinin və inzibatçılığının beynəlxalq standartlara uyğunlaşdırılması proseslərinin daha sürətlə aparılmasına tələblər və eyni zamanda imkanlar yaradır.

Təcrübə göstərir ki, qanunvericilikdə nəzərdə tutulmuş vergi nəzarətinin bütün üsullarından istifadə etdikdə belə vergi orqanları pul vəsaitlərinin bütün hərəkətini aşkar etmək və bağlanan bütün kommersiya əqdlərinə nəzarət etmək iqtidarında deyildir. Nəticədə mütəmadi olaraq vergi islahatlarının aparılması zərurəti yaranır. İqtisadçılar, hər 5-7 ildən bir əsaslı vergi islahatları, hər 2-3 ildən bir isə qüvvədə olan vergi qanunvericiliyinin səmərəliliyinin təhlilinin aparılmasının vacibliyini məqsədəuyğun hesab edirlər. [6, s. 80]

Respublikamızda iqtisadiyyatın, o cümlədən büdcə sisteminin tənzimlənməsi üçün vergi sistemi qarşısında duran əsas məqsədləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- vergi sisteminin maksimal dərəcədə sadələşdirilməsi;
- vergi sisteminin stimullaşdırıcı rolunun artırılması. Yaxın illər ərzində büdcə gəlirlərinin artırılması yalnız vergi yükünün deyil, vergi bazasının genişləndirilməsi hesabına artırılması nəzərdə tutulur. Fiziki şəxslərin gəlir və hüquqi şəxslərin mənfəət vergisinin dərəcələrinin aşağı salınması, vergitutma bazasının genişlənməsi artıq ənənəvi hal alıb və bu tendensiyanın gələcəkdə də davam etməsi planlaşdırılır. Bundan başqa, respublikamızın iqtisadi modeli sosial yönümlü olduğundan kiçik biznesin stimullaşdırılması üçün sadələşdirilmiş verginin tətbiqi davam etdirilməlidir ki, regionlarda kiçik biznes obyektləri rəqabətqabiliyyətli olsunlar və məşğulluq problemi tam həll olunsun;
- vergi sisteminin sabit və proqnozlaşdırılan olması, rəqabətliliyi təmin etməsi;
- vergi orqanlarının əməkdaşlarının peşəkarlıq səviyyəsinin artırılması;
- vergi sahəsində Avropa İttifaqına üzv olan ölkələrlə əməkdaşlığın inkişaf etdirilməsi;
- vergi ödəyicilərinin hüquqlarının qorunması məqsədilə apellyasiya sisteminin daha da təkmilləşdirilməsi.

Nəticə

Bu gün ölkədə innovativ və yeni çağırışlara cavab verən müasir iqtisadi sistemin formalaşdırılması əsas prioritet və inkişaf strategiyası kimi hədəf seçilmişdir. Bu məqsədlə 19 noyabr 2011-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının hazırlanması ilə bağlı tarixi sərəncam imzalanmışdır. Konsepsiyada ilk növbədə, ÜDM artımını qeyri-neft sektorunun inkişafı hesabına təmin etmək, iqtisadiyyatın diversifikasiya prosesini sürətləndirmək, ÜDM-in tərkibində və dövlət büdcəsinin formalaşmasında təbii ehtiyatlar amilinin azaldılması, qeyri-neft amilinin regionların hesabına üstünlüyünün təmin edilməsi, ixracın təşviq edilməsi və yerli müəssisələrin xarici bazarlara çıxışına nail olmaq əsas hədəflər hesab olunur. [9] İnkişaf etmiş ölkələrin təcrübəsini əsas götürərək bu məqsədlərin reallaşdırılması üçün vergi islahatları aşağıdakı prinsiplər əsasında aparılmalıdır :

- büdcə gəlirlərinin formalaşması üçün aşağı dərəcəli vergi sisteminin yaradılması, iqtisadi tədqiqatların göstərdiyi kimi, vergi sistemində baş verən bütün əyrintilər məhz vergi dərəcələrinin son həddinin kəmiyyəti ilə bağlıdır.
- vergidən yayınmanın müxtəlif sxemləri əsasən vergi şkalasının mütərəqqiliyi və kapitalın müxtəlif dərəcələrlə vergiyə cəlb edilməsi ilə bağlı olur. Gəlirlərin vergiyə cəlb edilməsinin

müxtəlif rejimlərinin zəiflədilməsi vergi qanunvericiliyinin kobud şəkildə pozulması hallarının qarşısını alır və onlarla bağlı cəza tədbirlərinin də sayının xeyli aşağı düşməsinə səbəb olur. Beləliklə, gəlirlərin leqallaşdırılması cəhdləri artır və münbit investisiya mühiti formalaşır.

- vergi sisteminin “yaxşı” hesab edilən vergilərdən formalaşdırılması. “Yaxşı” vergi dedikdə son nəticədə bu vergini kimin ödəyəcəyinin əvvəlcədən məlum olması nəzərdə tutulur. Məsələn, ABŞ-da korporativ gəlir vergisi “pis” vergi kimi təyin olunmuşdur. Çünki bu verginin ağırlığı istehlakçıların və səhmdarların üzərinə düşür, nəticədə kapital yığımı və investisiya fəaliyyətinə maneçilik törədir.

- vergi islahatları həyata keçirilərkən qarşıya çoxlu sayda vəzifələr qoyulmamalıdır.Məsələn, vergi sistemi üçün ağır fiskal tələblərin müəyyən edilməsi və eyni zamanda biznes fəaliyyətinin stimullaşdırılması, gəlirlərin artırılması və s. kimi məqsədlər qoyulması son nəticədə qarşıya qoyulan məqsədlərin tam olaraq reallaşdırılmasına çətinlik yaradacaq.

Təbii ki, iqtisadiyyatda nəzərdə tutulan bu missiyalar vergi orqanları qarşısında yeni vəzifələr qoyaraq onların yeni formalaşmış biznes mühitinə uyğunlaşmasını tələb edir, eyni zamanda iqtisadiyyatın vergi tənzimlənməsinin daim təkmilləşdirilməsini zəruri edir.

ƏDƏBİYYAT

1. “Milli təhlukəsizlik haqqında” Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli Qanunu.
2. Musayev A.F. Vergi siyasətinin iqtisadi problemləri. Bakı, 2004, 792 s.
3. Allahverdiyev D.İ. Büdcə-vergi siyasəti və iqtisadi təhlükəszilik. Bakı, 2002, 170 s.
4. Kərimli İ.A., Süleymanov N.M. Milli iqtisadiyyatın əsasları. Bakı, 2001, 308 s.
5. Kəlbiyev Y.A. Fiskal siyasət və milli iqtisadiyyatın tənzimlənməsi problemləri. (Monoqrafiya). Bakı, “Elm” 2005, 468 s.
6. Rzayev P.Q. Vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri. “Azərbaycanın vergi xəbərləri”, №-2, 2011. s. 77-88.
7. Сенчагов В. К. Экономическая безопасность: геополитика, глобализация, самосохранение и развитие (книга четвертая). / Институт экономики РАН. - М.: ЗАО «Финстатинформ», 2002, 128 с.
8. http://www.academia.edu
9. http://www.president.az
10. http://www.taxes.gov.az
11. http://vergijurnali.az
12. http://www.icmalyayinlari.com <http://www.icmalyayinlari.com>

Фаиль Маиль оглы Кязымов
докторант Института Экономики НАНА

Роль налоговой политики в обеспечении национальный экономической безопасности и ее ключевые показатели эффективности

Резюме

Сформированная и проводимая налоговая политика в стране является основным показателем динамичного развития экономики и обеспечения национальной экономической безопасности.

В статье проанализированы формирование налоговой системы и основные направления ее развития, а так же нашли отражение важные вопросы осуществления налоговых реформ, повышения эффективности налоговых механизмов и формирования прогрессивной налоговой политики.

Наряду с этим, в сделаны предложения по совершенствованию налоговой системы в Азербайджане.

Ключевые слова: национальная экономика, налоговая политика, налоговые реформы, двойное налогообложение, экономическая безопасность, национальный доход, регулирование экономики.

Fail Mail Kazimov
PhD Institute of Economics of ANAS

The role of tax policy in ensuring economic security and its key performance indicators

Summary

Tax policy which is formed and implemented in the country is the key indicator of dynamic development of the economy and national economic security.

The formation of the tax system of the Republic of Azerbaijan and the main areas of development have been analyzed, and at the same time important progressive problems in carrying out the tax reforms, improving the efficiency of the tax mechanisms and forming the tax policy have been reflected in the article.

In addition, proposals were made to improve the tax system in Azerbaijan.

Key words: national economy, fiscal policy, tax reform, double taxation, economic security, national income, regulation of the economy.

UOT 336.11

Cəlal Ağamehdi oğlu MƏCİDOV
ADİU-nun dissertantı

MÜASİR ŞƏRAİTDƏ MALİYYƏ MENECMENTİ SİSTEMİNİN MALİYYƏ STRUKTURUNUN VƏ METODLARININ İNKİŞAFI YOLLARI

Xülasə

Məqalədə əvvəlcə, maliyyə kateqoriyası pul münasibətləri sisteminin əsası kimi müəyyən edilmiş, maliyyə menecmenti sisteminin formalaşması xüsusiyyətləri və prinsipləri, eləcə də büdcələşdirmə prosesinin formalaşması xüsusiyyətləri araşdırılmışdır. Daha sonra, müəllif tərəfindən yerli şirkətlər üçün büdcələşdirmə prosesinin informasiya təminatı sisteminin modeli və şirkətin maliyyə strukturunun müəyyən edilməsi qaydası təklif edilmişdir.

Açar sözlər: maliyyə menecmenti sistemi, büdcələşdirmə, informasiya təminatı sistemi, maliyyə strukturu.

Giriş

Maliyyə menecmentində maliyyə və uçot nəzəriyyələri arasında sıx əlaqə müşahidə olunur. Buna əsasən maliyyə menecmenti metodlarının və maliyyə təhlilinə, planlaşdırmaya, proqnozlaşdırmaya və daxili maliyyə nəzarətinə xas olan spesifik üsulların həyata keçirilməsinin əlaqələndirilməsinə nail olunur. Koordinasiya maliyyə menecmentinin metodlarından olan büdcələşdirmə vasitəsilə həyata keçirilir. Odur ki, maliyyə menecmentinin formalaşmasının əsası kimi maliyyə strukturunun və metodlarının inkişafı yollarının tədqiqi mühüm əhəmiyyət kəsb edir.

Maliyyə pul münasibətləri sisteminin əsası kimi

Maliyyə ixtisaslaşma tələb edən geniş bilik və təcrübəvi fəaliyyət sahəsidir. Hazırda maliyyənin fəaliyyətinin beş daha iri sferasını ayırmaq olar: dövlət maliyyəsi; sahə maliyyəsi; kredit və pul dövriyyəsi; sığorta; qiymətli kağızlar bazarı. Maliyyə menecmenti bütün sahələri əhatə edir, lakin daha çox "sahə maliyyəsi" sferasında həyata keçirilir. İngilis termini olan "financial management" hərfi olaraq "«maliyyə idarəetməsi", yəni idarəetmə metodlarından biri kimi, bizim tərcüməyə görə isə "maliyyənin idarə edilməsi" kimi tərcümə olunur. Bu iki termin eyni olaraq ən sadədən daha mürəkkəbə doğru inkişafı, yəni maliyyədən maliyyə menecmentinə doğru inkişafı göstərir.

Maliyyə pul münasibətləri sistemi kimi müəyyən edilməklə, gəlirlərin formalaşmasında, xərclərin həyata keçirilməsində, qeyd olunan proseslərin səmərəliliyinin monitorinqində, sosial və iqtisadi inkişaf effektivliyinin konkret monitorinqində ifadə edilir. Burada qeyd edək ki, dar və təmiz maliyyə mənasında səmərəlilik zərərsizliyi, gəlirliliyi, rentabelliyi, daha dəqiq isə, aşağı düşməyən, artan rentabelliyi nəzərdə tutur.

Lakin görürük ki, maliyyə kateqoriyasının tərifi yalnız cəmiyyətdə iyerarxiyanın bütün səviyyələrinə və bu şərhin müəyyən redaksiyada məzmununa deyil, yaranan, bölüşdürülən və təkrar bölüşdürülən pul resurslarının, mərkəzləşdirilmiş və mərkəzləşdirilməmiş pul fondlarının tərkibindəki dəyişikliklərlə birgə maliyyə fəaliyyətinin bütün sahələrinə aiddir. [3,s.29] Mərkəzləşdirilməmiş pul fondları müəyyən xərclərə görə yığımı, ayrılmanı və hədəflənməni nəzərdə tutur. Buna zərurətin olması aydındır: pul mücərrəddir – o, alqı vasitəsidir; əgər hər hansı bir pul fondundan ciddi məqsədli istifadəyə vəsait ayrılmırsa, onda bunu demək olar ki, istənilən ehtiyac üçün sərf etmək olar.

Başqa sözlə, resurslar kimi pul fondları da vahid təyinata malik olub, maliyyə qanunvericiliyi ilə və ya idarəetmə qərarları ilə müəyyən edilən məsrəflərin, investisiya xərclərinin mənbəyi kimi çıxış edir. Buna baxmayaraq, maliyyə resursları anlayışı pul fondlarından daha geniş anlayışdır. Onları resurslar hesabına yaradılan, lakin nisbi sabitliyi nəzərdə tutan pul fondlarından

fərqli olaraq dövriyyədən azad olunmasına və ya əlavə dövriyyə yüklənməsinə qabil məqsədyönlü pul vəsaitlərinin məcmusu kimi müəyyən etmək olar.

Maliyyə menecmenti sisteminin formalaşması xüsusiyyətləri və prinsipləri

Maliyyə menecmentinin tərifinə gəlincə, o, iqtisadi menecmentin fəal tərkib hissəsi kimi, maliyyənin idarəetmə mexanizmi və ya maliyyə mexanizmi anlayışı ilə bağlıdır. Onu bütün iyerarxik səviyyələrdə istehsalın idarə edilməsi prosesinin iqtisadi idarəetmə forma və üsullarının kompleksi kimi müəyyən etmək olar. [2, s.11] Maliyyə mexanizmi isə cəmiyyətin (müvafiq olaraq onun bütün özəklərinin) sosial-iqtisadi inkişafı prosesinin idarə edilməsinin maliyyə formaları və metodlarının kompleksidir. [5, s.93-98] Bu şərh maliyyə mexanizmini eyni vaxtda iqtisadi idarəetmə mexanizminə daxil edir və onu sonuncunun çərçivəsindən çıxarır. Əgər iqtisadi mexanizm üstün olaraq baza kateqoriyasıdırsa, maliyyə mexanizmi maliyyənin özü kimi bazis və üstqurum kateqoriyalarının əlaqələndiricisi sayılmaqla hər iki sferada fəaliyyət göstərir.

Elm kimi maliyyə menecmentinin xüsusiyyəti onun qeyri-ənənəviliyindən və nisbi yeniliyindən irəli gəlir. Hazırda Azərbaycanda maliyyə menecmenti uğurla inkişaf edir. Bir tərəfdən, iqtisadi elmlər sistemində maliyyə menecmenti menecment kimi geniş elmin müstəqil və son dərəcə spesifik hissəsini təşkil edir. Amma digər tərəfdən, maliyyə menecmenti bir sıra bütöv tətbiqi iqtisad elmlərinə xas olan idarəetmə-maliyyə problemlərini həll edir.

Maliyyə menecmenti maliyyə nəzəriyyəsi və mühasibat uçotunun analitik bilikləri arasında əlaqələndirici həlqə olmaqla, maliyyə təhlilinə, planlaşdırmaya, proqnozlaşdırma və daxili maliyyə nəzarətinə xas olan xüsusi üsullara malikdir. Onların həyata keçirilməsinin vahidliyi və bağlılığı maliyyə menecmentinin xüsusi metodu olan büdcələşdirmə vasitəsi ilə aparılır. Bu metod qalan elementlərin qarşılıqlı əlaqələrini və müəssisənin maliyyə münasibətləri, resursları və vəsaitlərinin hərəkəti haqqında sistemli informasiyaların əldə edilməsini təmin edir.

Maliyyə menecmentinin prinsipləri onun metodologiyasının prosedur tərəflərini tənzimləyir, onun metodunun inkişafına və təkmilləşdirilməsinə kömək edən dinamik komponenti sayılır. Maliyyə menecmentinin müəssisənin ümumi idarəetmə sisteminə inteqrasiyası, idarəetmə qərarlarının formalaşmasının kompleks xarakteri, idarəetmənin yüksək dinamizmi, idarəetmə qərarlarının işlənib hazırlanmasına yanaşmaların dəyişkənliyi və müəssisənin strateji məqsədlərinə istiqmətlənmə kimi ümumi qəbul edilmiş prinsipləri [2, s.12] şirkətlərdə bu biznesin spesifikliyi baxımından tamamlanmalıdır. Məsələn, bura müəssisənin maliyyə sərbəstliyi, müəssisənin özünü maliyyələşdirməsi, müəssisənin maddi marağı, maddi məsuliyyət, risklərin maliyyə ehtiyatları ilə təmin olunması kimi spesifik və konkret xarakter daşıyan prinsipləri əlavə edə bilərik. [1, s.8]

İnvestisiya qoyuluşları investisiya layihələrinin həyata keçirilməsi ilə müşayiət edilməlidir. Gəlirlərin xərclərə uyğunluğu, informasiyaların tamlığı, gələcək gəlirlərlə risklərin tarazlığı, qərar qəbuletmənin vaxtında olması prinsipləri operativ və səmərəli fəaliyyət üçün zəruri olan konkret qaydaların və təlimatların işlənib hazırlanmasının əsasında durur.

Maliyyə menecmentinə çoxfaktorlu xarici mühit birbaşa və ya dolayı yolla böyük təsir göstərir. Bu, müəyyən edilən prinsiplərin iki qrupa ayrılmasının məqsədəuyğunluğunu şərtləndirir: reallaşdırılmasına xarici mühitin təsir etdiyi prinsiplər; reallaşdırılmasına xarici mühitin təsir etmədiyi prinsiplər.

Büdcələşdirmə prosesinin formalaşması xüsusiyyətləri

"Büdcələşdimə" anlayışının şərhinin müxtəlifliyi və çoxplanlılığı onunla əlaqədardır ki, bu termin bizim mütəxəssislər üçün yenidir, Qərbdə dəqiqliklə tədqiq olunmuş və hələlik yerli şəraitə uyğunlaşdırılmayan anlayışdır. Digər səbəb odur ki, büdcələşdirməyə müxtəlif komponentlərə malik sistemlərdən, konkret halda isə maliyyə menecmentindən, mühasibat idarəetmə uçotu sistemindən, səmərəli menecment sistemindən ibarət mürəkkəb bir sistem kimi baxılır.

Səciyyəvi haldır ki, eyni müəlliflər öz tədqiqatlarının gedişində daim "büdcələşdirmə" termininin mənasını, ona çox vaxt bir az fərqli məna verməklə dəqiqləşdirir və ya dəyişdirirlər.

Bir çox müəlliflərin fikirlərini ümumiləşdirərək təsdiq etmək olar ki, büdcələşdimə, özündə onu təşkil edən komponentlərin məzmunu üzrə çoxsaylı və müxtəlif cür komponentləri birləşdirən prosesdir. Həmin müəlliflərdən bəziləri büdcələşdirməyə proses kimi baxır, bəziləri onun məqsəd, vəzifə, alət və prinsiplərinin hansılar olduğuna diqqət yetirir; digərləri isə bu prosesin köməyi ilə hansı kompleks məsələlərin və hansı vaxt intervalı ərzində həll edilə biləcəyinə cavab tapmaq istəyirlər. [4]

Bizim fikrimizcə, büdcələşdirmə, məsuliyyət mərkəzləri, icraya nəzarətin təşkili, büdcə göstəricilərindən kənarlaşmaların təhlili kontekstində büdcələrin işlənib hazırlanmasına əsaslanan təşkilatların maliyyə resurslarının idarə edilməsi və həmin fəaliyyət əsasında maliyyə strukturunu inkişaf etdirmək və gözlənilən nəticələrə nail olmaq məqsədilə tənzimlənməsi üçün nəzərdə tutulan xüsusi metoddur.

Müəssisə strategiyasının işlənməsi haqqında maliyyə və ya inzibati qərarların qəbulu zamanı konkret məsələlər kontekstində "büdcə" və "plan" terminlərini nəzərdən keçirərək hesab edirəm ki, plana nisbətən büdcə daha tutumlu, əhəmiyyətli və birinci dərəcəli sənədə çevrilmişdir. Yerli müəlliflərin əsərlərində və tərcümə nəşrlərində tez-tez "büdcə" termininin əvəzinə "smeta" terminindən istifadə olunur. Bizim fikrimizcə, bu həmişə məqbul deyil, çünki "büdcə" və "smeta" məzmunca və təyinatına görə müxtəlifdir. Büdcə müəssisənin funksiyaları və bölmələri üzrə koordinasiya edilmiş cari maliyyə planıdır və onun təyinatı məqsədlərdən seçilmiş resurs variantına nail olmaq üsullarının təfsilatından ibarətdir. Smeta isə öz növbəsində, yalnız iqtisadi cəhətdən həmcins xərc maddələri üzrə müəyyən təqvim dövrü ərzində müəssisənin qarşıda planlaşdırılan xərclərinin qrupudur.

Yerli şirkətlər üçün büdcələşdirmə prosesinin informasiya təminatı sisteminin modeli

Yerli şirkətlərin icmal büdcəsinin işinin spesifik cəhətini və xüsusiyyətlərini araşdıraraq belə qənaətə gəlirik ki, həmcins xərclərin dəqiq qruplaşdırılması üçün smetanın tərtib edilməsi, daha sonra müxtəlif əməliyyat büdcələrinin hazırlanması üçün istifadə olunması məqsədəuyğundur.

Yerli şirkətlər üçün büdcələşdirmə prosesinin informasiya təminatı sisteminin öyrənilməsi və formalaşdırılması məqsədilə "informasiya təminatı sistemi" anlayışını öyrənilən obyektin idarəetmə üçün bir sıra təsnifat əlamətləri üzrə ayrılmış müvafiq qruplara aid edilməsi yolu ilə konkretləşdirmək olar. Bu sistem mürəkkəb açıq determinantlaşdırılmış sistem sayılır.Yerli şirkətlər üçün büdcələşdirmə prosesinin informasiya təminatı sisteminin modeli mərhələlər üzrə qurulur. Ayrılmış mərhələlərin mahiyyəti aşağıdakılardan ibarətdir:

Birinci mərhələ – bir sıra ümumi prinsipləri müəyyən etmək. Həmin prinsiplərə yerli şirkətlərdə büdcələşdirmə prosesinin həyata keçirilməsi üçün informasiya təminatı sisteminin qurulması zamanı əməl olunmalıdır. Buraya vahidlik, inkişaf, qeyri-mərkəzləşdirmə, iyerarxiya, təşkilatilik, qeyri-müəyyənlik prinsipləri və qlobal məqsədlər prinsipi daxildir. Nəzəri müddəaları müəyyən etmək üçün uyğunluq, qənaətcillik, tənzimləyici, öz-özünə nəzarət, inteqrallıq, adaptasiya kimi xüsusi prinsipləri ayırmaq lazımdır. Yuxarıda göstərilən prinsiplərə riayət olunması yerli şirkətlərdə büdcələşdirmə üçün informasiya təminatı sisteminin qorunması və təkmilləşdirilməsi mexanizmlərini və amillərini yaradır; sistemin daxili təşkilatlanmasını aşkarlayır; bu sistemin digər sistemlərlə qarşılıqlı əlaqələrini açıqlayır.

İkinci mərhələ – tətbiqi istənilən yerli şirkət tərəfindən mümkün olan büdcələşdirmə prosesinin informasiya təminatı sisteminin modelini qurmaq.

Üçüncü mərhələ – maliyyə strukturunun müayinəsinin aparılması və sxem şəklində fəaliyyət istiqamətləri üzrə məsuliyyət mərkəzlərini ayırmaq. Burada hər hansı müəssisənin təşkilati strukturunu təsəvvür etmək olar. Bu mərhələ istehsal fəaliyyətinin dərin təhlilinin zəruriliyi ilə, maliyyənin idarə edilməsinin dəqiq məqsəd və vəzifələrinin qurulması, məsuliyyət mərkəzlərinin ayrılması və onların fəaliyyətinə nəzarət üsullarının müəyyən edilməsi ilə, eləcə də məsul şəxslərə səlahiyyətlərin verilməsi ilə xarakterizə olunur.

Dördüncü mərhələ – ikinci və üçüncü mərhələlər çərçivəsində işlənib hazırlanmış sxemləri müqayisə etmək. Bu, biznesin idarə olunması sahəsində toplanmış təcrübəni və elmi-praktiki araşdırmaları birləşdirməyə imkan verəcək. Əvvəllər hazırlanmış sxemlərin müqayisəsi aşağıdakı istiqamətlər üzrə həyata keçirilməlidir:

- müəssisənin ümumi təşkilati strukturundan o seqmentləri ayırmaq lazımdır ki, burada büdcələşdirmə prosesinin informasiya təminatı sisteminin müəssisəyə daxil olmuş axınını təşkil edən informasiya toplanmalı və yığılmalıdır. Təyin edilmiş məsuliyyət mərkəzləri və müvafiq məsuliyyətli şəxslər informasiyaların yığılması, qeydiyyatı, ümumiləşdirilməsi və onun emal mərhələsinə ötürülməsi üzrə metod və üsulları işləyib hazırlamalıdırlar;
- müvafiq informasiya göstəricilərinin emalı prosesini təmin edəcək seqmentlərin müəyyən edilməsi;
- konkret seqmentlərin işinə cavabdeh olan müvafiq vəzifəli şəxslərin üzərinə, qəbul edilmiş və emaldan keçmiş informativ göstəricilərin təhlili və düzəlişlərinin həyata keçirilməsinə görə məsuliyyətin qoyulması, eləcə də alınmış məlumatların idarəetmə qərarları üçün məsuliyyət daşıyan seqmentlərə ötürülməsi kanallarının və üsullarının müəyyən edilməsi;
- strateji idarəetmə qərarlarının qəbul edilməsi üçün və maliyyə fəaliyyətinin səmərəli cari idarə edilməsi üçün çıxan axın göstəricilərini və məlumatlarını öz işində istifadə edən seqmentlərin təyin edilməsi;
- əvvəllər fəaliyyət göstərən bütün seqmentlər məcmusundan, fəaliyyətləri gələcək planların işlənib hazırlanmasına, əlaqələndirilməsinə və təhlilinə yönəldilmiş məsul şəxsləri müəyyən etmək.

Şirkətin maliyyə strukturunun müəyyən edilməsi qaydası

Göstərilən istiqamətlər məsləhət xarakteri daşıyır, lakin onların həyata keçirilməsi, bizim fikrimizcə, istənilən milli şirkətə öz büdcə prosesinin həyata keçirilməsi mərhələsində müəyyən konkret məqsəd və vəzifələrə uyğunlaşdırılmış informasiya təminatı sistemini müstəqil surətdə işləyib hazırlamağa imkan verir.

Mövcud maliyyə strukturunun vəziyyətinin, onun fəaliyyət şəraitinin müəyyən edilməsi və mümkün inkişaf istiqamətlərinin proqnozlaşdırılması məqsədilə onun müayinəsi həyata keçirilir. Bunun üçün müəssisədə idarəetmənin təşkilinin hansı vəziyyətdə olduğunu müəyyən etmək lazımdır. Yerli şirkətlər üçün xətti-funksional sistemdən istifadəyə üstünlük verilməsi məqsədə-uyğundur. Büdcələşdirmənin qurulması məqsədilə şirkətin maliyyə strukturunun müəyyən edilməsi qaydası aşağıdakı kimi olmalıdır:

1. Təsərrüfat fəaliyyəti növlərinin siyahısını tərtib etmək.
2. Müəssisənin təşkilati idarəetmə strukturunu sxem şəklində qurmaq. Bu sxem, elementləri biznesin seçilmiş növlərinə uyğun müəyyən edilmiş funksional bölmələr sayılan çoxsaylı əlaqələrə malik olmalıdır. Eyni zamanda, şirkətin təşkilati strukturunu təşkil edən struktur bölmələri arasında maliyyə menecmentinin ayrılmış funksiyalarının bölgüsü aparılmalıdır. Bu, üst-üstə düşən funksiyaları aşkara çıxarmağa və biznesin idarəetmə və nəzarət səviyyəsi kifayət qədər yüksək olmayan istiqamətlərini müəyyən etməyə imkan verəcəkdir. Şirkətin təşkilati strukturu maliyyə strukturuna tabe olmalıdır, çünki bu, maliyyə menecmenti funksiyalarının müntəzəm aparılması üzrə çərçivə və başlanğıc nöqtəsi, beləliklə də təşkilatın maliyyə məqsədlərinə nail olmağın üsulu sayılır.
3. Biznesin növlərini struktur bölmələri üzrə bölmək. Bu zaman yuxarıda sadalanan bizneslərdən heç biri ilə məşğul olmayan struktur bölmələrini müəyyən etmək lazımdır. Bu funksional bölmələr şirkət üçün açıq-aydın mənfəət gətirmək imkanına malik olmayan bölmələrdir. Buraya mühasibat və maliyyə xidmətləri, insan resursları və hüquq idarələri, iqtisadi təhlükəsizlik və informasiya təminatı üzrə idarə, eləcə də strateji planlaşdırma və iqtisadi təhlil şöbəsi daxildir.

4. Struktur bölmələrinin funksiyaları göstərilməklə maliyyə uçotu mərkəzlərinin (MUM) siyahısını tərtib etmək. MUM siyahısının tərtib edilməsini onlara daxil olan struktur bölmələrinin funksiyaları göstərilməklə eyni vaxtda aparmaq məqsədəuyğundur. Əsasında şirkətin işlənib hazırlandığı maliyyə strukturunun dəqiqləşdirilmiş sxemi təsvir edilən MUM üçün, əvvəlcədən ayrılmış struktur bölmələri və onların komponentləri təhkim edilməlidir. Şirkətin təklif edilən dəqiqləşdirilmiş maliyyə strukturu MUM-un möhkəmləndirilmiş sxeminin işlənib hazırlanmasının əsasıdır.

5. MUM üzrə gəlir və xərcləri bölüşdürmək. Şirkətdə maliyyə strukturu təşkilati strukturun maliyyə uçotu mərkəzlərinə bölünməsi kimi nəzərdən keçirilir. Məqsəd büdcələrin işlənib hazırlanması və tərtibindən, eləcə də MUM üzrə gəlir və xərclərin, fəaliyyətdən mənfəət və zərərlərin qeyd edilməsindan ibarətdir.

6. Maliyyə strukturu haqqında əsasnamə hazırlamaq. Bu, təşkilatın maliyyə strukturunun müayinəsinin yekun mərhələsidir.

Nəticə

1. Maliyyə menecmenti maliyyə nəzəriyyəsi və mühasibat uçotunun analitik bilikləri arasında əlaqələndirici həlqə olmaqla, maliyyə təhlilinə, planlaşdırmaya, proqnozlaşdırma və daxili maliyyə nəzarətinə xas olan xüsusi üsullara malikdir.

2. Maliyyə menecmentinə çoxfaktorlu xarici mühit birbaşa və ya dolayı yolla böyük təsir göstərir. Bu, müəyyən edilən prinsiplərin iki qrupa ayrılmasının məqsədəuyğunluğunu şərtləndirir: reallaşdırılmasına xarici mühitin təsir etdiyi prinsiplər; reallaşdırılmasına xarici mühitin təsir etmədiyi prinsiplər.

3. Büdcələşdirmə, məsuliyyət mərkəzləri, icraya nəzarətin təşkili, büdcə göstəricilərindən kənarlaşmaların təhlili kontekstində büdcələrin işlənib hazırlanmasına əsaslanan təşkilatların maliyyə resurslarının idarə edilməsi və həmin fəaliyyət əsasında maliyyə strukturunu inkişaf etdirmək və gözlənilən nəticələrə nail olmaq məqsədilə tənzimlənməsi üçün nəzərdə tutulan xüsusi metoddur.

4. Yerli şirkətlər üçün büdcələşdirmə prosesinin informasiya təminatı sisteminin modeli aşağıdakı mərhələlər üzrə qurulmalıdır: bir sıra ümumi prinsiplərin müəyyən edilməsi; yerli şirkət tərəfindən büdcələşdirmə prosesinin informasiya təminatı sisteminin modelinin qurulması; maliyyə strukturunun müayinəsinin aparılması və sxem şəklində fəaliyyət istiqamətləri üzrə məsuliyyət mərkəzlərinin ayrılması; II və III mərhələlər çərçivəsində işlənib hazırlanmış sxemlərin müqayisə edilməsi.

5. Şirkətin maliyyə strukturunun müəyyən edilməsi qaydasının aşağıdakı prosedurlardan ibarət olmasını məqsədəuyğun sayırıq: təsərrüfat fəaliyyəti növlərinin siyahısının tərtib edilməsi; müəssisənin təşkilati idarəetmə strukturunun sxem şəklində qurulması; biznesin növlərinin struktur bölmələr üzrə ayrılması; struktur bölmələrinin funksiyaları göstərilməklə maliyyə uçotu mərkəzlərinin (MUM) siyahısının tərtib edilməsi; MUM üzrə gəlir və xərclərin bölüşdürülməsi; maliyyə strukturu haqqında əsasnamənin hazırlanması.

ƏDƏBİYYAT

1. Əhmədzadə R.Ə. Maliyyə menecmentində qeyri-müəyyən amillərin identifikasiyası və proqnozlaşdırılmasının bəzi məsələləri. İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı. Bakı -2013.
2. Бланк И.А. Финансовый менеджмент. Учебный курс. Киев, Эльга, Ника – Центр, 2005.
3. Ковалев В. В. Финансовый менеджмент; теория и практика. 2-е изд., перераб. и доп. - М. : ТК Велби, Изд-во Проспект, 2007, 1024 с.
4. Харитонова Е.Н. Бюджетирование как инструмент оперативного управления предприятием. Автореф. дисс. на соиск. уч. ст. канд. экон. наук. Москва, 2002. – 18 с.

5. Шаринова Г.А. Финансовый механизм – активный элемент в системе управления финансами. // Вестник Калмыцкого Университета. 2013 г. №1 (17).

Джалал Агамехди оглы Маджидов
диссертант АГЭУ

Пути развития финансовой структуры и методов финансового менеджмента в современных условиях

Резюме

В статье определена финансовая категория, как основа системы денежных отношений, а также были исследованы особенности и принципы формирования системы финансового менеджмента и особенности формирования характеристик процесса бюджетирования. Кроме того, автором была предложена модель системы информационного обеспечения процесса бюджетирования для местных компаний и порядок определения финансовой структуры компании.

Ключевые слова: система финансового менеджмента, бюджетирование, система информационного обеспечения, финансовая структура.

Jalal Agamehdi Majidov
candidate for a degree ASEU

The ways of development of the financial structure and methods of financial management in the modern system

Summary

In article primarily, were specified category the financial system as a basis for monetary relations, characteristics of the formation and the principles of financial management and also were explored the features of formation of the budgeting process. Then, by the author were proposed the provision of information system of the budgeting process for local companies and were determined the rule of the company's financial structure.

Key words: financial management system, budgeting, information management system, financial structure.

UOT 33:303; 330.44

Firiş Balış oğlu ŞƏKƏRƏLİYEV
AMEA-nın İqtisadiyyat İnstitutunun dissertantı

ÖLKƏDƏ MÜASİR DAXİLİ AUDİT İNSTİTUTUNUN FORMALAŞMASI VƏ İNKİŞAF XÜSUSİYYƏTLƏRİ

Xülasə

Məqalədə Azərbaycanda daxili audit institutunun təşkili səviyyəsi, onun iqtisadi-idarəetmə sistemində və proseslərində rolu qiymətləndirilir, bu xidmətin inkişafının əsas istiqamətləri müəyyənləşdirilir.

Açar sözlər: daxili nəzarət sistemi, daxili audit, idarəetmə sistemi, şəffaflıq, risklər.

Giriş

Azərbaycan Respublikasında həyata keçirilən islahatlarda maliyyə nəzarət sisteminin təkmilləşdirilməsinə xüsusi diqqət yetirilməkdədir. Və bu mühüm nəzarət mexanizmlərinin bazar iqtisadiyyatının xüsusiyyətlərinə uyğunlaşdırılması, o cümlədən daxili auditin yaradılması dövlət quruculuğu siyasətində daim diqqət mərkəzində saxlanılan məsələlərdən biri hesab olunmaqdadır. Xüsusilə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sözləri ilə desək, "Azərbaycan Respublikasının iqtisadiyyatı inkişaf etdikcə və onun dünya təsərrüfat sisteminə inteqrasiyası gücləndikcə iqtisadi-maliyyə münasibətlərində şəffaflığın təmin olunmasında, iqtisadi cinayətkarlığa və korrupsiyaya qarşı mübarizədə auditin imkanlarından daha geniş istifadə etmək zərurəti yaranır. Bunun üçün müstəqil maliyyə nəzarəti sahəsində mütərəqqi dünya təcrübəsini öyrənmək və milli iqtisadiyyatın xüsusiyyətlərini nəzərə almaqla ölkəmizdə tətbiqini genişləndirmək çox vacibdir". [1]

Bütün bu kimi mühüm amillər, əsasən də həyata keçirilən islahatlar idarəetmənin mühüm bir istiqaməti kimi daxili auditin aktuallığını artırmaqla bərabər, optimal idarəetmə məsələlərinin işlənib hazırlanması və qəbul edilməsi sahəsində onun rolunun yüksəldilməsi xüsusi zərurətindən irəli gəlir.

Azərbaycanda daxili audit institutunun inkişafı üçün yaradılan mühit

Qlobal inkişaf şəraitində və maliyyə böhranının iqtisadi inkişaf proseslərinə təsir səviyyəsinin azalmadığı bir mühitdə daxili nəzarət sistemi, əsasən də daxili audit qarşısında qoyulan tələblər daha da artmaqdadır. Belə yanaşma bazar münasibətlərinin yeni inkişaf dövrünə qədəm qoyması, təşkilatı-hüquqi formasından asılı olmayaraq bütün subyektlərdə, müəssisələrdə idarəetmə sisteminin fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi, həyata keçirilən fəaliyyətin müəyyən olunmuş qanunvericiliyə uyğunluğu, maliyyə intizamının qorunması və digər bu kimi amillərlə bağlıdır. Daxili auditin də maliyyə nəzarət formasının əsas qolu olmaqla, dövlət və qeyri-dövlət müəssisələrində, təşkilatlarında təşkili və inkişafı nəzarət sisteminin fəaliyyətinin səmərəliliyini və məqsədyönlüyünü təmin etməklə yanaşı, həm də dövlət, cəmiyyət və biznes mühiti arasında sağlam və şəffaf əlaqə sisteminin qurulmasına təkan verir. Mövcud inkişaf meyli isə nəticədə özəl sektorun, dövlət orqanlarının fəaliyyətini qiymətləndirməklə, ümumilikdə davamlı inkişafın təmin olunmasında mühüm rol oynayan sosial-iqtisadi səmərəliliyin keyfiyyət və kəmiyyət meyarlarına, nəticə göstəricilərinə olan münasibəti aydın və obyektiv şəkildə qiymətləndirməyə imkan verir.

Müasir dünyada, o cümlədən Azərbaycanda daxili nəzarət sisteminin, əsasən də daxili auditin yeni keyfiyyət tələbləri baxımından təşkili milli, qlobal inkişaf problemlərinin həlli baxımından əhəmiyyət kəsb edir. Son dövrdə sosial-iqtisadi inkişafın sürətləndirilməsi, informasiyalı cəmiyyətin qurulması, bazar münasibətlərinin sağlam əsaslar üzərində inkişafı sahəsində ciddi maneələr törədən problemləri həll etmək məqsədilə ölkədə əsaslı hüquqi-normativ sənədlər

qəbul edilmişdir. Həmin sənədlərin qəbulu ölkədə sosial-iqtisadi inkişaf proseslərində sağlam mühitin yaradılmasına, açıq və şəffaf informasiyalı cəmiyyətin formalaşmasına yönəlməsilə diqqəti cəlb edir. Göstərmək lazımdır ki, bu istiqamətdə atılan digər mühüm və vacib addım "Azərbaycan - 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyasının qəbul olunmasıdır. Bütün bu yönümlü konsepsiyaların, strategiyaların, milli fəaliyyət planlarının, qanunvericilik sənədlərinin qəbulu Azərbaycan Respublikasının dünya dövlətləri arasında reytinqinin artmasına öz müsbət təsirini göstərməkdədir. Qeyd edilən qanunvericilik və hüquqi sənədlərin praktik həyatda icrasının təmin olunmasında müasir tələblərə və beynəlxalq standartlara uyğunlaşdırılan audit sistemi, o cümlədən daxili audit öz əvəzsiz rolunu oynamalıdır.

Daxili auditin təşəkkülü və inkişafı

Azərbaycanda daxili audit digər maliyyə nəzarət formalarından sonra təşəkkül taparaq inkişaf etmişdir. Bazar münasibətlərinin ölkədə təşəkkül taparaq, inkişaf etdiyi bir şəraitdə maliyyə nəzarətinin üçüncü qolu olan daxili auditin meydana gəlməsi bir zərurət kimi çıxış etmişdir. Daxili audit bir növ subyekt, müəssisə daxilində təşkil olunaraq, inkişaf etsə də o özlüyündə maliyyə nəzarət sisteminin başlıca bir qüvvəsi olmaqla, aşağıdan, daxildən təşkil olunması ilə fərqlənir. Bu institut həmçinin, digər nəzarət formaları arasında bir körpü rolunu oynamaqla, onların işinin səmərəliliyinin artırılmasına yönəlmiş fəaliyyəti ilə də əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasında bu nəzarət formasının təşkili və inkişafı başlıca olaraq bu kimi amillər ilə sıx bağlılığı ilə xarakterizə olunur.

Azərbaycanda daxili auditin inkişafı Beynəlxalq Daxili Audit İnstitutunun ölkədəki bölməsinin yaradılması ilə başlanmışdır. Bu mühüm fəaliyyətin təşkilində daha yaxından və fəal olaraq ölkə auditorları iştirak etmişdir. Azərbaycanda daxili audit fəaliyyətinin təşkilini və bir növ tənzimlənməsini həyata keçirən "Audit-Azərbaycan" İctimai Birliyinin yaranma tarixi 1999-cu ilə təsadüf edir. Beynəlxalq Daxili Auditorlar İnstitutu 1999-cu il 26 iyun tarixli qərarı ilə "Audit-Azərbaycan" bölməsini təsis etmişdir.

Beynəlxalq aləmdə daxili auditor peşəsinin nüfuzlu rəhbər qurumu kimi tanınan Beynəlxalq Daxili Auditorlar İnstitutunun ölkədə "Audit-Azərbaycan" bölməsini yaratması və onun dövlət qeydiyyatından keçmiş ictimai birlik kimi fəaliyyət göstərməsi auditin inkişafında xüsusi əhəmiyyət kəsb edən bir hadisə kimi qiymətləndirilməlidir. "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq 2000-ci il dekabrın 6-da "Audit-Azərbaycan" bölməsi Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən ictimai birlik kimi qeydə alınmış və ona dövlət qeydiyyatı haqqında şəhadətnamə verilmişdir.

Azərbaycan auditorları tərəfindən daxili auditin təşkilinə, təbliğinə, daxili auditor peşəsinin inkişafına diqqət yetirilməsinin isə bir əsas səbəbi olmuşdur. Məhz müəssisə və təşkilatlarda idarəetmənin səmərəli təşkilinə yardım edən daxili audit - nəticə etibarilə auditor yoxlamalarının özülü hesab olunur və bu missiyanı yerinə yetirir. Göstərmək lazımdır ki, "Audit-Azərbaycan" Beynəlxalq Daxili Auditorlar İnstitutunun Müstəqil Dövlətlər Birliyi məkanında yaradılmış ilk bölməsidir.

"Audit-Azərbaycan" İctimai Birliyi öz qarşısına ölkədə daxili auditor peşəsinin yayılması və inkişaf etdirilməsi, daxili auditorlar arasında peşə münasibətlərinin gücləndirilməsi, onların mənafelərinin və müstəqilliyinin qorunması, peşənin standart və normalarının işlənib hazırlanması, təkmilləşdirilməsi məqsədlərini qoymuşdur. Fəaliyyətə başladığı on beş ilə yaxın dövr ərzində "Audit-Azərbaycan" İctimai Birliyi yetərincə təşkilatlanmış, daxili auditor peşəsinin təbliği və inkişafı üzrə nüfuzlu milli quruma çevrilmişdir. Fəaliyyəti, əldə etdiyi uğur və nailiyyətləri nəzərə alınaraq 2008-ci ilin yanvarından artıq bölmə Daxili Auditorlar İnstitutunun (İİA) çərçivəsində İnstitut statusu almışdır.

"Audit-Azərbaycan" Bölməsinin fəaliyyətə başlaması ilə bağlı 2000-ci ilin 2 may tarixində keçirilmiş ilk ümumi yığıncağında idarə heyəti, idarəetmə və fəaliyyət komissiyaları yaradılmış

və onlara üzvlər seçilmişlər. İdarə Heyətinin işinin səmərəliliyinin artırılması, İnstitutun fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə və Nizamnaməyə uyğun olaraq Təftiş, İntizam, Məsləhət, Üzvlük və Etika, Xarici Əlaqələr və Metodik İşlər Komissiyaları yaradılmışdır. Qurum 2010-cu ildə Beynəlxalq Daxili Auditorlar İnstitutunun keçirdiyi ənənəvi Beynəlxalq Təbliğat-Təşviqat Proqramı (IMAP) müsabiqəsində iştirak etmiş və daxili auditor peşəsinin təbliği sahəsində onun fəaliyyəti müsbət qiymətləndirilmişdir. Ölkənin bu qurumunun bir neçə üzvü Daxili Auditorlar İnstitutunun daimi komitələrinə və işçi qruplarına seçilmişdir. [3]

Azərbaycan Prezidentinin təqdimatı əsasında 2007-ci il mayın 22-də Milli Məclis tərəfindən qəbul edilmiş, Nazirlər Kabinetinin qərarı ilə "Daxili audit haqqında" Qanunun məcburi auditin obyektləri üzrə mərhələlərlə tətbiqi müddətləri müəyyənləşdirilmişdir [2]. Daxili auditin özünütənzimləməsi isə qanunla daxili auditorların ictimai birliyinə Daxili Auditorlar İnstitutunun MDB ərazisində yaradılmış ilk bölməsi olan "Audit-Azərbaycan" ictimai birliyinə həvalə olunmuşdur.

Fəaliyyət göstərdiyi qısa müddət ərzində "Audit-Azərbaycan" Birliyi ölkədə aparılan iqtisadi islahatlar çərçivəsində nazirlik, komitə və birliklərdə nəzarət-təftiş idarələrinin ləğv olunduğu bir şəraitdə daxili audit sisteminin Beynəlxalq Daxili Auditorlar İnstitutunun işləyib hazırladığı göstərişlərə və normativ sənədlərə uyğun tərzdə qurulması, Azərbaycanda daxili auditor peşəsinin yayılması sahəsində xeyli iş görmüş, bunun nəticəsi olaraq bir çox nazirlik, müəssisə və təşkilatların (Təhsil Nazirliyinin, Azərbaycan Dövlət Dəmir Yolu İdarəsinin, "Libra" və "Neptun" birgə müəssisələrinin, "Kaspian Trans. Co" şirkətinin, "AzərCell Telekom" BM, "Qaradağ Sement" ATSC, "RotAbank" SKB, "KPMG Azərbaycan Limited", "Premyer Eycesi" firmalarının və digər nüfuzlu firmaların, şirkətlərin) nümayəndələri birliyin üzvlüyünə qəbul edilərək, Daxili Auditorlar İnstitutunun sertifikatını almışlar. [3]

Daxili auditin normativ-hüquqi bazasının müasir vəziyyəti

Azərbaycan hazırda yeni inkişaf mərhələsinə qədəm qoyur, bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, informasiyalı cəmiyyətin, elektron hökumətin qurulması, sosial sahədə önləyici inkişaf trendinin təmin olunması və əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, habelə elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunmasıdır. Mövcud tələblər iqtisadiyyatda, iqtisadi idarəetmə sistemində, təsərrüfat fəaliyyətində təkmilləşməni ön plana çəkməklə, müasir bazar tələblərinə uyğun nəzarət sisteminin, daxili auditin bütün sahələrdə inkişafını zəruriləşdirir. Yeni inkişaf mərhələsinin əsas xüsusiyyəti qarşıda duran məqsədlərin daha yüksək səviyyəli, çoxşaxəli olması və zamanın çağırışlarının nəzərə alınması ilə bağlıdır. Bu məqsədlərə nail olmaq üçün ciddi elmi əsaslara söykənən ən müasir idarəetmə üsullarının tətbiqi və onlara nəzarət sisteminin təşkili tələb edilir. Müasir dünya təcürbəsində olduğu kimi, Azərbaycanda da daxili auditin vahid sistem olaraq inkişafı, yalnız təsərrüfat subyektinin, müəssisə və təşkilatların fəaliyyəti ilə tamamlanmamalı, onun nəticələri sonda ölkədə qəbul edilən strategiyaların, konsepsiyaların, dövlət proqramlarının və digər bu kimi hüquqi sənədlərin icrasının təmin olunmasına yönəlməlidir.

Azərbaycanda müasir daxili nəzarət orqanı olaraq, daxili auditin təşəkkülü və inkişafı sahəsində zəruri addımlar atılsa da, bu sahənin fəaliyyətinin, hüquqi-normativ bazasının təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlərin genişləndirilməsi xüsusi zərurətdən irəli gəlir. Daxili audit sisteminin fəaliyyətinin təşkili və tənzimlənməsinin hüquqi əsaslarını təmin edən müddəaların ölkənin müvafiq məcəllələrində, müəssisə və sahə iqtisadiyyatı üzrə qəbul edilən qanunlarda (bank, sığorta, qiymətli kağızlar, investisiya fəaliyyəti, təbii inhisar və s.) öz əksini tapmaması məsələsi həll olunmalıdır. Belə yanaşma beynəlxalq təcürbədə audiyyəti üzrə müvafiq hüquqi sənədlər qəbul edilərkən orada öz aydın ifadəsini tapır. Digər tərəfdən, Azərbaycanda daxili auditin bir sistem kimi fəaliyyətinin təşkilinin və tənzimlənməsinin hüquqi bazasını təmin edən "Daxili audit haqqında" Azərbaycan Respublikası Qanununun müasir tələblər, xüsusi-

lə də maliyyə, iqtisadi böhranların yaranması, korrupsiya hallarının qarşısının alınması, açıq hökumətin, informasiyalı cəmiyyətin formalaşması, idarəetmə sistemində və təsərrüfat fəaliyyətində risklərin idarə olunması kimi mühüm amillər nəzərə alınmaqla təkmilləşməsinə ehtiyac artmaqdadır.

Müvafiq qanunda daxili auditin aparılması və onun nəticələrinin qiymətləndirilməsi ilə bağlı məsuliyyət normalarının daha geniş verilməsinə də ehtiyac vardır. Bu amil daxili auditin aparılmasına, bu sahədə risklərin qiymətləndirilməsinə, tam, dolğun və şəffaf informasiya bazasının formalaşdırılmasına görə məsul şəxsin fərdi məsuliyyətini, həmçinin daxili auditdə korporativ məsuliyyəti müəyyənləşdirməyə lazımi qədər şərait yaratmır. Daxili auditlə bağlı məsuliyyətin, məsuliyyət normalarının daha çox ölkənin digər müvafiq qanunvericilik sənədləri ilə əlaqələndirilməməsi mövcud sahədə boşluqların, problemlərin yaranmasına səbəb olur.

Daxili auditin aparılmasında əsas normativ-metodoloji sənədlər qəbiləsinə aid edilənlər - daxili audit standartlarıdır. Hazıradək bu standartların tətbiqi və istifadə sahəsi üzrə hazırlanması, onun tətbiqinin hüquqi baxımdan əsaslandırılması istiqamətində həyata keçirilən tədbirləri qaneedici hesab etmək olmaz. Daxili audit standartlarında beynəlxalq daxili standartları ilə bağlı müddəalar öz əksini tapsa da, lakin konkret olaraq bu standartların hazırlanması, qəbulu və tətbiqi ilə bağlı ciddi məsələlər hüquqi baxımdan həllini tapmamışdır. Belə ki, tətbiqi məqsədəuyğun hesab edilən və Beynəlxalq Daxili Auditorlar İnstitutu tərəfindən hazırlanan daxili audit standartları olduğu kimi Azərbaycan dilinə tərcümə olunur. Burada ölkənin idarəetmə sisteminin, müəssisə və təşkilatların təşkilinin və iqtisadi-təsərrüfat münasibətlərinin inkişaf meyilliyi kifayət qədər nəzərə alınmır, standartların təməl prinsipləri əsas götürülməklə, onun bazasında beynəlxalq təcrübədə olduğu milli standartların (dövlət, qeyri-dövlət, müxtəlif təşkilati-hüquqi formalı subyektlər üzrə) hazırlanması proseduru həyata keçirilmir. Daxili audit standartlarının tətbiqinin və aparılmasının rəsmiləşdirilməsi, onların aidiyyəti dövlət və ya icra orqanları tərəfindən təsdiqini və qəbulunu zəruriləşdirməkdədir. Bu amil daxili auditin həm fəaliyyət göstərdiyi struktur, orqan, subyekt səviyyəsində aparılmasının qanuniliyini təmin edir, həm də yuxarıda qeyd olunan mühüm dövlət sənədlərinin praktik həyatda icrasında daxili auditdən istifadə imkanlarını daha da artırmış olur.

Daxili auditin təşkili və tənzimlənməsi

Ölkədə daxili auditin təşkili və tənzimlənməsi mexanizminin müasir tələblər baxımından inkişafı sahəsində problemlər qalmaqdadır. Qanunvericilikdə daxili auditin təşkili ilə bağlı bəzi müddəalar verilsə də, onlar daha çox bu xidmətin yaradılmasına məsul olan müvafiq idarəetmə orqanının vəzifələri ilə əlaqələndirilir. [2] Təcrübə göstərir ki, daxili auditin yaradılmasında dövlət, özəl sektor fərqliliyi nəzərə alınmalı, onların təşkili və funksional fəaliyyəti konkret şəkildə qanunvericilik və hüquqi-normativ bazada əks edilməlidir. Xüsusilə, dövlət sektorlarında fəaliyyət göstərən və yaradılmaqda olan daxili audit strukturlarının təşkilini əks etdirən hüquqi-normativ sənədlər müvafiq dövlət institutları, nazirliklər tərəfindən razılıq əsasında təsdiq edilməlidir. Belə yanaşma dövlət büdcəsindən maliyyələşmədə, onun istifadəsində qanunvericiliyin və maliyyə intizamının qorunmasını təmin etməklə, həmin institutların fəaliyyəti ilə bağlı cəmiyyətdə şəffaf informasiya bazasının formalaşmasına yönəlmiş olar.

Ölkə qanunvericiliyində öz əksini tapan "daxili auditin özünütənzimləməsi" sistemi bilavasitə özəl sektorda mümkün olduğu halda, o təbii ki, dövlət, ictimai təşkilatlar üçün qeyri-mümkündür. Çünki, bu qurumların fəaliyyəti, təşkili və tənzimləmə sistemi bir-birindən köklü surətdə fərqlənir. Həmçinin, Daxili Audit İnstitutunun fəaliyyətinin dövlət və qeyri-dövlət sektorundakı daxili audit strukturları ilə əlaqəliliyinin təşkili forması, belə beynəlxalq təşkilatın ölkənin müvafiq orqanlarında (fəaliyyət xüsusiyyətləri əsas götürülməklə daxili audit peşəsi üzrə) sertifikatlaşmanı həyata keçirməsi, tədris prosesinin təşkili və xüsusi təlimatların, standartların hazırlanması proseduru da konkret şəkildə müəyyən edilməlidir.

Daxili nəzarət və risklərin idarə olunması problemi müasir təcrübədə olduğu kimi, Azərbaycanda da idarəetmə sisteminin təkmilləşdirilməsi, təşkilati-hüquqi formasından asılı olmayaraq subyektlərin fəaliyyətinin şəffaflığının təmin edilməsi və səmərəliliyinin artırılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Əsasən də, bu amil daxili nəzarət sisteminin təkmilləşdirilməsində, daxili auditin müasir tələblər nəzərə alınmaqla təşkilində və tənzimlənməsində ön plana çəkilməlidir. Risklər və onların idarə olunması daxili auditin aparılmasını təmin edən normativ-metodoloji sənədlərdə, standartlarda öz ifadəsini tapmalıdır.

"Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nda və "Korrupsiyaya qarşı mübarizəyə dair Milli Fəaliyyət Planı"nda nəzərdə tutulmuş vəzifələrin icrası, ümumilikdə ölkədə sivil və müasir tələblərə cavab verən daxili nəzarət sisteminin qurulması, daxili auditin inkişafı başlıca olaraq aşağıdakı tədbirlərin həyata keçirilməsini ön plana çəkir. [4;5] Azərbaycanda nəzarət sisteminin, xüsusilə də daxili auditin təşkili və inkişafı bu sahənin təkmilləşdirilməsini gündəmə gətirir. Daxili auditin inkişafı müasir informasiya texnologiyalarından daha geniş istifadəni zəruriləşdirir. Burada artıq, auditin, audit əməliyyatlarının sadə və ümumi qaydada informasiya - kommunikasya texnologiyalarında aparılması əsas məqsəd olmamalıdır. Auditin, əsasən də daxili auditin dövlət, cəmiyyət, iqtisadiyyat sahələri və ayrı-ayrı subyektlər ilə qarşılıqlı əlaqəsi, bu istiqamətlərdə fəaliyyət xüsusiyyətləri nəzərə alınmaqla məqsədli audit proqramlarının (informasiya-kommunikasya texnologiyaları bazasında) hazırlanması və onun tətbiqi müasir şəraitdə üstün mövqedən çıxış etməlidir. Belə yanaşma daxili auditin mühüm dövlət səviyyəli proqramlarda, strategiyalarda və digər bu yönümlü tədbirlərdəki rolunu və iştirakını daha fəallaşdırmaqla, müvafiq hüquqi sənədlərin icrasına nəzarəti, daxili auditin konkret subyektlərdəki fəaliyyətinin təşkilində gözlənilən nəticələrin alınmasını asanlaşdırmış olar.

Daxili nəzarət sisteminin, daxili auditin ölkədə inkişafı bir tərəfdən, bu sahədə fəaliyyət göstərən mütəxəssis və kadr heyətinin bilik və bacarıqlarının mütəmadi olaraq təkmilləşdirilməsini, digər tərəfdən isə, daxili auditorların fəaliyyət göstərdiyi subyektlərdə mövcud kadr potensialının peşəkarlıq səviyyəsinin qiymətləndirmə imkanlarının artırılmasını zəruriləşdirir.

Daxili audit qanunvericiliyinin təkmilləşdirilməsi dövlət idarəetmə sisteminin, cəmiyyətin müasir inkişaf tələbləri ilə sıx təmasda həyata keçirilməlidir. Bu baxımdan qanunvericilik bazasının təkmilləşdirilməsində aşağıdakı amillərin nəzərə alınması vacib şərt kimi qiymətləndirilməlidir: qanunun fəaliyyət istiqamətində, fəaliyyət dairəsində konkretliyin müəyyənləşdirilməsi; qanunun hüquqi əsaslarının daha da möhkəmləndirilməsi və işlək mexanizminin artırılması məqsədilə ölkədə qəbul edilən məcəllə və iqtisadi qanunvericilik sənədlərində (maliyyə, bank, sığorta, investisiya və s.) daxili auditin təşkili və fəaliyyəti ilə bağlı zəruri dəyişikliklərin edilməsi; daxili audit standartlarının hazırlanma və tətbiq istiqamətlərinin müəyyənləşdirilməsi; daxili auditin tənzimləmə mexanizminin onun fəaliyyət istiqamətləri nəzərə alınmaqla konkretləşdirilməsi. Azərbaycan Respublikasında müasir tələblərə uyğun təkmil daxili nəzarət sisteminin, əsasən də daxili audit modelinin qurulması və onun fəaliyyəti artıq həll edilməli əsas vacib məsələlərdən biri hesab olunmalıdır.

Nəticə

Ölkədə daxili audit institutunun peşəkar inkişaf səviyyəsi aşağıdakı tədbirlərin həyata keçirilməsinin sürətləndirilməsini xüsusi zərurətdən doğurur: ölkədə yaradılan daxili audit institutunun beynəlxalq əlaqələrinin genişləndirilməsi; bu qurumun potensialının gücləndirilməsi; "Daxili audit haqqında" Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsi; daxili audit xidməti yaradılmış müəssisə və təşkilatlarda daxili audit strategiyasının hazırlanması; daxili audit alətlərinin tətbiqində əsas prioritet sahələrdən biri olan beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi; xarici ölkələrdə daxili nəzarət və risklərin idarə olunması sahəsində mövcud qanunvericiliyin öyrənilməsi və tətbiqi; daxili nəzarət sisteminin prioritet hədəflərindən biri

olan elektron daxili audit sisteminin yaradılması; informasiya texnologiyalarının köməyi ilə daxili auditin kompüter proqram təminatının hazırlanması.

ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında auditor xidmətinin inkişaf Konsepsiyası (2012-2020-ci illər). Bakı, 2012.
2. "Daxili audit haqqında" Azərbaycan Respublikası Qanunu. Bakı, 2007.
3. "Audit-Azərbaycan" İctimai Birliyinin hesabatları (2005-2013). Bakı, 2014.
4. "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı". Bakı, 2012.
5. "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya və onun həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı". Bakı, 2007.
6. Yaşar Məmmədov. Azərbaycan Respublikasında auditor xidmətinin formalaşması və inkişaf perspektivləri. Monoqrafiya. Bakı, "Elm", 2006.

Фирис Балыш оглы Шекаралиев
диссертант ЭИ НАНА

Формирования и особенности развития современного института внутреннего аудита в стране

Резюме

В статье оценивается современное состояние организации внутреннего аудита в Азербайджанской Республике, ее роль в системе экономического управления, определены основные направления развития этой службы.

Ключевые слова: система внутреннего контроля, внутренний аудит, система управления, прозрачность, риски.

Firish Balash Shekeraliyev
candidate for a degree of Eİ ANSA

The formation and development of modern institute of internal audit in the country

Summary

In the article to inform attitude a modern condition of the organization inside audit in the Azerbaijan Republic, its role to system economic management, process, is determined the basic directions of development of this service.

Key words: system inside the control, inside audit, a control system, transparency, risks.

V BÖLMƏ
QLOBALLAŞMA: XARİCİ İQTİSADİ ƏLAQƏLƏR VƏ BEYNƏLXALQ TƏCRÜBƏ

UOT 330.34

Xəyalə Oruc qızı KƏRİMOVA
Azərbaycan Texniki Universitetinin dissertantı

QLOBALLAŞMA DÖVRÜNDƏ AZƏRBAYCAN

Xülasə

Məqalə qloballaşmanın müasir mərhələsinin təhlilinə həsr edilmişdir. Dünya iqtisadiyyatının qloballaşmasının əsas cəhət və xüsusiyyətləri göstərilmişdir. Dünya əmtəə və xidmətlər bazarlarının həcmi, transmilli şirkətlərin, dünya maliyyə bazarının fəaliyyəti və s. göstərilmişdir. Qloballaşmanın Azərbaycan iqtisadiyyatına təsiri qeyd olunur. Milli iqtisadiyyatın dünya konyunkturasından, investisiya proseslərindən, iqtisadi dövrlərdən və s. asılılığının konkret misalları əks olunur.

Açar sözlər: qloballaşma, beynəlxalq əlaqələr, transmilli korporasiyalar, Azərbaycan iqtisadiyyatı.

Giriş

Qloballaşma prosesinin kökləri beynəlxalq iqtisadi əlaqələrin əsaslarını qoyan müstəmləkə imperiyaların yaranması dövrünə gedir. Lakin qloballaşmanın əsasında olan müasir beynəlxalq iqtisadi münasibətlər böyük coğrafi kəşflər və müstəmləkə imperiyaların yaranması dövrünün əvvəlində olan münasibətlərdən prinsipial dərəcədə fərqlənir.

Müstəmləkəçilik dövründə münasibətlər əsasən metropoliyalar və onların müstəmləkələri arasında yaradılırdı və faktiki olaraq metropoliyalarda istehsal olunmuş əmtəə və məhsulların müstəmləkələrdəki xammala dəyişdirilməsindən ibarətdi. Müasir sistemin əsasını isə ilk növbədə inkişaf etmiş ölkələr arasında, əslində metropoliyalar arasındakı iqtisadi münasibətlər təşkil edir. Bu münasibətlər mürəkkəb yekun məhsulun və mütərəqqi texnologiyaların mübadiləsindən ibarətdir. Bu, tarixən yaranmış bu və ya digər ölkə və regionların sahə ixtisaslaşmasından irəli gəlir. Eyni zamanda metropoliya və müstəmləkələr arasında əlaqələr də qalmaqdadır. Misal üçün, inkişaf etmiş ölkələr keçmiş müstəmləkələrini ucuz xammal və işçi qüvvəsi mənbəyi kimi istifadə edərək əvəzinə bura özlərinin bir çox hallarda yüksək texnoloji və eyni zamanda ekoloji cəhətdən zərərli istehsallarını "ixrac" edir.

Qloballaşma ümumi termindir ki, onun vasitəsilə fiziki şəxslər, müəssisələr, institut və bazarlar arasında daim mürəkkəbləşən transsərhəd əlaqələr kompleksi əks olunur. O, özünü əmtəə, texnologiya və maliyyə axınlarının genişlənməsi, beynəlxalq vətəndaş institutlarının təsirinin durmadan artması, transmilli korporasiyaların qlobal fəaliyyəti, ilk növbədə İnternet vasitəsilə transsərhəd kommunikasiya və informasiya mübadiləsi miqyaslarının əhəmiyyətli dərəcədə artması, xəstəliklər və ekoloji nəticələrin sərhədlərdən ötürülməsi və müəyyən növ cinayətkar fəaliyyətin daha da beynəlmiləlləşməsində büruzə verir.

Qloballaşmanı həmçinin dünya məkanının tədricən vahid zonaya çevrilməsi kimi başa düşmək olar ki, burada kapitallar, əmtəə və xidmətlər maneəsiz hərəkət edir, ideyalar və onların daşıyıcı-

ları sərbəst yayılaraq müasir institutların inkişafını stimullaşdırır və əlaqə mexanizmlərini təkmilləşdirir. Beləliklə, qloballaşma hüquqi və mədəni-informasiya məkanının bir növ regionlararası, o cümlədən informasiya mübadiləsi infrastrukturunun yaradılmasını nəzərdə tutur.

Qloballaşma bütün ölkələrin iqtisadiyyatına təsir edir və çoxaspektli xarakter daşıyır. O, əmtəə və xidmətlərin istehsalının, işçi qüvvəsinin istifadəsinə, insan və "fiziki" kapitala investisiyalara, texnologiyalara və onların ölkələr arasında yayılmasına toxunur. Bütün bunlar nəticə etibarilə istehsalın səmərəliliyinə, əmək məhsuldarlığına və rəqabət qabiliyyətinə təsir edir.

XX əsrin sonunda qloballaşma dünya iqtisadiyyatının inkişafının əsas tendensiyası olmuşdur və XXI əsrdə də onu həmin rol gözləyir. Bununla belə, qeyd etmək lazımdır ki, bəşəriyyətin həyatında qloballaşmanın rolu yalnız iqtisadiyyatın strukturunun dəyişməsilə məhdudlaşmır - onun təsirini biz üzərimizdə həm sosial, həm də mədəni sahədə hiss edirik.

Müasir bəşəriyyət üçün xarakterik olan baxış və yanaşmaların yaxınlaşması bu və ya digər şəkildə özünü ictimai təcrübədə də büruzə verir. "Sosialist düşərgəsinin" iflasa uğramasından sonra bazar iqtisadiyyatı, demokratiya, plüralizm, açıq cəmiyyət irəliyə hərəkətdə hamı üçün əhəmiyyətli səmt olmuşdur. Tarixdə ilk dəfə olaraq dünyada yaşayanların mütləq əksəriyyəti tədricən həyat quruluşu prinsiplərinin ümumi anlayışını işləyib hazırlayır. Bu, qloballaşmanın ideoloji özülüdür.

İntellekt, biliklər, texnologiyalar ən vacib iqtisadi aktivlərə çevrilir. Kompüterin telekommunikasiya şəbəkələri ilə birləşməsinə əsaslanan informasiya inqilabı insanın həyat tərzini əsaslı surətdə dəyişir. O, zaman və məkanı sıxır, sərhədləri açır, yer kürəsinin istənilən nöqtəsilə əlaqə yaratmaq imkanını verir. O, fərdləri dünya vətəndaşlarına çevirir.

Yeni sosial məkanda zaman öz sürətini artırır. Qabaqlar illər, aylar lazım olduğu məsələyə indi günlər kifayət edir. Sosial əlaqələr prosesi intensivləşir, görünməmiş dinamika əldə edir. İctimai həyat məkanı sıxılıb, qatışaraq daha da bir-birinə oxşar olur.

Bir çox ölkədə istehsal və istehlak əsas etibarilə xarici ticarətdən asılıdır. Bir sıra ölkələrdə iqtisadi artımı saxlamaq üçün xammal və enerji daşıyıcılarının, kapital və istehlak mallarının, bəzən isə ixtisaslı işçi qüvvəsinin idxalına ciddi tələbat vardır. Dünya iqtisadiyyatı getdikcə ölkələr və qitələr boyunca səpələnmiş vahid istehsal zəncirlər sisteminə çevrilir. Dünya ÜDM-nin birləşdirilmiş idxal və ixrac payı 60%-i ötüb. [1, s. 5] Bu kimi beynəlxalq əlaqələr maliyyə axınlarının və xidmətlərin, beynəlxalq yükdaşımaların və kommunikasiyaların aktivləşdirilməsini tələb edir.

Qloballaşma nəticəsində xidmətlərin, o cümlədən maliyyə, hüquqi, idarəetmə, informasiya və bütün növ "görünməyən" xidmətlərin satışı artır və onlar beynəlxalq ticarət münasibətlərinin əsas amilinə çevrilir. Qlobal iqtisadiyyatda xidmətlərin ümumi xüsusi çəkisi XX əsrin 80-ci illərində başlayaraq daim artır və bu gün onlar beynəlxalq ticarətin strukturunda əsas mövqeləri tuturlar. UNCTAD-ın məlumatlarına əsasən 2011-ci ildə dünya ÜDM-in 65,6% və bütün məşğul olanların 44,1%-i xidmətlərin üzərinə düşmüşdür və bu sektor kənd təsərrüfatı və maşınqayırmadan daha yüksək sürətlə inkişaf edir. [2] 2013-cü il üzrə dünya ticarətinə dair ÜTT-nin Hesabatına əsasən kommersiya xidmətlərinin qlobal ixracı 2013-cü ildə 6% artaraq 4,6 trilyon ABŞ dollarına çatmışdır. [3]

Qloballaşma prosesinin əsas qüvvələri olan transmilli korporasiyalar (TMK) və beynəlxalq maliyyə institutları özlərinin fəaliyyət dairəsini genişləndirmək üçün "qlobal məkana" möhtacdırlar. Tipik TMK bir sıra xarici filialın sahibidir və ya onlara nəzarət edir, işgüzar ittifaqlar vasitəsilə (birbaşa investisiyalar hesabına) bütün qitələrlə bağlıdır, özünün xaricdəki fəaliyyətində strateji idarəetmə metodlarından istifadə edir. Bu cür korporasiya fayda olduğu istənilən yerdə xammal mənbələrindən, kapitaldan, kadrlardan, məhsullardan, işgüzar ideyalardan istifadə etmək imkanını heç zaman əldən qaçırmaz. Satış sahəsində də onun siyasəti analoji tərzdə

təşkil edilir. Bu cür aktivlik həmin korporasiyalara özlərinin milli sərhədlərindən çox-çox uzaqlarda yeni əlaqələr yaratmağa imkan verir.

TMŞ-nin aktiv formalaşması XX əsrin sonuncu otuzilliyində başlamışdır. TMK-nın sayı yüksək templərlə artır: 1970-ci ildə dünyada 7,5 min TMK var idi, o cümlədən 210-u illik dövriyyəsi 1 mlrd. dollardan artıq olanlar. Bu şirkətlərin istehsal etdikləri məhsul 300 mlrd. dollar həcmində qiymətləndirilirdi. 2005-ci ildə əsas şirkətlərin sayı 69 minə çatmışdır və onların xarici aktivləri 25 trilyon dolları üstələmişdir. 2010-cu ildə dünyada 82 mindən artıq TMK var idi və onların ümumi dövriyyəsi 30 trilyon dollardan artıq olmuşdur. [4, s. 36]

TMK-nın üzərinə dünyanın 50% -i, xarici ticarətin 2\3-si düşür, TMK-lar patent, lisenziya və ixtiraların 80%-dən çoxuna nəzarət edir. Buğda, qəhvə, qarğıdalı, meşə materialları, tütün və dəmir filizi üzrə dünya bazarlarının 90%-i, mis və boksitlər bazarlarının 85%-i, çay və qalay bazarlarının 80%-i, xam neft bazarının 75%-i TMK-nın nəzarəti altındadır. [5, s. 27]

Dünya iqtisadiyyatının qloballaşmasının daha bir vacib xüsusiyyətindən söyləməyə dəyər. Bu XX əsrin son illərində maliyyə bazarlarının sürətli artımıdır. Maliyyə bazarlarının (valyuta, fond, kredit) yeni rolu son illərdə dünya iqtisadiyyatının arxitekturasını kəskin dəyişmişdir. Hələ bir neçə onillik əvvəl maliyyə bazarlarının əsas məqsədi iqtisadiyyatın real sektorunun fəaliyyətinin təmin edilməsi idi. Son illərdə dünya maliyyə bazarı öz-özünü təminatlılıq göstərməyə başlamışdır. Nəticədə bu gün biz həmin bazarın həcminin dəfələrlə artmasının şahidi oluruq. Bunun əsas səbəbi iqtisadi münasibətlərin liberallaşmasından irəli gələn geniş çeşidli möhtəkirlikdir. Bir sözlə, puldan pul əldə etmək prosesi buradan hər hansı bir əmtəə və ya xidmət istehsalının xaric edilməsi nəticəsində xeyli asanlaşmışdır. Fyuçers, opsion və digər törəmə maliyyə alətləri ilə aparılan möhtəkir əməliyyatlar, həmçinin də dünya valyutalarının kurslarının fərqinə əsaslanan oyunlar istehsalı əvəz etmişdir.

2010-cu ildə qlobal maliyyə aktivləri 207 trilyon ABŞ dolları təşkil etmişdir. [6, s. 31] Beynəlxalq maliyyə bazarının nəhəng miqyası və dövriyyəsi dünya iqtisadiyyatı üçün ciddi təhlükə törədir. Dünya hüdudlarında sərbəst hərəkət edən çox böyük həcmli möhtəkir kapitalı istənilən ölkənin maliyyə sistemini asanlıqla həm canlandıra, həm də çökdürə bilər. Ən yeni tarix çoxlu bu kimi misallar bilir. Bu həm C. Sorosun fondlarının möhtəkir əməliyyatlarının nəticəsində B. Britaniyanın milli valyutasının dəyərinin kəskin düşməsi (1992-ci il), həm də maliyyə bazarlarının rolunun kəskin artması və bu bazarların qloballaşmasının çox irəli getməsini açıq-aşkar göstərmiş Asiya böhranıdır (1997-1998-ci illər). Bu gün beynəlxalq valyuta bazarında maliyyə əməliyyatlarının yalnız 10%-i xarici ticarətə xidmət edir. [7, s. 23]

Qloballaşma prosesi iqtisadi qüvvə və imkanlar baxımından güclü polyarizasiya olunmuş dünya sistemində keçir. Məsələn, əhalinin 10%-i sərvətlərin 85%-nin sahibidir, 358 ən zəngin "qlobal milyarderlərin" gəlirləri isə 2,3 milyard ən kasıb adamın gəlirlərinə bərabərdir. [8, s. 54] BMT-nin məlumatlarına əsasən dünyanın üç ən zəngin insanının kapitalı 48 ən kasıb ölkənin ümumi daxili məhsuluna bərabərdir. [9, s. 254] Bu cür vəziyyət isə risk, problem və münaqişələrin potensial mənbəyidir. Bir neçə aparıcı ölkə hətta siyasi və iqtisadi təzyiqə əl atmadan istehsal və istehlakın böyük hissəsinə nəzarət edir. Onların daxili prioritetləri və dəyərlər orientirləri beynəlmiləlləşmənin bütün böyük sahələrində iz saxlayır.

Beynəlmiləlləşdirilmə prosesinin dərinləşməsinin nəticəsi milli iqtisadiyyatların qarşılıqlı əlaqələri və asılılıqlarıdır. Bunu ölkələrin vahid beynəlmiləl iqtisadi sistemə yaxın olan struktura inteqrasiyası kimi qəbul etmək olar. Qlobal məhsulun əsas hissəsinin istehsalçı ölkələrdə istehlak olmasına baxmayaraq milli inkişaf daha çox qlobal strukturlarla əlaqələndirilir və keçmişdə olduğundan daha da çoxtərəfli və çoxpilləli olur.

Qloballaşma prosesləri Azərbaycan iqtisadiyyatına olduqca aktiv təsir edir, onu ölkələrarası rəqabətə cəlb edir və iqtisadi inkişafın yeni imkanlarını açır. 2014-cü ildə ölkənin ÜDM-də xarici ticarətin xüsusi çəkisi 41,2% təşkil etmişdir və bu milli iqtisadiyyatın dünya konyunkturasından, investisiya proseslərindən, iqtisadi tsikllərdən və s. asılılığının əyani təzahürüdür. Məsə-

lən, milli ixracın əsas hissəsi olan neft və qazın qiyməti Azərbaycandan kənarda müəyyən olunur və dünyada baş verən siyasi hadisələrdən asılıdır. Eyni sözləri dünya valyutaları, kredit dərəcələri və s. haqqında da demək olar. Nəticədə ölkə iqtisadiyyatının xarici hadisələrə həssaslığı artır, dünya iqtisadiyyatının konyunkturası və inkişafından asılılığı daha da möhkəmlənir. Bunu nəzərə alaraq Azərbaycan qloballaşma şəraitində özünün iqtisadi məsələlərini həll edərkən dünya iqtisadiyyatında yaranan vəziyyəti nəzərə almağa məcburdur.

Azərbaycan Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı və s. kimi fövqəlmilli maliyyə institutlarının üzvü olmuşdur, Ümumdünya Ticarət Təşkilatına daxil olmaq haqqında müraciət etmişdir. Bu təşkilatlar qloballaşmanın nəticəsidir və qloballaşma prinsiplərini həyata keçirirlər.

Ölkə özünün karbohidrogen yataqlarının işlənməsinə başlayarkan müasir texnologiyalar və investisiya resurslarına malik olan BP, Statoil, ExxonMobil, Itochu, Total, Unocal və s. kimi transmilli korporasiyaları cəlb etdi.

Qloballaşma prosesləri Azərbaycan iqtisadiyyatına onunla əlaqədər bilavasitə təsir edir ki, burada Xəzərin neft-qaz yataqlarının işlənməsi zamanı qlobal nəqliyyat-kommunikasiya layihələri (Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu) və TRACECA nəqliyyat-kommunikasiya dəhlizi realizə olunur.

Eyni zamanda milli iqtisadiyyat inkişaf etdikcə Azərbaycan biznesi xarici investisiya layihələrində iştirak etməyə başladı. Məsələn, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti Gürcüstan, Türkiyə, İsveçrə, Rumıniya, Ukrayna iqtisadiyyatlarına artıq investisiya qoymuşdur, başqa sözlə, transmilli şirkətə çevrilir.

Qloballaşma prosesləri çərçivəsində Azərbaycan 2013-cü ilin fevralında "Azerspace-1" ilk telekommunikasiya peykini orbitə çıxarmışdır. Peyk rəqəmsal teleradio verilişləri üzrə xidmətlərin göstərilməsi, İnternet şəbəkəsinə çıxış, məlumatların ötürülməsi, VSAT multiservis şəbəkələrinin yaradılması, həmçinin hökumət rabitəsinin təmin edilməsi üçün nəzərdə tutulmuşdur. "Azerspace-1"-in xidmət zonasına Avropa, Qafqaz, Mərkəzi Asiya, Yaxın Şərq və Afrika ölkələri daxildir.

Hal-hazırda "Azerspace-2" ikinci telekommunikasiya peykinin səmaya çıxarılması layihəsi üzərində iş aparılır. Yeni peykin kosmosa çıxarılması 2017-ci ilin sonunda nəzərdə tutulur və o, rəqəmsal teleradio verilişləri, İnternet şəbəkəsinə çıxış, məlumatların ötürülməsi və s. üzrə xidmətlərin göstərilməsinə imkan verəcək.

Azərbaycanın idarəsi altında həmçinin aşağı orbitli "Azersky" ("SPOT 7") peyk vardır. Peyk 2015-ci ilin yanvarın birindən fəaliyyətə başlamışdır və onun göstərdiyi xidmətlərdən xarici ölkələr də yararlana bilir. "Azersky" Fransanın "SPOT 6" peyki ilə birgə istismar ediləcək. Peyklər bir yerdə hər gün 6 milyon kvadrat kilometr sahənin çəkilişini aparmaq imkanına malikdir və bu, Fransa ərazisindən 10 dəfə çoxdur.

Nəticə

Yuxarıda əks olunmuş faktlar göstərir ki, Azərbaycan iqtisadiyyatı qloballaşma prosesinə aktiv daxil olur və qloballaşmanın üstünlüklərini milli maraqları üçün istifadə etməyə çalışır. Bununla belə qloballaşmanın yaratdığı imkan və təhlükələrin öyrənilməsi və proqnozlaşdırılması iqtisadiyyat elminin vacib elementlərindəndir.

ƏDƏBİYYAT

1. Шишков Ю. Государство в эпоху глобализации // Мировая экономика и международные отношения. - 2010. - № 1.- 128 с.
2. http://unctad. org/en/PublicationsLibrary/ ditctncd2013d4 _en.pdf
3. https:// www.wto.org/english/news_e/pres14_e/pr721_ e.htm <http://www.wto.org/english/news_e/pres14_e/pr721_%20e.htm>

4. Полунина Г.В. Теоретические и методологические аспекты анализа многоотраслевой экспансии современных монополий. М., 2014.- 228 с.
5. Бабурина О.Н. Вариации представлений о мировом порядке и новый мировой экономический беспорядок // Финансы и кредит. - № 37; - 2008. - 76 с.
6. McKinsey Global Institute, World Federation of Exchanges, BIS, IMF, Bankscope; 2011.- P.261.
7. Коллонтай В. Эволюция западных концепций глобализации // МЭ и МО. 2012. № 1. - 128 с.
8. Бауман З. Глобализация. Последствия для человека и общества / Пер. с англ. - М.: Издательство “Весь Мир”, 2004.- 188 с.
9. Цаплин В. Странная цивилизация. М., Астрель, АСТ, 2006. - 640 с.

Хаяля Орудж гызы Керимова
диссертант Азербайджанского
Технического Университета

Азербайджан в эпоху глобализации

Резюме

Статья посвящается анализу современного этапа глобализации. Приводятся основные черты и особенности глобализации мировой экономики. Даются показатели объема мировой торговли товарами и услугами, деятельности транснациональных корпораций, мирового финансового рынка и др. Отмечается влияние глобализации на экономику Азербайджана. Приводятся конкретные примеры имеющей место зависимости национальной экономики от мировой конъюнктуры, мировых инвестиционных процессов и мировых экономических циклов и др.

Ключевые слова: глобализация, международные отношения, транснациональные корпорации, экономика Азербайджана.

Khayala Orudj Kerimova
candidate for a degree of
Azerbaijan Technical University

Azerbaijan in the age of globalization

Summary

The article is dedicated to analysis of modern stage of globalization. Main peculiarities and characteristics of globalization of the world economy are shown in it. Volumes of world goods and services markets, work of multinational companies, global financial market and others have also been demonstrated. The influence of globalization on economy of Azerbaijan is mentioned. Concrete examples of dependence of national economy on the world conjuncture, investment processes, economic cycles and others are reflected.

Key words: globalization, international relations, transnational corporations, economy of Azerbaijan.

UOT 658.011.46

Zamir Elşad oğlu TAĞIYEV
Qərb Universitetinin doktorantı

BMT-NİN MALİYYƏ - KREDİT İNSTİTUTLARI VƏ ONLARIN İNKİŞAF MEYİLLƏRİ

Xülasə

Məqalədə Beynəlxalq maliyyə - kredit qurumlarının yaranması zəruriliyi, onların müxtəlif ölkələrin, o cümlədən Azərbaycan respublikasının inkişafında rolu öyrənilmişdir. Respublikada aparılan irimiqyaslı islahatların həyata keçirilməsində, iqtisadi artımın qiymətləndirilməsində, proqnozlaşdırılmasında onların rolu işıqlandırılmış, maliyyə - kredit təşkilatlarının fəaliyyətinin inkişaf meyilləri araşdırılmışdır.

Açar sözlər: maliyyə-kredit qurumları, iqtisadi islahatlar, milli iqtisadiyyat, inkişaf proqramı.

Giriş

Ölkələr arasında Beynəlxalq səviyyədə iqtisadi münasibətlər sisteminin inkişafında BMT-nin nəzdində fəaliyyət göstərən maliyyə - kredit təşkilatları böyük rol oynayırlar. Bu baxımdan BMT-nin maliyə - kredit təşkilatının yaranma şəraiti, funksiyaları, regional inkişafda rolu kimi məsələlər ətraflı öyrənilir.

Azərbaycanla Dünya Bankı (DB) və onun tərkibinə daxil olan qurumlar, həmçinin Beynəlxalq Valyuta Fondu (BVF) arasında əməkdaşlıq sistemi təhlil olunmuş, bu fəaliyyətin inkişaf meyilləri ətraflı tədqiq olunur.

Ümumi yanaşmalar

Məlum olduğu kimi, Dünya Bankı ilk əvvəl Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı adı ilə yaranmışdır. Terminoloji mənada Dünya Bankı dedikdə "Beynəlxalq İnkişaf Assosiasiyası" və "Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı " nəzərdə tutulur. Ancaq Dünya Bankının fəaliyyət sahəsi geniş olduğundan adları çəkilən 2 qurum bankın fəaliyyətini tam həcmdə həyata keçirməyə bəs eləmir. Əlavə 3 qurum, yəni: Beynəlxalq Maliyyə Korporasiyası, İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik, İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz yuxarıda qeyd olunan 2 qurumla birgə Dünya Bankı ailəsini, yəni, Dünya Bankı Qrupunu əmələ gətirir. Dünya Bankı Qrupu dedikdə aşağıdakı qurumlar nəzərdə tutulur:

1. Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB);
2. Beynəlxalq İnkişaf Assosiasiyası (BİA);
3. Beynəlxalq Maliyyə Korporasiyası (BMK);
4. İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik (İTÇA);
5. İnvestisiya Mübahisələrinin Həlli üzrə Beynəlxalq Mərkəz (İMHBM).

Dünya Bankı anlayışı Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq İnkişaf Assosiasiyası qurumları ilə yekunlaşır. Belə ki, yuxarıda adları çəkilən 5 qurum birlikdə yeni bir anlayışı, yəni **Dünya Bankı Qrupu**-nu təşkil edirlər. Dünya Bankı Qrupu (DBQ) tərkibindəki 5 qurumla yoxsulluğun azaldılması və dünya iqtisadiyyatının inkişafının qarantıdır. DBQ 185 ölkənin üzv olduğu nəhəng iqtisadi təşkilatdır.

Dünya Bankı (BYİB və BİA) fəaliyyətini inkişaf etməkdə olan ölkələrdə (İEOÖ) əsasən aşağıdakı sahələrə yönəldib:

- İnsani inkişaf (məs. təhsil, sağlamlıq);
- Kənd təsərrüfatı və kəndlərin inkişafı (məs. irriqasiya, kəndlərə göstərilən xidmətlər);
- Ətraf mühitin qorunması (məs. çirklənmənin azaldılması);
- İnfrastruktur (məs. yollar, şəhərlərin artması, elektrik təchizatı);
- İdarəetmə (məs.anti-korrupsiya, qanuni institutların inkişaf etdirilməsi).

Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı (BYİB) və Beynəlxalq İnkişaf Assosiasiyası (BİA) üzv ölkələrə uyğun normalarla kredit verməklə yanaşı, kasıb ölkələrə də qrantlar ayırır. Xüsusi layihələr üçün ayrılmış kreditlər və qrantlar çox vaxt müəyyən sektorlarda və eləcə də iqtisadiyyatda yeni və daha böyük dəyişikliklərlə əlaqələndirilir. Məsələn, sahilboyu ərazilərdə ekoloji sabitliyi qorumaq üçün ayrılmış kreditlər yeni ekoloji təşkilatların yaranması ilə bərabər, çirklənmənin qarşısını almaq üçün yeni üsulların tapılması ilə də nəticələnir.

Beynəlxalq Maliyyə Korporasiyası (BMK) və İnvestisiya Təminatı üzrə Çoxtərəfli Agentlik (İTÇA) isə özəl sektora investisiya daxil edir və bu investisiyaların təminatçısı rolunu oynayır.

Yuxarıda qeyd edildiyi kimi, Dünya Bankı Qrupu BMT-nin ixtisaslaşmış qurumlarından biridir və onun 185 üzvü vardır. Ənənəyə uyğyn olaraq, Dünya Bankının Prezidenti ən iri səhmdar ölkənin vətəndaşı olmalıdır. Prezident 5 illik müddətə seçilir və nəzarəti həyata keçirir. Beynəlxalq maliyyə təşkilatlarından biri də Beynəlxalq Valyuta Fondudur (BVF).

Əsası 1944-cü ildə ABŞ-ın Hempşir ştatının Bretton - Vuds əyalətində BMT-nin valyuta konfransında qoyulan, valyuta - maliyyə sferasında beynəlxalq əməkdaşlığı təmin etmək, beynəlxalq ticarətin genişlənməsinə və tarazlı inkişafa şərait yaratmaq, bununla da üzv ölkələrin iqtisadi yüksəlişinə yardımçı olmaq, üzv ölkələrin valyuta stabilliyinə xidmət etmək, üzv ölkələrin tədiyyə balansındakı qeyri - tarazlıqları aradan qaldırmaq məqsədi ilə onlara kreditlər vermək, bununla da beynəlxalq iqtisadi əlaqələrin qarşısını alan maneələri aradan qaldırmaq, beynəlxalq ticarət münasibətlərinə maneçilik törədən valyuta idxalı məhdudiyyətlərinin aradan qaldırılmasına kömək məqsədi ilə yaradılan beynəlxalq maliyyə institutudur. BVF-nin ali rəhbər orqanı İdarəedicilər Şurasıdır. Bu şurada hər bir üzv ölkə idarəedici və onun müavini qismində təmsil olunur. Bunlar adətən maliyyə naziri və mərkəzi bankın sədrindən təyin olunur. Bundan sonrakı orqan İdarəedici Şuradır.

Fondun idarəedici direktorlarının sayı 53-dür. BVF-də ən çox səsə malik olan ölkələr aşağıdakılardır: ABŞ - 17.78%, Almaniya - 5.58%, Yaponiya - 5.53%, Böyük Britaniya - 4.48%, Fransa - 4.98%, Səudiyyə Ərəbistanı - 3.45%, İtaliya - 3.09%, Rusiya - 2.9%. Bu fond əsasən iki məqsədə xidmət edir: tədiyyə balansındakı qeyri - tarazlığı aradan qaldırmaq; büdcə xərclərinin kreditləşməsi başda olmaqla, ölkənin makroiqtisadi stabilliyinə yönəldilən tədbirlərin həyata keçirilməsi. Qeyd edək ki, üzv ölkələrin cəlb etdikləri kreditin həcmi kvotanın 25%-dən çox ola bilməz. Bundan yuxarı həcmdə kredit verilməsi isə BVF-nin direktorunun razılığından asılıdır və bir qayda olaraq bu elə həmin ölkənin ümumiqtisadi, eləcə də maliyyə siyasətinin təhlili əsasında həyata keçirilir. Ümumiyyətlə, BVF krediti müraciət əsasında və ölkənin iqtisadi durumunu qiymətləndirdikdən sonra verir. Üzv ölkələrin məqsədli lahiyələrini həyata keçirmək üçün onların qarşısında bir sıra şərtlər qoyulmuşdur. Kredit vəsaitləri yalnız bu şərtlərin reallaşmasından sonra həyata keçirilir. Üzv ölkələrin qarşısında duran şərtlər aşağıdakılardır: beynəlxalq ticarət fəaliyyətində valyuta məhdudlaşdırılmalarına, hissə - hissə üzən valyuta sisteminin tərbiq edilməsinə, eləcə də möhtəkir xarakterli kapitalın hərəkətinə yol verməmək, dövri olaraq ölkənin maliyyə və iqtisadi durumu haqqında fonda məlumat vermək, məqsədli devalvasiya siyasətinə zəruriyyət yarandıqda, devalvasiya dərəcəsini fonda bildirmək və s.

Fonda üzv olan ölkələr üzərinə götürdükləri məsuliyyəti yerinə yetirmədikdə, bir sıra cəza tədbirlərinə məruz qalırlar. Belə ki, bu maliyyə qurumu həmin ölkələrə kredit verilişini dayandıra, hətta onları üzvlükdən uzaqlaşdıra bilər.

Ümumiyyətlə, tətbiq edilən cəzaların ağırlığı öhdəliklərdən yayınmanın səviyyəsindən asılıdır. Bundan başqa BVF dünya maliyyə sistemini istiqamətləndirən, valyuta məzənnəsini təsbit və nəzarət edən bir mərkəz funksiyasını da yerinə yetirir. Beləliklə, BVF bütün ölkələrin beynəlxalq ticarətinin və istehsal resurslarının inkişaf etdirilməsinə köməklik göstərən beynəlxalq qurumdur. BVF-də ölkələrin qarşılıqlı valyuta münasibətində tənzimlənməsi, beynəlxalq maliyyə köməkliyi göstərməklə ödəmə balanslarının korrektə olunması, onların defisitlik miqyasını və müddətinə ixtisar etmək ideyası 30-cu illərin axırları, 40-cı illərin əvvəlləri İngiltərə və

Amerika alimləri tərəfindən müzakirə edilmişdir. Lakin 1942-ci ildə İngiltərə Parlamentinə baxılmaq üçün beynəlxalq klirinq ittifaqının yaradılması haqqında C.Keyns planı təqdim olundu. Keyns planında ittifaqın iştirakçıları beynəlxalq hesablaşmaların tənzimlənməsi üçün məsuliyyət daşımaları təqdim olunurdu. Keynsin fikrincə, klirinq ittifaqı milli üstünlük emissiya institutları olmalı və xüsusi hesablaşma üçün pul vahidi buraxmalıdır. Kollektiv valyuta emissiyasının ölçüsü beynəlxalq ticarət dövriyyəsinin real tələbləri ilə müəyyən edilməlidir və onun kütləsi iqtisadi cəhətdən nə dərəcədə məqsədəuyğun olmasından asılı olaraq onun artırılıb-azaldılması yolu ilə maliyyə təşkilatlarının rəhbərləri tərəfindən düşünülmüş tənzimlənməlidir. Qarşılıqlı kredit köməkliyi avtomatik borc formasının müəyyən müddətə verilən əlavə beynəlxalq ödəmə vəsaitlərinin köməkliyi ilə həyata keçirilməsi nəzərdə tutulurdu.

ABŞ-da Keyns problemi ilə paralel doktor Uayt da işləmiş və 1942-ci ildə problemi həll etmək üçün öz planını ABŞ hökumətinə təqdim etmişdir. Uayt beynəlxalq tənzimləyici fond və investisiya bankı yaradılmasını təklif edirdi. Hər iki elmi ideya bir il müddətində ABŞ və İngiltərə dairələrində müzakirə olundu. Sonra həmin ideyalarla digər dövlətlərin hökumətləri tanış oldu və onlar geniş müzakirə üçün mətbuatda çap edildi. Uayt və Keyns proqramları fərqlənirdilər. Lakin həmin proqramlarda çoxlu ümumi fikirlər var idi. Hər iki plan beynəlxalq iqtisadi münasibətlərin çoxtərəflilik əsasında genişləndirilməsi məsələsini qarşıya qoyurdu. Lakin bu vaxt məqsədə çatmaq üçün metod və vasitələr prinsipcə müxtəlif idi. Uayt və Keynsin proqramları BMT çərçivəsi daxilində müzakirə olundu. BMT-nin komissiyası 22 iyun 1944-cü ildə Beynəlxalq İnvestisiya bankı və Tənzimləyici fondun yaradılmasını qəbul etdi və bu məsələyə baxılmaq üçün Bretton - Vuds konfransına üzv olan dövlətlərin iştirakçılarına təqdim olundu. Konfrans beynəlxalq maliyyə təşkilatlarının ancaq adı dəyişməklə yaradılmasını təsdiq etdi. Razılaşmanın imzalanması nəticəsində Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı və Beynəlxalq Valyuta Fondu yaradıldı. 1946-cı ilin mart ayında Savanna (ABŞ) şəhərində bu təşkilatların ilk təsis sessiyası keçirildi.

Razılaşmanın bəndində (BVF-nin Nizamnaməsi) dünya ticarətinin, valyutanın, kreditin, maliyyə münasibətlərinin təşkili qaydaları və Bretton - Vuds adı almış 3-cü dünya valyuta sistemi tərtib edildi.

Sovet İttifaqı 1944- 1946-cı illərdə BVF və BYİB-nin yaradılması haqqında danışıqlarda iştirak etdi. Sovet ekspertləri həmçinin Bank və Fondun yaradılmasının layihə planının müzakirəsində iştirak etdi. Konfransda ilk dəfə müxtəlif sosial - iqtisadi sistemlərin əməkdaşlığının iştirakının mümkün olması haqqında məsələ həll edildi və SSRİ ilk dəfə konfrans sədrinin birinci müavini rolunu yerinə yetirdi. Sədr müxtəlif komitə və işçi komissiyalarının üzvlərindən ibarət idi. SSRİ-nin Bretton - Vuds konfransında səsləndiyi kimi əsas tələbi də müəyyən edildi. ABŞ və Böyük Britaniyadan sonra çox böyük kvotaya malik olmayan üçüncü ölkə SSRİ BVF-nin ali icraedici orqanında özünün daimi nümayəndəsini və icraedici direktorunu təyin etmək hüququ aldı. BVF-də SSRİ-nin malik olduğu səslərin sayı ümumi səslərin 12,5%-ni təşkil edirdi. Bu ABŞ-dan və İngiltərədən sonra (28,9%) üçüncü yer 13% təşkil etmişdir.

BVF haqqında razılaşmada bu dövrdə SSRİ-nin mövcud sosial - iqtisadi vəziyyətini, təsərrüfatçılıq mexanizmini nəzərə alaraq sovet nümayəndə heyətini məcbur etməyə çalışırdılar ki, bu məsələlər razılaşmaya əlavə edilsin. Lakin BVF haqqında razılaşmanı sovet hökuməti qeydiyyatdan keçirmədiyindən Sovet İttifaqı dünya maliyyə sisteminin və bu təşkilatın yaranmasında ən aktiv iştirakçı hesab olunsa da müəyyən olmayan səbəblərdən həmin sistemə cəlb edilmədi.

SSRİ və onun müttəfiqləri hesab edilən əsas ölkə qrupları dünya valyuta - maliyyə sistemi iştirakçılarının sayına daxil edilmədilər. Ancaq bir neçə sosialist ölkələri (Polşa, Çexoslovakiya, Kuba və Yuqoslaviya) razılaşmanın şərtlərini qeydiyyatdan keçirdilər. Lakin onlar 1950, 1954 və 1964-cü illərdə birinci olaraq Fondun tərkibindən çıxdılar. BVF-nin tərkibində ancaq Yuqoslaviya qaldı. Çin, Bretton - Vuds institutlarının üzvü hesab edilsə də onun institutlarından təcrid olunması siyasi və ideoloji motivlərlə əlaqələndirilir və iki şərtlə izah edilirdi:

• dünyanın iki hərbi bloka (NATO və Varşava müqaviləsi) parçalanması və Şərqlə Qərb arasınsa kəskin ziddiyyətlərin baş verməsi;

• sosialist sistemində hakim olan planlı iqtisadiyyatı bazar iqtisadiyyatı ilə əvəz etmək.

Məlum hadisələrə görə BVF-nin işində iştirak etmək məsələsi 1991-ci ilin iyul ayında SSRİ rəhbərliyi ilə müzakirə olundu. Lakin SSRİ-nin dağılması ona gətirib çıxardı ki, onun keçmiş respublikaları BVF-yə üzv olmaq haqqında məsələni müstəqil həll etdilər. Rusiya bu instituta 1992-ci ildən üzvdür.

Beynəlxalq Valyuta Fondunun yaradıldığı vaxtdan bu təşkilatın üzvlərinin sayı 4,2 dəfə artmışdır.

Müasir vəziyyət

Hazırda dünyanın 184 dövləti BVF-nin üzvüdür. BVF BYİB ilə çox sıx əlaqədə işləyir. BYİB -nin üzvü BVF-nin üzvü hesab edilir. Hər iki təşkilatın mənzil - qərargahı Vaşinqtonda bir binada yerləşir. BVF və BYIB formal olaraq BMT-nin ixtisaslaşmış müəssisəsi hesab edilirdi. Lakin fəaliyyətinin ilk günlərindən bu təşkilatlar BMT-nin istiqamətləndirmə rolunu rədd etmişlər. Razılaşmanın bəndində tam muxtariyyət qeydə alınmışdır. BMT Fondun apardığı siyasətə aid olan BVF-yə heç bir təlimat vermək hüququna malik deyil. BVF-nin BYİB ilə BMT və digər təşkilatlara münasibət xarakteri də razılaşma bəndində müəyyən edilmişdir. BVF-nin nümayəndəsi BMT Baş Assambleyasının işində iştirak edir və təşkilatlar aşkar olmayan informasiya ilə mübadilə edirlər.

BVF-nin yaradılmasından 70 ildən çox vaxt keçir. Bu illərdə dünya iqtisadiyyatında, bu fondun üzvü olan dövlətlərin iqtisadi siyasətinin müşahidə olunmasında, beynəlxalq valyuta münasibətlərinin tənzimlənməsi formalarında, gəlirin formalaşdırılmasında, valyuta ehtiyatlarının cəlb olunması mexanizmlərində, kreditləşmə fəaliyyətində, təşkilata üzv olan ölkələrin kvota sistemində, siyasətin məqsədli qurulmasında, təşkilat strukturunda və fondun digər fəaliyyət sahələrində müəyyən dəyişikliklər olmuşdur.

BVF-nin müəyyən inkişaf mərhələlərində fəaliyyətin dəyişməsi dövri olaraq razılaşmanın bəndlərinə baxmağa xidmət edir. 1969, 1978 və 1992-ci illərdə dəyişiklik edilən üç bənd nisbətən əhəmiyyətli hesab edilir: Birinci dəyişiklik kollektiv milli üstünlük ödəmə vəsaitlərinə girişlə - xüsusi qaydaların götürülməsi - XQG - (Special Drawing Rights - SDR). SDR - bu ödəmə balanslarında saldo defisitliyini tənzimləmək üçün nəzərdə tutulan xüsusi ehtiyat valyutalarının daxil olması və milli valyutaların dəyərinin ölçülməsi ilə əlaqədar yaradılan kredit ehtiyat aktividir. İlk dəfə xüsusi qaydaların götürülməsi 1970-ci ildə 21,4 mlrd. məbləğində buraxılmışdır. Ötən illərdə bu məbləğ, demək olar ki, 10 dəfə artmışdır. 5 sentyabr 2003-cü ildə onun ümumi məbləği 212,8 mlrd.təşkil etmişdir. İkinci dəyişiklik (1978-ci il) yeni beynəlxalq valyuta sisteminin valyuta tənzimlənməsinə dəyişməsinin hüquqi tərtib edilməsi ilə əlaqədar olaraq Yamayka razılaşmasının imzalanması nəticəsində baş vermişdir. Valyuta bərabərlik hüququnun təsdiqlənməsi əvəzinə dünya valyuta sistemi və valyuta kursunun fəaliyyət göstərməsini müşayiət etmək sözü əlavə edilmişdir. Razılaşma bəndində üçüncü dəyişiklik (1992-ci il) ölkələrin Beynəlxalq Valyuta Fonduna xarici borclarla vəziyyətin gərginləşməsi ilə əlaqədar olmuşdur ki, bu da Fonda təqdim olunan hüquqlardan istifadə edərək müvəqqəti olaraq səsvermədə iştirak etməkdən dayandıra bilər. Bu tədbir vaxtı keçmiş borcları olan və öz nizamnamə öhdəçiliklərini ödəməkdən yayınan borclu ölkələr üçün tətbiq edilmişdir. BVF-nin tarixində bu tədbir bir neçə dəfə, axırıncı dəfə 2003-cü ildə Liberiya və Zimbabve ölkələrinə tətbiq edilmişdir.

Razılaşma bəndlərində fondun əsas məqsədləri möhkəmləndirilmişdir ki, bunlar da aşağıdakılardan ibarətdir:

• valyuta problemləri üzrə qarşılıqlı təsir və məsləhətlər yolu ilə beynəlxalq valyuta əməkdaşlığına yardımçı olmaq;

• dünya ticarətinin balanslaşdırılması və gücləndirilməsi üçün yaxşı mühitin yaradılması;

• rəqabətə çağıran valyutanın devalvasiya (yəni qiymətdən düşmüş kağız pulların tədavüldən

götürülərək sabit kağız pullarla əvəz olunması) olunmasından qaçmaq, valyuta üzrə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsinə tərəfdar olmaq, valyuta kursunun sabitliyinə köməklik etmək;

• dünya ticarətinin inkişafını nəzərdə tutan, valyuta mübadiləsində məhdudiyyəti aradan qaldırmaq və çoxtərəfli ödəmə sisteminin yaradılmasına köməklik göstərmək;

• milli və beynəlxalq səviyyədə çiçəklənməsi üçün dağılma tədbirləri tətbiq etmədən üzv olan ölkələrə onların ödəmə balanslarında düzəlişlər edilməsi üçün müvəqqəti əsasda maliyyə vəsaiti verməli;

• üzv olan ölkələrdə beynəlxalq ödəmə balansları üzrə qıtlığın miqyası və davam etməsi ixtisar edilsin;

• beynəlxalq valyuta münasibətlərində ölkələrin əxlaqını və beynəlxalq valyuta sisteminin vəziyyətini müşahidə etmək;

• qısa və orta müddətə kreditlər vermək;

• üzv olan ölkələrin valyuta ehtiyatlarına əlavə etmək;

• əməkdaşlıqda iştirak etmək və məsləhətlər təqdim etmək.

BVF daimi əsasda fəaliyyət göstərir və onun Nizamnaməsinə müvafiq olaraq yaradılmış (razılaşma bəndi) və müəyyən səlahiyyət və funksiyalar verilmiş çox mürəkkəb təşkilat xətti, idarəetmə strukturuna malikdir, idarəetmə strukturuna əsasən BVF-nin ali orqanı Rəislərin Şurasıdır (Şəkil 1).



BVF-nin üzvü olan hər bir ölkə Sovetdə işləmək üçün beş il müddətinə iki nümayəndəsini göndərir. Bir qayda olaraq nümayəndə üzv olan ölkənin maliyyə naziri səviyyəsində və ya Mərkəzi Bankın rəhbəri olmalıdır.

Şura rəislərinin vəzifəsi BVF-yə yeni üzvləri qəbul etmək, üzv olan ölkələrin valyutalarında baş verən dəyişiklikləri təsdiq etmək, kvotalara baxmaq, Fondun təmiz gəlirini bölüşdürmək, icraçı direktoru seçməkdən ibarətdir.

BVF-nin təşkilat strukturunda 1974-cü ildən beynəlxalq valyuta sisteminin fəaliyyətdə olması məsələləri haqqında məsləhətlər vermək, vəziyyətin dəyişməsilə əlaqədar olaraq beynəlxalq valyuta sisteminin idarə edilməsi haqqında məruzələr hazırlamaq, həmçinin Fondun Nizamnaməsinə əlavələr işlənib hazırlanması və digər məsələlərin həlli ilə əlaqədar Müvəqqəti Komitə

mövcuddur. 1999-cu ilin sentyabrından Rəislər Şurası İcraedici Şuranın təkliflərini qəbul edərək Müvəqqəti Komitəni Beynəlxalq Valyuta - Maliyyə Komitəsi adlandırdı.

Bu gün Rəislər Şurasında iki komitə işləyir: Beynəlxalq Maliyyə Komitəsi, Dünya Bankının və BVF-nin İnkişaf Komitəsi kimi məşhur olan Birləşmiş Nazirlər Komitəsi.

Rəislər Şurası İcraedici Şuraya hər hansı funksiyanı verə bilər. İcraedici Şura sərəncamverici direktora və icraedici şuranın sədri hesab edilən müavinlərinə, 24 icraedici direktorlara ayrılır. İcraedici Şura cari əməliyyatların həyata keçirilməsi üçün cavabdehdir və Rəislər Şurası ilə birlikdə işlənib hazırlanmış siyasi proseslərin həyata keçirilməsinə nəzarət edir və istiqamətləndirir. İcraedici Komitə BVF-nin məqsəd və vəzifələrini həyata keçirmək üçün öz baxımından istənilən komitəni yarada bilər. O, sərəncamçıları - direktorları təyin edir. Mövcud ənənəyə görə sərəncamçı direktor Avropa ölkələrinin sədri hesab edilir. O, gündəlik şöbə və xidmətlərə cavabdehdir və tabeliyində olan işçiləri təyin etməklə eyni zamanda işdən azad etmək səlahiyyətinə malikdir. BVF-nin mövcud olduğu illərdə onun fəaliyyət miqyası nisbətən genişlənmiş, funksiyaları kifayət qədər dəyişmişdir. Fond makroiqtisadi siyasətin istiqamətləndirilməsində aktiv iştirakçılardan biri olmuşdur. İqtisadi siyasətin ümumi məsələləri ilə məşğul olan funksional bölmələrin yenidən qurulmasına məruz qalmışdır. Belə ki, valyuta və ticarət münasibətləri şöbəsi dəyişdirilərək analitik şöbəyə çevrilmişdir. Analitik funksiyaları yerinə yetirən şöbə BVF-yə üzv olan ölkələrin hazırda həyata keçirdiyi makroiqtisadi siyasət məsələlərinə diqqət yetirir. Təşkilati quruluşda regional bölmələr Afrika, Asiya və Sakit okean, Avropa (onlar ikidir), Orta Şərq və Qərb yarımkürəsi üzrə yaranmağa başladı. BVF müstəqil və şəxsi ekspertiza xidmətinə və həm də BVF-yə həvalə edilmiş vəzifələri yerinə yetirmək üçün digər xidmətlərə malikdir. Bu xidmətləri göstərməklə BVF dünya dövlətlərini özlərinin milli iqtisadiyyatlarının beynəlxalq inteqrasiya sistemindən faydalanmasına şərait yaradır.

Nəticə

Azərbaycan dövlətinə 1992-ci ildən bu günə kimi BMT bir sıra layihələrin həyata keçirilməsində lazımi köməkliyi göstərmişdir. BMT Azərbaycan və ən yüksək inkişaf səviyyəsinə malik olan ölkələr arasında mövcud olan texnoloji fərqin azaldılmasına olan labüd ehtiyacı etiraf edir. Müasir informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və inkişafını dəstəkləmək üçün Milli Strategiyanın hazırlanması məqsədilə bu yaxınlarda təsdiq olunmuş proqram vasitəsilə BMT Hökumətin yeni minillikdə qarşılaşacağı vəzifələrin öhdəsindən gəlməkdə kömək edəcək. Bunun bariz nümunəsi kimi bu yaxınlarda Azərbaycana gəlmiş BMT-nin rezident əlaqələndiricisi Marko Borsatti Azərbaycanda elektron hökumətin inkişafında, turizm sahəsində bir sıra layihələrin həyata keçirilməsində lazımi kömək göstəriləcəyini söyləmişdir.

BMT Azərbaycan xalqının və hökumətinin yaxın və etibarlı tərəfdaşı olaraq qalmaq və eyni məqsədləri və dəyərləri dəstəkləyən bütün milli və beynəlxalq dövlət və özəl qurumlarla tərəfdaşlıq yaratmaq niyyətindədir. Bu məqsədlər və dəyərlər ölkənin inkişaf etmək, özünün ərazi bütövlüyünü təmin və qonşuları ilə uzun müddətdən bəri gözlənilən sülh və birgəyaşamağa nail olmaq istiqamətində haqlı səylərinə dəstək vermək üçün nəzərdə tutulmuşdur.

ƏDƏBİYYAT

1. Gənciyev G.Ə. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 2012, s. 396.
2. Rəcəbli Hadi Musa oğlu. “BMT-nin ixtisaslaşmış qurumları ” Azərbaycan Nəşriyyatı. Bakı – 2003.
3. “Azərbaycan BMT ailəsində” Bakı nəşriyyatı. Bakı, 2005.
4. “BMT sistemi”. “Adiloğlu” nəşriyyatı. Bakı, 2004.
5. Demokratiya kitab evi. “BMT prinsipləri və onun inkişaf mexanizmləri”.
6. Международные экономические отнощения. Под редакцией проф. Б.Е.Рыбалкина - Москва: ЮНИТИ, 2003.
7. United Nations Development Programme - Annual Report 2007.

Замир Эльшад оглы Тагиев
докторант Западного Университета

Финансово- кредитные институты ООН и тенденции их развития

Резюме

В статье рассмотрена необходимость создания международных финансово-кредитных организаций и их роль в развитии различных стран, в том числе и Азербайджанской Республики. А также их роль в проведении масштабных реформ, оценке экономического роста страны.

Так же изучены тенденции развития финансово-кредитных организаций.

Ключевые слова: финансово-кредитные организации, экономические реформы, национальная экономика, программа экономического развития.

Zamir Elshad Taghiyev
PhD Western University

UN finance-credit institutions and their development tendencies

Summary

In the article is shown the creation importance of international finance-credit organizations, their role in the development of different countries as well as in Azerbaijan. It is cleared up, the carrying out wide-range reforms that is done in the Republic, their role in prediction and the development tendencies of the finance-credit organization.

Key words: finance-credit organization, economic reforms, national economy, development programmer.

UOT 339.9

Cəmilə Əli qızı CƏLİLOVA
Azərbaycan Kooperasiya Universitetinin doktorantı

BEYNƏLXALQ ENERJİ DAŞIYICILARI BAZARI VƏ AZƏRBAYCAN

Xülasə

Dövlət müstəqilliyi qazanmış Azərbaycan Respublikasında ölkəmizin daha güclü olması üçün irimiqyaslı sosial-iqtisadi proqramlar həyata keçirilir. Məhz həyata keçirilən təsirli tədbirlərin nəticəsidir ki, son 20 ildə respublikamızda bir sıra irimiqyaslı beynəlxalq layihələr reallaşdırılmış, ölkəmizin dünya təsərrüfatına inteqrasiyası sürətli prosesə çevrilmiş, xarici investorların Azərbaycana marağı güclənmişdir. Hazırda Azərbaycan Respublikası iqtisadiyyatın rəqabətlilik qabiliyyətinə görə 38-ci yerdə gedir. Ölkəmiz dünyada on birinci kosmik dövlətdir.

Milli iqtisadiyyatın inkişafı sahəsində qazanılmış nailiyyətlərin məntiqi nəticəsi kimi respublikamız Cənubi Qafqazın ən güclü dövlətinə çevrilmiş və dünyada tranzit ölkə kimi tanınır.

Enerji layihələrinin reallaşması hesabına Azərbaycanın dünya bazarında yeri güclənmiş, malların konyunktura vəziyyəti xeyli yaxşılaşmışdır.

Məqalədə Azərbaycanın beynəlxalq enerji daşıyıcıları bazarında yerinin yaxşılaşdırılması ilə bağlı olan məsələlər öyrənilir, yeni ehtiyat mənbələri üzə çıxarılır və onlardan təsərrüfatçılıq dövriyyəsində səmərəli istifadə edilməsi üçün təkliflər əsaslandırılır.

Açar sözlər: enerji daşıyıcıları, beynəlxalq bazar, təsərrüfatçılıq, yaxşılaşdırmaq, səmərəlilik.

Giriş

Qloballaşma prosesinin gücləndiyi şəraitdə ayrı-ayrı dövlətlərin malik olduqları resurs potensialından səmərəli istifadə edilməsi, beynəlxalq bazarların imkanlarından mümkün qədər çox faydalanması obyektiv tələbata çevrilir.

Məlum olduğu kimi, Azərbaycan Respublikası enerji resursları ilə zəngin dövlətdir. Müstəqilliyin ilk illərində tənəzzülə uğramış ölkə iqtisadiyyatını dirçəltmək, onu dünya təsərrüfatında inteqrasiya proseslərinə qoşmaq üçün ulu öndərimiz H.Ə.Əliyev tərəfindən uğurlu neft strategiyasının hazırlanması qısa müddətdə Azərbaycanın dünyada neft-qaz resursları ilə zəngin dövlət kimi nüfuzunun artmasına səbəb oldu. 1994-cü ildə əsrin müqaviləsi imzalandı və respublikamız dünyanın tanınmış Transmilli korporasiyaları ilə müqavilə əsasında neft hasilatının artmasına nail oldu. 90-cı illərin əvvəllərində 9 mln. ton hasil edən respublikamız hazırda 40 mln. tondan çox neft istehsal edir və bu məhsul bir çox Avropa dövlətlərinin, həmçinin Türkiyə, qonşu Gürcüstanın enerji daşıyıcılarının ödənilməsində mühüm rol oynayır.

Beynəlxalq enerji daşıyıcıları bazarı: Ümumi məsələlər

Qeyd edək ki, beynəlxalq enerji daşıyıcıları bazarını əsasən neft məhsulları təşkil edir. Hazırda bu bazar dünyanın 60-dan çox dövlətinin ərazisində formalaşaraq inkişaf edir. [3]

Beynəlxalq neft məhsulları bazarına 2014-cü ildə 3,8 mlrd. tondan çox neft istehsal edilərək bazarlarda reallaşdırılmışdır.

Dünyada istehsal olunan neftin 21,4%-i inkişaf etmiş dövlətlərin, 40,7%-i OPEK-in, 37,9%-i isə OPEK-in üzvü olmayan ölkələrin payına düşür. Qeyd etdiyimiz ölkələrdə 2014-cü ildə neftlə dünya ticarətinin həcmi 2,3 mlrd. ton təşkil etmişdir ki, bu da ümumi istehsalın 64,8%-i səviyyəsindədir. [4]

Beynəlxalq neft məhsulları bazarında ixracda Yaxın və Orta Şərq ölkələri 1-ci yeri, keçmiş Sovet Respublikaları 2-ci, üçüncü yeri isə Qərbi Afrika tutur [6]. İdxalın isə 26,8%-i Amerikanın, 26,1%-i Avropanın, 11,9%-i Yaponiyanın, 35,2%-i isə digər ölkələrin payına düşür. Göründüyü kimi beynəlxalq neft məhsulları bazarında ixracda Orta və Yaxın Şərq ölkələri, idxalda isə digər ölkələr istisna olmaqla ABŞ liderlik edir. Lakin son illərdə ABŞ-ın beynəlxalq neft məh-

sulları bazarındakı mövqeyində müəyyən dəyişikliklər baş vermişdir. Bu dəyişikliklər ilk növbədə ABŞ-da şistdən yanacaq kimi istifadə edilməsi ilə əlaqədardır. Bu yolla ABŞ-ın dünya neft məhsulları bazarında idxalda ehtiyacının əsasən daxili mənbələr hesabına ödənilməsi güclənməyə doğru meyil edir. Şəksiz ki, bu amil neft istehsal edən ayrı-ayrı ölkələrin beynəlxalq neft məhsulları bazarında mövqelərinin qismən də olsa zəifləməsinə səbəb olacaqdır. Bu baxımdan ayrı-ayrı regionların və dövlətlərin neft ehtiyatlarının nəzərdən keçirilməsini məqsədəuyğun hesab edirik. Statistik məlumatlara görə dünyanın neft ehtiyatlarının regionlar üzrə vəziyyəti aşağıdakı kimi dəyərləndirilir (cədvəl 1.).

Neft ehtiyatlarının regionlar üzrə bölgüsü aşağıdakı kimi dəyərləndirilir.

Cədvəl 1.

Beynəlxalq regionlar üzrə neft ehtiyatları.

Regionlar	Ehtiyatlar
Yaxın və Orta Şərq	90,1 mlrd. ton
Şimali Amerika	11,8 mlrd. ton
Cənubi Amerika	9,9 mlrd. ton
Afrika	8,2 mlrd. ton
Cənub Şərqi Asiya, Avstraliya və Okeaniya	3,4 mlrd. ton
Qərbi Avropa	13,7 mlrd. ton
Rusiya	14,2 mlrd. ton
Azərbaycan	3,4 mlrd. ton

Qərbi Avropada ehtiyatların 95%-i, daha dəqiq 12,5 mlrd. tonu dənizdəki yataqların payına düşür. Burada mövcud ehtiyatların sturkturu aşağıdakı kimidir: 50 mln. tona qədər neftə malik olan yataqların payına bu regionun neftinin 33%-i düşür ki, bu da 4,3 mlrd. tondur; 50 mln. tondan -100 mln. tona qədər neftə malik yataqlar isə uyğun olaraq 32%-4,2 mlrd. ton; 100 mln tondan -300 mln. tona qədər 30%-3,6 mlrd. ton və 300 mln. tondan artıq neftə malik yataqlar ümumi neft ehtiyatlarının 5,2%-ni özündə cəmləşdirir ki, bu da 0,8 mlrd. ton təşkil edir.

Qeyd etdiyimiz kimi, Yaxın və Orta Şərq ölkələri bütün dünya üçün ucuz enerji bazası rolunu oynayır. Xüsusi ilə İran körfəzində olan ərəb ölkələrinin əksəriyyəti bu resurslarla zəngindir. British Petroleum Korporasiyasının nəşr etdiyi məlumatlara əsasən, 2014-cü ilin sonunda bütün dünyada sənədləşdirilmiş neft ehtiyatları aşağıdakı kimidir (ölkələr üzrə):

Qrafik 1.
mlrd. ton

British Petroleum-Statistical Revien of World



Qrafikdən göründüyü kimi, Səudiyyə Ərəbistanı dünya neft ehtiyatlarının zənginliyinə görə I yerdədir. Ölkə 1939-cu ildən neft ixrac edir. 30-cu illərin əvvəllərində isə "Ekson", "Teksolo" və "Mobil" kimi nəhəng şirkətlər "ARAMKO" adlı iri şirkət yaradaraq neftçıxarma işlərinə başlayırlar. Ən iri neft ehtiyatları ölkənin şərqində və İran körfəzinin Şelf zonasındadır. Neft 1300-3000 m dərinlikdən çıxarılır. Tərkibində kükürdün miqdarı az olan neft xüsusilə qiymətlidir. Heft ölkənin əksər yerlərində aşkar olunsa da ən böyük yataqları Havar, Abnayk, Əs-Səffaniyə, Zülif və s. Əl-Həsa əyaləti, İran körfəzi sahili rayonlarındadır.

Səudiyyə Ərəbistanının nefti dünyanın başqa yerlərində çıxarılan neftdən həm keyfiyyətinə görə qiymətlidir, həm də maya dəyərinə görə ucuz başa gəlir.

2010-cu illərin əvvəllərində Dünya bazarında neftin satış qiyməti bir neçə dəfə artdığından S.Ərəbistanı neft istehsalını sürətləndirir. Həmin dövrdə "ARAMKO" şirkəti 427 neft quyusunu istismar edirdisə 2013-cü ildə bu rəqəm 875-ə qaldırılır. Ölkədə neft hasilatının ən yüksək səviyyəsi 2008-ci ildə omuşdur. Bu zaman ölkə ildə 459 mln. ton neft hasil etmişdir. Hazırda ölkədə neft hasilatı, demək olar ki, sabitləşmişdir.

Neft ehtiyatlarının zənginliyinə görə II yerdə İraq durur. Neft ölkənin şimalında (Kərkük, Əyn-Zala, Cəmbur), şərqində (Xanakin) və cənubunda (Ər-Rumeylə) çıxarılır. Kərkük ölkədə ən zəngin neft rayonu hesab olunur. Bu rayonda neft fantan üsulu ilə çıxarılır və tərkibində kükürdün miqdarı çox az (1,8-2%) olduğundan keyfiyyətli sayılır. Bəsrə şəhərinin cənub-qərbində səhrada yerləşmiş Ər-Rumeylə yataqları da perspektivlidir.

1964-cü ildən ölkədə neft çıxarılması "İraq Petroleum Kompani", "Bəsrə Petroleum Kompani" şirkətlərinin əlində idi. "Iraq Petroleum Kompani" şirkətinin kapitalı "BP", "Shell", "Co Frances de Petrol", "Nin İst Devolopment Corporation" şirkətləri arasında bölüşdürülürdü.

İraq hökuməti ölkənin sənayeləşdirilməsinə başladığı ilk mərhələdə mədən sənayesində xarici inhisarçı kapitalı milliləşdirməyə başlayır və ölkənin təbii sərvətləri üzərində dövlətin tam nəzarətini təşkil edir. 1964-cü ildə İraq milli neft şirkəti yaradılır. Lakin ölkədə xarici inhisarlarından alınmış ərazilərdə neft çıxarlmasına yalnız 1972-ci il aprelində Şimali Rumeylə yataqlarında başlanılır.

İraq hökuməti 1972-ci ilin mayında "İraq Petroleum Kompani" şirkətinə ölkədə 58 mln. ton neft hasil etməyi, onun 30 mln. tonunu Dünya Bazarında satmağı, qalanını isə İraqa verməsini təklif edir. Şirkət bu təklifi qəbul etmədiyindən İraq hökuməti 1972-ci il iyunun 1-də həmin şirkətə məxsus avadanlıqların və digər mülkiyyətlərinin milliləşdirilməsini elan edir. Həmin şirkətin Suriya ərazisindən keçən neft kəmərləri də Suriya hökuməti tərəfindən milliləşdirilir. 1973-cü il martın 1-də İraq milli neft şirkətinə "Mosul Petroleum Kompani" birləşir. Həmin ilin oktyabrında "Bəsrə Petroleum Kompani" kapitalının 1/3-i dövlət nəzarəti altına keçir. 1975-ci ildə İraqda xarici neft inhisarlarının mövqeyi tam ləğv edilərək neft çıxarılması dövlətin nəzarəti altına keçir. Neft istehsalı artırılaraq 2005-ci ildə 112 mln. ton, 2013-cü ildə isə 165 mln. tona çatdırılır. Nəticədə İraq dünyada neft ixrac edən iri dövlətlərdən birinə çevrilir. Sonralar neftin satış qiymətinin tərəddüdü, İran və Küveytlə olan müharibələr xüsusi ilə BMT tərəfindən qoyulmuş iqtisadi embarqolar neft istehsalının azalmasına səbəb olmuşdur və bütövlükdə Dünya Neft istehsalı sistemindən təcrid olunmasına gətirib çıxardı. Bu gün İraq xalqının haqlı narazılığı, fikrimizcə, dünya ictimaiyyətinin diqqətini bu regiona cəlb etmiş və meydana çıxmış problemlərin sülh yolu ilə operativ surətdə həll olunmasına yeni impuls verəcəkdir. Alimlərin fikrincə, İraq Dünya bazarına 130 mln. ton neft çıxarmaq iqtidarında olacaq.

Bütün dövlətlərin neft ehtiyatları və istehsalın artması meyillərinə geniş yer vermədən beynəlxalq enerji daşıyıcıları bazarında Azərbaycan Respublikasının rolunun araşdırılmasını lazım bilirik.

Beynəlxalq enerji daşıyıcıları bazarında iştirakın səmərəliliyi

Məlumdur ki, neft və qaz Azərbaycanın ən qədim təbii sərvətidir. Məhz bu sərvətə görə respublikamız həmişə siyasi və iqtisadi hadisələrin ağırlıq mərkəzində olub. Dünya üzrə neft ehti-

yatlarında Azərbaycanın xüsusi çəkisi 3,4 milyard ton, təqribən 0,6 faiz təşkil edir. Nəzərə almaq lazımdır ki, neft məhsullarına gündəlik tələbatın getdikcə artması bu qiymətli məhsulun istehsalını çoxaltmağı obyektiv tələbata çevirir. Əgər 1993-cü ildə beynəlxalq miqyasda gündəlik ehtiyac 67 milyon barel idisə, 2005-ci ildə 85 milyon barel, 2014-cü ildə isə 100 milyon barel olmuşdur. Hesabatlar göstərir ki, 2020-ci ildə neft məhsullarının ildə istehlakının 5 mlrd. tona çatacağı gözlənilir. Eyni proses Azərbaycanda da özünü büruzə verir. Sənaye üsulu ilə 150 ilə yaxın istismar edilməsinə baxmayaraq hələ Azərbaycanda yerin təkində 2 milyard tondan çox neft və 6,0 trln. kub metr qaz ehtiyatı var. [2] Bütün bunlar əsas verir qeyd edək ki, respublikamızın beynəlxalq enerji bazarlarındakı mövqeyini neft və qazın hesabına gücləndirmək üçün kifayət qədər imkanlar vardır.

Lakin onu da qeyd etmək yerinə düşər ki, beynəlxalq neft məhsulları bazarlarında mal təklifinin formalaşmasında 100 milyon tondan çox neft ixrac edən ölkələr başlıca rol oynayırlar. [5] Bu ölkələr sırasına Səudiyyə Ərəbistanını, İran, Birləşmiş Ərəb Əmirlikləri və s. dövlətlər daxildir. Nəzərə alsaq ki, hazırda Azərbaycanda ümumi neft hasilatı 45 milyon tondan çox deyil, onda respublikamızın beynəlxalq neft məhsulları bazarındakı yeri, bu bazara təsiri imkanları haqqında fikir söyləməyə çətinlik çəkmərik. Eyni zamanda nəzərə almaq lazımdır ki, Azərbaycanda əhalinin hər nəfəri hesabı hasilatın həcmi göstəricisinə görə respublikamız birinci on ölkənin sırasında gedir. Digər tərəfdən, Azərbaycanın coğrafi mövqeyi elədir ki, Qazaxıstan neftinin, Türkmənistan qazının Avropa enerji daşıyıcıları bazarına çıxarılmasında tranzit ölkə mövqeyinə malikdir. Bu isə onu göstərir ki, istənilən halda Azərbaycan Respublikasının iştirakı olmadan yuxarıda adlarını çəkdiyimiz dövlətlər istehsal etdikləri neft və qazı beynəlxalq enerji daşıyıcıları bazarına çıxarmaq imkanından kənarda qalacaqlar. Bu istiqamətdə respublikamız beynəlxalq və iri regional layihələrin reallaşmasında çox əlverişli mövqedə əsl söz sahibinə çevrilmişdir.

Son illərdə Avropa dövlətlərinin neft və qaza olan tələbatının ödənilməsi üçün alternativ ixrac layihələrinin reallaşması prosesi bir daha təsdiq edir.

Reallaşa bilən TAP və TANAP layihələrini Azərbaycanın iştirakı və razılığı olmadan reallaşdırmaq real görünmür. Deməli, respublikamız yalnız qlobal amil kimi neftə görə deyil, tranzit dövlət olmaqla da beynəlxalq enerji bazarlarında əsas neft güclərinə təzyiq vasitəsi keyfiyyətində çıxış edə bilir. Təbiidir ki, bu halın özü də ölkəmizin müstəqil inkişafının mühüm cəhəti hesab edilməlidir. Buna görə də respublikamızın dünya neft bazarlarında fəaliyyət strategiyası milli iqtisadiyyatın modernləşdirilməsi və bütün sahələrin paralel surətdə yüksəlişi istiqamətinə əsaslanmalıdır. Ön planda daha çox daxili istiqamətin inkişafı durmalıdır. Xüsusilə, neft məhsullarının emalının dərinləşdirilməsi, bu məhsulla bilavasitə sıx bağlı olan sahələrin inkişafına indikindən daha çox diqqət yetirilməlidir. Bu yolla həm daxili bazarın tələbatının ödənilməsi məsələsi qismən də olsa həllini tapar, həm də respublikamızda istehsal olunan malların konyunkturası xeyli yaxşılaşar .

Respublikamızın beynəlxalq enerji daşıyıcıları bazarında iştirakı ölkəyə iri transmilli korporasiyaların investisiyalarından istifadəyə, onların beynəlxalq bazarlarına çıxmaq imkanını verdi. Həm də dünya iqtisadiyyatında əhəmiyyətli mövqelərə malik olan transmilli korporasiyaların respublikaya maraqlarının güclənməsi ölkənin neft və neft məhsulları bazarının beynəlxalq biznes sisteminin cəlbedici obyektlərindən birinə çevrilməsinə səbəb olmuşdur. [1]

Azərbaycan Respublikasının beynəlxalq neft məhsulları bazarına çıxması ümummilli mənafelər baxımından bir çox problemlərin həllinə və ölkənin beynəlxalq münasibətlər sahəsində mövqelərinin möhkəmləndirilməsinə əlverişli şərait yaradır. Bu əlaqələrin genişlənməsinin Azərbaycan Respublikası üçün böyük siyasi, sosial-iqtisadi və iqtisadi devidentləri vardır. Mübaliğəsiz demək olar ki, 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"ndən sonra respublikamızın beynəlxalq neft məhsulları bazarına çıxması onun öz sərvətlərinin əsl sahibi olduğunu və dövlət müstəqilliyini təsdiq edən və bütün dünyaya bəyan edən beynəlxalq akt idi. Bu yolla da

Azərbaycan Respublikası dinamik inkişaf edən güclü milli iqtisadiyyat yaratmış və dünya təsərrüfatına inteqrasiyasını genişləndirməklə inamla irəliləyir.

Nəticə

Azərbaycan Respublikasının milli iqtisadiyyatının dayanıqlı inkişafında və güclü valyuta təsərrüfatının yaradılmasında beynəlxalq enerji daşıyıcıları bazarında iştirakı müstəsna rol oynamışdır. Ölkəmizdə güclü neft və qaz ehtiyatlarının olması onun beynəlxalq enerji daşıyıcıları bazarının imkanlarından geniş istifadə etməsinə əsas verir.

Beynəlxalq enerji daşıyıcıları bazarının imkanlarından uğurla istifadə edən respublikamız qeyri-neft sektorunun inkişafı üçün investisiyaları artırır, ölkədə diversifikasiyanın miqyasını genişləndirir, ən başlıcası isə iri sosial-iqtisadi dövlət proqramlarının həyata keçirilməsi üçün imkanlar qazanır.

ƏDƏBİYYAT

1. Gənciyev G.Ə. Beynəlxalq iqtisadi münasibətlər. Bakı, 2012, s. 396.
2. Gənciyev G.Ə. Transmilli korporasiyalar. Bakı, 2007, s. 216.
3. Семенов К. Международные экономические отношение. Москва, 1998, с.309.
4. Mehdizadə V. Beynəlxalq siyasətdə neft. Bakı, 1997.
5. Мирзаджанзаде А. Этюды нефтяной концепции Азербайджана. Баку, 1995.
6. “Elf Agiten” годовой отчет. 1996.

Джамила Али гызы Джалилова
докторант Азербайджанского
Университета Кооперации

Международный рынок энергонасителей и Азербайджан

Резюме

Осуществляние крупномасштабных государственных социально-экономических программ в Азербайджанской Республике, позволило значительно усилить интеграцию в мировую экономику и укрепить позиции республики на международном рынке энергоносителей.

В статье рассматртвается роль республики на мировом рынке, раскрываются новые резервы в данной области, и отмечается эффективность усиления роли Азербайджана на мировом рынке энергоносителей.

Ключевые слова: энергоносители, международные рынки, хозяйствование, улучшение, эффективность.

Jamila Ali Jalilova
candidate for a degree of
Azerbaycan Cooperation University

The international energy market and the Azerbaijan

Summary

Implementation of large-scale government social and economic programs in Azerbaijan, significantly strengthen the integration with the global economy and to strengthen the position of the republic in the international energy market.

The article discusses the role of the republic in the world market, revealed new reserves in this area, and noted the effectiveness of strengthening the role of Azerbaijan in the world energy market.

Key words: energy, international markets, economic management, improving efficiency.

UOT 658.011.46

Rəşad Rafiq oğlu ƏBLƏSƏNOV
Azərbaycan Texniki Universitetinin dissertantı

ƏMLAK İDARƏ EDİLMƏSİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİNDƏ FİNLANDİYANIN TƏCRÜBƏSİ

Xülasə

Avropanın şimalında yerləşən Finlandiya Respublikasının bir çox sahələrdə nəzərəçarpacaq dərəcədə inkişafını görmək mümkündür. Ölkənin İKT, təhsil, sənaye, əmlak idarəçiliyi və digər sahələrdə malik olduğu sistemlər buna əyani sübutdur. Həmçinin, beynəlxalq təşkilatlar tərəfindən dünya ölkələrinin inkişaf səviyyəsinin müəyyən edilməsi məqsədilə həyata keçirdiyi müxtəlif tipli tədqiqatlar Finlandiya Respublikasının bir çox sahələrdə qabaqcıl ölkə olduğunu təsdiq etmişdir. Finlandiya Respublikası əmlakın idarə edilməsi və qiymətləndirilməsi sahələrində kifayət qədər təkmil sistemə sahibdir. Finlandiyanın filiz, hidro, ağac və sair təbii resurslarla zəngin olması ölkədə xeyli sayda sənaye müəssisələrinin yaranmasına imkan yaratmışdır. Müəssisələr daimi inkişaf etməsi üçün onlara məxsus əmlaklar düzgün idarə edilməli və mütəmadi olaraq qiymətləndirmə işləri həyata keçirilməlidir.

Açar sözlər: qiymətləndirmə, məlumat bazaları, təhsil sistemi, əmlakın idarəedilməsi.

Giriş

Əmlakın idarə edilməsində mühüm olan məsələlərdən biri qiymətləndirmə işlərinin düzgün formada həyata keçirilməsidir. Bu səbəbdən adıçəkilən sahədə qabaqcıl ölkələrin təcrübələrinin öyrənilməsi Azərbaycan üçün olduqca əhəmiyyətlidir. Həmçinin, qiymətləndirmə işləri düzgün formada təşkil edilmədikdə ölkə iqtisadiyyatının müxtəlif sektorlarında neqativ halların yaranmasına, o cümlədən maliyyə resurslarının səhv istiqamətə yönlənməsinə gətirib çıxarda bilər. Bu kimi nəticələr makro və mikro səviyyədə maliyyə böhranlarının yaranmasına zəmin yaradır.

Qiymətləndirmə fəaliyyəti qiymətləndirmə xidmətlərinin istehlakçısının (sifarişçinin) müəyyən etdiyi məqsədlər üçün əmlakın qiymətinə təsir edən fiziki, iqtisadi, sosial və digər amillər obyektiv şəkildə nəzərə alınmaqla qiymətləndirmə obyektinin müəyyən bir tarixə bazar və digər dəyərinin müəyyənləşdirilməsi sahəsində peşəkar fəaliyyətdir.

Finlandiyada əmlakların idarə edilməsi və qiymətləndirilməsi

Qiymətləndirmə fəaliyyəti XX əsrin 50-ci illərindən etibarən formalaşmağa başlamışdır. Artıq 60-70-ci illərdə ABŞ, Kanada, Fransa və sair ölkələrdə qiymətləndiricilərin bəzi milli təşkilatları öz üzvlərinin peşəkar fəaliyyətinə yardım məqsədi ilə bazarın praktiki tələblərinə uyğun olaraq Peşəkar Praktiki Fəaliyyət Standartları işləyib hazırladılar. [1, s.127] İlkin olaraq bu milli standartlar çərçivəsində qiymətləndiricilər öz ölkələrində qiymətləndirmə fəaliyyətlərini həyata keçirirdilər. Daha sonra ölkələr arasında qiymətləndirmə sahəsində beynəlxalq əməkdaşlıqlar inkişaf etməyə başladı və bununla da beynəlxalq qiymətləndirmə standartları yarandı. İllər keçdikcə beynəlxalq qiymətləndirmə standartları daha da təkmilləşdirilir. Hal-hazırda qiymətləndiricilər öz fəaliyyətlərini beynəlxalq qiymətləndirmə standartları üzərində qurmaqla xidmət göstərirlər.

Finlandiyanın Milli Torpaq Xidməti tərəfindən daşınmaz əmlakların, o cümlədən torpaq sahələrinin dövlət tərəfindən idarə edilməsi və qiymətləndirilməsi xidməti həyata keçirilir. Xidmət Mərkəzi Administrasiyadan və 6 departamentdən ibarət olmaqla 1812-ci ildə yaradılmışdır.

Finlandiyada Milli Torpaq Xidməti kənd təsərrüfatı və meşə fondu torpaqlarının, bələdiyyələr isə şəhər torpaqlarının mərzçəkmə işlərini həyata keçirir. Finlandiyada özəl mərzçəkmə təşkilatları bir o qədər inkişaf etməmişdir. Bəzi hallarda özəl mərzçəkənlər müəyyən işlərdə kömək – yardımçı rolunu oynayırlar.

Finlandiyanın Milli Torpaq Xidmətinin yerlərdə 12 regional mərkəzi və həmin mərkəzlərin nəzarəti altında çalışan 37 kiçik ofisi vardır. Xidmətdə ümumilikdə 2000-dən çox əməkdaş çalışır. [5] Onların 2%-i Xidmətin İnzibati aparatının işçiləri, 81%-i mərzçəkənlər, 17%-i isə operativ işçilərdir.

Xidmətin əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Geodezik ölçmə və mərzçəkmə;
- Qiymətləndirmə;
- Kənd təsərrüfatı təyinatlı və meşə fondu torpaqlarının idarə edilməsi;
- Qeydiyyat prosesləri və qeydiyyata nəzarət;
- Topoqrafik və sərhəd məlumatlarının istehsalı;
- İnformasiya xidmətləri;
- Qanuni reyestr məlumatlarının saxlanmasına nəzarət.

Qeyd olunan fəaliyyət istiqamətləri 2 əsas məlumat bazası üzərində həyata keçirilir. Bunlar kadastr, xəritəçəkmə və məkan məlumat bazalarıdır. Kadastr məlumat bazasına hüquq sahibləri barədə məlumatlar da daxildir.

Məlumat bazalarında daşınmaz əmlaklar, parsellər, məhdudiyyətlər və s. barədə məlumatların əldə edilməsi mümkündür. Məlumat bazalarına informasiyaların daxil edilməsi bələdiyyələr ilə birlikdə həyata keçirilir. Adı çəkilən işlər bələdiyyələr tərəfindən icra edilir. Lakin bəzi kiçik bələdiyyə vardır ki, uyğun mütəxəssisləri yoxdur və həmin işlər Milli Torpaq Xidməti tərəfindən aparılır.

Kadastr işlərinin aparılmasında ESRİ məhsullarından istifadə edilir. Xidmətdə daşınmaz əmlakların kadastrı və hüquqların qeydiyyatı işləri elektron qaydada aparılır və toplanılan məlumatlar elektron qaydada satılır. Finlandiyada hal-hazırda kadastr nömrələri informasiya daşıyır (danışan rəqəmlərdən formalaşdırılır), lakin yaxın gələcəkdə kadastr nömrələrinin sadələşdirilməsi və adi rəqəmlərdən formalaşdırılması planlaşdırılır. Xidmətin ölkədə mövcud olan parsellər, dövlət və özəl yollar, dəmir yolları, binalar, demarkasiya və s. barədə tam məlumatları var.

Finlandiya Milli Torpaq Xidmətinin 2011-ci ildə əldə etdiyi gəlirin 59.2%-ni dövlət sifarişləri, 40.8%-ni isə məlumatların satışı və digər kiçik xidmətlər təşkil edir. Gəlirin 60%-i əmək haqlarına, 19%-i qeydiyyat məsələlərinə, 5%-i isə maddi-texniki bazanın möhkəmləndirilməsinə, avadanlıqların yenilənməsinə, ezamiyyətlərə və sair sahələrə sərf olunur.

Finlandiyada dəniz sahilindən 500 metrə qədər məsafədə olan sulardan əhali istifadə edə bilər. Həmin su əraziləri kadastra daxil edilir, lakin 500 metr məsafədən sonrakı ərazilər isə kadastra daxil edilmir.

Müasir qiymətləndirmə növləri və daşınmaz əmlakların qiymət reyestri

Kütləvi qiymətləndirmə fərdi qiymətləndirmədə olduğu kimi daşınmaz əmlakın dəyərinin qiymətləndirilməsi üçün sistemləşdirilmiş metodlardır. Onlar yalnız miqyasına görə fərqlənirlər. Hər iki qiymətləndirmə növünün qiymətləndirmə keyfiyyətinin kriteriyaları müxtəlifdir. Fərdi qiymətləndirmənin keyfiyyəti alqı-satqısı həyata keçirilmiş az sayda daşınmaz əmlakın müqayisəsi ilə müəyyənləşdirilir. Kütləvi qiymətləndirmənin keyfiyyəti isə qiymətləndirilən sahədə mövcud olan bütün alqı-satqıların statistik göstəriciləri ilə müəyyən edilir. [2, s. 57]

Torpaqların kütləvi qiymətləndirilməsi zamanı zona dəyər xəritələrindən istifadə edilir. Xidmət tərəfindən xəritələrin hazırlanması zamanı zonalararası sərhədlər əsasən sosial infrastruktura və təbii sərhədlərə (yollar, çaylar) uyğun olaraq müəyyən edilir. Daha sonra hər zona üzrə orta qiymət hesablanır. Hər 5 ildən bir zona sərhədlərinə yenidən baxılır və lazım olduqda zəruri dəyişikliklər edilir.



Finlandiyada 1980-ci ildə daşınmaz əmlakların qiymət reyestrinin aparılması barədə qanun layihəsi hökumətə təqdim edilərək qəbul edilmişdir. Qəbul edilmiş qanun əsasında "Daşınmaz Əmlakların Qiymət Reyestri" yaradılmışdır. Ölkə ərazisində rəsmi qaydada həyata keçirilmiş hər bir daşınmaz əmlak alqı-satqısı barədə məlumat bu qiymət reyestrində öz əksini tapır. Qiymət reyestrində mövcud olan əqd məlumatlarından hüquqi və fiziki şəxslər ödəniş etməklə yararlana bilirlər.

Tikililərin qiymətləndirilməsi (dövlət ehtiyacları üçün geri alma və sair hallarda) fərdi qaydada aparılır. Daşınmaz əmlakların qiymətləndirilməsi zamanı "Daşınmaz Əmlakların Qiymət Reyestri"nin olması böyük köməklik göstərir. Bu reyestr daşınmaz əmlak bazarının aktivliyini daima diqqətdə saxlayır, qiymətə təsir edən faktorları təhlil edir.

"Daşınmaz Əmlakların Qiymət Reyestri" kadastr bazası ilə inteqrasiya edilməmişdir. Hazırda 6 ayda 1 dəfə satış qiymətləri internetdə elan olunur.

Qiymət reyestrinin ölkə üçün əhəmiyyəti aşağıdakılardır:

- Ölkə üzrə vahid reyestrdir;
- İnternetdən (web üzərindən) daşınmaz əmlakların əqd qiymətləri barədə məlumatları əldə etmək mümkündür;
- Rentabelli sahədir. Təxminən 1 məlumat 2,35 avro məbləğindədir;
- Tələbə uyğun məlumat seçimi imkanı vardır;
- Xeyli sayda əqd məlumatlarının vahid bazada olması;
- Əqd məlumatlarının istifadəçilərə asan şəkildə çatdırılması.

Qiymət reyestrinin çatışmazlıqları:

- Mənzillərin qiymətləri barədə məlumatlar bazaya daxil edilməmişdir;
- Binaların qiymətləri barədə məlumatlar tam deyildir;
- Digər məlumatlar barədə kasadlıq vardır.

Finlandiyada binaların tərkib hissələri (mənzillər və qeyri-yaşayış sahələri) ayrıca daşınmaz əmlak sayılmır, lakin onlar üzərində mülkiyyət hüquqlarının qeydiyyatı aparılır.

Mənzillərin və daşınmaz əmlakların (torpaq sahəsi üzərindəki tikili ilə birlikdə) alqı-satqısında notarius və ya hər hansı digər orqan iştirak etmir. Alqı-satqı dövlət tərəfindən şahidlik səlahiyyəti verilmiş şəxsin iştirakı ilə alıcı və satıcı arasında kağız formatda müqavilə bağlanmaqla həyata keçirilir. Daşınmaz əmlakın texniki göstəriciləri, ünvan, məhdudiyyətlər və s. barədə müqavilədə göstərilən məlumatların düzgünlüyünə qanunla satıcı məsuliyyət daşıyır. Eyni zamanda alıcı Xidmətin kadastr və reyestr məlumat bazalarına müraciət etməklə bütün məlumatla-

rın dəqiqliyini yoxlaya bilər. Bu məlumatlar Xidmətə təqdim olunmuş əqd müqaviləsi əsasında hüquqlar qeydiyyata alınarkən məlumat bazasındakı məlumatlarla müqayisə edilərək yoxlanılır.

Finlandiyada 30 il ərzində 2 milyon alqı-satqı müqaviləsi Xidmətin məlumat bazasında qeydə alınıb. Hazırda bir ildə 70 000 sövdələşmə sənədi qeydə alınır. Ölkədə 2 500 000 daşınmaz əmlak vardır ki, onların hər biri ən azı bir dəfə alqı-satqı predmeti olmuşdur.

Əmlak idarə edilməsi və qiymətləndirilməsinə dair təhsil və özəl sektor

Qeyd etmək lazımdır ki, Finlandiya dünyada ən qabacıl təhsil sisteminə malik olan ölkələrdən biridir. Ölkədə əmlak idarəçiliyi və qiymətləndirilməsi ixtisası üzrə təhsil verən bir çox universitet və institutlar var. Beynəlxalq aləmdə kifayət qədər nüfuza malik olan Finlandiyanın Aalto Universiteti bu kimi təhsil ocaqlarındandır.

Aalto Universitetinin tarixi 1849-cu ildən başlayır. Universitet 2010-cu ildə 3 institutun birləşməsindən yaranıb: İncəsənət və Mühəndislik İnstitutu, İqtisadiyyat İnstitutu və Texnologiyalar İnstitutu. Aalto Universitetinin özəl olmasına baxmayaraq təhsil tam olaraq pulsuzdur. Universitet bütünlüklə dövlət büdcəsindən maliyyələşir. Bakalavr dərəcəsi 4 illik, magistr dərəcəsi isə 2 illikdir. Xarici tələbələr yalnız magistr dərəcəsi üzrə qəbul edilir. Bakalavr dərəcəsi üzrə xarici tələbələrin qəbul edilməsi isə yaxın gələcəkdə nəzərdə tutulmuşdur. Universitet bir çox ixtisaslar üzrə təhsil verməkdədir, o cümlədən daşınmaz əmlak iqtisadiyyatı və qiymətləndirilməsi ixtisası üzrə xüsusi proqrama malikdir. [4] Universitetin məqsədi bu ixtisas üzrə ölkə üçün mütəxəssislər yetişdirmək, həmçinin əmlak idarəçiliyi və qiymətləndirilməsi sahəsinə öz töhfəsini verməkdir. Hal-hazırda universitetdə 20 000 tələbə təhsil alır. Bu günədək isə məzunların ümumi sayı 75 000 nəfərdir.

Finlandiyada əmlak idarəçiliyi və qiymətləndirilməsi sahəsində fəaliyyət göstərən bir çox özəl şirkətlər də vardır. Bu şirkətlər həm dövlət şifarişlərini, həm də digər sifarişləri həyata keçirdirlər.

Fin şirkətlərindən biri olan "FinMap" özəl kadastr sifarişlərini yerinə yetirir. Bu şirkət 55 illik təcrübəyə malikdir. [5] Hal-hazırda böyük imkanları olan "FinMap" şirkəti 10 təyyarədən, 10 sensordan, 3 lazer skanlaşdırma avadanlığından istifadə etməklə sifarişlərini icra edir. Şirkət 10 təyyarəni səmaya qaldırmaqla və xüsusi avadanlıqlardan istifadə etməklə çəkilişləri həyata keçirdir. Şirkətdə həm yerli, həm də beynəlxalq mütəxəssislər çalışır. Daimi mütəxəssislərin ümumi sayı 50 nəfərdir. Şirkət əsasən aerofoto çəkilişləri və lazer skanlaşdırma işləri ilə məşğuldur.

Şirkətin həyata keçirdiyi uğurlu layihələr onun beynəlxalq aləmdə kifayət qədər tanınmasına səbəb olmuşdur. Belə ki, "FinMap" şirkəti işlərinin 90%-i Finlandiyadan kənarda reallaşmaqdadır.

Şirkətin illik dövriyyəsinin 50%-ni kadastr işləri, 40%-ni torpaq idarəçiliyi, 10%-ni isə yerli əməliyyatlar təşkil edir. İşlərini ESRİ məhsulları və Microstation proqram təminatı vasitəsilə icra edirlər.

"FinMap" şirkəti Kambocada kadastr layihəsini reallaşdırmışdır. Şirkət tərəfindən 10 min yerli adam layihəyə cəlb edilərək xüsusi təlimatlandırılmış və həmin şəxslərdən istifadə etməklə 2 500 000 parseldə çöl-ölçmə işləri həyata keçirilmişdir.

Layihə zamanı Kambocada bir parsel üçün orta hesabla 10 ABŞ dolları xərclənilmişdir. Buna səbəb parsellər barədə heç bir məlumatın olmadığı göstərilir.

Finlandiyada əmlakın qiymətləndirilməsi sahəsində fəaliyyət göstərən təşkilatlardan biri "NEWSEC" özəl qiymətləndirmə şirkətidir. Şirkət 1994-cü ildə İsveçdə yaradılmışdır. Ümumilikdə 600-dən çox peşəkar işçisi olmaqla 20 ərazi ofisi ilə əhatələnmişdir. [6] Şirkət əsasən fərdi qiymətləndirmə fəaliyyəti ilə məşğuldur. Yerli qiymətləndirmə cəmiyyətinin üzvüdür.

Şirkət Baltik ölkələrində, Finlandiyada, İsveçdə, Norveçdə və Şimalı Avropa ölkələrində daşınmaz əmlakın qiymətləndirilməsi işlərini həyata keçirdir. Həmçinin, daşınmaz əmlak idarəçiliyi və əmlak məsələləri ilə də məşğul olur.

Şirkətin gəlirinin 70%-ni qiymətləndirmə, 30%-ni isə digər xidmətlər formalaşdırır. Əsas sifarişçiləri Bank sektorları, tikinti kompaniyaları və bələdiyyələrdir. Fərdi adamlar nadir hallarda qiymətləndirmə ilə əlaqədar şirkətə müraciət edirlər.

Nəticə

Daşınmaz əmlakın qiymətləndirilməsi sahəsində Finlandiya xeyli inkişaf etmişdir. Finlandiyada torpaqların əmlak vergisinə cəlb edilməsinə 1993-cü ildən başlanılmışdır. Ölkə şəffaf daşınmaz əmlak bazarına malikdir. Qiymətləndirmə sahəsində etibarlı və mükəmməl sistem qurulmuşdur. Hal-hazırda Finlandiyada iki növ, yəni həm fərdi, həm də kütləvi qiymətləndirmə aparılır. Kütləvi qiymətləndirmənin başlıca məqsədi torpaqların əmlak vergisinə cəlb edilməsidir.

ƏDƏBİYYAT

1. Kazımlı X. "Qiymətləndirmənin əsasları". Bakı, İqtisad Universiteti, 2008.
2. Joseph K. Eckert - "Property appraisal and assessment administration". The International Association of Assessing Officers, Chicago, Illinois, USA, 1990 - перевод на русский язык, Москва, Российское Общество оценщиков 1996.
3. http://www.maanmittauslaitos.fi/en <http://www.maanmittauslaitos.fi/en/toiminta>
4. http://maa.aalto.fi/en/ <http://maa.aalto.fi/en/>
5. http://www.finnmap.com/ <http://www.finnmap.com/>
6. http://www.newsec.com/ <http://www.newsec.com/>

Рашад Рафиг оглы Абласанов
диссертант Азербайджанского
Технического Университета

Опыт Финляндии в управлении и оценке имущества

Резюме

На Севере Европы можно заметить Республику Финландия которая достигала значительного успеха во многих сфера, этому служит доказательством системы каторыми она владеет в сфере оброзавания и ИКТ промышленности в сфере управления имущество и во многих других сферах. Это подтверждают различные многочисленные исследования проведенные международными организациями. Республика Финландия располагает совершенными системами управления и оценки имущества. Богатство Финляндии различного рода естественных ресурсов создало условия для создания промышленных предприятий. Для развития предприятиям необходимо проведение работ по оценке огромного их имушества, а их в свою очеред количества необходимо правильно управляеть.

Ключевые слова: оценка, базы данных, система образования, управление имуществом.

Rashad Rafiq Ablasanov
candidate for a degree at
Azerbaijan Technical University

Exprience of Finland in property management and its evalution

Summary

It is possible to see a noticeable development in many areas of situated in the North of Europe Republic of Finland. The systems that country has in ICT, education, industry, property manage-

ment and other areas are an obvious evidence to this. Also, the researches of different type exercised by international organizations with the purpose of determining development level in the world countries confirmed that Republic of Finland is a leading country in many areas. Republic of Finland has a sufficiently perfect system in areas of property management and evaluation of it too. The richness of Finland with ore, hydro, wood and other natural resources created an opportunity for establishment of industry enterprises of particularly big number in this country. Property belonging to enterprises should be managed properly and valuation affairs should be carried out permanently for the enterprises to be continuously developing.

Key words: evaluation, databases, education system, property management.

УОТ 339.9:330.34

Севда Керим кызы МАМЕДОВА
доктор философии по экономике,
АГЭУ, кафедра «Управления бизнесом»

ПИЩЕВАЯ БЕЗОПАСНОСТЬ - КАК СОСТАВЛЯЮЩАЯ ЭКОНОМИЧЕСКОЙ СТАБИЛЬНОСТИ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Резюме

В современном мире, где здоровье становится все более значимой экономической категорией, одним из приоритетов общественного здравоохранения становится пищевая безопасность. Казалось бы, проблема касается, в основном, развивающихся стран, оказалось, что ежегодно до 30 % населения промышленно развитых стран страдает болезнями пищевого происхождения. Это создает колоссальное социальное и экономическое бремя для сообществ и их системам здравоохранения. В свете глобализации актуальность проблемы стоит наиболее остро.

Ключевые слова: безопасность пищевых продуктов, бремя пищевых заболеваний, обеспечение пищевой безопасности.

Введение

Безопасность пищевых продуктов становится одним из приоритетов общественного здравоохранения. Каждый год в результате употребления в пищу небезопасных продуктов по всему миру заболевают и умирают миллионы людей. На сегодняшний день проблема стоит довольно остро, т.к. показатели заболеваемости по этой причине возрастают, а серьезные вспышки подобных болезней за последнее десятилетие констатировались на каждом континенте.

Пищевые заболевания как бремя современной экономики

Пищевые заболевания наносят серьезный урон государственной экономике, здоровому нации развитию, международной торговле, создают колоссальное социальное и экономическое бремя для сообществ и их систем здравоохранения. Отягчающим фактором является то, что последствия пищевых болезней носят более тяжелый характер и чаще приводят к летальному исходу среди детей, больных, беременных женщин и пожилых людей. Подсчитано, что в 3% случаев пищевые болезни могут привести к длительным проблемам со здоровьем.

Нужно отметить, что хотя полная регистрация отсутствует, основное бремя пищевых заболеваний все же лежит на развивающихся странах, Однако развитым странам также не удается полностью избежать подобных трудностей. По имеющимся данным, ежегодно до 30 % населения промышленно развитых стран страдает болезнями пищевого происхождения.

Так, например, по оценкам, в Соединенных Штатах Америки ежегодно происходит около 76 миллионов случаев заболевания болезнями пищевого происхождения, которые приводят к 325 000 случаем госпитализации и 5000 случаем смерти. Более того, вспышки болезней могут принимать крупные размеры. Так, например, в 1994 году в США произошла вспышка сальмонеллеза, причиной которого было зараженное мороженое. [1, с11]

В силу ряда причин актуальность проблемы продолжает расти. Изменение климата может явиться одним из факторов, вызывающих рост заболеваемости некоторыми болезнями пищевого происхождения, т.к. высокие температуры способствуют более быстрому развитию микроорганизмов, что способствует сдвижению географических границ.

Мировая торговля пищевыми продуктами ежегодно возрастает, что способствует усилению риска распространения патогенов за пределы национальных границ, что в свою очередь делает необходимым более глобальный обмен информации по безопасности пищевых продуктов.

Тенденция к росту экспорта продуктов, подвергшихся технологической обработке, и появление новых источников пищевых заболеваний - опасных химических составляющих продуктов - заставляет страны уделять больше внимания разработке санитарных и фитосанитарных мер.

В число других проблем, которым необходимо уделить внимание в целях обеспечения безопасности пищевых продуктов, входят глобализация торговли пищевыми продуктами, урбанизация, изменения в образе жизни, международные поездки, загрязнение окружающей среды, умышленное заражение, а также стихийные бедствия и техногенные катастрофы. Цепь производства пищевых продуктов стала более сложной, а это открывает более широкие возможности для заражения патогенными микроорганизмами и их роста. Многие вспышки болезней пищевого происхождения, которые ранее ограничивались рамками какого-нибудь небольшого сообщества, сейчас могут принимать глобальные масштабы.

Повышается потребность в более тесном сотрудничестве сектора здравоохранения с другими секторами и расширение действий по безопасности пищевых продуктов на национальном и международном уровнях с охватом всей цепи производства пищевых продуктов.

В результате всего вышесказанного было решено внедрить глобальную стратегию по надзору за болезнями пищевого происхождения, включающую также сбор и обмен информаций между странами.Целью стратегии является сокращение медицинского и социального бремени болезней пищевого происхождения.

Основными проблемами в области глобальной безопасности пищевых продуктов являются:

- микробиологические факторы;
- химические загрязнители пищевых продуктов (натуральные токсины, металлы, пестициды, чистящие химические средства, неправильно используемые пищевые добавки и т.д.);
- оценки новых пищевых технологий (таких как генетически модифицированных продуктов); и
- прочные системы безопасности пищевых продуктов во многих странах для обеспечения безопасной глобальной пищевой цепи.

Для регулирования вопросов в сфере безопасности пищевых продуктов приняты два соглашения: соглашение по техническим барьерам в торговле (ТБТ) и Соглашение по применению санитарных и фитосанитарных мер (СФС).

Соглашение СФС предоставляет правительствам право ограничивать торговлю в целях охраны здоровья, однако используемые меры должны быть научно аргументированы. Главная его цель заключается в недопущении препятствий международной торговле из- за введения странами нетарифных барьеров.

Члены организации могут принять собственные меры, для которых не существует международных стандартов, если они повышают уровень защиты здоровья населения, решают проблемы здравоохранения и научно обоснованы. Кроме того, в некоторых случаях, сопряженных с риском для жизни страны могут принять дополнительные временные меры. В этих случаях страны должны быть максимально объективными и пересмотреть меры СФС в течение разумного периода.

Основные направлениями деятельности по обеспечению пищевой безопасности

Основными направлениями деятельности стран, формирующей пищевую безопасность, являются следующие.

- Установление стандартов на состав и качество пищевых продуктов через Комиссию по Кодекс Алиментариус (совместно с Продовольственной и сельскохозяйственной организацией ООН) и их постоянный своевременный пересмотр.
- Улучшение национального эпидемиологического надзора за болезнями пищевого происхождения, а также проведение мониторинга.
- Улучшение возможности для государств-членов своевременного информирования о вспышках болезней пищевого происхождения и случаях заражения продуктов питания, а также обмен информацией через INFOSAN (сеть организаций, ответственных за безопасность пищевых продуктов).
- Разработка методов оценки риска новых пищевых продуктов, а также изучение безопасности новых пищевых технологий, включая продукты, произведенные при использовании биотехнологий.
- Разработка внешней программы гарантии качества, создание справочных служб тестирования и материально-техническое обеспечение лабораторий.
- Обучение и передачи информации о приготовлении и хранении пищевых продуктов.
- Создание системы эффективной передачи информации о рисках, связанных с пищевыми продуктами.
- Расширение международного сотрудничества и помощи в области решения вопросов, связанных с безопасностью пищевых продуктов.

Нужно отметить, что с момента вступления Соглашения СФС в Комитете СФС были рассмотрены более ста специальных вопросов по международной торговле, треть из которых касаются непосредственно безопасности пищевых продуктов. Оставшиеся вопросы, связанные с торговлей, относятся к проблемам здоровья животных и растений и тоже, так или иначе, затрагивают проблему пищевой безопасности.

Соглашение СФС руководствуется стандартами, утвержденными Комиссией Кодекс Алиментариус, которая в 1985 г. резолюцией ООН была определена как Всемирная организация по вопросам контроля качества пищевых продуктов в международной торговле продовольствием [2, с 19].

Стандарты Кодекса Алиментариус облегчают работу стран по оценке рисков и принятия необходимых мер по безопасности. Вместе с тем, в развивающихся странах, где проблемы с пищевой безопасностью выступают наиболее отчетливо, существуют проблемы финансирования, которые мешают проведению экспертиз, мониторинга. В некоторых случаях существующий дефицит средств ставит серьезные преграды на пути к участию в деятельности и установления стандартов Комиссии, а также других форумов по вопросам безопасности пищевых продуктов (ВОЗ, Международная организация по стандартизации).

И хотя, согласно статье 9 СФС развивающимся странам должна быть оказана помощь по обеспечению технической помощью, проблема дефицита все же существует, а вспыхнувший недавно финансовый кризис еще больше усугубил ситуацию.

Особо хочется отметить о безопасности пищевых продуктов, производимых с помощью биотехнологии (генной инженерии). На сегодняшний день основные направления генной инженерии - это повышение устойчивости против насекомых, вирусов и гербицидов.

По поводу ГМО разворачивались многие дискуссии, но самыми обсуждаемыми были аллергенность, перенос гена (из ГМ пищевых продуктов вклетки организма или в бактерии в желудочно-кишечномтракте) и ауткроссинг (перемещение генов из генетически модифицированных растений в обычные культуры или в соответствующие виды в естествен-

ных условиях). Перенос гена особенно вызывает обеспокоенность , если речь идет о генах, резистентных к антибиотикам. Что же касается ауткроссинга, то риск является реальным, как было показано в случае, когда элементы растения типа маиса, которые должны были в качестве корма для скота, появились в продуктах из маиса для потребления человеком в США.

Вообще, системы оценки ГМ пищевых продуктов отличаются от оценок обычных пищевых продуктов. Кроме того, оценка рисков включают не только сами ГМО, но и окружающую среду, куда они были введены.

В ответ на дискуссии, возникающие вокруг ГМО, в течение 1990-х годов регулирующий механизм расширялся и уточнялся.В 2001 г. Европейская комиссия приняла два новых законодательных предложения по ГМО, касающиеся отслеживаемости, усиления действующих правил маркировки и упорядочения процесса разрешения присутствия ГМО в пищевых продуктах и семенах, а также в отношении преднамеренного выброса в окружающую среду. [3, 10.11.2015]

В октябре 2002 г. вступила в силу новая директива, предусматривающая укрепление существующих правил, касающихся процесса оценки риска, учета факторов риска и принятия решений в отношении выброса ГМО в окружающую среду, а также обязательный мониторинг долгосрочного воздействия, связанного с взаимодействием между ГМО и окружающей средой.

Сегодня маркировка для продуктов, содержащих ГМО, в странах ЕС является обязательной. Кроме того, законодательство также охватывает проблем услучайного заражения обычных пищевых продуктов генетически модифицированным материалом. Так, был введен однопроцентный минимальный предел для ДНК или белка,возникающих в результате генетической модификации, нижекоторого не требуется маркировка.

Безопасность пищевых продуктов, содержащих ГМО, регулируется Комиссией Кодекс Алиментариус и Картагенским протоколом по биобезопасности.

Заключение

Ввиду актуальности проблемы, а также глобализации экономики, повышается потребность в более тесном сотрудничестве сектора здравоохранения с другими секторами, а также расширение действий по безопасности пищевых продуктов на национальном и международном уровнях с охватом всей цепи производства пищевых продуктов. В итоге была внедрена глобальная стратегия по надзору за болезнями пищевого происхождения, включающую также сбор и обмен информаций между странами.

ЛИТЕРАТУРА

1. Всемирная организация здравоохранения.Исполнительный комитет: Девяносто первая сессия. Женева, 18 29 января 1993 г. [Текст]: протоколы заседаний / Всемирная организация здравоохранения. Женева, 1994.
2. Что такое Кодекс Алиментариус. Пер. с англ. Understanding Codex Alimentarius, WHO, ФАО., М.: Издательство “Весь Мир”, 2006.
3. 20 вопросов о генетически модифицированных пищевых продуктах [Электронный ресурс]. - Режим доступа: http://cbio.ru/page/46/id/940/ - Дата доступа: 10.11.2015.
4. Валетова Ю. Международные пищевые стандарты Содехалиментариус: правовая природа и роль в гармонизации права. “Международное публичное и частное право”, 2011, № 1.
5. Защита прав потребителей. Документ: A/PEC/39/248. Принят на 39-й сессии Генеральной Ассамблеи ООН, 9 апреля 1985 г. [Электронный ресурс]. - Режим доступа: www.un.org/russian/ga/39/docs/res39_5

Sevda Kərim qızı Məmmədova
i.f.d., ADİU

Qloballaşma şəraitində qida təhlükəsizliyi iqtisadi sabitliyin əsas komponenti kimi

Xülasə

Müasir dünyada sağlamlıq getdikcə daha əhəmiyyətli iqtisadi kateqoriyaya çevrilir və qida təhlükəsizliyi ictimai səhiyyənin prioritet mövzularından biridir. Dünya üzrə inkişaf etmiş ölkə əhalisinin 30%-i, qida mənşəli xəstəliklərdən əziyyət çəkir və bu, istər dünya iqtisadiyyatı, istərsə də milli iqtisadiyyatın səhiyyə sistemi üçün sosial və iqtisadi yükə çevrilir. Bu isə, qloballaşan dünyanın ən aktual problemlərindən biri kimi ortaya çıxır və bü gün iqtisadçılar tərəfindən ən çox tədqiq edilən mövzulardan biri kimi qalır.

Açar sözlər: qida məhsullarının təhlükəsizliyi, ərzaq xəstəliklərinin yükü, ərzaq təhlükəsizliyinin təminatı.

Sevda Karim Mammadova,
the doctor of philosophy on economic sciences,
Azerbaijan State University of Economics

Food security as a somponent of economic stability in the context of globalizition

Summary

In the modern world where health becomes more and more significant economic category, food safety becomes one of priorities of public health care. And, though, apparently, the problem concerns, generally developing countries, it appeared that annually to 30% of the population of industrialized countries has diseases of a food origin. It creates enormous social and economic burden for communities and their health systems. In the light of globalization relevance of a problem appears most sharply.

Key words: safety of foodstuff, burden of food diseases, ensuring food safety.

Çapa imzalanmışdır: 10.03.2016
Format: 60x84, 1/8
Fiziki çap vərəqi: 25
Tirajı: 300 nüsxə

Jurnal Azərbaycan Kooperasiya Universitetinin
nəşriyyat-poliqrafiya şöbəsində yığılıb səhifələnmiş
və mətbəəsində çap edilmişdir.

Ünvan: Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi 93.